# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## ALTMIŞINCI KİTAB

## OKTYABR 2013 - DEKABR 2013

**AZƏRNƏŞR**
**BAKI - 2018**

İLHAM
ƏLİYEV

# ÇIXIŞLAR * NİTQLƏR

# BƏYANATLAR * MÜSAHİBƏLƏR

# MƏKTUBLAR * MƏRUZƏLƏR

# MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində III Bakı Beynəlxalq Humanitar Forumunda, həmçinin «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş dünyanın nüfuzlu ictimai-siyasi və dövlət xadimləri ilə, beynəlxalq qurumların, şirkət və konsorsiumların rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar yer almışdır. Dövlətimizin başçısı mərasimdə vurğuladı ki, «Şahdəniz-2» layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə, Trans–Anadolu və Trans–Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək.

Kitabda Prezidentin Belarus, Türkiyə, Ukrayna, Avstriya və Litva respublikalarına rəsmi və işgüzar səfərləri, həmçinin Belarus Respublikası Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqlarından, bağlanan müqavilələrdən bəhs olunur.

Bu cilddə, həmçinin dövlət başçısının bölgələrə səfərlərinə, ictimaiyyətin nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*Minsk*

*25 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Belarusun paytaxtı Minsk şəhərində MDB Dövlət Başçıları Şurasının növbəti iclasında iştirak etmişdir.*

*Belarus prezidenti Aleksandr Lukaşenko Azərbaycan prezidenti İlham Əliyevi Müstəqillik sarayında qarşıladı. Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident Aleksandr Lukaşenko MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarusa gələn digər dövlət başçılarını da qarşıladı.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.*

*İclasın iştirakçılarını salamlayan Belarus prezidenti Aleksandr Lukaşenko dövlət və hökumət başçılarının bu tədbirdə iştirakını yüksək qiymətləndirdi.*

*İclas iştirakçıları adından İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edən Aleksandr Lukaşenko dedi:*

– İcazə verin – elə bilirəm ki, ümumi rəyi ifadə edəcəyəm – iclasımıza başlamazdan əvvəl hamımızın adından hörmətli İlham Heydər oğlu Əliyevi seçkilərdə çox inamlı qələbə qazanması münasibətilə təbrik edək, ona Azərbaycan Respublikasının və xalqının tərəqqisi naminə ali dövləti vəzifəsində yeni uğurlar arzulayaq.

*İclasda iştirak edən dövlət başçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə gül dəstəsi təqdim edildi.*

*Sonra Aleksandr Lukaşenko MDB Dövlət Başçıları Şurasının iclasını açıq elan etdi və sözü MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedevə verdi.*

*İclasın gündəliyi və reqlamenti barədə məlumat verən Sergey Lebedev bildirdi ki, gündəlikdə 14 məsələnin müzakirəsi nəzərdə tutulmuşdur. Bunlar 2015-ci ilin MDB-də «1941–1945-ci illər Böyük Vətən müharibəsi veteranları ili» elan edilməsi, sovet xalqının Böyük Vətən müharibəsində Qələbəsi münasibətilə vahid yubiley mükafatlarının təsis olunması, MDB-də sədrlik məsələsi, Dövlət Başçıları Şurasının növbəti görüşünün vaxtı, yeri və digər məsələlərdir.*

*İclasın gündəliyi təsdiq olunduqdan sonra Belarus prezidenti Aleksandr Lukaşenko birlik çərçivəsində qarşılıqlı əməkdaşlıq üzrə aktual məsələlərlə bağlı çıxış edərək dedi:*

– Bu gün biz Müstəqil Dövlətlər Birliyinin mənzil-qərargahının yerləşdiyi və ənənəvi irimiqyaslı qərarların qəbul olunduğu Minsk şəhərində toplaşmışıq. Sədrlik çərçivəsində Belarus öz səylərini «İnsan naminə inteqrasiya» şüarına müvafiq olan məsələlərin həllinə yönəldib. Bundan çıxış edərək hamımız tərəfindən təhlükəsizlik, ekologiya, yaşıl texnologiyalar, regionlararası sərhədyanı əməkdaşlığın genişləndirilməsi, mədəni dialoq sahələrində bir sıra tədbirlər və təşəbbüslər uğurla həyata keçirilib. İqtisadi tərəfdaşlıq mövzusu fəaliyyətin əsas istiqamətini təşkil edib. Bu il biz azad ticarət xidmətləri zonası müqavilə layihəsi üzrə fəal danışıqlara başlamışıq.

*«İndi isə MDB çərçivəsində qarşılıqlı iqtisadi əməkdaşlığın genişləndirilməsi üzrə əlavə tədbirlərin görülməsinin vaxtı çatıb» – deyən Aleksandr Lukaşenko Birliyə üzv dövlətlərin 3 istiqamət üzrə əməkdaşlığı daha da gücləndirməsinin vacibliyini vurğuladı. Bu sahələr MDB ölkələrinin beynəlxalq arenada əlaqələndirilmə məsələsinin gücləndirilməsini, regional səviyyədə işin fəallaşdırılmasını və gənclər arasında birliyin təbliğini nəzərdə tutur.*

**İlham Əliyev:** Hörmətli Aleksandr Qriqoryeviç, çıxışımın əvvəlində Sizin səmimi sözlərinizə və təbriklərinizə

görə təşəkkürümü bildirmək istərdim. Bu bir qədər gözlənilməz oldu. Yenidən Azərbaycan Prezidenti vəzifəsinə seçilməyim münasibətilə məni təbrik etmiş bütün həmkarlarıma, dövlət başçılarına təşəkkür etmək istərdim. Deməliyəm ki, ölkələrimiz arasında əməkdaşlıq mənim fəaliyyətimdə birinci dərəcəli əhəmiyyət kəsb edəcəkdir. Bizim xalqlarımızı müştərək tarix, ümumi keçmiş, qəhrəmanlıq keçmişi, faşizmə qarşı birgə mübarizə birləşdirir. Bu gün bizi iqtisadi və siyasi maraqlar birləşdirir. MDB çərçivəsində əməkdaşlıq Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Təbii ki, Birlikdə inteqrasiya prosesləri çərçivəsində Azərbaycan həmişə prinsipial mövqe tutmuşdur. Bu mövqe əməkdaşlığın möhkəmlənməsinə, çoxtərəfli və ikitərəfli münasibətlərin inkişafına istiqamətlənmişdir.

Bir neçə gündən sonra Bakıda III Beynəlxalq Humanitar Forum keçiriləcək. Rusiyanın və Azərbaycanın birgə təşəbbüsü ilə keçirilən bu ənənəvi Forum qısa müddətdə humanitar əməkdaşlıq, mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsi üçün çox mühüm bir məkana çevrilmişdir. Fürsətdən istifadə edib MDB ölkələrinin nümayəndələrinə əvvəlki forumlarda fəal iştirak etdiklərinə görə bir daha təşəkkürümü bildirmək istərdim. Ümidvaram ki, ziyalılar, elmi ictimaiyyətin nümayəndələri bu Forumda da fəal iştirak edəcəklər. Bu bizim əməkdaşlığın əsasını təşkil edən humanitar sahədə əlaqələrin möhkəmləndirilməsi çərçivəsində siyasətimizə uyğundur. Humanitar sahə ölkələrimiz arasında münasibətləri möhkəmləndirən sahədir və elə etmək lazımdır ki, bizim vətəndaşların artıq müstəqillik şəraitində doğulmuş və formalaşmış gələcək nəsilləri də xalqlarımızı və ölkələrimizi bir-birinə bağlayan bütün müsbət dəyərləri qiymətləndirsinlər, öz əməkləri ilə münasibətlərimizin inkişafına töhfə versinlər.

Biz iqtisadi kooperasiya, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlərə də böyük əhəmiyyət veririk. MDB ölkələrinin çoxu ilə Azərbaycanın əmtəə dövriyyəsi ildən-ilə genişlənir, onun strukturu yaxşılaşır. Başqa sözlə desək, bizim münasibətlərimizin əsası

olan humanitar əməkdaşlıq iqtisadi sahədə də fəal qarşılıqlı əlaqəyə şərait yaradır.

İclasımızın gündəliyi cinayətkarlığa, terrorizmə qarşı mübarizə ilə bağlı olan məsələləri əhatə edir. Bu məsələlər də bizim üçün vacibdir və bütövlükdə dünya birliyi tərəfindən vahid mövqedən qəbul edilməlidir. Ona görə ki, bu gün cinayətkarlığa və terrorizmə qarşı mübarizə sahəsində fəal əməkdaşlıq olmasa, heç bir ölkə öz təhlükəsizliyini tamamilə və ya 100 faiz təmin edə bilməz. Vətəndaşlarımızın təhlükəsiz gələcəyini təmin etmək üçün bizim dövlətlərin müvafiq xidmətləri arasında əlaqələndirməni və birgə fəaliyyəti gücləndirmək lazımdır.

Gündəlikdəki digər mövzularla bağlı məsələlər barəsində, yəni 2014-cü ilin «Turizm ili», 2015-ci ilin «Böyük Vətən müharibəsi veteranları ili» elan edilməsi məsələlərində biz Birliyin üzvü olan ölkələrin mövqeyinə tamamilə şərikik. Bunlar çox mühüm sahələrdir. Təbii ki, Azərbaycan öz tərəfindən bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi işinə imkan daxilində öz töhfələrini verməyə çalışacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

*Daha sonra çıxış edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev Birlik çərçivəsində xalqlarımız arasında münasibətlərin daha da yaxınlaşması məsələsinin prioritet olduğunu bildirdi, 2014-cü ildə Ukraynanın MDB-yə sədrliyini dəstəklədiyini vurğuladı.*

*Qırğız Respublikası Baş nazirinin müavini Comart Otorbayev ölkəsinin Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi ilə bağlı tədbirlərə böyük əhəmiyyət verdiyini dedi, bu sahədə tədbirlərin görülməsinin vacibliyinə toxundu.*

*Moldova prezidenti Nikolae Timofti ölkələrimizin və xalqlarımızın maraqları çərçivəsində əməkdaşlığın bundan sonra da möhkəmləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Rusiya prezidenti Vladimir Putin çıxışında iqtisadi sahədə tədbirlərə prioritet yanaşmanın vacibliyini diqqətə çatdırdı. O, dün-*

*ya iqtisadiyyatında baş verən proseslərə toxunaraq qlobal böhranla bağlı ölkələrimiz arasında inteqrasiya əlaqələrinin inkişafının, təhlükəsiz işgüzar mühitin formaladırılmasının vacibliyini bildirdi. Hüquq-mühafizə sahəsində qarşılıqlı fəaliyyətin gücləndirilməsinin zəruriliyini bildirən Vladimir Putin bu ilin «Ətraf mühitin mühafizəsi ili», gələn ilin isə «Turizm ili» elan olunacağını diqqətə çatdırdı, 2020-ci ilədək turizm sahəsində əməkdaşlıq strategiyasının nəzərdən keçirildiyini vurğuladı.*

**Vladimir Putin:** MDB ölkələri nadir mədəni-tarixi və təbii ehtiyatların müxtəlifliyinə malikdir. Onların daha əlyetərli olmasını təmin etmək, regional nəqliyyat infrastrukturunu inkişaf etdirmək, müştərək obyektlər yaradılmasına sərmayə qoymaq vacibdir. Məsələn, Belarus ilə Rusiya arasında 2012-ci ildən fəaliyyət göstərən yaxşı bir layihə vardır. Həmin layihəyə əsasən, MDB məkanında ən iri – Dnepr çayı boyunca 220 kilometr uzunluğunda su turizm marşrutu formalaşdırılır. Ukrayna və Azərbaycan ilə Rusiya arasında da buna bənzər layihələr üzərində işləyirik. Bu yaxınlarda Azərbaycanda oldum, Bakının necə inkişaf etdiyini görüb çox məmnun qaldım. Biz şəhərin mərkəzi hissəsində gəzdik, bura həqiqətən, çox heyrətamizdir. Əminəm ki, əgər insanlar bizim ölkələrdə baş verənlərdən xəbərdar olsalar, qarşılıqlı maraq daim artacaq.

*Tacikistan prezidenti Emoməli Rəhmon ölkəsinin MDB-ni vacib regional mexanizm kimi nəzərdən keçirməkdə davam etdiyini, Qazaxıstanın Almatı və Qırğızıstanın Oş şəhərlərində Birliyin mədəni paytaxtı çərçivəsində tədbirlərin keçirilməsinin əhəmiyyətli olduğunu bildirdi.*

*Türkmənistanın Nazirlər Soveti Sədrinin müavini Annamuhammed Qoçiyev ölkəsinin MDB-nin fəal üzvü kimi, Birlik çərçivəsində həm ikitərəfli, həm çoxtərəfli formatda əməkdaşlığa böyük əhəmiyyət verdiyini diqqətə çatdırdı.*

*Özbəkistan prezidenti İslam Kərimov MDB-nin perspektivləri barədə danışdı, bu qurumun ölkələrimiz və xalqlarımız arasında əlaqələrin qorunub saxlanılmasında əhəmiyyətli olduğunu bildirdi.*

*Ukrayna prezidenti Viktor Yanukoviç dedi ki, ölkəsi 2014-cü ilin «Turizm ili», 2015-ci ilin isə «1941–1945-ci illər Böyük Vətən müharibəsi veteranları ili» elan edilməsi təklifini dəstəkləyir.*

*Belarus prezidenti Aleksandr Lukaşenko da Böyük Vətən müharibəsində göstərilən qəhrəmanlıq nümunələrinin gənclər arasında təbliğ edilməsinin vacibliyini vurğuladı, Böyük Qələbənin təbliğinin gələcək nəslin tərbiyəsində xüsusi əhəmiyyətə malik olduğunu bildirdi.*

* * *

*Daha sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə görüşü oldu. Bundan əvvəlki görüşdə məhdud tərkibdə bir sıra məsələlər ətrafında fikir mübadiləsinin aparıldığını deyən Aleksandr Lukaşenko əsas müzakirə mövzularının nəqliyyat, energetika, kosmos, nanotexnologiyalar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı olduğunu bildirdi.*

*2014-cü ildə MDB-yə Ukraynanın sədrlik edəcəyini deyən prezident Viktor Yanukoviç bu müddətdə MDB çərçivəsində həyata keçiriləcək layihələrdən danışdı. Viktor Yanukoviç MDB Dövlət Başçıları Şurasının növbəti iclasının 2014-cü ilin oktyabrında Kiyevdə keçirilməsi barədə təkliflə çıxış etdi.*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən dövlət və hökumət başçıları sənədlər paketini imzaladılar.*

*Sənədlərin imzalanmasından sonra MDB ölkələrinin dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri Müstəqillik sarayının Fəxri qonaqlar xiyabanının təməlqoyma mərasimində iştirak etdilər.*

*Daha sonra MDB Dövlət Başçıları Şurasının Sədri, Belarus prezidenti Aleksandr Lukaşenkonun adından MDB Dövlət Başçıları Şurası iclasının iştirakçılarının şərəfinə nahar verildi.*

*MDB Dövlət Başçıları Şurasının iclası oktyabrın 25-də öz işini yekunlaşdırdı.*

## Səfər başa çatdı

*MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına səfəri oktyabrın 25-də başa çatdı.*

*Minsk şəhərinin Milli Aeroportunda Azərbaycan Prezidentini Belarusun yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortu qəbul etmişdir.*

*Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefort yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİ VƏ AVROPA OLİMPİYA KOMİTƏSİNİN İCRAEDİCİ KOMİTƏSİNİN ÜZVÜ SPİROS KAPRALOS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini və Avropa Olimpiya Komitəsinin icraedici komitəsinin üzvü Spiros Kapralosu qəbul etmişdir.*

*Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, ölkəmizdə sürətli iqtisadi inkişaf proseslərinin, idman infrastrukturunun daha da genişləndirilməsi istiqamətində böyük işlərin görüldüyünün şahidi olduğunu məmnunluqla qeyd etdi.*

*Görüşdə Azərbaycanda idmanın müxtəlif sahələrinin inkişaf etdirilməsi ilə bağlı görülən işlərin önəmi vurğulandı, 2015-ci ildə Bakıda keçiriləcək I Avropa oyunlarına hazırlıq işləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ

Hörmətli cənab Marqvelaşvili!

Gürcüstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstan arasında tarixən təşəkkül tapmış mehriban qonşuluq və dostluq münasibətlərinin genişlənməsi və əməkdaşlığımızın hərtərəfli inkişafı məmnunluq doğurur.

Əminəm ki, ölkələrimiz arasındakı bu ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri, strateji tərəfdaşlığımız və çoxşaxəli əməkdaşlığımız xalqlarımızın və ölkələrimizin rifahı, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da hərtərəfli inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2013-cü il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Əlcəzair dostluğu və əməkdaşlığının inkişafı yolunda addımlarımız bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 oktyabr 2013-cü il*

# BRAZİLİYA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ, DEPUTATLAR PALATASININ MÜVƏKKİLİ KLAUDİO KAJADO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Braziliya–Azərbaycan dostluq qrupunun sədri, Deputatlar Palatasının müvəkkili Klaudio Kajadonu qəbul etmişdir.*

*Yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Klaudio Kajado oktyabrın 9-da Azərbaycan xalqının müdrik seçim etdiyini vurğuladı. Braziliyalı qonaq iştirak edəcəkləri III Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini qeyd etdi. Nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini deyən Klaudio Kajado yeni yaradılan Braziliya–Azərbaycan dostluq qrupunun fəaliyyətinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Braziliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən prezident İlham Əliyev bu yaxınlarda Braziliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini təqdim etməsinin əhəmiyyətini qeyd etdi.*

*Prezident İlham Əliyev Braziliya–Azərbaycan parlamentlərarası dostluq qrupunun yaradılmasını ölkələrimiz arasında əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. III Bakı Beynəlxalq Humanitar Forumunun önəmini vurğulayan prezident İlham Əliyev Forum çərçivəsində keçiriləcək görüşlərin ölkələrarası əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

## BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bolqarıstan Respublikasının sabiq prezidenti Georgi Pırvanovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bolqarıstanın sabiq prezidenti Georgi Pırvanovun III Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının önəmini qeyd etdi. Forumun artıq ənənəvi olaraq hər il keçirildiyini vurğulayan prezident İlham Əliyev tədbirə beynəlxalq marağın ildən-ilə artdığını dedi. Azərbaycan Prezidenti III Bakı Beynəlxalq Humanitar Forumunda əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısını prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə təbrik edən Bolqarıstanın sabiq prezidenti Georgi Pırvanov bu qələbəni Azərbaycan xalqının İlham Əliyevin həyata keçirdiyi siyasətə verdiyi dəstəyin göstəricisi kimi dəyərləndirdi. O bundan sonra da Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin fəal və səmərəli şəkildə davam etdiriləcəyinə əminliyini vurğuladı. Georgi Pırvanov III Bakı Beynəlxalq Humanitar Forumunda yenidən iştirakından məmnunluğunu bildirdi.*

*Xoş sözlərə görə təşəkkürünü bildirən prezident İlham Əliyev Georgi Pırvanovun ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi töhfəni xüsusi qeyd etdi. Özünün Bolqarıstana, Georgi Pırvanovun isə Azərbaycana səfərlərini məmnunluqla xatırladan dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və tərəfdaşlıq əlaqələrinin yeni formatının yaradılmasında bu səfərlərin önəmini vurğuladı və münasibətlərimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğunu dedi.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiçi qəbul etmişdir.*

*Xorvatiyanın sabiq prezidenti Stepan Mesiç yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, son illər ölkələrimiz arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini dedi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı, Xorvatiyadan olan şirkətlərin Azərbaycandakı fəaliyyətinin əməkdaşlığımızın genişləndirilməsi baxımından önəmini qeyd etdi.*

*Görüşdə III Bakı Beynəlxalq Humanitar Forumunun xalqlararası əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.*

## III BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 31-də Heydər Əliyev Mərkəzində öz işinə başlayan III Bakı Beynəlxalq Humanitar Forumun açılışı mərasimində iştirak etmişlər.*

*Bakı Beynəlxalq Humanitar Forumu aktual humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda təşkil olunmuş Humanitar Əməkdaşlıq üzrə I Azərbaycan–Rusiya Forumunda qəbul edilmişdir.*

*Forumun həmsədrləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putindir.*

*III Bakı Beynəlxalq Humanitar Forumunda dünyanın müxtəlif ölkələrindən çoxsaylı nümayəndələr iştirak edir. Onlar arasında nüfuzlu ictimai-siyasi xadimlər, sabiq dövlət başçıları, Nobel mükafatı laureatları və digər şəxslər vardır. 2 gün ərzində Forumda 8 sahə üzrə «dəyirmi masa»lar təşkil ediləcəkdir. Humanitar Forumda «Texnologiyaların konvergensiyası və gələcəyin konturları: XXI əsrin əsas çağırışları», «İqtisadi inkişafın humanitar aspektləri», «Elmi innovasiyalar və onların təhsil mühitinə transferi», «Multikulturalizm və özgünlük: cəmiyyətdə dəyər konsensusu axtarışında», «Postmodern*

*dövründə milli özünüdərk», «Davamlı inkişaf və ekoloji sivilizasiya», «Molekulyar biologiya və biotexnologiyanın nailiyyətləri: nəzəriyyədən təcrübəyə», «Qloballaşan informasiya məkanında medianın aktual məsələləri» mövzularında «dəyirmi masa»lar keçiriləcəkdir.*

*Dövlətimizin başçısı Forumun açılışı mərasimində nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram, bütün qonaqlara «Xoş gəlmisiniz!» – deyirəm.

Bu gün III Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Bu, gözəl hadisədir, ölkəmizin həyatında çox əlamətdar bir hadisədir. Qeyd etməliyəm ki, bu Forum gözəl ənənəyə çevrilibdir. Xatırlayıram, keçən il II Forumun açılışında çıxış edərkən demişdim ki, ümid edirəm III, IV, V forumlar da keçiriləcək və görürəm ki, bu reallıqdır. Bu onu göstərir ki, beynəlxalq əməkdaşlıq məsələlərinə çox böyük diqqət göstərilir. Bu məsələlər daim diqqət mərkəzində olmalıdır. Çünki humanitar məsələlər, humanitar əməkdaşlıq xalqları, ölkələri birləşdirən amillərdir.

Forumun işinə çox böyük maraq vardır. 70 ölkədən 800-ə yaxın qonaq iştirak edir. Demək olar ki, dünya birliyinin böyük bir hissəsinin intellektual elitası bu gün bizim qonağımızdır.

Azərbaycanda humanitar əməkdaşlığa bütün dövrlərdə böyük diqqət göstərilmişdir. Bu daim diqqət mərkəzində olan bir məsələdir. Hesab edirəm ki, ölkəmizdə bu sahədə artıq gözəl təcrübə də toplanıbdır.

Bu gün Bakıda siyasi, iqtisadi, enerji məsələləri ilə yanaşı, humanitar məsələlər də yüksək səviyyədə müzakirə edilir. Qeyd etməliyəm ki, Azərbaycanda son illər ərzində müxtəlif mövzularla bağlı mötəbər beynəlxalq tədbirlər, sammitlər,

beynəlxalq konfranslar keçirilir. Bakı bir növ beynəlxalq əməkdaşlığın mərkəzlərindən birinə çevrilmişdir. Bu il Cənubi Qafqazda və Mərkəzi Asiyada ilk dəfə olaraq Bakıda Davos Dünya İqtisadi Forumu, Madrid Klubunun toplantısı keçirilmişdir. Artıq 2 dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bakı Beynəlxalq Humanitar Forumunun da bu sırada öz yeri vardır. Əminəm ki, Forum çərçivəsində aparılacaq diskussiyalar, fikir mübadiləsi beynəlxalq humanitar əməkdaşlığa öz töhfəsini verəcəkdir.

Belə tədbirlərin Azərbaycanda keçirilməsi yəqin ki, təbiidir. Çünki bütün dövrlərdə Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri sülh, əmin-amanlıq, qardaşlıq şəraitində yaşamışlar. Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur.

Bu gün Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyət mövcuddur. Bu bizim böyük sərvətimiz, böyük dəyərimizdir. Biz bu sərvəti qoruyuruq və qoruyacağıq. Bütün xalqların, bütün dinlərin nümayəndələrinin tarixi abidələri qorunur, bərpa edilir. Azərbaycanda qədim zərdüştlük məbədi bərpa edilmişdir. Qafqazın ən qədim kilsəsi də Azərbaycanda yerləşir. O da əsaslı şəkildə bərpa edilibdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi əsaslı təmir edilibdir. Bu məscidin 1270 yaşı vardır. Yəni bütün dinlərin abidələrinin bərpası, qorunması dövlət siyasətidir. Əlbəttə ki, Azərbaycanda toplanmış bu gözəl tarixi təcrübə bu gün müasir şəraitdə özünü büruzə verir. Vətəndaş cəmiyyətinin formalaşması, millətlərarası münasibətlərin müsbət istiqamətdə inkişafı hesab edirəm ki, bizim böyük nailiyyətimizdir.

Bir daha qeyd etmək istəyirəm, təsadüfi deyil ki, humanitar əməkdaşlıqla bağlı məsələlər Bakıda müzakirə edilir. Əminəm ki, Forumun gözəl gələcəyi olacaqdır və bu beynəlxalq əməkdaşlıq platforması dünyada gedən pozitiv proseslərə müsbət təsirini göstərəcəkdir.

Forumun çox geniş gündəliyi var, çox maraqlı mövzular müzakirə ediləcəkdir. Ancaq mənə verilən məlumata görə, ən böyük maraq doğuran bölmə, «dəyirmi masa» multikulturalizmlə bağlı olan məsələlərdir. Deyə bilərəm ki, Forumun mərkəzində məhz bu mövzu yerləşir. Çünki bu mövzu daim diqqət tələb edir və bu mövzu ilə bağlı dünyada müxtəlif fikirlər vardır. Əlbəttə, müsbət təcrübə də, mənfi təcrübə də var. Hesab edirəm ki, bizim hamımızın işi ondan ibarət olmalıdır ki, multikulturalizmin müsbət tərəfini qeyd edək, onları təbliğ edək və dünyada bu mövzu ilə bağlı mövcud olan ayrı-seçkiliyi aradan götürək.

Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Qeyd etməliyəm ki, artıq tarixi keçmişimiz də bunu diktə edir. Eyni zamanda, multikulturalizm Azərbaycanda həyat tərzidir. Biz gündəlik həyatımızda bu prinsiplər əsasında fəaliyyət göstəririk. Bu prinsiplər cəmiyyətin mütləq əksəriyyəti tərəfindən dəstəklənir, müdafiə edilir.

XXI əsrdə multikulturalizmə alternativ yoxdur. Əlbəttə ki, biz XXI əsrdə ayrı-seçkilik, diskriminasiya, ksenofobiya, islamofobiya kimi xoşagəlməz meyillərə biganə yanaşa bilmərik. Ona görə multimədəniyyətli cəmiyyətlərin formalaşması, bu ideyaların təbliği hesab edirəm ki, hər bir məsuliyyətli siyasətçinin, ictimai xadimin fəaliyyətinin tərkib hissəsi olmalıdır. Əfsuslar olsun, bəzi hallarda biz başqa fikirləri də eşidirik ki, multikulturalizmin gələcəyi yoxdur. Bəzi ölkələrdə bu məsələ ilə bağlı çox bədbin əhval-ruhiyyə hökm sürür. Hesab edirəm ki, biz dünyada müsbət təcrübə üzərində öz təhlilimizi aparmalıyıq və müsbət təcrübəni təbliğ etməliyik. Çünki dünyada multikulturalizmin bir çox ünvanları vardır. Dünyanın əksər ölkələrində çoxmillətli cəmiyyətlər mövcuddur və müxtəlif dinlərin, müxtəlif xalqların birgə yaşaması zəmanənin tələbidir. Yəni bəşəriyyət bu istiqamətdə inkişaf edir. Bu gün ümumbəşəri dəyərlər hər bir normal cəmiyyətin əsasını təşkil edir. Belə olan halda multikulturalizmlə bağlı problemlər, əlbəttə ki, açıq şəkildə müzakirə edilməlidir. Biz bu problemləri gizlətməməliyik, ört-

basdır etməməliyik. Onlar açıq şəkildə müzakirə edilməlidir, müsbət, mənfi təcrübələr təhlil olunmalıdır. Bir daha demək istəyirəm, bizim əsas amalımız ondan ibarət olmalıdır ki, multimədəniyyətli cəmiyyətlərin inkişafı üçün öz töhfəmizi verək. Deyə bilərəm ki, Azərbaycanda bu istiqamətdə toplanan təcrübə müsbət təcrübədir. Qeyd etdiyim kimi, bu bizim dövlət siyasətimizdir, həyat tərzimizdir.

Humanitar Forumun məhz Bakıda keçirilməsi hesab edirəm ki, bu təcrübənin müsbət tərəflərinin qiymətləndirilməsidir. Bununla bərabər, deyə bilərəm ki, əfsuslar olsun, Azərbaycan humanitar fəlakətlə də üzləşmişdir. Uzun illərdir ki, bizim beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımız işğal altındadır. Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 bölgə erməni işğalçı qüvvələrinin işğalı altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə salınmışdır. Torpaqlarımızın 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə bütün mədəni sərvətimiz, tarixi, dini abidələrimiz dağıdılıbdır.

Beynəlxalq təşkilatlar, xüsusilə ATƏT işğal edilmiş bölgələrə 2 dəfə faktaraşdırıcı missiyalar göndərmişdir və onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey dağıdılıbdır. Beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz prinsipial mövqeyini sənədlərdə əks etdirmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxarılmasını tələb edir. Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu qərarlar, qətnamələr icra edilmir. Burada biz beynəlxalq təşkilatların səmərəliliyindən söhbət açmalıyıq. Onların qəbul etdiyi qərarlar kağızda qalır, icra edilmir. Əlbəttə, bu dözülməz bir faktdır. Bəzi hallarda beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr saatlar içərisində icra edilir. Bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır.

Məsələ ilə bağlı danışıqlar aparılır və əlbəttə, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa

edilməlidir. 1 milyondan artıq qaçqın və köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu onların fundamental hüquqlarıdır. Bu münaqişə insan haqlarının kobudcasına pozulması deməkdir. 1 milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağına qayıda bilmir. Bu çox böyük humanitar fəlakət ölkəmizin ümumi inkişafına çox böyük zərbə vurmuşdur.

Azərbaycanın bugünkü inkişafı diqqəti daha çox cəlb edir. Çünki bu inkişafı biz torpaqlarımızın bir hissəsi işğal edilmiş vəziyyətdə əldə edə bilmişik. Forumun mövzularından biri iqtisadi inkişafın humanitar aspektləridir. Hesab edirəm ki, bu çox maraqlı mövzudur. Yenə də Azərbaycanın təcrübəsi burada hesab edirəm ki, maraqlı ola bilər. Baxmayaraq ki, biz etnik təmizləməyə məruz qalmışıq və torpaqlarımız işğal altındadır, 1 milyondan artıq qaçqın, köçkün vardır və dövlət onlara maliyyə yardımı, qayğı göstərir. Bizim iqtisadi inkişafımız son 10 il ərzində dünya miqyasında ən sürətli inkişaf olmuşdur. Son 10 il ərzində aparılan islahatlar nəticəsində ölkə iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu əgər belə demək mümkündürsə, dünya rekordudur. Eyni zamanda, Azərbaycanda sosial məsələlərin həllinə də böyük diqqət göstərilmişdir. Çünki köklü iqtisadi islahatlar aparılarkən bir çox hallarda insanların yaşayış səviyyəsi aşağı düşür. Azərbaycan son 20 il ərzində transformasiya dövrünü yaşamış bir ölkə kimi, əlbəttə ki, bu risklərdən də özünü qorumalı idi. Çünki bizim müstəqilliyimizin cəmi 22 yaşı vardır və 22 il ərzində biz müstəqil, azad ölkə kimi fəaliyyət göstəririk. Cəmi 20 ildir ki, Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur. Biz nəinki müstəqil deyildik, eyni zamanda, Sovet İttifaqında mövcud olan iqtisadi sistem də, əlbəttə ki, səmərəli fəaliyyət göstərə bilməzdi. Ona görə bizim üçün transformasiya 2 istiqamətdə gedirdi. İlk növbədə, biz dövlətçiliyin əsaslarını qoymalı, möhkəmləndirməli idik, bütün demokratik təsisatlar qurulmalı idi, Azərbaycan dünya birliyinə inteqrasiya etməli idi. İqtisadi sahədə köklü islahatlar aparılmalı idi, çünki bunsuz inkişafımız mümkün olmazdı.

Əlbəttə, bu islahatların aparılması bir çox hallarda insanların yaşayış səviyyəsinə mənfi təsir göstərə bilərdi. Ancaq bizim siyasətimiz və ciddi sosial siyasət ona gətirib çıxardı ki, sürətli iqtisadi inkişaf insanların rifah halına da müsbət təsir göstərdi. Bunu sübut etmək üçün mən bir neçə rəqəmi misal gətirmək istəyirəm. Qeyd etdiyim kimi, iqtisadiyyat 10 ildə 3,4 dəfə artmışdır. Büdcə gəlirləri 20 dəfə, maaşlar təxminən 6 dəfə, pensiyalar 9 dəfə artmışdır.

10 il bundan əvvəl Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faiz idi. Aparılmış islahatlar nəticəsində bu gün cəmi 5,5 faizdir. 10 ildə Azərbaycanda 1 milyon 200 min iş yeri açılmışdır. Hazırda Azərbaycanda işsizlik 4,8 faizdir.

Bütün bu məsələlər, əlbəttə ki, iqtisadi islahatların nəticəsidir. Bütün bu məsələlərin, bilavasitə humanitar sahəyə dəxli vardır. Çünki Azərbaycan siyasətinin təməlində və mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, təhlükəsizliyi və rifahı dayanır. Ciddi və məqsədyönlü sosial siyasət bizə imkan verdi ki, ölkə inkişaf etsin və insanların rifah halı yaxşılaşsın.

İqtisadi sahədə bizim əsas hədəfimiz qeyri-neft iqtisadiyyatını artırmaq idi. Bu gün biz buna nail ola bilmişik. Bizim ümumi daxili məhsulumuzda qeyri-neft sektoru üstünlük təşkil edir. Davos Dünya İqtisadi Forumunun reytinqinə əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 39-cu yerdədir. Razılaşın ki, cəmi 20 il bazar iqtisadiyyatı prinsipi əsasında yaşayan ölkə üçün bu nailiyyət hesab edirəm tarixi nailiyyətdir.

İqtisadi inkişafın sosial və humanitar aspektləri hər bir ölkənin inkişafı üçün çox böyük maraq doğuran məsələ olmalıdır. Bu məsələ ilə bağlı nəinki müzakirələr, hesab edirəm ki, tövsiyələr də verilməlidir. Çünki bəzi hallarda sosial məsələlərin həlli üçün ayrılan vəsait gələcəkdə o ölkələr üçün iqtisadi problemlərin yaranmasına gətirib çıxarır. Biz bunu dünyada davam edən iqtisadi və maliyyə böhranının təzahürlərində görürük. Bir çox hallarda siyasətçilərin qeyri-real, populist seçkiqabağı vədləri gələcəkdə iqtisadi problemlərə gətirib çıxarır.

Keçən Forumda mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişdim, siyasətçilərin məsuliyyəti haqqında danışmışdım. Hesab edirəm ki, bu mövzu hələ diqqət mərkəzində qalacaqdır. Çünki populist vədlər və ondan sonra onların icrası bir çox hallarda əsassız borclanmaya gətirib çıxarır. Bəzi ölkələrin dövlət borcu ümumi daxili məhsulun 100 faizini, ondan da çoxunu təşkil edir. Daim borc götürən ölkələr o borcu qaytarmalıdır. Belə olan halda ilk növbədə, o borcun qaytarılması üçün sosial proqramların ixtisarı, maaşların kəsilməsi hesabına bunu etməyə çalışırlar. Ona görə iqtisadi inkişafın və iqtisadi tənəzzülün sosial-humanitar aspektləri çox ciddi təhlilə məruz qalmalıdır. Bizim təcrübəmiz ondan ibarətdir ki, biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik. Ona görə bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 7-8 faizini təşkil edir. Biz istənilən vaxt bu borcu qaytara bilərik. Çünki Azərbaycanın valyuta ehtiyatları ümumi daxili məhsulun 70 faizini təşkil edir. Bu göstəriciyə görə də biz dünyada ön sıralardayıq. Daxili resurslarımıza arxalanmaq hesab edirəm ki, ən düzgün siyasətdir.

Biz çox ciddi sosial siyasət aparmışıq, aparırıq və aparacağıq. Ancaq bunun mənbəyi Azərbaycan iqtisadiyyatıdır. İqtisadi inkişaf sosial məsələlərin həllinə də gətirib çıxarmalıdır. Burada, əlbəttə ki, uzlaşma düzgün aparılmalıdır. Çünki hər bir ölkənin inkişafı ilk növbədə, insanların həyat tərzində özünü göstərməlidir və insanların yaşayış səviyyəsi qalxdıqca, yeni imkanlar yarandıqca, əlbəttə ki, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycanın bu sahədə təcrübəsi vardır. Hesab edirəm ki, bu, qonaqlar üçün maraqlı ola bilər.

Forum çərçivəsində elmi innovasiyalar haqqında «dəyirmi masa»lar keçiriləcəkdir. Azərbaycan bu sahədə də çalışır ki, ön sıralarda olsun. Elmin inkişafına böyük diqqət göstərilir. Xüsusi fond yaradılmışdır – Elmin İnkişafı Fondu. Yüksək texnologiyalara investisiya qoyulur. Bu ilin fevralında Azərbaycan kosmik dövlətlərin sırasına daxil edilibdir. Birinci Azərbaycan peyki fəzaya qaldırılmışdır. Bu gün «Azərspace-1»

Azərbaycan peyki dövlətimizə, xalqımıza xidmət edir. Bu gün internet texnologiyalarının inkişafı daim diqqət mərkəzindədir.

Forumda qloballaşan dövrdə medianın aktual məsələləri müzakirə ediləcəkdir. Bu «dəyirmi masa» da çox böyük diqqət cəlb edir. Bu da, əlbəttə ki, çox maraqlı mövzudur. Bu mövzu ilə bağlı bilirəm ki, müxtəlif fikirlər və bu fikirlər arasında çox böyük fərq vardır. Bir tərəfdən, biz internet dünyasında yaşayırıq və bu, böyük üstünlüyümüzdür. Qeyd etməliyəm ki, Azərbaycanda internet tam azaddır və əhalimizin 70 faizi internet istifadəçisidir. Belə olan halda azad medianın inkişafı, əlbəttə ki, əsas şərtdir. Digər tərəfdən, qloballaşan dünyada hər bir sözün, hər bir informasiyanın təsiri də çox böyükdür. İstənilən yerdə deyilən hər bir söz dərhal əks-səda verə bilər.

Bu gün insanlar daha çox informasiyanı, xəbərləri internet vasitəsilə alırlar. Burada həm siyasətçilərin, həm media nümayəndələrinin, ictimai xadimlərin məsuliyyəti də, əlbəttə ki, ön plana çıxır. Əfsuslar olsun ki, dünya mediasında, o cümlədən Azərbaycanda da daha çox qanqaraldıcı xəbərlər ön plandadır, daha çox sensasiyalara, fəlakətlərə, terror aktlarına üstünlük verilir. Medianı izləyərkən elə bir təsəvvür yarana bilər ki, dünya alovlanıb yanır, hər yerdə toqquşmalar, müharibələr, partlayışlar, terror aktları baş verir. Ancaq dünyada nə qədər gözəl, müsbət hadisələr baş verir. Əfsuslar olsun ki, onlar bir qədər arxa plana keçir. Burada, əlbəttə ki, söhbət media nümayəndələrinin məsuliyyətindən gedir. Əgər biz dünyada əməkdaşlığı, sivilizasiyalararası dialoqu gücləndirmək istəyiriksə, bütün imkanlardan istifadə etməliyik. Əlbəttə, dünyada baş verən müsbət hadisələr də medianın əsas mövzularına çıxarılmalıdır. Çünki belə olmasa, informasiya ancaq birtərəfli olacaqdır. Əlbəttə ki, siyasətçilər bu məsələyə müdaxilə edə bilməzlər və Azərbaycanda azad media mövcuddur. Burada heç bir müdaxilədən söhbət gedə bilməz. Sadəcə olaraq, mən bir vətəndaş kimi, fikirlərimi bölüşmək istərdim.

Medianın məsuliyyəti getdikcə artacaqdır. Məsuliyyətli yanaşma hesab edirəm ki, hər birimizin marağına xidmət göstərəcəkdir.

Ümid edirəm ki, Forumda, ümumiyyətlə, bu məsələlərə konseptual yanaşma ilə bağlı müzakirələr aparılacaqdır. Dünyanın gələcəyi hansı istiqamətdə aparılacaqdır?! Biz hesab edirik ki, dünyanın gələcəyi yalnız əməkdaşlıq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, sivilizasiyalararası dialoq üzərində qurulmalıdır. Əgər belə olmasa, onda bəşəriyyət böyük fəlakətlərlə, problemlərlə üzləşə bilər. Ancaq biz müasir dünyada bəzi hallarda başqa bir mənzərə ilə üzləşirik. Hazırda dünya siyasətində etimad böhranı yaşanır. Bu da çox təhlükəli meyildir. Bəzi hallarda ən yaxın ölkələr, müttəfiqlər arasında ziddiyyətlər, anlaşılmazlıqlar yaranır. Yəni etimad azalır. Etimad olmadan heç bir beynəlxalq əməkdaşlıqdan söhbət gedə bilməz. Beynəlxalq əməkdaşlıq, o cümlədən siyasi və humanitar əməkdaşlıq ancaq qarşılıqlı etimad əsasında, səmimiyyət üzərində qurula bilər. Bəziləri hesab edir ki, səmimiyyət siyasi kateqoriya deyildir. Ola bilər. Ancaq biz elə etməliyik ki, səmimiyyət siyasi kateqoriyaya çevrilsin. Əgər belə olsa, onda hesab edirəm ki, dünya daha da təhlükəsiz olacaqdır.

Bu gün dini zəmində gedən münaqişələr, müharibələr bizi çox narahat edir. Çünki bunlar çox təhlükəli tendensiyalardır. Humanitar məsələlərin müzakirəsi, humanitar əməkdaşlıq müsbət istiqamətdə atılan addımdır. Mən hesab edirəm ki, humanitar əməkdaşlığın hər bir aspekti dünya gündəliyinin mərkəzində olmalıdır. Çünki bir daha demək istəyirəm ki, bir çox hallarda siyasi və iqtisadi məsələlər təbii ki, ön plana çıxarkən bu məsələlər bir az diqqətdən kənarda qalır. Buna imkan vermək olmaz.

Bu gün təhsillə bağlı məsələlər müzakirə ediləcəkdir. Azərbaycan bu sahədə də ciddi islahatlar aparır. Elmin, təhsilin inkişafı bizim gələcəyimizdir, hər bir dövlətin gələcəyidir. Mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin gələcəyi elmlə, təhsillə bağlı olacaqdır. Biz xoşbəxtik ki, Azərbaycanda savadlılığın səviyyəsi çox yüksəkdir – təxminən 100 faizdir. Bu bizə imkan verir ki, təhsilin keyfiyyəti, elmin inkişafı daha da sürətlə getsin. Çünki bu

hər bir ölkənin gələcəyidir. Savadlı, bilikli, yüksək təhsil almış gənclər radikalizmdən uzaq olurlar. Onları yoldan çıxarmaq o qədər də asan olmur. Ona görə elmin, təhsilin inkişafı, bilikli gənclərin yetişdirilməsi ölkənin uzunmüddətli dayanıqlı inkişafını təmin edəcəkdir. Əlbəttə, bu gün bizim qonaqlarımızın arasında inkişaf etmiş ölkələrin nümayəndələri kifayət qədər çoxdur. Onlar daha yaxşı bilirlər ki, inkişaf etmiş ölkələrin uğurlarını təbii resurslar deyil, elm, elmi-texniki tərəqqi, bilik təmin edib. Bizdə də belə olmalıdır. Bizdə təbii resurslar sadəcə olaraq, bir vasitə idi ki, ölkəmizin inkişafına təkan verilsin. Bundan sonra Azərbaycanın dayanıqlı inkişafı elmi-texniki tərəqqi, müasir texnologiyalar, azad, demokratik cəmiyyət üzərində qurulmalıdır. Ölkəmizdə bu istiqamətdə böyük addımlar atılır. Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, azad cəmiyyətin formalaşması istiqamətində çox ciddi islahatlar aparılmışdır. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır.

Deyə bilərəm ki, 2 il bundan sonra Bakıda I Avropa oyunları keçiriləcəkdir. Bu da tarixi hadisə olacaqdır. Çünki bu günə qədər Avropa oyunları keçirilməmişdir. Panamerika, Asiya oyunları, Afrika oyunları keçirilmişdir. Olimpiya hərəkatı Avropada yaranmışdır və Avropada da bərpa edilmişdir, ancaq nədənsə Avropa oyunları keçirilməmişdir. Birinci oyunları keçirmək missiyası, bu şərəfli missiya bizim üzərimizə düşür və 2015-ci ildə Azərbaycanda, müsəlman ölkəsində I Avropa oyunları keçiriləcəkdir. Hesab edirəm ki, bu hadisənin nəinki idman, eyni zamanda, böyük ictimai mənası vardır. Ondan 2 il sonra – 2017-ci ildə Azərbaycanda İslam Həmrəyliyi oyunları keçiriləcəkdir.

Bu 2 hadisə özlüyündə ölkəmizin dünyadakı rolunu əks etdirir. Azərbaycan həm Avropa Şurasına, həm İslam Əməkdaşlıq Təşkilatına üzvdür və nadir ölkələrdəndir ki, hər 2 təşkilatda təmsil olunur. Bizim coğrafi vəziyyətimiz belədir ki, biz Asiya ilə Avropa arasında bir körpüyük. Bizim siyasətimiz də bu funksiyanı gücləndirir.

Humanitar əməkdaşlıqla bağlı olan məsələlər də Azərbaycanı sivilizasiyalararası dialoqun aparılması üçün bir mərkəzə çevirir. Bu, böyük, şərəfli missiyadır, böyük məsuliyyətdir. Biz bu məsuliyyətə hazırıq, bu məsuliyyəti öz üzərimizə götürmüşük və bugünkü toplantı bunun bariz nümunəsidir. Mən əminəm ki, Forum iştirakçıları bütün mövzularla bağlı öz fikirlərini bölüşəcəklər. Burada aparılacaq müzakirələr çox maraqlı olacaqdır. Mən bunu bilirəm. Əminəm ki, bu müzakirələr, qəbul edilmiş qərarlar və gələcək birgə fəaliyyətimiz dünyada beynəlxalq humanitar əməkdaşlığın inkişafına böyük töhfə olacaqdır.

Bir daha Sizi ürəkdən salamlayıram, Forumun iştirakçılarına uğurlar arzulayıram. Əminəm ki, Forum çox böyük, uğurlu bir hadisə olacaqdır. Sağ olun!

**Mixail Şvıdkoy** (*Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi*): Möhtərəm Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev!

Zati-aliləri!

Xanımlar və cənablar!

Bu Forumda iştirak etmək mənim üçün böyük şərəfdir. Çünki Bakı Humanitar Forumu çox qısa müddətdə dünyada inkişafın ən mühüm, ən ümdə problemlərinin müzakirə edildiyi vacib məkanlardan birinə çevrilmişdir. Bu da mühüm məqamdır ki, söhbət dəyərlərlə bağlı problemlərdən gedir, çünki bu gün biz dəyərlər böhranı problemləri, sivilizasiya böhranı barədə çox danışırıq. Əslində isə bəşər tarixində əvvəllər də belə hallar olmuşdur və bəşəriyyətin bu cür problemləri aradan qaldırmaq yollarını axtarması ilk dəfə deyildir.

3 il ərzində Bakı müxtəlif sivilizasiyaları, müxtəlif millətləri təmsil edən, dünya haqqında müxtəlif təsəvvürlərə malik olan insanlar üçün mühüm görüş yerinə çevrilmişdir. Məhz burada bəşəriyyəti fəlakətlərdən xilas edə biləcək yollar araşdırılır. Bu Forum Rusiya üçün çox əhəmiyyətlidir. Çünki o, Rusiya və Azərbaycan tərəfindən birgə təsis edilmişdir. Bu əlamət onu göstərir ki, biz olduqca yaxın xalqlarıq. Bu xalqları tarix, bu

günümüz və gələcəyimiz bağlayır. Prezident Əliyevin indicə bu cür təsirli şəkildə danışdığı Azərbaycanın uğurları bizim üçün son dərəcə əhəmiyyətlidir, çünki Azərbaycan xalqının uğurları Rusiya xalqının çox böyük sevincinə və ruh yüksəkliyinə səbəb olur. Biz 2 yaxın xalqıq, 2 yaxın dövlətik, buna görə də qeyd etmək çox vacibdir ki, Azərbaycan Prezidentinin lap yaxın vaxtlarda seçkilərdə qazandığı qələbə Rusiya Federasiyasında yaşayan bütün xalqları sevindirmişdir.

Mənə fəxri bir missiya – III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına və qonaqlarına Rusiya Prezidentinin təbrikini səsləndirmək həvalə edilmişdir.

*Sonra Mixail Şvıdkoy prezident Vladimir Putinin məktubunu oxudu:*

«Hörmətli xanımlar və cənablar! Əziz dostlar! III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarını, qonaqlarını, təşkilatçılarını ürəkdən salamlayıram.

Bu böyük beynəlxalq tədbirin nüfuzu ilbəil artır. Rusiya və Azərbaycanın dövlət başçılarının himayəsi ilə keçirilən bu Forum bu dəfə də dünyanın onlarca ölkəsindən görkəmli siyasətçiləri, alimləri, yaradıcı ziyalıların nümayəndələrini bir araya toplamışdır. Sizin Forumun gündəliyi get-gedə daha müxtəlif və dolğun olur. Onun birləşdirici xarakteri, iştirakçıların elm, təhsil, mədəniyyət və incəsənət sahəsində qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirmək üçün ümumi cəhdləri dəyişməz qalır.

Əminəm ki, Forumda məzmunlu və faydalı diskussiyalar, yeni ideyalar və təşəbbüslər real işlərdə və layihələrdə öz praktiki təcəssümünü tapacaq, xalqlar arasında etimadın, qarşılıqlı anlaşmanın və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə kömək edəcəkdir.

Sizə səmərəli iş arzulayıram və ən xoş diləklərimi bildirirəm.

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin».**

* * *

*BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisinin səlahiyyətlərini icra edən Daq Siqurdson BMT-nin baş katibi Pan Gi Munun müraciətini səsləndirərək dedi:*

– Cənab Prezident, Zati-aliləri!

Dəyərli qonaqlar və bu mötəbər Forumun iştirakçıları!

Xanımlar və cənablar!

BMT-nin Azərbaycandakı ofisinin icraçı rezident əlaqələndiricisi kimi, cənab Pan Gi Munun müraciətini sizin diqqətinizə çatdırmaq istərdim.

*Daq Siqurdson Pan Gi Munun məktubunu oxudu:*

«III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarını salamlayıram. Azərbaycan hökumətinə bu tədbirə ev sahibliyi etdiyinə görə təşəkkürümü bildirirəm.

Azərbaycanın müxtəlif sahələr üzrə aparıcı insanları Foruma dəvət etdiyini xüsusi qeyd etmək istəyirəm. BMT olaraq biz də dövlət qurumları, humanitar, iqtisadi dairələrin nümayəndələrini hər zaman bir araya toplamağa hazırıq. Bu əməkdaşlıq ölkə sərhədləri ilə məhdudlaşmamalıdır. Bütün ölkələrdə insanlar münaqişələrdən, ayrı-seçkilikdən azad şəkildə yaşamaq istəyirlər. Bu, böyük imkanlar dövrüdür. Vətəndaşlar bizim birgə irəliləyişimizə töhfə verə bilərlər. Bu işdə hökumətlər qadınların, gənclərin və bütün vətəndaşların problemlərinin həll edilməsinə çalışmalıdır.

Biz Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün yoxsulluğun aradan qaldırılmasına çalışmalıyıq. İqlim dəyişikliyi ilə bağlı və bu istiqamətdə 2015-ci ildən sonra universal baxış proqramını qəbul etməliyik ki, onun başlıca prinsipi də davamlı inkişaf olacaqdır. Biz bütün böhranların öhdəsindən gəlməyə çalışmalıyıq. Bu sırada Suriyada humanitar böhranın həll edilməsi də vacibdir. Bu məsələnin sülh yolu ilə həllinə nail olmaq lazımdır ki, bu da Suriya xalqının iradəsini əks etdirmiş olsun. Biz bu baxımdan ölkənin kimyəvi proqramının ləğv edilməsi ilə bağlı səyləri dəstəkləyirik.

Bu gün Afrikada acınacaqlı vəziyyət vardır. Dekabr ayında 394 min insan Cənubi Afrika Respublikasında öz evlərindən didərgin düşmüşdür. Bu baxımdan BMT öz töhfəsini verir ki, zorakılığın

qarşısı alınsın. Bizim bu baxımdan beynəlxalq ictimaiyyətin dəstəyinə ehtiyacımız vardır.

Əminəm ki, hər biriniz müxtəlif böhranların həll edilməsinə öz töhfənizi verəcəksiniz. Biz inkişafa nail olmaq istəyirik. Bu Foruma əməkdaşlıqda uğurlar diləyirəm.

Təşəkkür edirəm!

**BMT-nin Baş katibi Pan Gi Mun».**

* * *

*Sonra YUNESKO-nun baş direktoru xanım İrina Bokovanın Forum iştirakçılarına videomüraciəti təqdim edildi.*

*Müraciətdə deyilir:* «Xanımlar və cənablar! Mənim üçün böyük şərəfdir ki, III Bakı Beynəlxalq Forumuna müraciət edirəm. Artıq 3-cü dəfədir keçirilən bu Forum qlobal bir platformaya, bəşəriyyəti narahat edən müxtəlif humanitar məsələlərin müzakirəsi üçün gözəl bir vasitəyə çevrilib.

Bugünkü Forumun mövzuları – davamlı inkişaf, elm və təhsil, multikulturalizm və s. YUNESKO-nun əsas fəaliyyət istiqamətlərindəndir. Bu baxımdan Forum davamlı sülh və sabitliyin təmin edilməsi məsələsində bizim üçün əhəmiyyətli bir fəaliyyətdir. Bunlar çox mürəkkəb məsələlərdir. Amma bunlar insan inkişafı üçün gündəlikdə duran başlıca mövzulardır.

Elmin inkişaf etdirilməsi və elmi məlumatların bölüşdürülməsi çox əhəmiyyətli məsələdir. Təhsil bizim üçün ən əhəmiyyətli mövzudur. Bütün insanlar – qadınlar və kişilər öz töhfələrini verməlidirlər ki, biz bu məsələdə uğurlara nail olaq.

Bu gün cəmiyyətlər çox dərin transformasiya dövrü keçir. Burada müəyyən qeyri-bərabərliklər vardır. YUNESKO üçün bu, bir nömrəli humanist gündəlikdir. İnsan hüquqlarının və ləyaqətinin təmin edilməsi ən vacib və başlıca vəzifədir. Buna görə də bizim böyük iddialı yanaşmamız vardır ki, 2015-ci ildən sonra bu məsələ üzrə gündəlik formalaşdıraq.

Mən III Bakı Beynəlxalq Humanitar Forumunun bütün iştirakçılarına uğurlar arzulayıram və Azərbaycan hökumətinə

xüsusi təşəkkürümü bildirirəm. Xüsusilə də Zati-aliləri cənab İlham Əliyevə bu təşəbbüsə görə təşəkkürümü bildirirəm. Sizə səmərəli iş arzulayıram və sizin mühüm qərar qəbul edəcəyinizə inanıram».

*Forumda çıxış edən İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri prezident İlham Əliyevi yenidən Azərbaycanın dövlət başçısı seçilməsi münasibətilə təbrik etdi. Azərbaycanın sürətli inkişafının bundan sonra da davamlı olacağını bildirən Əbdüləziz bin Osman əl-Tüveycri dedi:*

– İlk olaraq, Zati-aliləri cənab İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Zati-alilərinə davamlı uğurlar arzu edirəm. Heç şübhəsiz ki, Azərbaycan cənab prezident İlham Əliyevin rəhbərliyi altında istər regional, istərsə də beynəlxalq səviyyədə sülhün təşviqinə çalışır, tolerantlığın və dialoqun inkişafına böyük səylər göstərir. Bu, beynəlxalq əlaqələrin təməlində duran məsələdir. Bakı Beynəlxalq Humanitar Forumu Azərbaycanın digər beynəlxalq təşəbbüsləri kimi, çox gözəl göstəricidir. Azərbaycan müxtəlif adekvat dialoq mexanizmlərinin üzərində çalışır ki, beynəlxalq ictimaiyyətdə əməkdaşlıq və anlaşmaya nail ola bilsin.

Təəssüflər olsun ki, media müxtəlifliyinə baxmayaraq, bu dəqiqə radikallıq hökm sürür və bu gün böyük irqi ayrı-seçkilik vardır. Bu sahədə ən məyusedici məsələ Azərbaycanın Dağlıq Qarabağ ərazisinin işğal edilməsidir. Etnik təmizləmə, tarixi və mədəni obyektlərin dağıdılması bunun ən ağır nəticələrindəndir. BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanması ilə bağlı 4 qətnamə qəbul etməsinə baxmayaraq, bu işğal bu gün də davam edir. Fələstin məsələsi də bu günədək həllini tapmamışdır. Bu davamlı münaqişələr bir daha onu göstərir ki, Təhlükəsizlik Şurası sülhün təmin edilməsində öz vəzifəsinin öhdəsindən gəlmir. Bu çox məyusedici bir haldır. Sülhün, sabitliyin və ədalətin təmin edilməsi məsələsi təkcə bu Forumun deyil, digər forumların da əsas mövzusu olmalıdır.

Zati-aliləri cənab Prezident, xanımlar və cənablar, bugünkü Forum çox kritik tarixi bir mərhələdə keçirilir, münaqişələr və toqquşmalar dünyanın müxtəlif yerlərində, xüsusilə də müsəlman aləmində tüğyan edir və beynəlxalq ictimaiyyət bunun öhdəsindən gələ bilmir. Bu təkcə böyük bir təhlükə deyil, region üçün sabitliyi təhdid edən, insan inkişafı və beynəlxalq münasibətləri hədələyən bir məsələdir.

*İSESKO-nun baş direktoru zorakılıq, təcridolunma, ekstremizm, islamofobiya kimi dünyanı narahat edən halların kökündə duran məsələləri araşdırmaqda Bakı Humanitar Forumunun xüsusi önəm daşıdığını vurğulayaraq dedi:*

– Biz inanırıq ki, müxtəlif sahələrdən liderləri, siyasətçiləri və alimləri bir araya toplayan III Bakı Beynəlxalq Humanitar Forumu insan haqlarının qorunmasına, dözümlülüyə və dialoqa öz töhfəsini verəcəkdir. Biz beynəlxalq hüquq üzərində qurulmuş bir dünyaya nail olacağıq. Bu, Bakı Forumunun əsas məqsədidir. Diqqətinizə görə təşəkkür edirəm!

* * *

*Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl də İlham Əliyevi yenidən Azərbaycan prezidenti seçilməsi münasibətilə təbrik etdi və Forumun yüksək səviyyədə təşkilindən məmnunluğunu bildirdi.*

**Süleyman Dəmirəl:** Cənab prezident İlham Əliyev, hörmətli Mehriban xanım Əliyeva, hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk olaraq icazə verin, öz dərin təşəkkürümü cənab prezident İlham Əliyevə bildirim ki, məni bu gün bu mötəbər tədbirə dəvət edibdir. Gözəl təşkilatçılığı və qonaqpərvərliyi xüsusilə qeyd etmək istərdim. Bu gün belə bir mötəbər auditoriya qarşısında çıxış etməyim mənim üçün çox böyük məmnunluq doğurur.

İlk olaraq mən əziz dostum, cənab prezident İlham Əliyevi və Azərbaycan xalqını onun yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik edirəm. Prezident İlham Əliyevə üçüncü

müddətə Azərbaycan Respublikasının dövlət başçısı seçilməsi ilə bağlı bir daha təbriklərimi çatdırmaq istəyirəm.

Mən 2 il bundan əvvəl I Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etmişdim. Bu gün çox dərin təsirlənmişəm ki, Bakı nə dərəcədə gözəl bir şəhər olmuşdur.

Möhtərəm cənab Prezident! Bu, Azərbaycanın Sizin rəhbərliyinizlə inkişafının bariz nümunəsidir. Azərbaycan elmin, iqtisadiyyatın və digər sahələrin regional mərkəzinə çevrilmişdir. Ən xoş olan odur ki, Azərbaycanın inkişafında insan amili çox mühüm yer tutur. Azərbaycan xalqının yaşayış səviyyəsinin yaxşılaşdırılması çox məmnunedici bir məsələdir. Buna görə də təbii ki, məhz Bakıda belə bir mötəbər tədbir keçirilir.

*Bu gün dünyada və regionda ciddi dəyişikliklərin baş verməsinə diqqəti cəlb edən Süleyman Dəmirəl həmin proseslərin dünyanın iqtisadi və siyasi mərkəzlərinin dəyişməsi ilə müşayiət olunduğunu söylədi. O qeyd etdi ki, dünyada sülhü və sabitliyi qorumaq missiyası qarşıya yeni vəzifələr qoyur.*

*Türkiyənin sabiq prezidenti dünyada əhali artımı ilə bağlı yaranan problemlərin həlli üçün beynəlxalq səviyyədə bütün səylərin birləşdirilməsinin vacib olduğunu dedi. O, beynəlxalq əməkdaşlığı və iqtisadi inteqrasiyanı genişləndirmədən təhlükəsizliyə və sabitliyə tam nail olmağın mümkünsüzlüyünü diqqətə çatdırdı. Süleyman Dəmirəl Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin regional və beynəlxalq əməkdaşlığa təhdid olduğunu bildirərək dedi:*

– Həll olunmamış Dağlıq Qarabağ münaqişəsi bu regionun əsl potensialını reallaşdırmaq üçün böyük maneədir. Bu səbəbdən münaqişə təcili olaraq həll edilməlidir. Bunun isə başlıca prinsipi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir. Ermənistan bunu dərk etməlidir. Ermənistan başa düşməlidir ki, o da bu münaqişənin həlli nəticəsində səmərə görə bilər. Bu səbəbdən də həm Azərbaycan, həm də Türkiyə ilə münasibətləri yaxşılaşmış olar. Çünki biz bu gün qarşılıqlı əməkdaşlıq dünyasında yaşayırıq. Təkcə inkişaf müsbət təsir

göstərmir, problemlərin bir-biri ilə bağlı olması da böyük çətinliklər yaradır.

*Süleyman Dəmirəl ekoloji tarazlığın pozulması, su qıtlığı, piratçılıq və dünyanı narahat edən digər məsələlərin həllində də beynəlxalq birliyin birgə fəaliyyətinə ehtiyac olduğunu söylədi. Həmin problemlər arasında savadsızlığın da yer aldığını deyən sabiq prezident bu baxımdan Azərbaycanın təcrübəsini təqdir edərək bildirdi:*

– Dünya əhalisi savadlı olmalıdır. Bu baxımdan Azərbaycan nümunə ölkə ola bilər. Çox təqdirəlayiq bir haldır ki, ölkənin təbii sərvətləri intellektual potensiala çevrilir. Bu da «Qara qızılın insan kapitalına çevrilməsi» tezisinin prinsipinə uyğundur. Təhsilli, savadlı insan kapitalına malik olan ölkələrdə xoşagəlməz hallara daha az rast gəlinir. Həmin ölkələrdə dialoq və barışıq hökm sürür.

*Türkiyənin 9-cu prezidenti dünyanı narahat edən məsələləri müzakirə etmək və yekdil fikrə gəlmək baxımından Bakı Humanitar Forumunun əhəmiyyətindən danışdı.*

## AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SABİQ PREZİDENTİ, AZƏRBAYCAN–NİDERLAND DOSTLUQ CƏMİYYƏTİNİN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan–Niderland Dostluq Cəmiyyətinin sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Azərbaycan–Niderland Dostluq Cəmiyyətinin sədri Rene Van der Linden İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik etdi.*

*Görüşdə ölkələr və xalqlar arasında humanitar və mədəni əlaqələrin daha da möhkəmləndirilməsi baxımından Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Niderland arasında iqtisadi, biznes, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi və Hollandiya şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdikləri vurğulandı.*

# FRANSA PARLAMENTİNİN DEPUTATLARI VƏ SENATORLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Azərbaycan–Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri Mehriban Əliyeva oktyabrın 31-də Fransa parlamentinin deputatları və senatorlarından ibarət nümayəndə heyəti ilə görüşmüşlər.*

*Fransa parlamentinin deputatları və senatorları prezident İlham Əliyevi yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik etdilər.*

*Görüşdə III Bakı Beynəlxalq Humanitar Forumunun dünya ölkələri arasında müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə yeni töhfələr verəcəyi qeyd edildi. Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirildi. Parlamentlərarası dostluq qruplarının əməkdaşlığının iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsindəki rolu vurğulandı.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri dövlətimizin başçısını prezident seçkilərində uğurlu qələbəsi münasibətilə təbrik etdi.*

*Görüşdə III Bakı Beynəlxalq Humanitar Forumu mədəni, humanitar və digər sahələrdə dünyada gedən proseslərin müzakirəsi üçün növbəti əlverişli fürsət kimi dəyərləndirildi.*

*Söhbət zamanı Azərbaycan ilə İSESKO arasında əməkdaşlığın yüksək səviyyədə olduğu və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik bildirildi.*

## SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Serbiya Respublikasının sabiq prezidenti Boris Tadiçi qəbul etmişdir.*

*Serbiya Respublikasının sabiq prezidenti Boris Tadiç yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə III Bakı Beynəlxalq Humanitar Forumunun ölkələr və xalqlar arasında dialoqun genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Söhbət zamanı Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜYTEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan* Respublikasının Prezidenti *İlham Əliyev* okt-*yabrın 31-də* Estoniya Respublikasının sabiq prezidenti Arnold *Rüyteli qəbul etmişdir.*

Estoniya Respublikasının sabiq prezidenti Arnold Rüütel *yenidən* prezident *seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik* etdi.

*Görüşdə III Bakı Beynəlxalq* Humanitar Forumunun *əmək-daşlığın genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı* imkan *yaratdığı* bildirildi, *Azərbaycan ilə* Estoniya *arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə* inkişafının *razılıq doğurduğu vurğulandı, əlaqələrimizin* bundan sonra *daha da genişləndiriləcəyinə əminlik ifadə* olundu.

# RUMINİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*31 oktyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Rumıniya Respublikasının sabiq prezidenti Emil Konstantineskunu qəbul etmişdir.*

*Rumıniya Respublikasının sabiq prezidenti Emil Konstantinesku yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Görüşdə dünyanın müxtəlif ölkələrini təmsil edən tanınmış ictimai xadimlərin, görkəmli elm adamlarının iştirak etdikləri III Bakı Beynəlxalq Humanitar Forumunun əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Rumıniya arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu, əməkdaşlığımızın gələcəkdə daha da möhkəmləndiriləcəyinə əminlik bildirildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının IX prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Çox şadam ki, bu günü Siz Azərbaycanda qeyd edirsiniz. Azərbaycan Sizin doğma Vətəninizdir. Azərbaycanda Sizi çox sevirlər. Siz Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün qardaşınız prezident Heydər Əliyev ilə çox böyük səylər göstərmisiniz, böyük işlər görmüsünüz. Deyə bilərəm ki, Türkiyə–Azərbaycan əlaqələrinin təməlini siz qoymusunuz. Bu möhkəm təməl üzərində bu gün bizim əlaqələr inkişaf edir. Siz prezident Heydər Əliyev ilə bərabər, Türkiyə–Azərbaycan əlaqələrini ən yüksək zirvəyə qaldırmısınız.

Mən yaxşı xatırlayıram ki, Azərbaycan üçün ən ağır dövrlərdə Siz daim xalqımızın yanında olmusunuz. Türkiyə və Naxçıvan arasındakı «Ümid» körpüsünü Heydər Əliyev ilə bərabər açmısınız, o körpünün memarı olmusunuz. Bütün bunlar Azərbaycan xalqının qəlbində unudulmaz xatirə kimi yaşayan gözəl anlar, məqamlardır. Sonrakı dövrdə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində də Siz Heydər Əliyev ilə birgə böyük səylər göstərmisiniz. Bu gün bu kəmər artıq böyük bir dəhlizin mövcudluğunu təmin edir.

Hörmətli cənab Prezident, bir daha Sizi Azərbaycanda ürəkdən salamlayıram. Bir daha qeyd etmək istəyirəm və çox şadam

ki, Siz bu günü Azərbaycanda qeyd edirsiniz, biz birlikdə bunu qeyd edirik.

Türkiyə–Azərbaycan əlaqələrinin inkişafında xüsusi xidmətlərə görə Siz Azərbaycan dövlətinin «Şərəf» ordeni ilə təltif edilirsiniz. İcazə verin, mən bu yüksək mükafatı Sizə təqdim edim.

*Azərbaycan prezidenti İlham Əliyev «Şərəf» ordenini Süleyman Dəmirələ təqdim etdi.*

**S ü l e y m a n D ə m i r ə l:** Çox təşəkkür edirəm. Məni çox böyük məhəbbətlə qəbul etdiniz, öz təyyarənizi göndərdiniz və məni oradan buraya gətirdiniz. Bugünkü Türkiyə qəzetlərində bu böyük xəbər yer almışdır. Xüsusən böyük bir dostluğun nişanəsi olaraq yer almışdır.

Bizim hər bir hərəkətimiz iki qardaş ölkənin – bir böyük millətin – türk millətinin, Anadoluda, Azərbaycanda yaşayan türklərin – ayrılmaz bu böyük türklüyün dahi şəxsiyyətlərindən olan dəyərli qardaşım Heydər Əliyevin təməlini qoyduğu dostluğumuz və qardaşlığımız daim yaşayacaqdır. Mərhum Heydər Əliyevin «Biz bir millət – iki dövlətik» kəlamı həyatda təsdiqini tapıb və bundan sonra da tapacaqdır.

Burada gördüyümüz inkişaf Sizin ciddi səylərinizin nəticəsidir. Sizin güclü rəhbərliyinizlə davam edən bu inkişaf bizi məmnun və xoşbəxt edir. Nəyi görürüksə, bu bizim öz Vətənimizdə imiş kimi bizi sevindirir. Ona görə yenidən buraya gəlməkdən duyduğum xoşbəxtliyi ifadə edirəm. Həqiqətən, ötən müddətdə ölkənizdə xoş yeniliklər olmuş, daha çox enerji sərf edilmiş, ölkə daha da gözəlləşmişdir.

Bunun əvəzində Azərbaycan xalqı Sizi 3-cü dəfə prezident görmək üçün səs vermişdir. 3-cü dəfə prezident seçilmək asan iş deyil. Heç bir ölkədə asan bir iş deyildir. Ancaq bunun niyə belə olduğunu xalqın Sizə olan məhəbbətində görmək lazımdır. Xalqın 80 faizdən çoxunun Sizə dəstək verməsi bizi sevindirir.

**İ l h a m Ə l i y e v:** Sağ olun!

**S ü l e y m a n D ə m i r ə l:** Bu uğurunuz bizi çox sevindirir, biz bundan iftixar hissi duyuruq. Bunu iki qardaş ölkənin –

Türkiyə ilə Azərbaycanın birliyinə, qardaşlığına, bərabərliyinə dəstək verilməsi kimi qiymətləndiririk.

Sizi 3-cü dəfə prezident seçilməyiniz münasibətilə bir daha təbrik edirəm. Azərbaycanın gələcəyi naminə, Türkiyə və Azərbaycan qardaşlığının və birliyinin sabahları üçün gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də* bp *şirkətinin icraçı* direktoru Robert Dadlinin *başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

bp *şirkətinin icraçı* direktoru Robert Dadli *yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik* etdi.

*Görüşdə Azərbaycan ilə* bp *arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## VATİKAN DÖVLƏTİNİN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK ŞURASININ PREZİDENTİ KARDİNAL CANFRANKO RAVAZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı kardinal Canfranko Ravazinin ölkəmizə səfərinin uğurlu olacağına və Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev həyata keçirilən birgə layihələrin önəmini qeyd etdi. Azərbaycan ilə bağlı sərgilərin Vatikan muzeylərində nümayişinə toxunan dövlətimizin başçısı son illər əməkdaşlığımızın yeni formatda inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Vatikan Dövləti arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazinin Azərbaycanın ən yüksək mükafatlarından olan «Dostluq» ordeni ilə təltif olunduğunu dedi və ordeni kardinal Canfranko Ravaziyə təqdim etdi.*

*Kardinal Canfranko Ravazi Azərbaycanın «Dostluq» ordeninə layiq görüldüyünə görə prezident İlham Əliyevə minnətdarlığını bildirərək, bunu Azərbaycan ilə Vatikan arasında uzun*

müddət ardıcıl olaraq inkişaf edən əlaqələrə verilən qiymət kimi dəyərləndirdi. Canfranko Ravazi yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişaf etdirilməsində göstərdiyi xidmətlərə görə prezident İlham Əliyevin Müqəddəs Taxt-tacın ən yüksək və nadir mükafatlarından biri olan «Medalla Sede Vacante» medalına layiq görüldüyünü dedi və Müqəddəs Taxt-tacın adından medalı dövlətimizin başçısına təqdim etdi. Kardinal Canfranko Ravazi ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətlərini xüsusi qeyd etdi.

Qonaq ikitərəfli münasibətlərimizin gələcəkdə də inkişaf etdiriləcəyinə əminliyini bildirdi.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ), Jak Foru (Fransa), həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİAMONİYƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kamboca arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamboca xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2013-cü il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Yenidən Tacikistan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Sizə göstərilən yüksək etimada, Sizin yürütdüyünüz ölkənin müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə, demokratiyanın, hüquqi qaydanın və qanunçuluğun inkişafına yönəlmiş fəaliyyət xəttinin Tacikistan xalqı tərəfindən dəstəklənməsinə dəlalət edir.

Əminəm ki, birgə səylərimiz bundan sonra da bizim mehriban, ənənəvi dostluq münasibətlərimizin genişlənməsinə, xalqlarımızın tərəqqisi naminə ölkələrimiz arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin dərinləşməsinə xidmət edəcəkdir.

Hörmətli Emoməli Şərifoviç, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Tacikistanın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2013-cü il*

## İSESKO-ya ÜZV ÖLKƏLƏRİN UŞAQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL NAZİRLƏRİNİN IV KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizin hamınızı səmimi-qəlbdən salamlayır, hər birinizə uzun ömür, cansağlığı və konfransınızın işinə uğurlar arzu edirəm. Ümidvaram ki, Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən bu konfrans İslam Təhsil, Elm, Mədəniyyət Təşkilatına üzv ölkələr arasında qarşılıqlı faydalı münasibətlərin dərinləşməsinə, səmərəli əməkdaşlığın genişlənməsinə öz müsbət təsirini göstərəcək və islam dünyasında uşaqlar və urbanizasiya problemlərinin həllinə layiqli töhfəsini verəcəkdir.

Qloballaşma dövründə böyük vüsət alan urbanizasiya hər bir ölkədə yaranmış çoxsaylı problemlərin həllini tələb edir. Azərbaycanda regionların inkişafı ilə əlaqədar reallaşan dövlət proqramlarında şəhərlərin infrastrukturu, ekoloji mühiti və müvafiq sosial təsisatları əhalinin bütün təbəqələrinin, o cümlədən uşaqların ehtiyaclarını nəzərdə tutur. Bu sahədə görülən işlər şübhəsiz ki, gələcəkdə də davam etdiriləcəkdir.

Uşaqların sağlamlığı, təhsili və ahəngdar inkişafı ilə bağlı hüquqlarının təmin olunması müasir dövrdə demokratik cəmiyyətin inkişafının əsas prioritetlərindəndir. Azərbaycan Respublikasında aparılan dövlət siyasəti nəticəsində uşaq hüquqlarının bütün sahələrinin, o cümlədən urbanizasiyadan irəli gələn problemlərinin həlli üçün əlverişli mühit formalaşdırılmışdır və bu istiqamətdə konkret proqramlar, layihələr həyata keçirilir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında islam ölkələrinin tutduğu mövqe və Azərbaycanın ərazi bütövlüyünün qorunmasına dair qəbul etdiyi müvafiq qərarlar ölkəmizdə yüksək qiymətləndirilir. Bu münaqişə nəticəsində doğma yurdlarından məhrum olub qaçqın və

məcburi köçkün həyatı yaşamaq məcburiyyətində qalmış 1 milyon soydaşımızın əsas hüquqlarının bərpası onların həm də uşaqlarının hüquqlarının təmin olunması deməkdir. Sözsüz ki, bu sahədə birgə səylərimiz son nəticədə öz bəhrəsini verəcəkdir.

Dayanıqlı inkişaf strategiyası uşaq hüquqları və urbanizasiya məsələlərinin həlli üçün müxtəlif beynəlxalq qurumların, o cümlədən İSESKO-nun fəaliyyətinin daha da gücləndirilməsini tələb edir. Əminəm ki, konfransınız bütün bu məsələlərə diqqət yetirərək geniş müzakirələr aparacaq və onların həllinə yönəlmiş məqsədyönlü tədbirlərin həyata keçirilməsi yolunda mühüm addımlar atacaqdır.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2013-cü il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş dəhşətli qasırğa nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Filippin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2013-cü il*

## TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*11 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkiyə Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkiyə Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» Beynəlxalq Hava Limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qardaş ölkənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim edildi.*

## ANITQƏBİRİ ZİYARƏT

*Ankara*

*12 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə – Anıtqəbirə gəlmişdir.*

*Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət etdi.*

*Prezident İlham Əliyev Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoydu.*

*Türk dünyasının böyük oğlunun əziz xatirəsi yad edildi.*

*Sonra xatirə şəkilləri çəkdirildi.*

*Dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra prezident İlham Əliyev Anıtqəbirin muzeyi ilə tanış oldu.*

*Burada Mustafa Kamal Atatürkün həyat və fəaliyyətindən, onun Türkiyə Cümhuriyyətinin qurulmasındakı tarixi xidmətlərindən bəhs edən eksponatlar, sənədlər qorunub saxlanılır.*

## ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Noyabrın 12-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında – Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Türkiyənin və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmiş iqamətgahın qarşısında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və xanımı Hayrünnisə Gül Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndi.*

*Azərbaycan Prezidentinin şərəfinə toplardan yaylım atəşi açıldı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev türk əsgərlərini salamladı.*

*Türkiyə Respublikasının rəsmi şəxsləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Abdullah Gülə təqdim edildi.*

*Sonra prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN İLƏ TÜRKİYƏ PREZİDENTLƏRİ VƏ XANIMLARININ BİRGƏ GÖRÜŞÜ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və xanımı Hayrünnisə Gülün birgə görüşü olmuşdur.*

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TƏLTİF OLUNMASI MƏRASİMİ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Noyabrın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyə prezidentlərinin təltif edilməsi mərasimi olmuşdur.*

*Tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirildi.*

*Sonra prezident İlham Əliyevin «Dövlət nişanı» ordeni ilə təltif edilməsinə dair Türkiyə Nazirlər Kabinetinin qərarı və prezident Abdullah Gülün «Heydər Əliyev» ordeni ilə təltif edilməsi barədə Azərbaycan Prezidentinin sərəncamı oxundu.*

*Türkiyə Prezidenti «Dövlət nişanı» ordenini prezident İlham Əliyevə təqdim etdi.*

*Azərbaycan Prezidenti «Heydər Əliyev» ordenini Türkiyə Prezidentinə təqdim etdi.*

*Türkiyə prezidenti Abdullah Gül və Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdilər.*

## Türkiyə prezidenti Abdullah Gülün çıxışı

Cənab prezident İlham Əliyev!

Hörmətli Mehriban xanım, dəyərli qonaqlar!

Bu gün burada Azərbaycan ilə Türkiyə arasındakı qardaşlıq və dostluğu daha da möhkəmləndirəcək «Dövlət nişanı» mükafatının təltifetmə mərasimi münasibətilə toplaşmışıq. Ölkəmizin ən yüksək ordeni olan «Dövlət nişanı»nı Azərbaycan Respublikasının Prezidenti, dəyərli dostum cənab İlham Əliyevə təqdim etməkdən böyük məmnunluq hissi duyuram. Bir vaxtlar ümummilli lider, böyük dövlət xadimi Heydər

Əliyevin də təltif olunduğu «Dövlət nişanı»nı bu dəfə Əliyevlər ailəsinin başqa bir nüfuzlu nümayəndəsinə təqdim etməkdən böyük qürur hissi keçirdim. Bu orden eyni millətin iki dövləti olan ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi və dostluq əlaqələrimizin gücləndirilməsi üçün nümunəvi liderlik nümayiş etdirən cənab prezident İlham Əliyevə qiymətimizin ürəkdən ifadəsidir. Eyni qaydada mənim Azərbaycanın ən yüksək mükafatı olan «Heydər Əliyev» ordeninə layiq görülməyimdən də böyük xoşbəxtlik hissi keçirirəm. Mənim mərhum Heydər Əliyevin adını daşıyan bu ordenlə təltif olunmağım əzəli və əbədi Türkiyə–Azərbaycan qardaşlığının aydın bir təzahürüdür.

Dəyərli qonaqlar, Azərbaycan ilə dostluq, qardaşlıq və mehriban qonşuluq əlaqələrinə əsaslanan münasibətlərimizin ən güclü şəkildə davamına böyük əhəmiyyət veririk. Qlobal və regional təhdidlərin davam etdiyi bir dövrdə Azərbaycanı təhlükələrdən qoruyacaq bir liderin mövcudluğu münasibətlərimizin gələcəyinin təminatıdır.

Zati-alilərinin məharətli idarəçiliyi ilə Azərbaycan hər sahədə parlaq nailiyyətlər qazanmışdır. Son 10 ildə Azərbaycana etdiyim hər səfərdə həmişə bu qardaş ölkənin simasının mahir əllərlə necə dəyişib gözəlləşdiyinin şəxsən şahidi olmuşam.

Hərtərəfli inkişaf və artan rifah səviyyəsi ilə Azərbaycan qısa müddətdə həsəd aparılacaq bir ölkə olmuşdur. Azərbaycan regiondakı və beynəlxalq aləmdəki güclü mövqeyini hər ötən gün daha da möhkəmləndirməkdədir. 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının üzvü seçilən və keçən həftə quruma ikinci sədrliyi təhvil verən Azərbaycan qazandığı uğurlu nailiyyətlərlə diplomatik gücünü də sübut etmişdir. Xoşdur ki, Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sadəcə, 22 il sonra öz imkanları və gücü ilə gələcəyə ümidlə baxmasını təmin edən belə mühüm uğurlar qazanmışdır. Şübhəsiz, bu uğurların arxasında ümummilli lider, mərhum prezident Heydər Əliyevin yaratdığı sağlam təməllər və prezident İlham Əliyevin ölkəsinə bu

irsə yaraşan şəkildə xidmət etməsi dayanır. Bu mətin liderlik sayəsində hazırda Türkiyə ilə Azərbaycan arasındakı qədim dostluq və qardaşlıq əlaqələri konkret layihələrlə inkişaf etmişdir. Bu layihələr zənginləşməkdə davam edir. Bakı–Tbilisi–Qars dəmir yolu xətti və Trans–Anadolu təbii qaz boru kəməri layihələrini sürətlə tamamlayaraq Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum enerji layihələrinə yeni uğurlu layihələr əlavə etmək istəyirik.

Cənab Prezident, dəyərli qardaşım, Azərbaycanda vəzifəyə gəldiyiniz gündən bəri ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin daha da dərinləşməsi üçün böyük səy göstərirsiniz. Böyük səylərinizlə Türkiyə–Azərbaycan əlaqələrinin tarixində müstəsna bir yer tutmusunuz. Ölkələrimizin ortaq mənafeyi naminə göstərdiyiniz liderlik üçün Türkiyə Respublikasının təsis etdiyi ən yüksək orden olan «Dövlət nişanı»nı Türkiyə xalqı adından Zati-alinizə təqdim etməkdən şərəf duyuram. Böyük qürurla daşıyacağım «Heydər Əliyev» ordeni ilə təltif olunduğum üçün Sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi duyğularımla təşəkkür etmək istəyirəm. Bu münasibətlə Türkiyə–Azərbaycan qardaşlığı üçün tarix boyunca hər cür fədakarlıq göstərən əcdadlarımızı və şəhidlərimizi dərin ehtiram hissi ilə anır, aramızdakı mükəmməl qardaşlıq əlaqələrinin gələcəkdə davam edəcəyinə qəti inamımı bildirirəm.

Yaşasın can Azərbaycan! Yaşasın Türkiyə! Yaşasın Türkiyə–Azərbaycan qardaşlığı və dostluğu!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident, əziz qardaşım Abdullah Gül!

Hörmətli cənab Baş nazir, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz dostlar, hörmətli xanımlar və cənablar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün mən qardaş Türkiyə Cümhuriyyətinin ali mükafatı ilə təltif olunuram. Bu mənim üçün böyük şərəfdir,

böyük xoşbəxtlikdir. Mən Sizi və bütün türk xalqını əmin etmək istəyirəm ki, Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün bundan sonra da var gücümlə çalışacağam. Çalışacağam ki, bundan sonra da Türkiyə–Azərbaycan dostluğu, birliyi möhkəmlənsin, bizim bütün birgə layihələr icra edilsin, Türkiyə–Azərbaycan birliyi əbədi, sarsılmaz olsun.

Bu gün bu təltifi alarkən bir daha keçmişə nəzər salırıq. Görürük ki, Türkiyə–Azərbaycan əlaqələri dünyada nadir əlaqələrdir. Bizi tarix, etnik köklər, ortaq mədəniyyət, eyni zamanda, siyasi-iqtisadi maraqlarımız birləşdirir. Dünyada bir-birinə yaxın olan xalqlar kifayət qədər çoxdur. Heç də hər zaman bu xalqlar bir-biri ilə Azərbaycan və Türkiyə qədər yaxın olmurlar. Bizim bugünkü birliyimiz, müttəfiqliyimiz dərin tarixi köklər üzərində qurulubdur. Təsadüfi deyildir ki, Azərbaycan dövlət müstəqilliyini elan etdikdə bizim müstəqilliyimizi ilk tanıyan qardaş Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim birliyimiz, dostluğumuz, qardaşlığımız davam edir və imkan verir ki, xalqlarımız da bir-birinə qovuşsun, imkan verir ki, biz birlikdə xalqlarımız, dövlətlərimiz üçün vacib olan məsələləri həll edək.

Son 10 il ərzində mən çalışmışam ki, Türkiyə–Azərbaycan əlaqələri daim yüksək səviyyədə olsun. Bizim xarici siyasətimizin prioriteti məhz Türkiyə–Azərbaycan əlaqələridir. İlk növbədə, bu əlaqələr bizim xarici siyasətimizi müəyyən edir. Türkiyə bizim üçün ən yaxın dost, qardaş, müttəfiq ölkədir. Son illər ərzində bu müttəfiqlik yeni pilləyə qalxmışdır. Bu gün Türkiyə–Azərbaycan əlaqələri nəinki ölkələrimiz üçün, bölgə, dünya üçün önəmli bir amilə çevrilmişdir. Bizim birgə icra etdiyimiz siyasi, iqtisadi layihələr, enerji layihələri bizi daha da sıx birləşdirir, bu birliyi əbədi, dönməz edir. Əlbəttə, bizim birliyimiz bu gün bölgədə gedən proseslərə müsbət təsir göstərir. Regional əməkdaşlıq üçün Türkiyə–Azərbaycan birliyi başlıca şərtdir. Türkiyə–Azərbaycan birliyi regional təhlükəsizlik, sabitlik üçün əsas amildir. Bu gün bir daha bu məsələlərə nəzər salarkən görürük ki, doğrudan da Türkiyə və Azərbaycan son illər ərzində böyük uğurlu yol keçmişdir.

Bu gün Ankarada yenidən olarkən burada gedən inkişafı görürük və buna sizin qədər sevinirik. Mən son 10 il ərzində Türkiyədə dəfələrlə olmuşam. Bu, mənim 16-cı səfərimdir və 3-cü rəsmi səfərimdir. Ancaq bir neçə ildir ki, Ankarada olmamışdım. Bu gün Ankarada gedən inkişafı görərkən çox sevinirəm. Bu sizin böyük uğurunuzdur, böyük nailiyyətinizdir.

Türkiyənin inkişafı bizi gücləndirir. Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər özünü rahat hiss edəcək. Biz çox sevinirik ki, hətta böhranlı illərdə Türkiyə iqtisadi və siyasi sabitliyi möhkəmləndirə bilmişdir. Türkiyə iqtisadiyyatı uğurla inkişaf edir, Türkiyənin bütün təşəbbüsləri reallaşır və bu gün dünya miqyasında Türkiyə bir güc mərkəzidir.

Bu işlərin həyata keçirilməsində prezident Abdullah Gülün xüsusi xidmətləri var. Sizin rəhbərliyinizlə ölkəniz inkişaf edib artıq beynəlxalq gücə çevrilmişdir. Türkiyə dostlar, tərəfdaşlar üçün cəlbedici ölkədir. Türkiyə ilə dostluq etmək istəyən ölkələrin sayı artmaqdadır. Beynəlxalq nüfuzunuz çox yüksək səviyyədədir və əziz qardaşımın qeyd etdiyi kimi, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv olmuşdur. Ancaq ondan əvvəl Türkiyə bu təşkilata üzv olmuşdur. Əminəm ki, Türkiyə yenidən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv olacaqdır. Çünki dünya miqyasında Türkiyəyə olan hörmət gündən-günə artır.

Biz əziz qardaşım prezident Abdullah Gül ilə Türkiyə–Azərbaycan əlaqələrinin müxtəlif mərhələlərində birgə çalışmışıq, çiyin-çiyinə çalışmışıq. Ceyhanda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin açılışında bərabər iştirak etmişik, Qarsda Bakı–Tbilisi–Qars dəmir yolunun təməlini bir yerdə qoymuşuq. Əminəm ki, belə birgə mərasimlər hələ çox olacaqdır. Çünki bizim həyata keçirdiyimiz layihələrimiz gələcəyə yönəlibdir. Elə etməliyik ki, bizdən sonra gələn nəsil də dostluq, birlik, qardaşlıq mühitində bir-biri ilə əlaqə saxlasın. Bu gün təməli qoyulan ənənələr, bu gün göstərilən istiqamətlər gələcək nəslə də bir yolgöstəricisidir. Çünki biz istəyirik ki, birliyimiz əbədi,

sarsılmaz, dönməz olsun. Əminəm ki, biz buna nail olacağıq. Hər halda, son illərin tarixi belə deməyə əsas verir.

Türkiyənin gələcək inkişafı nə Azərbaycanda, nə Türkiyədə heç bir şübhə doğurmur. Bizim qardaş ölkəmiz yalnız və yalnız yüksələn xətlə inkişaf edəcəkdir və ölkə qarşısında duran bütün vəzifələri icra edəcəkdir. Mən bu fürsətdən istifadə edərək, Azərbaycana daim göstərilən dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə Türkiyə bizə arxa, dayaq olmuşdur. Bu gün bizim qarşılıqlı dəstəyimiz ölkələrimizi daha da birləşdirir, gücləndirir. Bu gün Türkiyə–Azərbaycan işbirliyi, əməkdaşlığı müsbət meyillərin güclənməsinə təkan verir. İqtisadi, siyasi, enerji sahələrində bu birlik həlledici amildir. Bugünkü mərasim və bugünkü təltiflər böyük bir rəmzi məna daşıyır. Bu bizim birliyimizin, dostluğumuzun, qardaşlığımızın təntənəsidir. Biz bundan sonra da əlaqələrimizi bu möhkəm təməl üzərində quracağıq.

Mən bir daha əziz qardaşım prezident Abdullah Gülə mənim səylərimi, fəaliyyətimi yüksək qiymətləndirdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Türkiyə və Azərbaycan xalqlarını əmin etmək istəyirəm ki, Türkiyə–Azərbaycan birliyi üçün bundan sonra da var gücümlə çalışacağam.

Yaşasın Türkiyə! Yaşasın Azərbaycan!

* * *

*Sonda prezidentlər İlham Əliyev və Abdullah Gül, xanımları Mehriban Əliyeva və Hayrünnisə Gül xatirə şəkli çəkdirdilər.*

*Türkiyə Respublikasının ən ali mükafatı olan «Dövlət nişanı» 1988-ci ildə təsis edilmişdir. Türkiyə Prezidenti tərəfindən təqdim edilən «Dövlət nişanı» dövlət başçısının tövsiyəsi əsasında Nazirlər Kabinetinin qərarı ilə verilir. Bu mükafata xarici ölkələrin dövlət başçıları ölkələr arasında dostluq əlaqələrinin inkişafı və xalqların bir-biri ilə daha da yaxınlaşmasındakı xidmətlərinə görə layiq görülürlər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Noyabrın 12-də təltifetmə mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika və bütün digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan–Türkiyə ikitərəfli münasibətlərinin bundan sonra da daim inkişaf edəcəyinə əminlik ifadə olundu.*

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*12 noyabr 2013-cü il*

*Dövlət başçılarının görüşündən sonra Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Türkiyə prezidenti Abdullah Gülün bəyanatı

Cənab Prezident, dəyərli dostum!

Hörmətli nazirlər!

Dəyərli mətbuat nümayəndələri!

Bildiyiniz kimi, Azərbaycanda oktyabrın 9-da keçirilən seçkilərdə dəyərli qardaşım cənab İlham Əliyev üçüncü dəfə prezident seçilmişdir. Bu münasibətlə onu bir daha təbrik edirəm və fəaliyyətində uğurlar arzulayıram.

Cənab prezident, dəyərli dostum İlham Əliyev ötən seçkilərdən sonra olduğu kimi, yenə də ilk səfərini Türkiyəyə etmişdir. Buna görə əziz qardaşıma dərindən təşəkkür edirəm.

Bilirsiniz ki, mən də 2007-ci ildə Türkiyə Prezidenti seçilərkən ilk səfərimi Azərbaycana etmişdim. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq münasibətləri yüksək səviyyədədir. Son dövrlərdəki əlaqələrimizin nə qədər yaxın olduğunu göstərmək üçün bunu deyə bilərəm ki, ötən 6 il ərzində 2 ölkə arasında yeddinci dəfə prezident səfərləri həyata keçirilir. Bu səfər zamanı prezident İlham Əliyev və Baş nazir

Rəcəb Tayyib Ərdoğanın həmsədrliyi ilə Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 3-cü iclası keçiriləcəkdir.

Bu gün cənab prezident İlham Əliyev ilə həm təkbətək, həm də geniş tərkibdə görüşlər keçirdik. Bu görüşlərdə şübhəsiz ki, ikitərəfli münasibətlərimizlə bərabər, regional məsələləri də nəzərdən keçirdik. İkitərəfli münasibətlərimizlə bağlı çox mühüm, böyük iqtisadi layihələri, qaz, enerji, nəqliyyat – bütün bu infrastruktur layihələrini, əlbəttə ki, nəzərdən keçirdik. Eyni zamanda, regional məsələləri, Azərbaycanın milli məsələsini və bizim də milli məsələmiz olan Azərbaycanın ərazi bütövlüyü və işğal altındakı torpaqlarının azad edilməsi məsələlərini – bütün bunları müzakirə etdik. Bu məsələ də şübhəsiz ki, Türkiyə olaraq ən önəm verdiyimiz məsələlərdən biridir. İnanıram ki, gec-tez bir gün bu problem öz həllini tapacaqdır. Bütün bunların diplomatik yolla həllinə də şübhəsiz ki, çox önəm veririk. Bu məsələyə dair fikirlərimizi də hörmətli nazirlərin iştirakı ilə bölüşdük.

Türkiyənin Azərbaycana qoyduğu sərmayələr, Azərbaycanın Türkiyəyə yatırdığı investisiyalar – bütün bu məsələlər həmişə mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələrimizin güclənməsini və inkişafını sonadək dəstəkləyəcəyik. Yenə qardaşlığımızın bir göstəricisi olaraq bu gün sizlərin də şahidliyinizlə qarşılıqlı olaraq ordenləri təltifetmə mərasimi oldu.

Mən cənab prezident İlham Əliyevə Türkiyənin ən yüksək ordeni olan «Dövlət nişanı»nı təqdim etdim. Cənab Prezident isə müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin adını daşıyan «Heydər Əliyev» ordenini mənə təqdim etdi. Bütün bunlar iki ölkə arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinin şübhəsiz ki, ən yaxşı nümunələrindən biri oldu. Bu gün birlikdə Türkiyə Aerokosmik Sənayesi ilə tanışlıq olacaqdır. Axşam da, əlbəttə ki, hamılıqla bir yerdə olacağıq.

Mən bir daha dəyərli qardaşımı həm təbrik edirəm, həm də Türkiyəyə – öz doğma Vətəninizə «Xoş gəlmisiniz!» – deyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Sağ olun, əziz qardaşım!

Hörmətli prezident Abdullah Gül!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə olmağımdan çox məmnunam.

Türkiyədə gedən inkişafı görərkən biz də çox sevinirik. Türkiyə son illər ərzində böyük və uğurlu yol keçmişdir. Sizin rəhbərliyinizlə ölkəniz dünya miqyasında böyük güc mərkəzinə çevrilmişdir. Türkiyə nəinki bölgə məsələləri ilə, dünyada gedən proseslərlə bağlı öz prinsipial mövqeyini göstərir və Türkiyənin yanaşmasından, mövqeyindən çox şey asılıdır. Bu bizi sevindirir, ruhlandırır. Türkiyə nə qədər güclü olsa, Azərbaycan da bir o qədər güclü olacaqdır.

Bu gün mənim həyatımda çox əlamətdar hadisə baş verib. Mən qardaş ölkənin ən ali mükafatı olan «Dövlət nişanı» ilə təltif olundum. Mən bu təltifi görülən işlərə qiymət kimi dəyərləndirirəm. Mən çalışmışam və bundan sonra da çalışacağam ki, Türkiyə–Azərbaycan əlaqələri daim inkişaf etsin. Biz əziz qardaşım prezident Abdullah Gül ilə son illər ərzində bu birliyi möhkəmləndirmək üçün çox işlər görə bilmişik. Bu gün bizim əlaqələrimiz müttəfiqlik səviyyəsindədir. Hesab edirəm ki, Türkiyə və Azərbaycan dünya miqyasında bir-birinə ən sıx bağlı olan ölkələrdir. Bizdə olan qarşılıqlı anlaşma, bir-birinə olan dəstək çox nadir xarakter daşıyır.

Əlbəttə, bu gün biz ikitərəfli əlaqələrin müxtəlif aspektlərini müzakirə etdik. İlk növbədə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi apardıq. Mən bir daha Türkiyə dövlətinə ədalətli mövqeyinə görə minnətdarlığımı bildirdim. Türkiyə bu məsələdə daim bizim yanımızdadır, ədalətin, haqqın yanındadır. Çünki Azərbaycanın

beynəlxalq birlik tərəfindən tanınmış torpaqları uzun illərdir ki, Ermənistan tərəfindən işğal edilib. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır ki, onlar Ermənistan tərəfindən icra edilmir və beynəlxalq hüquq normaları kobudcasına pozulur. Məsələnin həlli ilə bağlı Azərbaycan öz səylərini davam etdirir. Ancaq əfsuslar olsun, Ermənistanın mövqeyi imkan vermir ki, bu məsələ öz həllini tapsın və Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Biz bu işğaldan əziyyət çəkirik. Uzun illərdir ki, 1 milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağında qaçqın, köçkün vəziyyətində yaşayır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və bu ədalətsizliklə barışmaq mümkün deyildir. Ümid edirəm ki, gələcək aylarda, illərdə bu məsələ ilə bağlı daha da ciddi addımlar atılacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir. Bir daha demək istəyirəm ki, bunu tarixi ədalət, beynəlxalq hüquq diktə edir. Əlbəttə ki, Türkiyənin dəstəyi bizim gücümüzü daha da artırır və bu dəstəyə görə minnətdarıq.

Biz bu gün bizi birləşdirən və artıq regional çərçivələrdən çıxmış, qlobal müstəviyə daxil olan layihələri – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələrini müzakirə etdik. Onların hər biri böyük bir hadisədir, böyük uğur gətirən layihələrdir. Ancaq Türkiyə və Azərbaycan birliyi, dostluğu sayəsində biz bu layihələrin reallaşmasına nail ola bilmişik. Bu gün biz daha da irəliyə baxırıq. Bu gün qarşılıqlı sərmayə qoyuluşu məsələləri uğurla öz həllini tapır və Azərbaycanın xaricdəki ən böyük sərmayələri təbii ki, Türkiyəyə yatırılan sərmayələrdir. Bu proses artıq davam edir və növbəti 5 il ərzində Türkiyə iqtisadiyyatına 15–17 milyard dollar həcmində Azərbaycan sərmayəsi qoyulacaqdır. Eyni zamanda, biz Türkiyə şirkətlərinin də Azərbaycana qoyduqları sərmayəni alqışlayırıq və iş adamları arasındakı əlaqələri dəstəkləyirik. Bu gün eyni zamanda, həmişə olduğu kimi, dostluq, qardaşlıq şəraitində digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi. Əziz qardaşımın qeyd etdiyi kimi, prezident seçkilərindən sonra ilk səfərimi Türkiyəyə etmişəm.

Bu təbiidir. Bu, artıq bir ənənədir. Əminəm ki, bu ənənə gələcəkdə də yaşayacaqdır. Bizim gücümüz birliyimizdədir, bizim birliyimiz tarix üzərində qurulubdur. Bu gün 2 müstəqil dövlət – Türkiyə və Azərbaycan bir-birini daim dəstəkləyir, bir-birinin gücünü artırır. Əminəm ki, gələcəkdə bizim işbirliyimiz, əməkdaşlığımız yüksələn xətlə inkişaf edəcəkdir.

Bir daha, əziz qardaşım, göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirirəm. Sağ olun.

## TÜRKİYƏ AEROKOSMİK SƏNAYESİ ŞİRKƏTİNİN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Noyabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül Türkiyə Aerokosmik Sənayesi Şirkətinin fəaliyyəti ilə tanış olmuşlar.*

*Azərbaycan və Türkiyə prezidentləri əvvəlcə şirkətin uçuş qülləsindən «HÜRKUŞ» əsas təlim təyyarəsinin və «T-129» hücum helikopterinin təlim uçuşlarını izlədilər.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, «Türk Uçak Sanayi Anonim Ortaklığı» 1973-cü ildə ölkənin müdafiə sahəsində xarici istehsaldan asılılığının aradan qaldırılması məqsədilə yaradılmışdır. 1984-cü ildə təməli qoyulan və Amerika–Türkiyə birgə layihəsi olan Türkiyə Aerokosmik Sənayesi Şirkəti isə Türkiyə Hava Qüvvələrinin tələbatını ödəmək məqsədilə fəaliyyətə başlamışdır. İlk vaxtlarda əsas məqsəd «F-16»ların istehsalına başlamaqla, təyyarə sistemlərinin inteqrasiyasına nail olmaq və uçuş testlərini apardıqdan sonra döyüş təyyarələrini hava qüvvələrinin istifadəsinə vermək idi. 2005-ci ildə şirkətin bütün payları türk hissədarlarına keçmiş və burada geniş yenidənqurma işləri aparılmışdır. Bu çərçivədə Türkiyə Aerokosmik Sənayesi Şirkəti fəaliyyətini daha da genişləndirmiş və aviasiya, kosmos sənayesi sistemləri inkişaf etdirilmiş, modernləşmə, sistemlərin əlaqələndirilməsi ilə bağlı bir çox nailiyyətlər qazanılmışdır. Bununla da Türkiyə Aerokosmik Sənayesi Şirkəti qardaş ölkənin mühüm texnoloji mərkəzlərindən birinə çevrilmişdir. Hazırda şirkət özündə 5 əsas strateji iş mərkəzini birləşdirir. Bundan əlavə, şirkət tərəfindən istehsal olunan məhsullarla bağlı logistik xidmət də fəaliyyət göstərir.*

*Dövlətimizin başçısı şirkətin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim edildi.*

*Prezident İlham Əliyev «HÜRKUŞ» təlim təyyarəsinin texniki göstəriciləri ilə tanış oldu. Qeyd edildi ki, son illərdə bu təlim təyyarəsində modernləşdirmə işləri aparılmışdır.*

*Dövlətimizin başçısına, həmçinin «T-129» hücum helikopterinin texniki göstəriciləri barədə də məlumat verildi. Qeyd olundu ki, Türkiyə Aerokosmik Sənayesi Şirkətinə daxil olan müəssisələr 274 min kvadratmetri qapalı olmaqla, ümumilikdə 5 milyon kvadratmetr sahəni əhatə edir. Həyata keçirdiyi layihələri və çoxşaxəli sərmayələri ilə Türkiyənin aviasiya və kosmos sənayesi mərkəzi olan bu qurum istehsal etdiyi yüksək texnologiyaya malik məhsulları ilə dünyada böyük nüfuz qazanmışdır. Zəruri, modern cihaz və avadanlıqlarla təchiz olunmuş müasir təyyarə istehsalı müəssisələrini, hissə istehsalı ilə yanaşı, təyyarə quraşdırılması, modern laboratoriya və uçuş test sistemlərini birləşdirən, bir sözlə, geniş istehsal imkanlarına malik Türkiyə Aerokosmik Sənayesi Şirkəti ekoloji sahədə də bir çox layihələri reallaşdırır. Hazırda şirkətin müəssisələrində pilotsuz təyyarələrin istehsalı həyata keçirilir.*

*Azərbaycan prezidenti İlham Əliyevə pilotsuz «ANKA» təyyarəsi barədə məlumat verildi. Bildirildi ki, Türkiyə Aerokosmik Sənayesi Şirkətinə daxil olan kosmos qrupunda dünyada diqqət çəkən istehsal prosesi həyata keçirilir. Burada hərbi məqsədlə «Göytürk-1» və Türkiyənin ilk milli yer kəşfiyyat peyki olan «Göytürk-2»nin istehsalı baş tutmuşdur. Bundan əlavə, 1987-ci ildən başlayaraq şirkətdə «F-16» döyüş təyyarələrinin istehsalı həyata keçirilir ki, əsas məqsəd yerli tələbatı ödəmək və bu təyyarələrin xaricə satışına nail olmaqdır. Artıq Yaxın Şərqdə bu təyyarələrin əsas istehsalçısı olan Türkiyə onların modernləşdirilməsi proqramını da uğurla reallaşdıran ölkə kimi tanınır. Eyni zamanda, hərbi təyinatlı helikopterlərin istehsalında və onların modernləşdirilməsində də mühüm nəticələr əldə edilmişdir. Bütün bunlarla yanaşı, şirkət*

*beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrə məxsus təyyarə markalarının hissə və avadanlığının istehsalında da yaxından iştirak edir.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Türkiyə Böyük Millət Məclisinin Sədri Cəmil Çiçək ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında mövcud dostluq və qardaşlıq münasibətləri, bu əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıldı. İki ölkə arasındakı münasibətlərin çox güclü təməlinin olduğu qeyd edildi, əlaqələrimizin ortaq tarixə və mədəniyyətə əsaslandığı vurğulandı.*

*Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafına çox böyük diqqət yetirildi. Türkiyə Böyük Millət Məclisinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləməsinin, iki ölkənin parlamentlərinin bundan sonra da səmərəli əməkdaşlığının böyük əhəmiyyəti olduğu qeyd edildi. Həmçinin qardaş ölkələrimizin hər zaman bir-birinin yanında olacağı xüsusi vurğulandı.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Ankara*

*12 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində noyabrın 12-də Xarici İşlər naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında digər sahələr kimi, siyasi sahədə də əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, beynəlxalq təşkilatlar çərçivəsində birgə əməkdaşlığın önəmi vurğulandı. Ölkələrimiz arasındakı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Ankara*

*12 noyabr 2013-cü il*

*Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün və xanımı Hayrünnisə Gülün adından noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verilmişdir.*

*Dövlət başçıları rəsmi naharda çıxış etdilər.*

### Türkiyə prezidenti Abdullah Gülün çıxışı

Hörmətli Prezident, əziz qardaşım!

Möhtərəm xanım əfəndi!

Hörmətli qonaqlar!

Zati-alilərini, möhtərəm Mehriban xanımı və nümayəndə heyətinizin mötəbər üzvlərini bir daha Türkiyədə qonaq qəbul etməkdən böyük məmnunluq duyuruq.

2007-ci ildə prezident seçildikdən sonra mən də o zaman ilk səfərimi Azərbaycana etmişdim və böyük bir qonaqpərvərliyi o gündən bu günə hər gedişimizdə görürük. Siz də eynilə bundan tam 5 il əvvəl olduğu kimi, prezident seçkilərindən sonra ilk rəsmi səfərinizi Türkiyəyə həyata keçirirsiniz. Türkiyəni seçməyiniz heç şübhəsiz təsadüfi deyildir, nəzakətdən daha dərin bir mənaya sahibdir. Bu seçimi əbədi və əzəli qardaşlığımızın nişanəsi, strateji ortaqlığımızın parlaq təzahürü kimi dəyərləndiririk. Bu gözəl vəsilə ilə ölkəmizə gələn sizi – dəyərli qardaşlarımızı ən səmimi hisslərimlə salamlayıram.

Azərbaycan hamımızın Vətənidir, tarix boyunca millətimizin könlündə çox müstəsna bir yerə sahib olmuşdur. Qəlblərimiz

azərbaycanlı qardaşlarımızla hər zaman birlikdə döyünür. Sevinciniz – sevincimizdir, kədəriniz – kədərimizdir, eyni mahnılarla təsirlənir, eyni şairlərin şeirləri ilə həyəcanlanırıq. Füzulini oxuyarkən siz necə dərin bir məna verirsinizsə, biz də eyni şəkildə anlayırıq. Könüldə, fikirdə və işdəki bu ortaqlığımızın naxış-naxış toxunduğu can Azərbaycanın gözəl havasını və ətrini ikinci vətəniniz Türkiyəyə gətirən sizə – dəyərli qonaqlarımıza ən səmimi duyğularımla bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

Hörmətli Prezident, dəyərli qonaqlar!

Bundan tam 20 il əvvəl Azərbaycana səfər edən rəhmətlik prezident Turqut Özal Bakı Universitetində etdiyi çıxışında «acı və həsrət dolu illəri geridə qoyduq, bu yeni dövr birlik və bərabərlik içində irəliyə doğru böyük addımlar atmaq üçün tarixi bir fürsət təşkil etməkdədir» demişdi. Geriyə dönüb baxarkən məmnuniyyətlə görürük ki, Türkiyə və Azərbaycan bu tarixi fürsəti çox yaxşı dəyərləndirmişlər. Bunda heç şübhəsiz, Zati-alinizin son 10 ildə göstərdiyi güclü liderliyin də çox böyük təsiri vardır.

Qardaş ölkələrimiz qısa müddətdə böyük inkişaf əldə etmişdir. Siyasi və sosial sabitliklərini iqtisadi və bəşəri zənginliyə çevirmişlər. Ölkələrimiz ümummilli lider, mərhum Heydər Əliyevin «bir millət – iki dövlət» kəlamı ilə güclərini xalqlarımızın və bölgəmizin xeyrinə olacaq şəkildə birləşdirmişlər. Həyata keçirildiyi dövrdə əsrin layihələri adlandırılan Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum layihələri bu düşüncə və dinamizmin məhsuludur. Bu kəmərlər əmin-amanlıq anlamına gələn Xəzərdən dünyaya sadəcə, neft və qaz deyil, sülh, rifah və sabitlik də daşımaqdadır.

Bu müştərək baxışımızın miqyasını daha da genişləndirməkdə qərarlıyıq. Müasir İpək yolu adlandırılan, orta xəttin ən mühüm hissəsi olan Bakı–Tbilisi–Qars dəmir yolu, inşallah, yaxın vaxtlarda tamamlanacaqdır. Xəttin bir başqa önəmli hissəsi olan «Mərmərə» dəmir yolunun açılışını isə oktyabrın 29-da

reallaşdırdıq. Çox yaxın vaxtlarda bu layihəyə əsasən London ilə Pekin Xəzər üzərindən dəmir yolları ilə bir-birinə bağlanacaqdır.

Eyni şəkildə «Cənub Qaz Dəhlizi»nin çox önəmli bir hissəsi olan Trans–Anadolu boru kəməri layihəsini sürətlə həyata keçirməliyik. Heç şübhəsiz, bunlar Xəzərin dünya ilə birliyini möhkəmləndirəcək, XXI yüzilliyə möhürünü vurmağa layiq layihələrdir. Bundan sonra qarşımızda duran başlıca məqsəd kədəri də, sevinci də ortaq olan qardaş ölkələrimiz arasındakı strateji müttəfiqliyi Zati-alinizin liderliyi ilə yeni layihələrlə daha da irəliyə aparmaqdır.

Cənab Prezident, əziz qardaşım, hörmətli qonaqlar!

Azərbaycan ikitərəfli münasibətlərimizdə olduğu kimi, türk respublikaları arasındakı əməkdaşlıq çərçivəsində inkişaf etdirilməsinə yönəlmiş səylərimiz baxımından da aparıcı bir ölkədir. Bu mənada katibliyi İstanbulda yerləşən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması 2009-cu ildə Naxçıvanda keçirilən zirvə görüşündə reallaşmışdır. Azərbaycan bu ilin avqustunda Qəbələdə ev sahibliyi etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə görüşündə sədrliyi təhvil almışdır. Qarşıdakı 1 il müddətində Azərbaycan böyük əhali və coğrafiya ilə zəngin təbii və bəşəri sərvətlərə malik olan Türk dünyasının qlobal miqyasda bir diqqət mərkəzinə çevrilməsinə yönəlmiş müştərək səylərimizə rəhbərlik edəcəkdir.

Türk respublikaları arasında kökləri tarixi keçmişimizə söykənən dostluq və qardaşlıq əlaqələrinin təməlində ortaq dil, din, tarix, mədəniyyət və dəyərlərimiz dayanmaqdadır. Bununla birlikdə, bu dostluq və qardaşlığın konkret layihələr əsasında müştərək maraqlarımıza cavab verəcək bir ortaqlığa çevrilməsi üçün yeni baxışlı, uzaqgörən liderlərə hər zaman ehtiyac vardır. Bu baxımdan Zati-alinizin oynadığı rol hər cür təqdirəlayiqdir.

Cənab Prezident, hörmətli qardaşım, əziz qonaqlar!

Çox xoşdur ki, Qafqaz İslam Ordusunun erməni və bolşevik işğalı altındakı Bakını xilas etməsinin 95-ci və Azərbaycanın müstəqilliyə yenidən qovuşmasının 22-ci ildönümündə dostluq,

qardaşlıq və işbirliyimizin qızıl illərini yaşayırıq. Böyük şair Bəxtiyar Vahabzadə illər öncə yazdığı bu mənalı misralarda sanki əlaqələrimizin bu gününü və sabahını ifadə edir:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu
Azərbaycan, Türkiyə...

Bu münasibətlə Zati-alinizi, hörmətli xanımınızı və nümayəndə heyətinizin dəyərli üzvlərini Türkiyədə qonaq qəbul etməkdən duyduğum məmnunluğu bir daha ifadə edir, Türkiyə–Azərbaycan əlaqələrinin parlaq gələcəyinə olan sarsılmaz inamımla bütün azərbaycanlı qardaşlarımıza ən səmimi salamlarımı, sevgilərimi və ən xoş arzularımı çatdırıram. Qayıdandan sonra bütün türk xalqının salamlarını və sevgilərini bütün azərbaycanlı qardaşlarımıza çatdırmağı Sizdən xahiş edirik.

Bir daha xoş gəlmisiniz!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz qardaşım, hörmətli prezident cənab Abdullah Gül!
Hörmətli Hayrünnisə xanım!
Əziz qardaşım, hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan!
Hörmətli Əminə xanım!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətinə qardaş Türkiyədə göstərilən qonaqpərvərliyə görə bir daha sizin hamınıza dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün mənim həyatımda tarixi bir gündür. Bu gün mən qardaş ölkənin ən ali mükafatı olan «Dövlət nişan»ı ilə təltif olunmuşam. Bu mənim üçün böyük şərəfdir, böyük xoşbəxtlikdir. Elə başa düşürəm ki, bu təltif gördüyüm işlərə verilən qiymətin təzahürüdür.

Mən prezident kimi, çalışmışam ki, Türkiyə–Azərbaycan əlaqələri daim inkişaf etsin, bütün sahələri əhatə etsin. Çox

xoşbəxtəm ki, mənim Türkiyədə prezident və Baş nazir kimi qardaşlarım vardır. Bizim dostluğumuz, qardaşlığımız sarsılmazdır. Əldə edilmiş bütün uğurların təməlində məhz bu duyğular, bu amillər dayanır.

Türkiyə və Azərbaycan xalqları əsrlər boyu bir yerdə olmuşlar, yaşamışlar, yaratmışlar. Sonra tarix belə buyurdu ki, biz bir-birimizdən ayrı düşdük. 70 il ərzində Azərbaycan Sovet İttifaqının tərkibində yaşayıb. Əlaqəmiz yox idi, heç bir ünsiyyətimiz də yox idi. Ancaq xalqlarımızın qəlbində yaşayan sevgi, məhəbbət, qarşılıqlı hörmət bizi bir-birimizdən ayrı düşməyə qoymamışdır. Təsadüfi deyil ki, Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə–Azərbaycan əlaqələri quruldu. Türkiyə bizim müstəqilliyimizi tanıyan ilk ölkə olmuşdur və demək olar ki, müstəqilliyimizin ilk illərindən Türkiyə–Azərbaycan əlaqələri xüsusi xarakter daşımağa başlamışdır. Bu gün mən tam əminəm ki, dünyada ikinci belə ölkələr yoxdur ki, bir-biri ilə bu qədər sıx bağlı olsun. Bu bağlılıq tarixdən gələn ismarıcdır. Bu bağlılıq ortaq mədəniyyət, ortaq tarix, etnik köklər üzərində qurulub. Biz isə öz siyasətimizlə bu birliyi daha da möhkəmləndiririk. Bu gün müstəqil Azərbaycan uğurla inkişaf edir və Türkiyənin uğurla inkişafına ürəkdən sevinir.

Mən Türkiyədə dəfələrlə olmuşam. Bu, prezident kimi, mənim 16-cı səfərimdir. Ancaq Ankarada sonuncu dəfə 5 il bundan öncə olmuşam. Səmimi-qəlbdən Sizi Ankarada görülən işlərlə bağlı təbrik etmək istəyirəm. Ankara müasir, gözəl şəhərə çevrilmişdir, gözəl binalar tikilmişdir. Ankara böyük sənaye mərkəzinə çevrilmişdir. Ankarada gedən işlər Türkiyədə gedən işlərin təzahürüdür. Bizi sevindirən odur ki, bu gün Türkiyə dünya çapında güc mərkəzidir, cəlbedici güc mərkəzidir. Türkiyə öz siyasəti, diplomatiyası ilə dünyada çoxlu dostlar qazanmışdır. Bu o qədər də asan məsələ deyildir. Türkiyə məhz xoş niyyəti ilə, düşünülmüş siyasətlə, qarşılıqlı anlaşma ilə böyük hörmət qazana bilmişdir. Bu gün dünya miqyasında Türkiyənin çox böyük nüfuzu, hörməti vardır. Hətta

böhranlı illərdə Türkiyə iqtisadiyyatı inkişaf etmişdir. Dünyada hökm sürən maliyyə və iqtisadi böhran Türkiyəyə heç bir təsir etməmişdir. Çünki Türkiyə hökumətinin düşünülmüş, müdrik siyasəti vardır. Bu siyasət nəticəsində bu gün Türkiyə dünya birliyinin aparıcı ölkələrindən biridir, «Böyük iyirmilik»in üzvüdür. Türkiyə iqtisadiyyatı getdikcə artır, əhalisi artır və artacaqdır. Türkiyənin gücü bizim gücümüzdür. Biz bir-birimizi daim dəstəkləmişik, dəstəkləyirik. Bizim gücümüz birliyimizdədir. Bu gün əziz qardaşım prezident Abdullah Gülün dediyi kimi, Türkiyə–Azərbaycan birliyi türkdilli dövlətlərin birliyini də şərtləndirir. Mən çox şadam ki, biz artıq türkdilli dövlətlər formatı çərçivəsində çox önəmli qərarlar qəbul edirik. O qərarlar ki, bizim xalqlarımızı gələcəkdə daha da birləşdirəcəkdir. Əlbəttə, bizi birləşdirən tarix və siyasi maraqlar çox güclü amillərdir. Qarşılıqlı sərmayə qoyuluşu, enerji, nəqliyyat layihələrimiz, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi və «Mərmərə» layihəsinin başa çatması tarixi hadisələrdir. Fürsət düşmüşkən, «Mərmərə» layihəsinin icrası münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm.

Biz beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik. Biz regional müstəvidə bir-birimizin yanındayıq. Türkiyə və Azərbaycan bu gün dünya çapında önəmli bir amildir.

Bizim gücümüz ancaq və ancaq artacaqdır. Çünki ölkələrimizin potensialı kifayət qədər güclüdür, biz səylərimizi birləşdiririk. XXI əsr türk dünyası əsri olacaqdır. Bunda heç bir şübhə yoxdur. Sadəcə olaraq, biz öz strateji addımlarımızı düzgün planlaşdırmalıyıq, hədəflərimizə doğru inamla addımlamalıyıq. Elə etməliyik ki, Türkiyə–Azərbaycan birliyi daim inkişaf etsin.

Bizim dostluğumuz sarsılmazdır, əbədidir. Bizi bu gün böyük layihələr, siyasi maraqlar, ortaq hədəflər birləşdirir. Ancaq bütün bu amillərin təməlində xalqlarımızın bir-birinə olan məhəbbətidir, hörmətidir, biri-birimizə olan bağlılıqdır.

Türkiyə–Azərbaycan birliyi XXI əsrdə bizim coğrafiyamızda bir çox məsələləri həll edəcəkdir. Bu birliyi möhkəm-

ləndirmək üçün biz hamımız çalışmalıyıq, çalışırıq. Bu gün apardığımız danışıqlar və sabah aparılacaq danışıqlar birliyimizi daha da möhkəmləndirəcəkdir.

Bir daha mənə göstərilən qonaqpərvərliyə və hörmətə görə sizə minnətdaram. Sizi əmin etmək istəyirəm ki, mən bu şərəfli adı ləyaqətlə daşıyacağam. Öz fəaliyyətimdə bundan sonra da Türkiyə–Azərbaycan birliyinin möhkəmləndirilməsi üçün öz səylərimi əsirgəməyəcəyəm.

Yaşasın Türkiyə! Yaşasın Azərbaycan!

## ANKARADA YENİDƏN QURULAN HEYDƏR ƏLİYEV PARKI İLƏ TANIŞLIQ

*Ankara*

*13 noyabr 2013-cü il*

*Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Ankarada yenidən qurulan Heydər Əliyev parkı ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə gül dəstəsi qoyaraq, xatirəsini yad etdi.*

*Azərbaycan dövlətinin başçısı parkla tanış oldu.*

*Türkiyənin müxtəlif şəhərlərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan onlarla küçə, park, meydan, təhsil müəssisəsi vardır. Ulu öndərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərdən biri də Türkiyə paytaxtında yaradılan bu parkdır. Hələ 2004-cü ildə salınmış parkda bir müddət əvvəl əsaslı yenidənqurma işləri aparılıb. Nəticədə, bu park Türkiyə paytaxtının ən gözəl istirahət mərkəzlərindən birinə çevrilib.*

*Heydər Əliyev parkının konsepsiyası bir növ dahi şəxsiyyətin mənalı ömür yolunu və zəngin siyasi fəaliyyətini, eyni zamanda, bu fəaliyyətin ən böyük əsəri olan müstəqil Azərbaycanın bugünkü sürətli inkişafını və ölkəmizin qardaş Türkiyə ilə münasibətlərinin yüksək səviyyəsini əks etdirir.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, parkın giriş meydanının ümumi sahəsi 19,23 kvadratmetrdir və bu rəqəm ulu öndərin anadan olduğu 1923-cü ilin rəmzidir. Buradakı şəlalə yaşam rəmzi kimi düşünülmüşdür.*

*Park 8 hektar sahəni əhatə edir. Bu istirahət məkanındakı şərait – mərasim meydanı, idman meydançası, uşaq əyləncə sa-*

*həsi bütün yaş* qrupundan olan *şəhər sakinlərinin öz zövqünə uyğun istirahət etmələri üçün* imkanlar *yaradır. Təbiətin qorunması, ətraf mühitə qayğı Heydər Əliyevin xüsusi önəm* verdiyi *sahələrdən olmuşdur.* Ulu *öndərin adını* daşıyan parkda bu *işə xüsusi diqqət yetirilıb. Belə* ki, burada ilk *dəfə* olaraq *xüsusi* texnologiyadan *istifadə edilərək, «ağıllı* drenaj sistemi» adlanan yeni sistem *tətbiq* edilib.

*Azərbaycan* Prezidentinin *diqqətinə çatdırıldı* ki, parkda *aparılan işlərdə Ankaranın* iqlim *şəraiti də nəzərə alınıb və yenidənqurma işlərində ən yüksək keyfiyyətə* malik materiallardan *istifadə* olunub. *Bütövlükdə incə zövqlə görülən işlər nəticəsində* ulu *öndər Heydər Əliyevin adını daşıyan* parkda *ankaralıların və şəhərin qonaqlarının mənalı* istirah*əti üçün hər cür şərait yaradılıb. Parkın girişində ağ mərmərdə əks edilən «Heydər Əliyev parkı» sözləri axşam saatlarında Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılır.*

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Ankara*

*13 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 13-də Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan qarşıladı.*

*Görüşdə ikitərəfli əlaqələrimizin, dostluq və qardaşlıq münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə budəfəki rəsmi səfərinin əhəmiyyəti qeyd olundu. Ölkələrimizin qlobal layihələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığının genişləndirilməsinin, münasibətlərimizin möhkəmlənməsinin regional əməkdaşlıq baxımından önəmi vurğulandı və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

# TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ ÜÇÜNCÜ İCLASINDA İŞTİRAK

*Ankara*

*13 noyabr 2013-cü il*

*Noyabrın 13-də Ankarada Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının üçüncü iclası keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan iclasda iştirak etdilər.*

*İclasda Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın bütün sahələrdə – siyasi, iqtisadi, enerji və digər sahələrdə dinamik inkişaf etdiyi bildirildi. İkitərəfli layihələrin uğurla həyata keçirilməsinin əhəmiyyəti qeyd olundu.*

*Ölkələrimizin birgə reallaşdırdığı layihələrin icrası ilə bağlı fikir mübadiləsinin aparıldığı iclasda Azərbaycan və Türkiyənin müvafiq nazirlikləri arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Ankara*

*13 noyabr 2013-cü il*

*Azərbaycan* Respublikasının Prezidenti İlham Əliyevin *Türkiyəyə rəsmi səfəri çərçivəsində noyabrın 13-də* Ankarada *Azərbaycan və Türkiyə hökumətləri arasında sənədlərin im-zalanması mərasimi* olmuşdur.

*Azərbaycan* Respublikasının Prezidenti İlham *Əliyev və Türkiyə* Respublikasının *Baş* naziri *Rəcəb* Tayyib *Ərdoğan «Azərbaycan* Respublikası *və Türkiyə* Respublikası *arasında Yüksək Səviyyəli* Strateji *Əməkdaşlıq Şurasının* 2013-cü il 13 noyabr *tarixli iclasının nəticələrinə* dair *Birgə Bəyanat»ı imzaladılar.*

*«Azərbaycan və Türkiyə hökumətləri arasında* elm *və texno-logiya sahəsində əməkdaşlıq haqqında* protokol*»u Azərbay-canın Türkiyədəki səfiri* Faiq *Bağırov və Türkiyə* Elmi *və* Tex*noloji Araşdırma Təşkilatı –TUBİTAK-ın sədri Yücəl* Altınba*şaq imzaladılar.*

*«Azərbaycanın Rabitə və İnformasiya* Texnologiyaları *Na-zirliyi ilə Türkiyənin* Elm, *Sənaye və* Texnologiya Nazirliyi *arasında* elm, texnologiya, *sənaye və sahibkarlığın gücləndi-rilməsinə* dair *Anlaşma* Memorandumu*»nu Azərbaycanın* Rabitə *və İnformasiya* Texnologiyaları naziri *Əli* Abbasov *və Türkiyənin Nəqliyyat, Dənizçilik və* Kommunikasiya naziri *Binəli Yıldırım imzaladılar.*

*«Azərbaycan və Türkiyə hökumətləri arasında beynəlxalq* kombin*ə edilmiş yükdaşımaları haqqında* Saziş*»i Azərbaycanın Nəqliyyat* naziri *Ziya Məmmədov və Türkiyənin Nəqliyyat, Dənizçilik və* Kommunikasiya naziri *Binəli Yıldırım* imzaladılar.

*«Azərbaycan və Türkiyə hökumətləri arasında təhlükəsizlik üzrə əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Türkiyənin Daxili İşlər naziri Muammər Gülər imzaladılar.*

*«Azərbaycan və Türkiyə hökumətləri arasında işçi qüvvəsinin qarşılıqlı əmək fəaliyyətinə dair Saziş»i, həmçinin «Azərbaycan və Türkiyə hökumətləri arasında əmək, sosial müdafiə və məşğulluq sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov və Türkiyənin Əmək və Sosial Müdafiə naziri Faruk Çəlik imzaladılar.*

# TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Ankara*

*13 noyabr 2013-cü il*

*Noyabrın 13-də hökumətlərarası sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı olmuşdur.*

*Əvvəlcə Turkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış etdilər.*

## Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Hörmətli prezident, əziz qardaşım İlham Əliyev!

Hörmətli nazirlər!

Dəyərli mətbuat nümayəndələri!

Dəyərli iştirakçılar, xanımlar və cənablar!

Sizlərə «bir millət – iki dövlət» idealının nümayəndələri olan 2 ölkə – Türkiyə–Azərbaycan xalqlarının hazırda təmsilçiləri olaraq bu gün keçirdiyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasından sonra 7 müqavilə və protokolla nəticələndirdiyimiz görüşlərin əhəmiyyətini qeyd edir və sizləri salamlayıram.

Bildiyiniz kimi, cənab İlham Əliyev 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə prezidentlik vəzifəsinə böyük səs çoxluğu ilə 3-cü dəfə seçilmişdir. Bu münasibətlə qardaşım cənab İlham Əliyevi hamınızın qarşısında bir daha ürəkdən təbrik

edirəm və Azərbaycanın gələcəyi naminə bu seçkilərin xeyirlərə nəsib olmasını, uğurlarla dolu olmasını diləyirəm.

Məmnunedici fakt olaraq, Azərbaycandakı prezident seçkilərini Türkiyədən 35 parlament üzvünün izlədiyini xatırlatmağın faydası olduğunu düşünürəm. Türkiyə və Azərbaycan Qafqazda sülhün, sabitlik və rifahın təmin olunması baxımından çox ciddi səylər göstərir. Bu gün həm ikitərəfli, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşlərdə bütün bu məsələləri nəzərdən keçirmək imkanı əldə etdik.

Həm hərbi, həm siyasi, həm iqtisadi, həm ticarət, həm də mədəniyyət sahələrində gələcəyə yönəlmiş hansı işləri görəcəyik, bu günə qədər hansı işləri gördük – bunların hamısını müzakirə etdik. Hazırda 2 ölkə arasında ticarətin həcmi 4,2 milyard dollara çatmışdır. Gələcəkdə bunu 15 milyard dollara çatdırmaq üçün işlərimizi sürətləndirməyi davam etdirəcəyik. Xüsusilə qeyd etmək istəyirəm ki, dünən həm prezident Abdullah Gül, həm qardaşımız prezident İlham Əliyev mühüm strateji obyektlərimizə baxış keçirərkən bu sahədə də hansı işləri görə biləcəyimizlə bağlı yenə də fikir mübadiləsi apardılar.

Əlbəttə ki, ölkələrimiz arasında strateji əhəmiyyətə malik olan enerji sahəsində addımlar atırıq və atacağıq. Bunlardan biri bilirsiniz ki, hazırda müzakirə edilən TANAP layihəsidir. Bu tarixi layihəni ilin sonuna qədər başa çatdıraraq, inşallah, 2014-cü ilin əvvəlində təməlini qoyaraq bu istiqamətdə işləri başlayacağıq. Təbii ki, TANAP-dan başqa, hazırda bir çox işlər görülür. Məlumdur ki, Bakı–Tbilisi–Ceyhan layihəsi daha əvvəl açılışını etdiyimiz bir layihə idi. Bu, Azərbaycan neftinin Ceyhan limanından dünya bazarlarına daşınması layihəsi idi. Bu layihə uğurla başlandı və hazırda uğurlu bir şəkildə davam edir.

Digər mühüm addım, bildiyiniz kimi, «Şahdəniz» layihəsidir ki, bu layihə də eyni şəkildə davam edir. Daha bir addım Bakı–Tbilisi–Qars dəmir yolu layihəsidir ki, bu layihə də sürətli şəkildə davam edir. Bu layihədə də işlər sona yaxınlaşmadadır. Onun da açılışını etməklə sanki dəmir yolu şəbəkəsi ilə

ölkələrimizi hörəcəyik. «Mərmərə» layihəsi ilə bunlar birləşəcəkdir. «Mərmərə» layihəsi ilə birləşdikdən sonra da Bakı–Tbilisi–Qars dəmir yolu xəttini əhatə edəcək şəkildə Pekindən Londona qədər dəmir yolu şəbəkəsi olacaq. İğdırdan Naxçıvana təbii qaz kəmərinin çəkilməsi ilə əlaqədar görəcəyimiz işlərlə bağlı da müzakirələr aparıldı. Hətta İğdır ilə Naxçıvan arasında dəmir yolu şəbəkəsinin yaradılması ilə bağlı məsələ müzakirə edildi. Bununla əlaqədar işlər, inşallah, başlayır. Bu addımları da qəti şəkildə atırıq.

Təbii ki, Dağlıq Qarabağ münaqişəsi hazırda Azərbaycanın hansı səviyyədə problemidirsə, bizim də o səviyyədə problemimizdir. Bu bizim üçün Qafqazda sülhün, qardaşlığın, təhlükəsizliyin təmin olunması baxımından çox önəm verdiyimiz bir məsələdir, xarici siyasətimizdə əsas məqsədlərdən biridir. Bu məsələni diqqətdən kənarda saxlamaq mümkün deyildir. Bunun tezliklə, sülh və dialoq yolu ilə həll edilməsi üçün Azərbaycana şəksiz dəstəyimiz davam edir. Təbii ki, burada ATƏT-in Minsk qrupunun üzərinə çox böyük məsuliyyət düşür. Yəni ABŞ, Rusiya, Fransa bu işi daha dərindən, ciddi şəkildə, davamlı surətdə diqqətdə saxlamalıdırlar. Türkiyə olaraq biz nələr edə biləcəyimizi müzakirə etdik. Davamlı sülhün necə təmin olunacağı məsələlərini aramızda dəyərləndirdik.

Əziz dostlar, bu gün məmnuniyyətlə qeyd etməliyəm ki, Azərbaycan ilə siyasi əlaqələrimiz mükəmməl və problemsiz şəkildə davam edir. Cənab İlham Əliyevlə görüşümüzdə ticarət əlaqələrimizlə yanaşı, siyasət və mədəniyyət sahələrində münasibətlərimizin genişləndirilməsinin əhəmiyyətini xüsusilə vurğuladıq. Avrasiyanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edən enerji layihələrindən danışdıq. Azərbaycanın təbii qazının veriləcəyi Balkanlarda, xüsusilə də bölgədəki ölkələrdə hansı işləri birgə görə biləcəyimizi nəzərdən keçirdik.

Türkiyə və Azərbaycan olaraq Trans–Anadolu və «Cənub Qaz Dəhlizi» layihələrinin həyata keçirilməsi məsələsində ciddi mövqe nümayiş etdirməklə fikirlərimizi bildirdik. Təbii ki,

strateji əməkdaşlığımızın mühüm layihələrindən biri olan bu məsələnin diqqətdə saxlanılması barədə fikirlərimizi bölüşdük.

«Mərmərə» layihəsi ilə birgə Bakı–Tbilisi–Qars dəmir yolu xətti layihəsi Qərbi Avropadan çıxan bir qatarın birbaşa Xəzər sahillərinə, oradan isə Aktau və Türkmənbaşı limanlarından Pekinə çatmasını da mümkün edəcəkdir. Bu da təbii ki, mühüm bir addımdır.

Bugünkü görüşlərimizdə, həmçinin Naxçıvanla bağlı məsələni də müzakirə etdik. Bu məsələ bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Arzu edirəm ki, Dağlıq Qarabağ münaqişəsi tezliklə sülh yolu ilə həll olunsun. Azərbaycanın işğal altındakı bölgələri azad ediləndən sonra Naxçıvanın nəqliyyat problemi aradan qalxacaqdır. Xüsusən də dəmir yolu xəttinin çəkilməsi həm Naxçıvanın nəqliyyat probleminin həllinə, həm də bölgədə sülhə çox ciddi töhfələr verəcəkdir.

Bugünkü toplantımızda xüsusilə qardaşım prezident İlham Əliyevə bir daha minnətdarlıq edirəm. Azərbaycanda fəaliyyət göstərən iş adamlarımızdan indiyə qədər alınan vergi rüsumları 1270 dollar idi. Bu məsələni qarşı tərəfə çatdıranda müzakirədə çox fərqli bir təkliflə çıxış edib «bunu 50 dollara endirək» dedilər. Beləliklə, bunu 50 dollara qədər endirdik. Bir az sonra da bu saziş ayrıca imzalanacaqdır.

Xüsusilə bu səmimiyyətə, görülən işlərə görə bir daha minnətdarlığımı bildirirəm. Bu səfərin hər iki ölkə üçün xeyirli olmasını diləyirəm.

Daha əvvəllər də müzakirə etdiyimiz viza məsələsinə gəldikdə, bu məsələni xüsusilə iqtisadiyyat nazirlərimiz nəzarətdə saxlayacaqlar. Viza alınmasının həm elm adamları, həm tələbələr, həm də iş adamları üçün çətinlik yaratmaması məsələsinin iqtisadiyyat nazirlərimiz tərəfindən dəyərləndirilməsini müzakirə etdik. Planlı olaraq, bu istiqamətdə ilk addımları daha çox iş adamlarımıza görə atacağıq.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əziz qardaşım, hörmətli cənab Baş nazir!
Hörmətli xanımlar və cənablar!
Hörmətli mətbuat nümayəndələri!

İlk növbədə, əziz qardaşım, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Qardaş Türkiyədə yenidən olmağımdan çox məmnunam. Prezident seçkiləri ilə bağlı təbrikinizə görə də minnətdaram. Təbii ki, prezident seçkilərindən sonra ənənəvi olaraq ilk rəsmi səfərim Türkiyəyə edilən səfərdir. Bu bir ənənədir. Bu ənənəni biz yaratdıq. Əminəm ki, bizdən sonra gələnlər də bu ənənəyə sadiq qalacaqlar. Bu belə də olmalıdır. Çünki Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir. Bəlkə də dünyada ikinci belə ölkələr tapmaq çətindir ki, bir-birinə bu qədər bağlı olsun, bir-birinə bu qədər dəstək versin. Bu dəstək bizi gücləndirir.

Türkiyənin uğurlu inkişafı bizim inkişafımızdır, Türkiyənin gücü bizim gücümüzdür. Bu gün mən əziz qardaşım Baş naziri son illər ərzində onun liderliyi ilə Türkiyədə əldə edilmiş bütün uğurlar münasibətilə ürəkdən təbrik etdim. Bunlar tarixi uğurlardır, böyük uğurlardır.

Son 10 il ərzində Türkiyə böyük və şərəfli yol keçmişdir, ağır iqtisadi vəziyyətdən şərəflə çıxa bilmişdir. Bu gün dünya çapında Türkiyə güclü dövlətlər sırasındadır, «Böyük iyirmilik»in üzvüdür. Dünyada gedən proseslərə Türkiyənin təsir imkanları getdikcə artır, gələcəkdə daha da artacaqdır. Türkiyənin razılığı olmadan bölgəmizdə heç bir təşəbbüs həyata keçirilə bilməz. Bu bizi sevindirir, bizi gücləndirir. Biz də öz növbəmizdə çalışırıq ki, Türkiyə–Azərbaycan əlaqələri bundan sonra da yalnız yüksələn xətlə inkişaf etsin.

Strateji Əməkdaşlıq Şurasının bugünkü toplantısı da bu birliyin təzahürüdür. Cənab Baş nazirin dediyi kimi, toplantı əsnasında 2 mühüm məsələ bir an içərisində öz həllini tapmışdır. Bu onu göstərir ki, bizim bir-birimizə olan hörmət,

məhəbbət, bağlılıq o qədərdir ki, istənilən məsələ asanlıqla öz həllini tapa bilər. Biz çalışırıq və çalışmalıyıq ki, həm dövlətlərarası əlaqələr, iş adamları arasındakı əlaqələr, mədəni əlaqələr inkişaf etsin və eyni zamanda, insanlar arasında olan bağlılıq daha da sıx olsun.

Tale elə buyurdu ki, 70 il ərzində biz bir-birimizdən ayrı düşdük. Ancaq xalqlarımızın qəlbində olan sevgini o ayrılıq söndürə bilmədi. Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra dərhal Türkiyə ilə əlaqələr qurdu. Türkiyə müstəqilliyimizi tanıyan ilk ölkə oldu və o gündən bu günə qədər biz daim Türkiyənin dəstəyini hiss edirik. Bu bizə əlavə güc verir. Xüsusilə bizim üçün ən vacib olan məsələdə – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsində biz daim Türkiyəyə arxalanırıq, güvənirik. Əminik ki, Türkiyə bu məsələdə daim bizim yanımızda olacaqdır. Bildiyiniz kimi, uzun illərdir ki, torpaqlarımız işğal altındadır, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra edilmir və ədalətsizlik davam edir.

Bu gün bəzi hallarda Təhlükəsizlik Şurasının fəaliyyətsizliyi haqqında söhbət aparılır, yəni qərar qəbul etməməkdə suçlandırılır. Amma bizim məsələmizlə bağlı qərar qəbul edilmişdir. Sadəcə olaraq, bu qərarın icrası üçün mexanizmlər yoxdur. Biz ümid edirik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Biz bu məsələlər üzərində çalışırıq.

Türkiyə–Azərbaycan əlaqələri bizim gücümüzü daha da artırır. Dünən Türkiyənin hərbi sənayesinin inkişafı ilə bağlı göstərilən təqdimat məni çox təsirləndirdi. Bu gün Türkiyə bu sahədə də dünyada söz sahibidir. Türkiyədə istehsal olunan hərbi texnika ən yüksək dünya səviyyəsindədir. Bizi birləşdirən ortaq tarix, mədəniyyət münasibətlərimizin möhkəm təməlidir. Biz bu təməl üzərində gözəl bina tikirik və əziz qardaşımın qeyd etdiyi kimi, bu binanın içində transmilli böyük layihələr vardır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası ilə biz sadəcə olaraq, Azərbaycan neftini Türkiyəyə çatdırmaqla öz işimizi məhdudlaşdırmadıq. Bu bir dəhlizin açılması idi ki, bu dəhliz vasitəsilə indi böyük layihələr icra edilir. «Mərmərə» layihəsinin icra edilməsi münasibətilə, əziz qardaşım, Sizi bir daha təbrik edirəm. Bu Sizin tarixi xidmətinizdir. Türkiyə xalqı qarşısında gördüyünüz işlər arasında bu daim tarixdə qalacaqdır. Siz bu layihənin həyata keçirilməsi ilə qitələri, xalqları birləşdirdiniz və Türkiyənin uzunmüddətli çıxarlarını təmin etdiniz. Əlbəttə, Bakı–Tbilisi–Qars dəmir yolu da bu böyük layihənin tərkib hissəsidir.

Gələcəkdə bizi böyük işlər gözləyir. Biz bu işlərə hazırıq. TANAP layihəsinin həyata keçirilməsi Avropanın enerji xəritəsini tamamilə yenidən quracaqdır. Bu xəritədə Türkiyə və Azərbaycanın rolu xüsusi yer tutacaqdır. Çünki TANAP layihəsi dünya miqyasında enerji layihələri arasında ən böyük layihələrdən biridir və bunu biz edəcəyik. Bu məsuliyyəti, bu siyasi yükü, maliyyə yükünü Türkiyə və Azərbaycan öz üzərinə götürmüşdür. Biz burada da birgə səylərlə liderlik nümayiş etdirdik. Bizim liderliyimizin sayəsində bir çox ölkələr fayda götürəcəklər. Çünki bugünkü dünyada enerji siyasətini xarici siyasətdən ayırmaq mümkün deyildir. Biz bütün işləri birgə qururuq, birgə müzakirə edirik. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının mahiyyəti və üstünlüyü ondan ibarətdir ki, bu toplantılar əsnasında bir çox məsələlər öz həllini tapır. Necə ki, bu gün və ondan əvvəlki dəfələr və gələn dəfə Bakıda keçiriləcək toplantıda əminəm ki, biz yeni qərarların verilməsinə nail olacağıq.

Eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı bir-iki kəlmə söz demək istərdim. Bu çox gözəl bir göstəricidir. Azərbaycanın xaricə qoyulan və qoyulacaq ən böyük sərmayələri Türkiyəyə qoyulacaq sərmayələrdir. Türkiyədən Azərbaycana qoyulan sərmayələr bizim iqtisadi inkişafımızı sürətləndirir. Bu sərmayələr qarşılıqlı etimad, inam, dostluq, qardaşlıq üzərində qoyulan sərmayələrdir. Mən deyəndə ki,

bizim münasibətlərimizin təməlində qardaşlıq dayanır, bax, həyata keçirilən layihələr bunu təsdiqləyir. Qardaşlıq, dostluq əbədidir, əbədi olacaqdır. XXI əsr türk dünyasının əsri olacaqdır. Türkiyə və Azərbaycan bu istiqamətdə liderlik rolunu öz üzərinə götürüb və əminəm ki, biz birgə səylərlə gələcəkdə də böyük uğurlara imza atacağıq.

Bir daha, əziz qardaşım, qonaqpərvərliyə, məhəbbətə görə Sizə minnətdaram. Qardaş Türkiyə xalqına bundan sonra da rifah, tərəqqi, xoşbəxtlik arzulayıram.

* * *

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Mən də çox təşəkkür edirəm. Mətbuata gözəl açıqlamalarınıza görə sağ olun, var olun.

İndi isə mətbuat nümayəndələri sual verə bilərlər. Əvvəlcə Azərbaycandan gəlmiş mətbuat nümayəndələri buyursun.

**Ə t a y ə A b b a s o v a** *(«Lider» televiziyası):* **Sualım Türkiyənin Baş naziri cənab Rəcəb Tayyib Ərdoğanadır. Hörmətli Baş nazir, yüksək səviyyəli Türkiyə–Azərbaycan münasibətləri regional əməkdaşlığa necə təsir edir? Bu barədə Sizin fikirləriniz bizim üçün maraqlıdır. Sağ olun.**

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Bəli, mən də çox təşəkkür edirəm. Bir az öncə qeyd etdim ki, Azərbaycan ilə Türkiyə arasında həm siyasi, həm hərbi, həm mədəniyyət, həm ticarət sahələrində inkişaf sürətlə davam edir. Hazırda ticarət dövriyyəsinin həcmi 4,2 milyard dollardır. Əlbəttə ki, bu daha da artmaqda davam edəcəkdir. İndiki hədəfimiz bunu 15 milyard dollara çatdırmaqdır. Yəni 2020-ci ildə Türkiyə–Azərbaycan ticarət dövriyyəsinin həcmini 15 milyard dollara çatdıracağıq.

Bir qədər əvvəl dedim, Balkan ölkələrində təbii qaz ilə əlaqədar birgə bir çox sərmayələr yatırmaq imkanımız vardır. Bunların planlaşdırılmasını həyata keçirəcəyik. Burada başda xarici işlər nazirlərimiz olmaqla, bu məsələ ilə bağlı məşğul

olacaq digər nazirlərimiz də bu gün birlikdə çox mühüm işlər gördülər. Öz sahələrində nələri etmək mümkündürsə, bu barədə danışıqlar apardılar. Müdafiə sənayesi məsələsində birgə önəmli addımlar ata bilərik. Təhsildə, mədəniyyətdə bu cür addımları birlikdə atacağıq. Yəni bir millət olmağın məsuliyyəti nədirsə, bu öhdəliklə siyasi sahədə də, xarici siyasətdə də qərarlarımızı birlikdə verə bildiyimizi ortaya qoyuruq və qoyacağıq.

**A y s u n  T u r a n** *(«Xəbərtürk» televiziyası):* **Sualım hörmətli prezident İlham Əliyevədir. Hər görüşdə «bir millət – iki dövlət» kəlamı xüsusilə vurğulanır. Vizalar məsələsində hələ də bir addım atılmamışdır. Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan bu məsələyə toxundu. Amma vizaların önündəki maneə nədir? Sizcə, şərtlər hələ də uyğunlaşmadımı?**

**İ l h a m  Ə l i y e v:** Vizalarla bağlı əziz qardaşım, cənab Baş nazir açıqlama verdi. Hesab edirəm ki, bu açıqlamadan sonra əlavə suala ehtiyac olmamalı idi. Əgər bu sual olmasaydı mən təəccüb edərdim ki, əcəba bu gün bu sual nə üçün verilmədi?!

Deyə bilərəm, artıq biz qərara gəldik ki, ilk mərhələdə İqtisadiyyat Nazirliyindən veriləcək siyahı əsasında Türkiyə vətəndaşlarının Azərbaycana vizasız gediş-gəlişi təmin ediləcəkdir. Bildiyiniz kimi, hər bir ölkənin vizalarla bağlı öz siyasəti vardır, o cümlədən Azərbaycanın. Ancaq istisna hal kimi, elm adamları, idmançılar, iş adamları, tanınmış insanlar, Azərbaycan ilə sıx bağlı olan insanlar üçün tamamilə vizasız rejim tətbiq ediləcəkdir. Yaxın zamanlarda bu məsələ öz həllini tapacaqdır. Əminəm ki, ondan sonra daha bu suallara ehtiyac qalmayacaqdır.

## BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ NAHARDA İŞTİRAK

*Ankara*

*13 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Ədalət və İnkişaf Partiyasının qərargahında birgə nahar etmişlər.*

*Nahardan sonra prezident İlham Əliyev, Baş nazir Rəcəb Tayyib Ərdoğan və xanımları binada yaradılmış şəraitlə tanış oldular, yuxarı mərtəbədən şəhərin mənzərəsini seyr etdilər.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına rəsmi səfəri noyabrın 13-də başa çatmışdır.*

*Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Ankaranın «Esenboğa» Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Türkiyənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*** * ***

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «BAKI AĞ ŞƏHƏR» BULVARINDA GÖRÜLƏN TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*14 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 14-də yeni salınacaq «Bakı Ağ şəhər» bulvarında həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olmuşlar.*

*«Bakı Ağ şəhər» bulvarında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi.*

*İnşaat işlərinin gedişi ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDRİS BERZİNŞƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Azərbaycan ilə Latviyanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Hazırda ikitərəfli münasibətlərimiz bu xoş ənənələr əsasında inkişaf edərək, yeni məzmun kəsb etmişdir.

İnanıram ki, dostluq əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2013-cü il*

**OMANIN SULTANI ƏLAHƏZRƏT**
**QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Oman arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2013-cü il*

## BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASININ PRAVOSLAV DİNİ-MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*«Müqəddəs Jen-Mironosits» kilsəsinin ərazisi*

*15 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də «Müqəddəs Jen-Mironosits» kilsəsinin yerləşdiyi ərazidə yeni tikilən Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan hər zaman fərqli dinlərin, müxtəlif millətlərin qardaşlıq şəraitində yaşadığı ölkə olmuşdur. Xalqımız tarixin hər bir dönəmində dünyaya tolerantlıq nümunəsi nümayiş etdirmişdir. Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən Azərbaycanda bütün dinlərə mənsub insanların sərbəst şəkildə öz inanclarına etiqad etməsinə, bütün millətlərin nümayəndələrinin ölkənin bərabərhüquqlu vətəndaşı qismində hüquq əldə etməsinə lazımi şərait yaradılmışdır. Ümummilli lider xalqın dini-mənəvi, milli dəyərlərinin qorunub saxlanılması istiqamətində çox mühüm işlər görmüşdür. Prezident İlham Əliyev digər sahələrdə olduğu kimi, bu sahədə də ulu öndərin siyasətini uğurla davam etdirir. Azərbaycan Respublikasının Konstitusiyasında da dinindən, dilindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında bərabərliyinin təsbit olunması ölkəmizdəki tolerantlığın bariz sübutudur.*

*Müasir Azərbaycan dünyaya dini tolerantlıq, millətlərarası münasibətlərin inkişafı modelini nümayiş etdirir. Dinlərarası dialoq daha da gücləndirilir. Bu gün ölkəmizdə tarixi, dini*

abidələrə xüsusi diqqət göstərilir, məscidlər, kilsələr, sinaqoqlar təmir edilir, yenidən qurulur. Heydər Əliyev Fondu da bu işə öz töhfəsini verir.

Prezident İlham Əliyevi Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr və Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə qarşıladılar.

Azərbaycan Prezidentinin şərəfinə kilsə zəngi çalındı.

Dövlətimizin başçısına duz-çörək təqdim edildi.

Azərbaycan Prezidenti Moskva Patriarxlığının nümayəndələri, Berlin və Alman arxiyepiskopu Feofan, Moskva Yeparxiyasının vikariyi, Verey arxiyepiskopu Yevgeni, protoiyerey Vsevolod Çaplin, Azərbaycandakı dini icmaların rəhbərləri və digər qonaqlarla görüşdü.

Prezident İlham Əliyev əvvəlcə «Müqəddəs Jen-Mirnosits» kilsəsində oldu. Burada kilsə xoru dua oxudu.

Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr kilsənin tarixi barədə məlumat verdi. Bildirildi ki, «Müqəddəs Jen-Mironosits» kilsəsi 1907-ci ildə tikilmişdir. 2001-ci ildə burada aparılan yenidənqurma işlərindən sonra ulu öndər Heydər Əliyev dini məbədin açılışı mərasimində iştirak etmişdir. Bununla da kilsədə Azərbaycanda yaşayan pravoslavların dini ayinlərini rahat icra etmələri üçün hər cür şərait yaradılmışdır.

Dövlətimizin başçısı Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi ilə tanış oldu. Mərkəz prezident İlham Əliyevin tapşırığı ilə inşa edilib. 2012-ci ildə başlanılan tikinti işləri nəticəsində dördmərtəbəli binada dini ayinlər otağı, müxtəlif tədbirlərin, o cümlədən konfrans və seminarların keçirilməsi üçün otaqlar, kilsə təhsilinin verilməsi məqsədilə bazar günü məktəbinin fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb.

Diqqətə çatdırıldı ki, buradakı müxtəlif dini komitələr – yeparxiya, kanonik ayinlər, kataxizasiya, eləcə də kilsə mediası üçün ayrıca otaqlar nəzərdə tutulub. Mərkəzdə kitabxana fəaliyyət göstərir, qonaqlar üçün xüsusi otaqlar da vardır.

*Bakı və Azərbaycan Yeparxiyası adından prezident İlham Əliyevə «Fərəh və Təsəlli» adlı Müqəddəs Məryəmin ikonası hədiyyə edildi.*

*Dövlətimizin başçısı mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı. Daha sonra prezident İlham Əliyev çay süfrəsi arxasında mərasim iştirakçıları ilə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Dini-Mədəniyyət Mərkəzinin açılışı münasibətilə hamımızı təbrik edirəm. Bu, ölkəmizin həyatında əlamətdar hadisədir. Biz bunu çoxdan gözləyirdik və əlbəttə, belə bir mərkəzin açılması Azərbaycanda dinlərarası münasibətlərin göstəricisidir.

Azərbaycanda Rus Pravoslav Kilsəsinin fəaliyyəti böyük tarixə malikdir. Lakin təəssüf ki, bütün başqa dini abidələr kimi, «Müqəddəs Jen-Mironosits» kilsəsi də dağıntılara məruz qalmışdır. Məscidlərin də, sinaqoqların da, katolik kilsəsinin də aqibəti belə olmuşdur. Sovet hakimiyyətinin ilk illərində onların çoxu dağıdılmış, lakin indi hamısı bərpa edilmişdir. Bu dini abidənin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Rus Pravoslav Kilsəsinin hər iki başçısı – Müqəddəs II Aleksi və Müqəddəs Kirill bu kilsəyə baş çəkmişlər. Hər ikisi burada olmuşdur. Yəqin ki, Rusiya hüdudlarından kənarda Rus Pravoslav Kilsəsinin iki patriarxının baş çəkdiyi və xeyir-dua verdiyi kilsələrin sayı o qədər də çox deyildir.

Əlbəttə, kilsənin nəzdində Yeparxiyanın rəhbərliyi üçün ofis kimi də xidmət edən bir mədəniyyət mərkəzinin, Dini-Mədəniyyət Mərkəzinin olması zəruri idi. Müəyyən çətinliklər də vardı, çünki ötən əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycanda hərc-mərclik, xaos dövründə çox işlər düzgün görülmürdü. O cümlədən, kilsənin ətrafındakı ərazi də əslində zəbt olunmuşdu. Lakin sonradan biz təsirli tədbirlər gördük. Bu ərazi Yeparxiyaya verildi və Azərbaycan dövləti burada belə bir gözəl bina inşa etdi. Bu da Azərbaycanda dinlərarası münasibətlərin göstəricisidir. Bu kilsənin böyük tarixi vardır. Bu məbəd keçən əsrin əvvəllərində bir azərbaycanlı messenatın fəal iştirakı ilə

tikilmiş və artıq müstəqillik dövründə bir azərbaycanlı sahibkarın vəsaiti hesabına bərpa edilmişdir. Dini-Mədəniyyət Mərkəzi isə Azərbaycan dövlətinin vəsaiti ilə tikilmişdir. Bu çox müsbət təcrübədir. Belə bir təcrübənin dərin kökləri var. Eyni sözləri məscidlərin bərpası barədə də demək olar. Onlar əsasən dövlət vəsaitləri hesabına bərpa edilmişdir. Eyni sözləri sinaqoq haqqında da demək olar, o da dövlət vəsaiti ilə tikilmişdir, katolik kilsəsinin bərpasında da dövlət iştirak etmişdir.

Biz bütün dini abidələri bərpa edirik. Azərbaycan elə bir ölkədir ki, orada müxtəlif dinlər mövcuddur, xalqlar həmişə sülh, həmrəylik, əməkdaşlıq şəraitində yaşamışlar. Haqlı olaraq fəxr edirik ki, Qafqazda ən qədim kilsə Azərbaycanda, Şəki şəhərinin yaxınlığındakı kiçik bir kənddə yerləşir. Ən qədim məscidlərdən biri də Azərbaycanda, Şamaxıda yerləşir. 743-cü ildə tikilmiş həmin məscid bu il bərpa olunub. Bakıdakı Atəşgah da bizim tarixi keçmişimizin, zərdüştilik dövrünün abidəsidir. Katolik kilsəsi də bərpa edilmişdir, sinaqoqlar da tikilir. Yəni bunlar bizim cəmiyyətimizin inkişafının göstəricisidir, ilk növbədə, cəmiyyətin durumunun, həmçinin dövlət siyasətinin göstəricisidir. Sevindirici haldır ki, bu məsələlərdə cəmiyyətin durumu da, dövlətin siyasəti də, necə deyərlər, yanaşı dayanır.

Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu günlərdə keçirilmiş III Bakı Beynəlxalq Humanitar Forumunda multikulturalizm ən çox müzakirə edilən mövzu idi. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir. Biz diqqəti ona görə bu məsələlər üzərində cəmləşdiririk ki, bu mövzuya yanaşmalar müxtəlifdir. Təəssüf ki, belə fikirlər də var ki, bəzi ölkələrdə multikulturalizm iflasa uğramış, özünü doğrultmamışdır. Bunlar çox narahatlıq doğuran bəyanatlar, tendensiyalardır. Əgər bu həqiqətən belədirsə, onda bu, ciddi müzakirə mövzusudur. Azərbaycanda isə belə hesab edirəm ki, biz öz siyasətimizlə də, cəmiyyətin durumu ilə də sübut edirik ki, elə deyil,

multikulturalizm yaşayır. O yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur. Ona görə ki, qloballaşma dövründə, informasiya mübadiləsinin və bütövlükdə inteqrasiya proseslərinin fəallaşdığı bir vaxtda özünütəcrid ilə məşğul olmaq sadəcə məhvə məhkumdur. Dünya ölkələrinin əksəriyyəti multimədəni ölkələrdir. Bu ölkələrdə müxtəlif xalqların və müxtəlif dinlərin nümayəndələri əsrlər boyu yaşayırlar. Müxtəlif dinlərin nümayəndələri arasında dostluq və qardaşlıq münasibətləri bütün ölkələrin gələcək inkişafının əsasıdır. Buna görə də bugünkü hadisə sadəcə, Azərbaycanda Rus Pravoslav Kilsəsinin normal fəaliyyəti üçün şərait yaradılmasından daha vacib məna daşıyır. Bu, böyük rəmzi məna daşıyır. Bu gün bu hadisə ölkəmizin, xalqımızın tarixinə əsaslanır, bizim həyata keçirdiyimiz siyasətin nəticəsidir. Müsəlmanların, pravoslavların, katoliklərin və yəhudilərin bütün tədbirlərində, bütün bayramlarında bütün konfessiyaların rəhbərləri həmişə bir yerdə, bir masa arxasında olur. Zənnimcə, bu da ölkəmizin qiymətli sərvətlərindən biridir.

Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm. Çox şadam ki, bu gün biz gözəl hadisəni birlikdə və qonaqlarımızın iştirakı ilə bayram edirik. Əminəm ki, burada işləmək üçün hər cür şərait olacaqdır. Müzakirə etdiyimiz mövzuları daim diqqət mərkəzində saxlayırıq. Bu mövzular daim çox yaxşı nəticələr verəcək. Bir daha sizi təbrik edirəm, qonaqlara bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

**A l e k s a n d r** (*Bakı və Azərbaycan arxiyepiskopu):* Zati-aliləri, cənab Prezident!

İcazə verin, bu əlamətdar hadisədə iştirak etməyinizə görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirim. Siz vurğuladınız ki, bu sadəcə, Azərbaycanda Rus Pravoslav Kilsəsinin həyatına yeni təkan verən hadisə deyil, həm də multikulturalizm deyilən prosesin təzahürü olacaqdır. Əlbəttə, Heydər Əliyevin sözləri həmişə yadımdadır. Onun bir gözəl ifadəsini mən öz çıxışlarımda həmişə misal gətirirəm: «Çoxmillətlilik bizim

sərvətimizdir». Bu, Azərbaycan Respublikasının daxili siyasətinin mənasıdır. Bu çox vacibdir. Rus Pravoslav Kilsəsinin rəhbəri Zati-müqəddəsləri patriarx Kirill 3 dəfə Azərbaycanda olub – bir dəfə kilsənin xarici əlaqələr şöbəsinin sədri kimi, sonra Sizin dəvətinizlə, möhtərəm şeyximizin dəvəti ilə Rus Pravoslav Kilsəsinin rəhbəri kimi, bu ilin fevral ayında Arxiyerey məclisində məruzəsinin bütöv bir abzasını Azərbaycanda dini həyatla bağlı vəziyyətə həsr etmiş, dinlərarası münasibətlərin inkişafına Sizin xüsusi töhfənizi ayrıca vurğulamışdır. Biz artıq tolerantlıq barədə, yəni bir-birimizə münasibətdə dözümlülük barədə deyil, konstruktiv dinlərarası dialoq barədə danışırıq, həyatın və cəmiyyətin din xadimləri qarşısında qoyduğu müxtəlif problemləri birgə səylərimizlə həll etməyə çalışırıq.

Zati-müqəddəsləri patriarx Kirill bu əlamətdar hadisə münasibətilə təbrik göndərmişdir.

**Y e v g e n i** *(Verey arxiyepiskopu):* Zati-aliləri, çox hörmətli cənab Prezident!

Zati-müqəddəsləri möhtərəm şeyx!

Diplomatik korpusun hörmətli nümayəndələri!

Dini konfessiyaların nümayəndələri!

Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Bu gün təkcə Rus Pravoslav Kilsəsinin və Bakı Yeparxiyasının həyatında deyil, həm də Azərbaycan Respublikasında çox mühüm bir hadisə baş verir. Dövlət başçısının, respublika Prezidentinin burada iştirak etməsi bugünkü hadisəyə xüsusi əhəmiyyət verir.

Hörmətli cənab Prezident, Siz artıq bu hadisənin xüsusi əhəmiyyətini və vacibliyini qeyd etdiniz. Rus Pravoslav Kilsəsinin rəhbəri Zati-müqəddəsləri patriarx Kirill bu cür hadisələrə həmişə xüsusi diqqət yetirir və o da təbrik göndərmişdir. Həmin təbriki oxumaq şərəfi mənə nəsib olmuşdur.

*Verey arxiyepiskopu Yevgeni Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin təbrikini oxudu:*

– «Zati-müqəddəsləri, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandra.

Bakı şəhərində pravoslav Dini-Mədəniyyət Mərkəzinin təntənəli açılışı mərasiminin iştirakçılarına.

Zati-müqəddəsləri!

Əziz qardaşlar və bacılar!

Azərbaycan paytaxtında Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı mərasiminin bütün iştirakçılarını ürəkdən salamlayıram. Əlamətdar haldır ki, bu mühüm hadisə «Müqəddəs Jen-Mironosits» Kafedral Kilsəsinin bərpasının 10 illiyi ilə bir vaxta düşmüşdür.

Fərəhlə qeyd edirəm ki, Azərbaycan dövlətinin rəhbərliyi ölkənin pravoslav icmasının ehtiyaclarına diqqətlə yanaşır və Bakı Yeparxiyasının bir sıra layihələrini fəal dəstəkləyir. Pravoslav Dini-Mədəniyyət Mərkəzinin inşası üçün torpaq sahəsinin ayrılması barədə prinsipial qərar qəbul etmiş və bu mühüm təşəbbüsün həyata keçirilməsinə yardım göstərmiş prezident İlham Heydər oğlu Əliyevin xidmətlərini xüsusi qeyd etmək istərdim.

Zati-müqəddəslərinizə və təntənəli tədbirin bütün iştirakçılarına möhkəm cansağlığı, xeyirxah əməllərinizdə və təşəbbüslərinizdə ulu Tanrıdan kömək arzulayıram. Tanrıdan hamınıza mərhəmət diləyirəm.

**Moskvanın və bütün Rusiyanın patriarxı Kirill».**

* * *

**İlham Əliyev:** Sağ olun. Zati-müqəddəslərinə mənim təşəkkürümü çatdırmağınızı xahiş edirəm. Bu məktuba görə mənim adımdan ona təşəkkür edin. Bakıda onunla görüşlərimizi xatırlayıram. Bu görüşlər mənim yaddaşımda silinməz iz qoymuşdur. Biz diqqət tələb edən çox mühüm məsələləri, o cümlədən ölkələrimiz arasında dövlətlərarası münasibətlərin inkişafı məsələlərini müzakirə etmişik. Bizim aramızda tam qarşılıqlı anlaşma var və baxışlarımız üst-üstə düşür.

Onu da deməliyəm ki, kilsə təltiflərinə, kilsənin 2 mükafatına layiq görüldüyüm üçün qürur duyuram. Zati-müqəddəsləri patriarx II Aleksi məni Birinci dərəcəli «Sergi Radonejski» ordeni ilə, Zati-müqəddəsləri patriarx Kirill isə Birinci dərəcəli «Şərəf və şöhrət» ordeni ilə təltif etmişdir. Beləliklə, Rus Pravoslav Kilsəsi məni kilsənin 2 təltifinə layiq görmüşdür və yəqin ki, bu təltiflər Azərbaycanda dinlərarası dialoq çərçivəsində, ölkəmizdə yaşayan xalqlar arasında, bütün dinlərin nümayəndələri arasında münasibətlərin möhkəmlənməsi çərçivəsində görülən işləri əks etdirir.

Möhtərəm arxiyepiskop Aleksandrın qeyd etdiyi kimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi ki, çoxmillətlilik bizim sərvətimizdir. Bu həqiqətən belədir. Biz xoşbəxtik ki, müstəqillik dövründə cəmiyyətin inkişafının müsbət meyillərini qoruyub saxlamışıq. Multimədəni cəmiyyət qurulması işində qazandığımız uğurlar ölkəmizdə yaşayan bütün xalqların və bütün dinlərin nümayəndələrinin ümumi xidmətidir.

Artıq qeyd etdiyim kimi, Azərbaycanda bu istiqamətdə də çox ciddi dövlət siyasəti həyata keçirilir. Lakin belə demək mümkündürsə, ictimai sifariş olmasa, dövlətin bu siyasətinin səmərəsi olmazdı. Mənim fikrimcə, vəziyyətin nadirliyi məhz ondan ibarətdir ki, cəmiyyət də, Azərbaycandakı bütün xalqların və dinlərin nümayəndələri də, dövlət də öz qarşısında cəmiyyətin qardaşlıq, dostluq və qarşılıqlı hörmət əsasında yaxınlaşması, birləşməsi məqsədini qoymuşdur.

Azərbaycanın pravoslav icmasının nümayəndələri Azərbaycan dövlətinin çox böyük vətənpərvərləridir. Onlar ölkəmizin inkişafına, mədəniyyətin, incəsənətin, təhsilin, iqtisadiyyatın inkişafına böyük töhfələr verirlər. Biz bunu çox qiymətləndiririk, bu bizim sərvətimizdir. Bir daha demək istəyirəm, cəmiyyət o vaxt sağlam olur ki, həm ölkənin inkişafının qlobal məsələlərinə, həm də millətlərarası, dinlərarası dialoq məsələlərinə dair ictimai konsensus mövcud olsun. Mənim fikrimcə, indiki halda bu amil Rusiya ilə Azərbaycan

arasında çox səmərəli, dinamik, müsbət istiqamətdə inkişaf edən dövlətlərarası münasibətlərin möhkəmlənməsində də çox mühüm rol oynayır. Biz hamımız bir məqsədə – quruculuq, inkişaf, dostluğun, qarşılıqlı anlaşmanın, dözümlülüyün və həmrəyliyin möhkəmlənməsi kimi nəcib məqsədə xidmət edirik. Bir daha xahiş edirəm, bu məktuba görə mənim ən xoş arzularımı və təşəkkürümü patriarxa çatdırasınız.

**Allahşükür Paşazadə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam):* Biz bu gün çox sevinirik ki, burada bir yerdə görüşürük. Deyə bilərəm ki, bu gün tolerantlıq günüdür. Bununla bərabər, cənab Prezident, Sizin bu gün buraya gəlməyiniz və bir masa arxasında birlikdə əyləşməyimiz artıq ənənə halı almışdır. Bu ənənənin bünövrəsini qoyan dostum, qardaşım ulu öndər Heydər Əliyev həzrətləri olmuşdur. O həmişə bu gündə bizi yığardı, bizimlə danışardı və bizə tövsiyələr edərdi. Bu gün onun bəhrəsini görürük və Siz də bunu davam etdirirsiniz.

Əlbəttə, bizi çox sevindirir ki, Azərbaycan dövləti son illərdə böyük uğurlar qazanıb. Mən fəxr edirəm ki, bizim belə prezidentimiz var. Budəfəki prezident seçkiləri Həcc ziyarəti dövrünə, Qurban bayramı ərəfəsinə təsadüf edib. Ziyarətdə olan dindarlarımız müqəddəs Məkkədə Prezidentimizə səs vermiş, dualar etmişlər. Demək istəyirəm ki, Azərbaycan dünyanın diqqət mərkəzindədir. Dünya dövlətləri onun təcrübəsini öyrənə bilər.

Əlbəttə ki, bizim bir-birimizə münasibətimiz, dövlət–din münasibətləri də çox yüksək səviyyədə inkişaf edibdir. Əgər dövlətimizin rəhbəri bizə diqqət və qayğı göstərməsəydi, əlbəttə, biz dindarlar bu işləri görə bilməzdik. Ona görə də biz Sizə təşəkkürümüzü bildiririk, Prezident həzrətləri. Siz həmişə dinindən, dilindən asılı olmayaraq bütün dindarlara öz xoş münasibətinizi bildirmisiniz. Bu gün Sizin burada iştirakınız özü də elə bunun əyani sübutudur.

Qaldı ki bizim Rusiya ilə, rus-pravoslav kilsəsi ilə olan qardaşlıq münasibətlərimizə – bu münasibətlər bu gün də da-

vam edir və inşallah, bundan sonra da davam edəcəkdir. Bu günlərdə mən Patriarx həzrətlərindən bir məktub almışam. Məktubda gələcəkdə birgə sammitin keçirilməsi təklif olunur. Hələ tam razılaşdırılmayıb, ola bilər ki, bu sammit 2014-cü ildə Rusiyada, yaxud Azərbaycanda keçirilsin.

Ona görə də biz Sizə minnətdarlığımızı bildirmək istəyirik. Mən istərdim bütün dindarlar, buradakı iştirakçılar adından 3-cü dəfə prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edim, Allah-Taaladan Sizə, ailənizə cansağlığı diləyim. Allah-Taala bir xalqı istəyəndə həmişə ona müdrik dövlət rəhbəri göndərir ki, o xalq öz doğru yolunu tapa bilsin. Allah-Taala da Heydər Əliyevi, Sizi bizə doğru yol göstərmək üçün müdrik bir şəxs, rəhbər göndərib. Allah-Taala Heydər Əliyevə rəhmət etsin. Sizə gələcəkdə xoşbəxtlik arzu edirəm. İnşallah, hələ çox böyük işlər görəcəksiniz. Allah Sizi qorusun. Sağ olun.

**Milix Yevdayev** *(Bakı dağ yəhudiləri dini icmasının sədri):* May ayında biz Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin tərkibində İsraildə olduq. Knessetin Sədri ilə görüşdə dedim ki, Azərbaycan Prezidenti yaxın vaxtlarda bizə – yəhudilərə gözəl bir sinaqoq hədiyyə edib.

Oktyabrın 14-dən 17-dək Kiyevdə antisemitizmə qarşı mübarizəyə həsr edilmiş beynəlxalq forum keçirilirdi. Həmin foruma mən də dəvət edilmişdim. Mən dedim ki, bizim Azərbaycanda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində xoşbəxt yaşayır. Azərbaycanda heç vaxt dinlərarası, millətlərarası zəmində hər hansı mübahisələr, çəkişmələr, digər xoşagəlməz hallar olmamışdır. Belə hal yoxdur. Nə üçün? Ona görə ki, ulu öndərin dediyi kimi, tolerantlıq yüksək mədəniyyətin nəticəsidir. Azərbaycanda əsrlərboyu tolerantlıq olmuşdur, var və olacaqdır.

**Vsevolod Çaplin** *(Protoiyerey)*: Moskvanın və bütün Rusiyanın Zati-müqəddəs patriarxları – mərhum patriarx II Aleksi və indiki patriarx Kirill Azərbaycanda kilsə ilə dövlət arasında və dinlərarası münasibətlərin vəziyyətini qiymətləndirmişlər. Bu gün baş yepiskop patriarx Kirillin

Arxiyerey məclisindəki son məruzəsini xatırlatdı. Arxiyerey məclisi müəyyən dövriliklə keçirilir. Qeyd etməliyəm ki, Avrasiyanın bir sıra ölkələrində dövlət – kilsə münasibətlərində müəyyən mürəkkəbliklər olduğuna baxmayaraq, bir neçə il bundan əvvəl mərhum patriarx da, indiki patriarx da Azərbaycanda həm bizim kilsənin vəziyyəti, həm də dinlərarası dialoq sahəsində olan təcrübə barədə həmişə yalnız müsbət fikir söyləmişlər. Biz təkcə kilsənin həyatı ilə bağlı məsələləri müzakirə etmirik, Avrasiyada və dünyada dinlərarası dialoqun perspektivlərini də Zati-müqəddəsləri şeyx və ölkənin digər dini icmaları ilə birlikdə müzakirə edirik. Müəyyən yeni təşəbbüslər vardır. Biz bu müsbət təcrübəmizin, birgə fəaliyyət təcrübəmizin, ünsiyyət təcrübəmizin xristianlarla müsəlmanların münasibətləri, dinin və dövlətin münasibətləri, dinlərarası sülhyaratma dialoqu sahəsində dünyada baş verənlərə daha çox təsir göstərməsi üçün Rusiyada da, Bakıda da görüşəcəyik.

**İ l h a m Ə l i y e v:** Siz tamamilə haqlısınız. Buna böyük ehtiyac vardır. III Bakı Beynəlxalq Humanitar Forumunun nəticələrinə əsasən beynəlxalq əməkdaşlığın bu cür formatı artıq yaranmışdır. Biz bundan əvvəl də dünya dinlərinin liderlərinin zirvə görüşünü keçirmişik. Bu 2 format bir-birini tamamlayır, çünki dinlərarası münasibətlərin gələcək inkişafına dair ciddi diskussiyalara və ümumi yanaşmalar işləyib hazırlamağa ehtiyac çoxdur, çünki dünyanın müxtəlif hissələrində – həm Yaxın Şərqdə, həm də Avropada baş verən proseslər bizi düşünməyə vadar edir və narahatlıq doğurur. Bəzən yaxınlaşma prosesi əvəzinə ayrılma prosesi gedir. Bəzən müəyyən bəyanatlar və ya hərəkətlər həmrəyliyə deyil, əksinə, etimadsızlığa səbəb olur. Ona görə də, mənim fikrimcə, bu halda bütün xalqlar arasında müsbət əməkdaşlıq tarixinə malik olan ölkələrin, çoxmillətli ölkələrin təcrübəsinə əsaslanmaq lazımdır. Zənnimcə, bu halda Rusiya və Azərbaycan qlobal miqyasda məhz dinlərarası, mədəniyyətlərarası dialoqun birləşdirici amili ola bilər. Ona görə ki, burada oxşar cəhətlər,

əlaqələr çoxdur. Bundan əlavə, biz 2 qonşu dövlətik, Qafqaz da bizi birləşdirir, Rusiya və Azərbaycan 2 Qafqaz ölkəsidir. Buna görə din xadiminin, hörmətli insanın sözü həmişə sanballı olmuşdur. İndiki halda dövlətin siyasəti və din tamamilə eyni məcrada həyata keçirilir. Məqsədlər eynidir – inkişaf, rifah, dəyərlər, qloballaşma dövründə ənənəvi dəyərlərin itirilməməsi, gənc nəslin özünün etnik və dini köklərindən ayrılmaması. İdentiklik itirilməməlidir, qloballaşma adı altında cəmiyyətin mənəvi əsasları sarsıdılmamalıdır. Bu əsaslar olmadan heç bir ölkə, heç bir xalq mövcud ola bilməz.

## UKRAYNA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*17 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Ukrayna Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Ukraynaya rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqlarının dalğalandığı Kiyevin Borispol Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək təqdim etdilər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstələri təqdim olundu.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Kazan aeroportunda təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirmişdir.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2013-cü il*

**TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB RÜSTƏM MİNNİXANOVA**

Hörmətli Rüstəm Nurqaliyeviç!

Kazan aeroportunda təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır. Həmin qəzada Sizin oğlunuz İrekin faciəli şəkildə həlak olması haqqında xəbər məni çox kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2013-cü il*

## «NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Kiyev şəhərindəki «Naməlum əsgər» abidəsini ziyarət etmişdir.*

*Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev «Əbədi məşəl»in önünə əklil qoydu, 1941–1945-ci illərin Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini ehtiramla yad etdi.*

*Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsi dövlətimizin başçısının qarşısından keçdi.*

## «QOLODOMOR» QURBANLARININ XATİRƏSİNƏ EHTİRAM

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Kiyevdə «Qolodomor» qurbanlarının – 1930-cu illərdə aclıqdan həlak olanların xatirəsinə ucaldılmış abidəni ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə ətrafına buğda sünbülü düzülmüş yanan şam qoydu, aclıq qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Prezident İlham Əliyev Ukrayna paytaxtının hündür nöqtəsindən qədim Kiyevin mənzərəsini seyr etdi.*

*Azərbaycan Prezidentinə Ukrayna paytaxtında görülən işlər barədə məlumat verildi.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Noyabrın 18-də Kiyevdə Ukrayna Prezidenti Administrasiyasının binası qarşısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Ukrayna prezidenti Viktor Yanukoviç qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*President İlham Əliyev Ukrayna əsgərlərini salamladı.*

*Azərbaycan nümayəndə heyəti prezident Viktor Yanukoviçə, Ukraynanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi prezidentlərin qarşısından keçdi.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 18-də Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Qarşılıqlı səfərlərin, eləcə də Azərbaycan prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı Azərbaycan–Ukrayna əməkdaşlığının genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi, ölkələrimiz arasında münasibətlərin daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ IV İCLASINDA İŞTİRAK

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçin təkbətək görüşündən sonra noyabrın 18-də iki ölkənin Prezidentləri Şurasının IV iclası olmuşdur.*

*İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri də iştirak etmişlər.*

*Ukrayna prezidenti Viktor Yanukoviç və Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdilər.*

### Ukrayna prezidenti Viktor Yanukoviçin çıxışı

Çox hörmətli İlham Heydər oğlu!

Hörmətli iclas iştirakçıları, həmkarlar, dostlar!

Biz sizinlə bu masa arxasında dəfələrlə görüşmüşük. Bizim onlarla birgə müxtəlif tədbirlərimiz olub və bu gün növbəti dəfə Ukraynanın paytaxtı Kiyevdə toplaşmışıq. Bu, İlham Heydər oğlu Əliyevin Azərbaycanda keçirilən prezident seçkilərindən sonra Ukraynaya ilk səfəridir.

Çox hörmətli İlham Heydər oğlu, mən nümayəndə heyətimizin və Ukrayna xalqının adından Sizi prezident seçkilərindəki növbəti parlaq qələbəniz münasibətilə təbrik etmək istəyirəm. Əlbəttə ki, Sizə möhkəm cansağlığı, Sizdə həmişə olan ruh yüksəkliyi, yeni enerji, dost Azərbaycan xalqına sabitlik və tərəqqi arzulayıram.

Biz bu gün növbəti iclasımızı keçirərək, onu yüksək qiymətləndiririk. Biz Ukraynaya, Ukrayna xalqına olan hörmətə görə Azərbaycan Prezidentinə minnətdarıq. Əlbəttə, bu bizə xoşdur. Çünki biz münasibətlərimizin müxtəlif dövrlərini, ölkələrimizin yaşadığı çətin vaxtları xatırlayırıq. Dostlar həmişə çətin anlarda tanınır. Biz Ukraynanın çox mürəkkəb vəziyyətdə olduğunu yaxşı xatırlayırıq və o zaman Heydər Əliyev Ukraynaya təmənnasız yardım göstərilməsi qərarını qəbul etmişdi. Müstəsna şərait yaradıldı və neft verildi. Faktiki olaraq Siz o zaman energetikamızı, kənd təsərrüfatımızı xilas etdiniz. Bu, əlbəttə ki, unudulmur.

Bizim təklifimiz vardır. Biz İlham Heydər oğlu ilə məsləhətləşdik ki, komissiyaların həmsədrlərini dinləyək. Çünki bilirik ki, komissiya hazırlaşıb, məsələlər alt qruplar səviyyəsində işlənilib.

İlham Heydər oğlu, əgər etiraz etmirsinizsə, mən sözü Sizə vermək istəyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun, çox hörmətli Viktor Fyodoroviç!

Əziz dostlar, əvvəlcə, Viktor Fyodoroviç, məni yenidən Ukraynaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Məni prezident seçkilərindəki qələbəm münasibətilə səmimi təbriklərinizə görə Sizə minnətdarlığımı bildirirəm. Siz telefonla zəng edib, məni təbrik edən ilk şəxslərdən biri olmusunuz. Bu, münasibətlərimizin, əməkdaşlığımızın əlamətidir. Mən ölkələrimiz arasında əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verən münasibətlərimizi, dostluğumuzu çox yüksək qiymətləndirirəm. Ukrayna bizim üçün dost, tərəfdaş, etibar edilməli ölkədir, etibarlı tərəfdaşdır. Sizin simanızda Ukrayna inkişaf və sabitlik dövrü yaşayır. Mənim Sizin dövlətinizin inkişafı üçün həyata keçirdiyiniz böyük planlardan xəbərim vardır. Əminəm ki, Sizin rəhbərliyinizlə Ukrayna bundan sonra da tərəqqi, suverenliyin

möhkəmləndirilməsi, mühüm sosial infrastruktur və iqtisadi məsələlərin həlli yolu ilə gedəcəkdir. Biz Sizin dostlarınız kimi, buna çox sevinirik. Öz tərəfimizdən çalışırıq ki, münasibətlərimiz bundan sonra da dərin məzmun kəsb etsin.

Ölkələrimiz arasında bir çox istiqamətlərdə sıx qarşılıqlı əlaqələr mövcuddur. Komissiyaların növbəti və Prezidentlər Şurasının bugünkü iclası da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsinin daha bir addımıdır. Həm siyasi, həm energetika, həm iqtisadi sahələrdə artıq yaxşı nəticələr və yaxşı perspektivlər vardır. Buna görə gələcək inkişaf yolumuzu müəyyənləşdirmək və artıq gördüyümüz işlərə yekun vurmaq üçün mən bugünkü Şurada həmsədrlərin məruzələrini, sonra isə yəqin ki, nazirlərin rəyini dinləmək barədə təklif olunan formatı müsbət hesab edirəm.

Bir daha qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Dünən də, bu gün də biz Sizinlə ikitərəfli, regional məsələlərlə bağlı ətraflı müzakirələr apardıq. Bir daha səmimi qəbula görə çox sağ olun.

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Azərbaycan və Ukrayna Prezidentləri Şurasının IV iclasından sonra dövlət başçılarının təltif edilməsi mərasimi olmuşdur.*

*Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynanın «Azadlıq ordeni» ilə təltif olunması barədə prezident Viktor Yanukoviçin sərəncamı oxundu.*

*Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviç «Azadlıq ordeni»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etdi.*

*Sonra Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçin Azərbaycan Respublikasının «Heydər Əliyev ordeni» ilə təltif olunması barədə prezident İlham Əliyevin sərəncamı oxundu.*

*Prezident İlham Əliyev «Heydər Əliyev ordeni»ni prezident Viktor Yanukoviçə təqdim etdi.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Kiyevdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviçin təltif edilməsi mərasimi başa çatdıqdan sonra Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Viktor Yanukoviç «Azərbaycan Respublikası və Ukrayna Prezidentləri Şurasının IV iclasının Protokolu»nu imzaladılar.*

*Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Ukraynanın Aqrar Siyasəti və Ərzaq naziri Nikolay Prisyajnyuk «Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ukraynanın Xarici İşlər naziri Leonid Kojara «Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ukraynanın Xarici İşlər Nazirliyi arasında 2014–2015-ci illər üzrə Məsləhətləşmələr Planı»nı imzaladılar.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Ukraynanın Rovno Vilayət Dövlət Administrasiyasının rəhbəri Vasili Bertaş «Azərbaycan Respublikasının Qəbələ Rayon İcra Hakimiyyəti və Ukraynanın Rovno Vilayət Dövlət Administrasiyası arasında regionlararası əməkdaşlıq haqqında Saziş»i imzaladılar.*

*Azərbaycanın Ukraynadakı səfiri Eynulla Mədətli və Ukrayna prezidentinin müşaviri – Ukrayna Prezidenti Administrasiyasının Humanitar İnkişaf Məsələləri Baş İdarəsinin*

*rəhbəri Yuri Boqutski «Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi və Ukrayna Milli İncəsənət Akademiyasının Kulturologiya İnstitutu arasında Əməkdaşlıq Müqaviləsi»ni imzaladılar.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Kiyev*

*18 noyabr 2013-cü il*

*Kiyevdə Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Respublikasının Prezidenti Viktor Yanukoviç noyabrın 18-də mətbuata birgə bəyanatlarla çıxış etmişlər.*

### Ukrayna prezidenti Viktor Yanukoviçin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başda olmaqla, Azərbaycanın ali nümayəndə heyətini növbəti dəfə qəbul edirik. Bizim görüşlərin keçdiyi ənənəvi qarşılıqlı anlaşma şəraitini qeyd etmək mənə xüsusilə xoşdur. Şübhəsiz, bizim səmimi və konstruktiv dialoqumuz Kiyev ilə Bakı arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına və dərinləşməsinə kömək edir.

Ukrayna və Azərbaycan Respublikası Prezidentləri Şurasının bugünkü növbəti, 4-cü iclasında biz bundan əvvəlki iclasdan sonrakı dövrdə görülmüş işlərə yekun vurduq, praktiki olaraq bütün mühüm istiqamətlər üzrə gələcək ikitərəfli əməkdaşlıq planlarını hərtərəfli müzakirə etdik. Bizim siyasi dialoqun inkişafı və dinamikası barədə Azərbaycan Prezidenti ilə fikirlərimiz və baxışlarımız eynidir. Biz hesab edirik ki,

Ukrayna–Azərbaycan birgə hökumətlərarası Komissiyasının 9-cu və 10-cu iclasları arasında keçən dövrdə biz ticari-iqtisadi münasibətləri xeyli yaxşılaşdırmışıq. Bu gün biz öz hökumətlərimizə qəti mesaj veririk ki, qazanılmış nailiyyətlərlə əsla kifayətlənmək olmaz. Biz münasibətlərimizi təkmilləşdirməkdə davam etməliyik. Biz bir sıra layihələri birlikdə həyata keçirmək niyyətindəyik. Əlbəttə, münasibətlərimizi, xüsusən ticari-iqtisadi münasibətlərimizi uzunmüddətli planlaşdırmaya keçməliyik. Hesab edirəm ki, məsələyə məhz bu cür yanaşma strateji tərəfdaşlığın maksimum konkret məzmun kəsb etməsinə şərait yaradacaqdır.

Ukrayna enerji daşıyıcılarının nəql edilməsi üçün etibarlı tranzit ölkə, Azərbaycan isə onların etibarlı təchizatçısı kimi çıxış edir. Energetika sahəsində qarşılıqlı fəaliyyət prioritet məsələlərdən biridir və ölkələrimiz karbohidrogenlərin Avropa istiqamətində nəql edilməsi məsələlərində öz səylərini birləşdirmək üçün hər cür imkana malikdir. Bu və digər məsələlərdə qarşılıqlı fəaliyyət dövlətlərimizin Qara dəniz–Xəzər regionunda mövqelərinin möhkəmlənməsinə kömək edəcəkdir. Biz həm də genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi sahəsində iki dövlət qarşısında yaranan imkanları müzakirə edirik.

İlham Heydər oğlu ilə birlikdə qlobal və regional gündəlikdə duran aktual məsələlərin əksəriyyəti barədə Kiyevin və Bakının yanaşmalarının üst-üstə düşməsini məmnuniyyətlə qeyd etmişik. Ölkələrimiz beynəlxalq təşkilatlar – BMT, habelə bu il Ukraynanın sədrlik etdiyi ATƏT çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyət göstərir. Bundan əlavə, Azərbaycan Prezidentinin bu səfərinin yekunlarına əsasən xarici siyasət, kənd təsərrüfatı, mədəni-humanitar sahələrdə ikitərəfli sazişlər imzalanmışdır. Sözsüz ki, bugünkü yüksək səviyyəli ikitərəfli danışıqlar çərçivəsində qəbul edilmiş qərarlar Ukrayna–Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsinə səmərəli şərait yaradacaqdır.

Əlbəttə, bu gün məmnuniyyətlə qeyd edirik ki, Azərbaycan Prezidenti özünün ilk rəsmi səfərlərindən birini Ukraynaya etmişdir. Biz İlham Heydər oğlunu seçkilərdə layiqli qələbəsi və növbəti müddətə prezident seçilməsi münasibətilə təbrik edirik. Bu, sabitlik əlaməti, Azərbaycan xalqının öz liderinə ən yüksək etimadının əlamətidir. Əlbəttə, Ukrayna–Azərbaycan münasibətlərinin ənənələrinə görə biz bu münasibətləri daim təkmilləşdirməyə, ticari-iqtisadi, humanitar və başqa sahələrdə yeni nailiyyətlər qazanmağa borcluyuq.

Azərbaycan və Ukrayna xalqlarının ənənəvi münasibətləri bizim ikitərəfli münasibətlərin inkişafı üçün bünövrədir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Viktor Fyodoroviç!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Hörmətli mətbuat nümayəndələri!

Mən ilk növbədə, Sizin gözəl ölkənizə səfərə dəvətə, mənə və Azərbaycan nümayəndə heyətinin üzvlərinə göstərilən qonaqpərvərliyə, eləcə də prezident seçkilərində qələbə münasibətilə təbriklərə görə Ukrayna prezidenti Viktor Fyodoroviç Yanukoviçə təşəkkürümü bildirmək istərdim.

Qeyd etmək istərdim ki, mənim bu səfərim inauqurasiya mərasimindən bir ay sonra baş tutur. Fikrimcə, bu fakt özü çox şeyə dəlalət edir. Ukrayna Azərbaycan üçün yaxın tərəfdaş, etibarlı tərəfdaş, dost ölkə və strateji tərəfdaşdır. Bizim münasibətlərimiz praktiki olaraq iqtisadiyyatın bütün sahələrini, sosial sahəni əhatə edir. Viktor Fyodoroviçin qeyd etdiyi kimi, biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

Fürsətdən istifadə edib Ukraynanı ATƏT-də artıq başa çatmaqda olan uğurlu sədrliyi münasibətilə təbrik etmək, həmçinin bildirmək istərdim ki, bu il Azərbaycanın BMT Təhlükəsizlik Şurasında üzvlüyü də başa çatır. Bu bizim ölkələrimizin nüfuzunun göstəricisidir. Biz dünya siyasətinin qlobal məsələlərinin həllində fəal iştirak edir və buna öz

töhfəmizi veririk. Ukrayna və Azərbaycan müstəqil xarici siyasət kursunu həyata keçirən ölkələrdir. Bizim ölkələr öz aralarında fəal qarşılıqlı əlaqə saxlayır, bütün beynəlxalq təşkilatlarda həmişə bir-birini dəstəkləyir.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini – iqtisadi və humanitar sahələrlə bağlı məsələləri müzakirə etdik. Bizim yaxşı planlarımız, nazirliklər səviyyəsində yaxşı əlaqələrimiz vardır. Yanacaq-energetika sektorunun məsələləri bizim münasibətlərin gündəliyində həmişə xüsusi yer tutmuşdur. Bu gün biz gələcəkdə bu sahədə hansı yolla daha sıx kooperasiya qura biləcəyimizi müzakirə etdik. Çünki bizim fəal qarşılıqlı əlaqə saxlaya biləcəyimiz istiqamətlər çoxdur. Azərbaycan enerji ehtiyatlarının istehsalçısı kimi, Ukrayna isə istehlakçısı və tranzit ölkə kimi, bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayırlar. Buna görə də Xəzər və Qara dəniz regionlarının əməkdaşlığı, o cümlədən energetika sahəsində əməkdaşlıq məhz bizim birgə fəaliyyətimizin nəticəsidir. Azərbaycan uzun illərdir ki, öz enerji ehtiyatlarının Qara dəniz, Aralıq dənizi bazarlarına və dünya bazarlarına etibarlı nəql olunmasını və çatdırılmasını təmin edir.

Hərbi-texniki sahədə də yaxşı əməkdaşlıq ənənələri vardır. Biz burada da etibarlı tərəfdaşlarıq və bir-birimizi çoxdan sınamışıq. Hesab edirəm ki, bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün potensial vardır. Müştərək elmi araşdırmalar sahəsində də yaxşı perspektivlər vardır.

Bu gün imzalanmış sazişlər də əsas diqqəti, bizim fikrimizcə, yaxşı potensialın olduğu sahələrə yönəldir. Bunlar regionlararası əməkdaşlıq məsələləridir. Zənnimcə, bizim regionların yaxınlaşması üzrə səylərimizi artırmalıyıq və qardaşlaşmış şəhərlər kimi, yaxşı praktikaya ciddi münasibət bəsləməliyik. Aqrar siyasətlə bağlı məsələlər bizim üçün, əlbəttə, Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından vacibdir. Bu sahədə Ukraynanın həm istehsal, həm də ixrac potensialı çox böyükdür.

Başqa sözlə desək, əməkdaşlığın bir sıra sahələrində bizim yaxşı, müsbət nəticələrimiz vardır. Deməliyəm ki, Azərbaycanda Ukraynanı tanıyırlar, sevirlər. Bakı Slavyan Universitetində Ukrayna dili öyrənilir. Yəni humanitar sahədə də bütün işlərimiz yaxşıdır. Bu gün biz humanitar sahədə münasibətlərimizin daha da inkişaf etdirilməsi, o cümlədən ölkələrimizin mədəniyyət günlərinin keçirilməsi yollarını müəyyən etdik ki, mədəniyyətlərarası dialoq inkişaf etsin. Bunun üçün yaxşı perspektivlər vardır.

Deməliyəm ki, səfərin nəticələrindən çox məmnunam. Viktor Fyodoroviçlə biz regional, beynəlxalq problemlərin ən mühüm məsələlərinə dair ətraflı fikir mübadiləsi apardıq. Viktor Fyodoroviçin qeyd etdiyi kimi, baxışlarımız üst-üstə düşür. Biz dostuq, tərəfdaşıq və güman edirəm ki, bu səfərin yekunlarına əsasən tərəfdaşlığımız daha yüksək səviyyəyə çatacaqdır.

Qonaqpərvərliyə görə Viktor Fyodoroviçə bir daha təşəkkür etmək, qardaş Ukrayna xalqına firavanlıq və tərəqqi diləmək istəyirəm.

Təşəkkür edirəm.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukraynaya rəsmi səfəri noyabrın 18-də başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Kiyevin Borispol Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Ukraynanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL SÜLEYMANA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Livan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 noyabr 2013-cü il*

## AVSTRİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*Vyana*

*19 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Avstriyanın paytaxtı Vyanaya gəlmişdir.*

*Həmin gün «Hofburq» Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avstriya Respublikasının Prezidenti Hayntz Fişer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı, münasibətlərin bundan sonra da genişləndirilməsinə əminlik bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*Vyana*

*19 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Avstriyanın paytaxtı Vyanada Ermənistan prezidenti Serj Sarkisyan ilə görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 19-da Avstriyaya işgüzar səfəri başa çatmışdır.*

*Vyananın Şvexat Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Avstriyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

*** * ***

*Həmin gün axşam prezident İlham Əliyev Bakıya qayıtdı.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN AZƏRBAYCAN, QAZAXISTAN VƏ TÜRKMƏNİSTANDA TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ ELÇİSİ ÇARLZ HENDRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Böyük Britaniya parlamentinin üzvü, Baş nazirin Azərbaycan, Qazaxıstan və Türkmənistanda ticarət məsələləri üzrə elçisi Çarlz Hendrini qəbul etmişdir.*

*Çarlz Hendri yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, Böyük Britaniyanın Baş naziri Devid Kemeronun salamlarını və ən xoş arzularını prezident İlham Əliyevə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Böyük Britaniya ilə müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində sıx əlaqələr yaradıldığını və əməkdaşlığımızın uğurla davam etdirildiyini məmnunluqla bildirdi.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin perspektivləri, birgə layihələrin işlənilməsi, regional əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Devid Kemeronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## KİŞİ ŞAHMATÇILAR ARASINDA AVROPA KOMANDA ÇEMPİONATINDA BİRİNCİ YERİ QAZANMIŞ SEÇMƏ KOMANDAMIZIN ÜZVLƏRİ VƏ MÜTƏXƏSSİSLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Varşavada keçirilən kişi şahmatçılar arasında Avropa komanda çempionatında 1-ci yeri qazanmış seçmə komandamızın üzvlərini və mütəxəssisləri qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** İlk növbədə, sizi əldə edilmiş böyük qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın şahmat komandası Avropa çempionudur. Bu, böyük tarixi qələbədir. Artıq ikinci dəfədir ki, biz Avropanın 1-ci komandası kimi, özümüzü dünyaya təqdim edirik. Bu onu göstərir ki, bu qələbə təsadüfi deyildir. Artıq bir dəfə Azərbaycan Avropa çempionu olmuşdur, bu 2-ci dəfədir. Hesab edirəm ki, Avropanın şahmat tarixində bu qələbə öz yerini tutacaqdır.

Bu qələbə məni çox sevindirir. Çünki bu bir daha Azərbaycanda şahmatın inkişafını göstərir. Şahmatın inkişafı ölkəmizin ümumi intellektual potensialını əks etdirir. Çünki idman növləri arasında şahmat intellektual idman növüdür. İdmançılarımızın – şahmatçılarımızın bu qələbəni əldə etmələrinin təməlində Azərbaycan xalqının istedadı dayanır. Biz Avropa ölkələri arasında birinciyik. Bildiyiniz kimi, ən qabaqcıl texnologiyalar, ən mütərəqqi ixtiralar Avropa məkanında mövcud olur. Avropada 1-ci olmaq, intellektual oyunda 1-ci olmaq Azərbaycan xalqının intellektual potensialını bir daha göstərir.

Bu qələbə tarixi qələbədir, çox böyük rəmzi məna daşıyır. Bilirəm ki, bu qələbə çox gərgin mübarizədə əldə edilibdir. Qələbənin xüsusiyyəti ondan ibarətdir ki, bu, komanda qələbəsidir, tək insanın, idmançının qələbəsi deyil, bu, komanda potensialının, şahmatın səviyyəsinin nə qədər güclü olduğunu göstərir.

Şahmatın inkişafı bu gün Azərbaycanda dövlət siyasətidir. Şadam ki, biz indi ötən əsrin 70-ci illərində yaranmış ənənəni bərpa etdik. Bildiyiniz kimi, o vaxt ulu öndər Heydər Əliyev tərəfindən aparılan siyasət nəticəsində hər bir şəhərdə şahmat məktəbi açılırdı. O vaxt Azərbaycan müstəqil dövlət deyildi, ancaq hətta o şəraitdə müstəqil siyasət aparırdı. Azərbaycan Sovet İttifaqında şahmata olan diqqəti ilə daim seçilirdi.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində şahmat məktəblərinin böyük hissəsi bağlandı, ya özəlləşdirildi, ya da ki, o yerlərdən başqa məqsədlər üçün istifadə olundu. Ancaq ondan sonra biz yenidən bu məktəbləri bərpa etməyə başladıq. Demək olar ki, indi hər bir şəhərdə müasir şahmat evləri, məktəbləri vardır və mən, demək olar ki, bütün rayonlarda şahmat məktəblərinin açılışlarında iştirak etmişəm. Görəndə ki, 4-5 yaşında uşaqlar şahmatla məşğul olurlar, əlbəttə, bu məni çox sevindirir. Çünki Azərbaycan gəncliyinin həm peşəkarlığı, həm bilikləri, həm istedadı bizim ümumxalq işimizdir.

Bu gün şahmatın inkişafı Azərbaycanda, demək olar ki, hər bir bölgədə özünü büruzə verir. Şahmat məktəblərində bizim görkəmli şahmatçıların şəkilləri də asılıbdır. Mən balaca uşaqlarla söhbət əsnasında deyirəm ki, yaxşı məşq edin, şahmatı yaxşı öyrənin ki, siz də çempion olasınız, bax, bizim görkəmli çempionlar kimi, sizin də şəkilləriniz bu məktəblərdə asılsın.

Sizin qələbənizin xüsusiyyəti və önəmi ondan ibarətdir ki, əminəm, bu, Azərbaycanda şahmatın inkişafına yeni təkan verəcək, şahmat məktəblərinə uşaqların axınını təmin edəcək və şahmatın Azərbaycanda populyarlaşması üçün yeni səhifə açacaqdır. Ona görə qələbənizin çox böyük əhəmiyyəti vardır. Bu, Azərbaycan dövlətinin nüfuzu üçün çox vacibdir. Çünki

Azərbaycan Avropada özünü intellektual mərkəz kimi də təqdim etmişdir.

Bizim idmanın bütün növləri üzrə yaxşı nəticələrimiz vardır və fiziki güc tələb edən idman növlərində Azərbaycan böyük qələbələrə imza atmışdır. Keçən Olimpiya oyunlarında idmançılarımız dünyada 30-cu və Avropada 15-ci yerə layiq görülmüşlər. Universiadada İslam Həmrəyliyi oyunlarında da idmançılarımız daim yüksək pillədədirlər. Ancaq intellektual oyunda – şahmatda Avropada 1-ci olmaq, bu doğrudan da tarixi nailiyyətdir. Bu çox sevindirici haldır və Azərbaycan dövlətinin intellektual potensialını göstərir.

Onu da qeyd etməliyəm ki, komandamızın üzvlərinin hamısı gənclərdir. O gənclər ki, bax, bu salonda ulu öndər Heydər Əliyev ilə görüşərək şəkil çəkdirmişdilər, ondan xeyir-dua və tövsiyə almışdılar.

Komandamızın üzvləri müstəqillik dövründə formalaşıblar, müstəqillik dövründə böyüyüblər və bir daha bu qələbə müstəqilliyimizin üstünlüklərini göstərir. Sovet dövründə təsəvvür etmək çətin idi ki, Azərbaycan komandası hətta sovet məkanında birinciliyə imza atsın. Ancaq bu gün Avropa qitəsində Azərbaycan birincidir. Bu, böyük tarixi qələbədir və bir daha demək istəyirəm ki, məni çox sevindirir, Azərbaycan xalqını sevindirir. Bu qələbə bizim qürur mənbəyimizdir. Biz Avropaya, dünyaya göstəririk ki, Azərbaycan intellektual inkişaf baxımından heç kimdən geridə qalmır. Göstəririk ki, bizim uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır, düzgün atılmış addımlar dayanır. Sizin qələbəniz, əlbəttə, əminəm ki, gələcəkdə şahmatın inkişafına yeni təkan verəcəkdir, qeyd etdiyim kimi, şahmat bölmələrinə, məktəblərə axını təmin edəcəkdir.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir, dünya miqyasında özünə layiq yer tuta bilmişdir, bütün proseslərdə fəal iştirak edir. Daxili siyasətlə bağlı Azərbaycanda aparılan islahatlar bu gün dünyada öyrənilir. Son 10 il ərzində Azərbaycan iqtisadi sahədə dünya miqyasında ən sürətli inkişafa nail ola bilmişdir. Xarici siyasətlə bağlı deməliyəm ki, bu gün Azərbaycan dünyanın

bir nömrəli orqanı olan BMT Təhlükəsizlik Şurasının üzvüdür. Azərbaycan idman sahəsində böyük uğurlara nail olubdur. Sizin qələbəniz son illər ərzində əldə edilən bütün bu uğurları tamamlayır. Yəni ona çox bariz bir əsaslandırma əlavə edir. Bax, budur bizim uğurlarımızın səbəbi. Bizim uğurlarımızın səbəbi Azərbaycan xalqının istedadıdır, yüksək intellektual potensialıdır və gənclərimizin peşəkarlığı və vətənpərvərliyidir.

Bu gün Azərbaycan şahmat aləmində ən yüksək yerlərdədir. Təsadüfi deyildir ki, Dünya Şahmat Olimpiadası da Azərbaycanda keçiriləcəkdir. Bu qərarın qəbul edilməsində təkcə bizim təşkilatçılıq qabiliyyətimiz dayanmır, o cümlədən şahmatçıların uğurları və qələbələri burada öz rolunu oynayıb. Mən əminəm ki, digər mötəbər yarışlar kimi, Dünya Şahmat Olimpiadasını da biz yüksək səviyyədə keçirəcəyik.

Azərbaycan indi müxtəlif tədbirlərə ev sahibliyi edir, siyasi, iqtisadi forumlar keçirilir. I Avropa oyunları Azərbaycanda keçiriləcəkdir. Ondan 2 il sonra İslam Həmrəyliyi oyunları, Şahmat Olimpiadası keçiriləcəkdir. Yəni bütün bu hadisələr bir daha ölkəmizin dinamik inkişafını göstərir və beynəlxalq siyasi, iqtisadi, humanitar, idman elitasının Azərbaycana olan münasibətini əks etdirir.

Sizi bu gözəl qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə yeni qələbələr, yeni uğurlar arzulayıram.

**Şəhriyar Məmmədyarov** (*komandanın üzvü):* Cənab Prezident, milli komandanın bütün şahmatçıları adından Sizə təşəkkür edirik, «Çox sağ olun» – deyirik ki, dəyərli vaxtınızı ayırıb, bizi qəbul etmisiniz. Əslində bu sadəcə, bir görüş deyildir. Sizin hər bir böyük qələbədən sonra bizimlə görüşünüz bizi daha yüksək qələbələrə, daha da yaxşı nəticələr göstərməyə, həvəslə məşğul olmağa ruhlandırır. Çünki 2009–2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsinə dair Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramın nəticəsində Azərbaycanın bütün bölgələrində, rayonlarında, hər bir yerində şahmata çox böyük fikir verilir. Ona görə də bütün bu nəticələr, Avropa çempionatında uğurlarımız Sizin şahmata

diqqət və qayğınızın nəticəsidir. Son 6 ildə biz 4 Avropa çempionatında iştirak etmişik. Bu çempionatların dördündə də medal qazanmışıq. Heç bir Avropa ölkəsi belə nəticə göstərə bilməyib. İnanmıram ki, kimsə, hansısa ölkə bunu təkrarlaya bilsin. Azərbaycan milli komandası 2 dəfə Avropa çempionu olub. Qarşımızda duran əsas məqsəd, əlbəttə ki, 2015-ci il Dünya Kubokunda, 2016-cı il Şahmat Olimpiadasında qələbə qazanmaqdır. Bütün şahmatçılar adından söz veririk və çalışacağıq ki, bundan sonra da Azərbaycanı layiqincə təmsil edək. Azərbaycanın adı həmişə bizim üçün birinci olub. Biz, şahmatçılar çalışırıq ki, iştirak etdiyimiz yarışlarda Azərbaycanın birinci olduğunu sübut edək. Zənnimcə, bu bizdə pis alınmır. Gələcəkdə də çalışacağıq ki, daha yaxşı olsun.

Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun, siz Azərbaycanın bayrağını, Azərbaycanın şöhrətini yüksəklərə qaldırmısınız. Bir daha demək istəyirəm ki, bu qələbənin xüsusi yeri vardır. Çünki mən dəfələrlə demişəm, Olimpiya oyunları elə bir yarışdır ki, burada ölkələr öz imkanlarını ortaya qoyurlar. Bəlkə də dünya miqyasında yeganə bir yarışdır, ya müsabiqədir ki, orada ölkələrin idman reytinqi açıq-aydın özünü göstərir. Çünki başqa sahələrdə mütəxəssislər üçün hansı ölkənin hansı ölkədən daha irəlidə olmasının təhlilini aparmaq imkanı vardır. Misal üçün, iqtisadi sahədə hansı ölkənin daha da irəlidə olmasını müəyyənləşdirmək üçün müxtəlif meyarlar vardır. Adi vətəndaş üçün bunlar bir çox hallarda o qədər də aydın deyildir. Yaxud da, ölkələrin siyasi çəkisi nə ilə ölçülür? Əlbəttə, müəyyən parametrlər vardır. Ancaq idmanda, xüsusilə Olimpiya oyunlarında bu, açıq-aydın göstərilir. Hansı ölkə 1-ci yerdədir, 2-ci yerdədir, 3-cü yerdədir. Ona görə Olimpiya oyunlarında idmançılarımızın dünya miqyasında 30-cu yerə çatması və Avropada 15-ci yerə layiq görülməsi ölkəmizin idman potensialını göstərir.

Bu çempionat isə Avropa ölkələrinin intellektual potensialını göstərir. Bu, intellektual yarış idi. Bu, zəka, ağıl yarışı idi. Bu

qələbə onu deməyə əsas verir ki, Avropanın ən ağıllı insanları Azərbaycanda yaşayırlar. Bax, budur bu qələbənin əsas mahiyyəti. Bu gün Azərbaycan bu qələbə ilə bir daha özünü intellektual mərkəz, Avropanın intellektual mərkəzi kimi göstərir. Ona görə bu qələbənin doğrudan da çox böyük mənası vardır. Bu bir daha onu göstərir ki, bizim xalqımız nə qədər istedadlıdır, ağıllıdır.

Avropa qitəsində birinciliyi əldə etmək tarixi qələbədir. Ona görə sizi bir daha ürəkdən təbrik edirəm. Bu qələbə tarixdə qalacaqdır. Azərbaycan 2 dəfə Avropa çempionu olmuşdur. Biz bütün Avropa çempionatlarında medal qazanmışıq. Yəni bu qələbənin böyük əsası vardır. Sizi bir daha təbrik edirəm, Sizə gələcək uğurlar arzulayıram. Federasiyanın bütün işçilərini də, Gənclər və İdman Nazirliyini də təbrik edirəm. Bu, ümumi səylərinizin məhsuludur.

**F a i q  H ə s ə n o v** *(Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti):* Möhtərəm cənab Prezident, mən ilk növbədə, şahmat ictimaiyyəti, şahmatçılar adından yenidən prezident seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Arzu edirəm ki, Siz həmişə xalqımızın lideri olasınız. Çünki bizim bütün qələbələrimiz Sizin adınızla bağlıdır.

Siz çox gözəl dediniz ki, keçən əsrin 70-ci illərinin sonunda ulu öndərimiz tərəfindən Azərbaycan Şahmat məktəbinin bünövrəsi qoyulmuşdur. O vaxtlar yuxuda da görə bilməzdik ki, bir neçə il keçəcək, yəni 20–30 ildən sonra Azərbaycan Avropanın ən güclü şahmat ölkəsi kimi tanınacaqdır. Əlbəttə, o vaxt çox böyük işlər görülmüşdür, şahmat məktəbləri açılmışdır. O vaxt əsas məqsəd uşaqları cəlb etmək idi. Bu məqsəd sosial xarakter daşıyırdı. O vaxt bizim rayonlarımızda heç bir nəfər də şahmatçı yox idi. Bilirsiniz ki, Azərbaycanın nəinki milli komandası, hətta gənclərin komandasının üzvləri yox idi. Lakin sonralar get-gedə, nəhayət, müstəqillik dövründə vəziyyət tamam dəyişdi. Ulu öndərimiz 1998-ci ildə bu uşaqları – o vaxt hələ uşaq idilər, 10 yaşları var idi – qəbul etdi və onlara dəstək, kömək, maddi yardım göstərdi. Bilirsiniz ki, o çətin

illərdə bu, böyük uzaqgörənlik idi. Ulu öndər bilirdi ki, bu uşaqların gələcəyi vardır və o illərdə maddi yardım çox böyük məna daşıyırdı. Çünki şahmatçının inkişafı üçün mütləq məşqçi, turnirlərdə iştirak etmək lazım idi. Ulu öndər bilirdi ki, doğrudan da istedadlı uşaqlar gələcəkdə ölkəmizi dünyada belə tanıdacaqlar, ona görə onlara dəstək olurdu, onların əlindən tuturdu. Mən çox təəssüf edirəm ki, ulu öndərimiz indi yoxdur, qələbənin şahidi olub görərdi ki, onun yetirmələri dünyada necə tanınmış şahmatçılardır.

Şahmat məktəblərinin Sizin tərəfinizdən yenidən qurulması Azərbaycanda şahmatın inkişafına yeni təkan verdi. Sizin hər hansı bir şahmat məktəbində olmağınızdan, uşaqlarla görüşməyinizdən sonra oraya çox axın olur, çox uşaq gəlir. Misal üçün, Naxçıvanda Şahmat məktəbinin açılışında iştirakınızdan sonra burada şahmata yazılanların sayı sürətlə artıb. İndi Naxçıvan Muxtar Respublikası şahmatın sürətlə inkişaf etdiyi bir yerdir. Mən bir daha Sizə minnətdarlığımı bildirirəm ki, nəinki şahmatçılara, bütün idmançılara böyük diqqət göstərirsiniz. Siz onları həm maddi, həm də mənəvi cəhətdən həvəsləndirirsiniz. İlin sonunda onlara mükafat verirsiniz. Bu Sizin şahmata, idmana olan münasibətinizin göstəricisidir. Mən hər dəfə vurğulayıram, vaxt gələcək idmançılarımız deyəcəklər ki, biz qızıl əsrdə yaşamışıq. Cənab Prezident, Sizin dövrünüzdə doğrudan da idmançılar qızıl əsrdə yaşayırlar. Bir daha Sizə minnətdaram.

**İlham Əliyev:** Çox sağ olun.

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*20 noyabr 2013-cü il*

*Noyabrın 20-də Belarus Respublikasının Azərbaycan Respublikasında səfirliyinin yeni binasının açılışı mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mərasimdə iştirak etmişlər.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Bakıya gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.*

*Milli geyimli qız prezidentlərə duz-çörək təqdim etdi.*

*Mərasimdə Azərbaycanın və Belarusun dövlət himnləri səsləndirildi, Belarusun Dövlət bayrağı qaldırıldı.*

*Prezidentlər səfirliyin binasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Dövlət başçıları İlham Əliyev və Aleksandr Lukaşenkonun iştirakı ilə 2010-cu ildə təməli qoyulan səfirlik binasının inşası yüksək səviyyədə həyata keçirilmişdir.*

*Məlumat verildi ki, dörd mərtəbədən ibarət yeni binada həm səfirlik, həm də konsulluq idarəsi yerləşəcəkdir. Binada səfirliyin əməkdaşlarının səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Ərazidə diplomatik korpusun nümayəndələri üçün beşmərtəbəli yaşayış binası da inşa olunub.*

*Prezidentlər səfirliyin binasında yaradılmış şəraitlə tanış oldular.*

*Sonra dövlət başçıları səfirliyin həyatində ağac əkdilər.*

Daha sonra prezident İlham Əliyev və prezident Aleksandr Lukaşenko Gəncə Avtomobil zavodu ilə Belarusun MAZ zavodunun birgə istehsalı olan müxtəlif təyinatlı texnika və avtomobillərlə tanış oldular.

Qeyd edək ki, Azərbaycan ilə Belarus arasında diplomatik əlaqələr 1993-cü ildə qurulmuşdur. 2006-cı ilin fevralında Belarusun Azərbaycanda, həmin ilin avqustunda isə Azərbaycanın Belarusda səfirlikləri açılmışdır. Hazırda ölkələrimiz arasında yüksək səviyyəli diplomatik münasibətlər mövcuddur. Azərbaycan ilə Belarus bütün sahələrdə uğurlu əməkdaşlıq edir və təsadüfi deyil ki, indiyə qədər ölkələrimiz arasında əməkdaşlığa dair 92 sənəd imzalanıb. Dövlət başçılarının qarşılıqlı səfərləri isə ikitərəfli münasibətləri daha da möhkəmləndirir.

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 21-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Belarus Respublikasının Prezidentinə raport verdi.*

*Belarus Respublikası və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Belarus Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Aleksandr Lukaşenkoya, Belarus Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2013-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 21-də təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə dinamik inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin müxtəlif sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi. Belarus Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminlik bildirildi.*

*Görüşdə ikitərəfli və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2013-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli nümayəndə heyətinin üzvləri!

Sizi Azərbaycanda salamlamağa şadam, xoş gəlmisiniz!

Əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaqdır. Biz ikitərəfli münasibətlərə aid məsələləri sizinlə hələ dünən müzakirə etməyə başladıq. Bu gün müzakirələri davam etdirdik, indi nümayəndə heyətlərinin iştirakı ilə işimizi davam etdirəcəyik. Biz ikitərəfli münasibətlərimizi çox yüksək qiymətləndiririk. Çox ümid edirik ki, həmin münasibətlər bundan sonra da fəal inkişaf edəcək və dərinləşəcəkdir. Artıq bir neçə dəfə yüksək səviyyədə qarşılıqlı rəsmi səfərlərimiz olub. Qarşılıqlı siyasi əlaqələrimiz, siyasi məsləhətləşmələrimiz çox fəaldır. Son bir neçə ildə Belarus–Azərbaycan münasibətləri möhkəmlənmiş, çox yüksək səviyyəyə çatmışdır. Biz iqtisadi əlaqələrdə, sənaye istehsalı sahəsində, humanitar sahədə, energetika sahəsində yaxşı nəticələr əldə etmişik. Lakin ən başlıcası, son illərdə fəal qarşılıqlı əlaqələr bizi bir-birimizə o dərəcədə yaxınlaşdırmışdır ki, artıq nəinki regionda, həm də bütün dünyada Belarus və Azərbaycanı çox yaxın, dost ölkələr hesab edirlər.

Bizim münasibətlərimizin əsasını səmimiyyət, qarşılıqlı hörmət, qarşılıqlı dəstək təşkil edir. Biz bu baza üzərində sanballı münasibətlər qurmuşuq. Bu gün bizim müəssisələr arasında əlaqələr genişlənir, investisiya layihələri, sənaye istehsalı ilə bağlı layihələr həyata keçirilir, təcrübə mübadiləsi aparılır. Başqa sözlə desək, bizim münasibətlərimiz tam dəyərli xarakter daşıyır. Əlbəttə, Belarus Prezidentinin Azərbaycana səfəri bu münasibətlərə yeni təkan verəcəkdir. Bu gün imzalayacağımız sənədlər də daha fəal əməkdaşlığımıza, bir-birimizi dəstəkləməyə, bir-birimizə kömək etməyə və birgə işləməyə kömək edəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, bir daha xoş gəlmisiniz! Sizə və nümayəndə heyətinin üzvlərinə ən xoş arzularımı bildirirəm.

**Aleksandr Lukaşenko:** Hörmətli İlham Heydər oğlu, mən ilk növbədə, dövlətlərimiz arasında yaranan, bizim səfərlərimizdən başqa vaxtlarda da özünü göstərən səmimiyyətə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu təbiidir. Yəqin ki, bu, ümumiyyətlə, Sizin xalqın milli xarakterinə və bu xalqın bir nümayəndəsi kimi, Sizə də xas olan cəhətdir. Bizim nümayəndə heyətini, məni və ümumiyyətlə, Azərbaycanda belarusları həmişə səmimiyyətlə qəbul etdiyinizə görə sağ olun. Güman edirəm ki, bizim ölkədə Sizin xalqın, Sizin millətin nümayəndələrinə münasibət mənasında Sizin də bizə qarşı heç bir narazılığınız yoxdur və ola da bilməz. Buna görə çox sağ olun.

Siz düzgün dediniz ki, bizim iki ölkə arasında, ümumiyyətlə, istər siyasətdə, istərsə də diplomatiyada heç bir problem yoxdur. Biz beynəlxalq təşkilatlarda çox sıx əməkdaşlıq edirik. Siz bizi həmişə dəstəkləmisiniz və dəstəkləyirsiniz. Biz də sizi həmişə dəstəkləmişik və dəstəkləyirik. Ticari-iqtisadi sahədə, iqtisadiyyatda da çox sanballı dinamika yaranmışdır. 2006–2012-ci illərdə ticari-iqtisadi əlaqələrimizin genişlənməsinin göstəricisi olan əmtəə dövriyyəsi meyarı 6 dəfə artmışdır. Bu çox sanballı göstəricidir. Lakin əmtəə dövriyyəsinin mütləq həcminin 300 milyon dollar təşkil etməsi qaneedici deyil. Bizim

imkanlarımız daha çoxdur. Allaha şükür, bizim bu həcmi artırmağa imkanımız vardır. Bu problemi Sizinlə indicə müzakirə etdik – bu həcmi burada təkcə yığma əməliyyatları ilə məhdudlaşmayan istehsalatlar yaradılması hesabına artırmağa imkanımız vardır. Bu istehsalatlardan bəzilərinin lokallaşma dərəcəsi 40–60 faiz həcmindədir. Bu, artıq müştərək istehsalat deməkdir. Əlbəttə, bizim sizinlə bərabər Azərbaycan torpağında istehsal edə biləcəyimiz məhsullar Azərbaycana sığmaz. Biz bu barədə danışdıq. Mən Prezidentdən xahiş etdim ki, onun beynəlxalq aləmdə nüfuzundan istifadə edərək, biz birlikdə üçüncü ölkələrdə ticarətlə məşğul olaq. Bu çox vacibdir. Biz beynəlxalq bazarlara fəal daxil olmalı və birgə istehsalatların məhsullarını birlikdə sataraq bu hesaba müvafiq mənfəət əldə etməliyik.

İlham Heydər oğlu, bizim mütəxəssislər hökumətlərarası komissiya çərçivəsində sənaye kooperasiyası üzrə işçi qrupu yaradılması barədə fikirləşməyi təklif edirlər. Təkbətək söhbətimizdə Siz bu barədə çox əhatəli danışdınız.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*21 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra noyabrın 21-də Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında Azərbaycan Respublikası ərazisində yeni təhsil müəssisələrinin yaradılması haqqında Protokol»u Azərbaycanın Təhsil naziri Mikayıl Cabbarov və Belarusun Təhsil naziri Sergey Maskeviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında Məsləhətləşmələr Planı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında standartlaşdırma, metrologiya və sertifikasiya sahəsində əməkdaşlıq haqqında Sazişə dəyişikliklər edilməsi barədə Protokol»u Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında 5 noyabr 2004-cü il tarixli Sazişə əlavələr və dəyişikliklər edilməsi haqqında Protokol»u Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və Belarusun Vergilər naziri Vladimir Poluyan imzaladılar.*

*Prezident Aleksandr Lukaşenkonun respublikamıza rəsmi səfəri çərçivəsində 2 ölkə arasında daha 5 sənəd imzalandı.*

*«Azərbaycan Respublikası Şamaxı Rayon İcra Hakimiyyəti və Belarus Respublikası Qrodno Vilayətinin Oşmyanski Rayon İcra Komitəsi arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev və Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviç imzaladılar.*

*«Gəncə şəhəri və Qomel şəhəri arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti və Belarus Respublikasının Dövlət Nəzarəti Komitəsinin Maliyyə Monitorinqi Departamenti arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair Saziş»i Azərbaycanın Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin rəhbəri Adışirin Qasımov və Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviç imzaladılar.*

*«Azərbaycan Diplomatik Akademiyası və Belarus Yüksək Texnologiyalar Parkı arasında əməkdaşlıq haqqında Saziş»i*

*Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev və Belarusun Yüksək Texnologiyalar Parkı Administrasiyası Dövlət qurumunun direktoru Valeri Tsepkalo imzaladılar.*

*«Azərbaycan Diplomatik Akademiyası və Belarus Dövlət Universiteti arasında əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev və Belarusun Təhsil naziri Sergey Maskeviç imzaladılar.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*21 noyabr 2013-cü il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar, əziz dostlar!

Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Bizim əlaqələrimiz müntəzəm xarakter daşıyır. Yüksək səviyyəli səfərlər yetərincə intensiv olur. Bu, Belarus ilə Azərbaycan arasında münasibətlərin göstəricisidir. Son illərdə bu münasibətlər çox böyük yol keçmiş və çox yüksək səviyyəyə çatmışdır. Biz dünən və bu gün ikitərəfli münasibətlərin geniş spektrini müzakirə etmək və gələcəkdə əməkdaşlığı möhkəmlətmək yollarını müəyyənləşdirmək imkanına malik olduq. Ölkələrimiz beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir və regional təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayır.

Bizim əmtəə dövriyyəsini artırmaq üçün çox yaxşı perspektivlərimiz vardır. Əmtəə dövriyyəsinin artmasına baxmayaraq, o, təbii ki, bizim potensialımızı hələ tam əks etdirmir. Biz birgə istehsalatlar yaradılması istiqamətində də fəal iş

aparırıq. Dünən Belarusun Azərbaycandakı səfirliyinin yeni binasının açılışı zamanı Belarus tərəfinin dəstəyi ilə Azərbaycanda istehsal olunmuş texnika nümayiş etdirildi. Bu bizim müəssisələr arasında istehsal əlaqələrinin necə fəal inkişaf etməsinə əyani sübutdur. Çox sevindirici haldır ki, prezidentlər kimi, bizim qəbul etdiyimiz bütün qərarlar vaxtında və keyfiyyətlə həyata keçirilir.

Bu gün dediyimiz kimi, bizim münasibətlərin əsasında çox böyük qarşılıqlı etimad dayanır. Biz bir-birimizə inanırıq, etibar edirik. Biz bir-birimizin sözlərinə inanırıq. Ona görə ki, bizim sözlərimizlə əməllərimiz arasında ayrılıq yoxdur, hətta bəzən bizim razılaşmaları imza ilə rəsmiləşdirməyə ehtiyac olmur. Hərçənd, bu gün imzalanmış mühüm sənədlər ölkələrimizin və xalqlarımızın bundan sonra da yaxınlaşmasına, münasibətlərimizin əvvəlki kimi dinamik inkişaf etməsinə şərait yaradacaqdır. Bizim qarşılıqlı etimadımız elə səviyyədədir ki, hər hansı məsələnin həlli üçün sadəcə, söz verməyin və ya vəd etməyin kifayət olduğunu güman etməyə haqqımız vardır. Mənim fikrimcə, əlaqələrimizi səciyyələndirən cəhətlər qərarlar qəbul etmək, həmin qərarların yerinə yetirilməsinə nəzarət, habelə çox müsbət qarşılıqlı münasibətlər mexanizmidir. Ciddi məzmun kəsb edən bu münasibətlər çox sahələri əhatə edir. Bu gün biz təhsil sahəsində, humanitar sahədə, elm, yüksək texnologiyalar, kənd təsərrüfatı, istehsalat, hərbi-texniki əməkdaşlıq, energetika sahələrində mühüm məsələləri müzakirə etdik. Görürsünüzmü, təkcə bu istiqamətlərin sadalanması çox şeydən xəbər verir və hər bir istiqamət üzrə yaxşı nəticələr, konkret layihələr, proqramlar vardır.

Biz prezidentlər tərəfindən qəbul edilmiş qərarların icrasını gələcəkdə də daim nəzarətdə saxlamaq niyyətindəyik və bu gün ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlərini müəyyən etmək barədə də razılaşdıq. Artıq yaxşı nəticələr əldə edilmiş sahələrdə səylərimizi artırmalı, yeni istiqamətləri fəallaşdırmalıyıq. Məhz investisiya imkanlarını, Belarusda özəlləşdirmədə Azərbaycan müəssisələrinin iştirakını, habelə

birgə istehsal edilmiş məhsulların üçüncü ölkələrin bazarlarına birgə çıxarılması məsələlərini ikitərəfli münasibətlərimizin yeni mövzuları kimi müəyyən etdik. Zənnimcə, biz bu yeni istiqamətlərdə də çox müsbət məqamlar tapacağıq. Biz çalışacağıq ki, bu yeni istiqamətlər ikitərəfli münasibətlərin geniş gündəliyinin tərkib hissəsinə çevrilsin.

Mən Belarus Prezidentinin Azərbaycana səfərinin nəticələrindən çox məmnunam. Dünən biz birgə işə başladıq, çox geniş fikir mübadiləsi apardıq, həm ikitərəfli, həm də regional münasibətlərlə bağlı çox mövzulara toxunduq. Bizim aramızda yaxşı qarşılıqlı anlaşma vardır. Qarşılıqlı dəstək səviyyəsi çox yüksəkdir. Ən başlıcası, bütün istiqamətlər üzrə münasibətlərimizi bundan sonra da fəal inkişaf etdirmək əzmindəyik.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, bir daha deyirəm – «Xoş gəlmisiniz!». Əminəm ki, əlaqələrimiz davam edəcək, ölkələrimizə və xalqlarımıza xeyir verəcəkdir. Təşəkkür edirəm.

## Belarus prezidenti Aleksandr Lukaşenkonun bəyanatı

Sağ olun, İlham Heydər oğlu. Fürsətdən istifadə edib, bizim nümayəndə heyətini, ümumiyyətlə, bizim adamları, bizim belarusları burada həmişə səmimi və diqqətlə qarşıladığınıza görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Sizinlə tam razıyam və bunu təsdiq edirəm ki, beynəlxalq əməkdaşlıq baxımından Azərbaycan ilə Belarus arasında heç bir problem yoxdur. Dünya nizamına, bu gün dünyada mövcud olan problemlərə baxışlarımız eynidir. Bununla əlaqədar, beynəlxalq təşkilatlarda problemli məsələlərin bütün spektri üzrə həmişə bir-birimizi dəstəkləmişik və dəstəkləyəcəyik.

Həqiqətən, bizim əmtəə dövriyyəmizin həcmini daha da artırmaq, daha da yaxşılaşdırmaq lazımdır. Ona görə ki, 2 dövlətin imkanları bu il olmasa da, gələn il nail ola biləcəyimiz 300 milyon dollardan xeyli artıqdır. Mən əminəm, bu səfərin

xüsusiyyəti ondan ibarətdir ki, biz öz həmkarlarımızla, hökumətlərarası komissiya ilə birlikdə əməkdaşlığın yeni istiqamətini tapdıq. Bu gün biz Azərbaycan biznesmenlərini və Azərbaycan dövlətini Belarus ərazisində maraqlandıra biləcək layihələrə daha geniş sərmayə qoyulması məsələsində Prezidentdən də dəstək aldıq. Bizim kooperasiya əlaqələrimiz necə əməkdaşlıq etmək lazım olduğunu göstərir. Bu gün biz bu haqda da danışdıq. Razılaşdıq ki, bu istiqaməti gücləndirəcəyik. Biz əvvəlcə Azərbaycan ərazisində adi texnikanın yığılmasından başlamışdıq. Bu gün artıq bir sıra istehsalatlar – traktorların, avtomobillərin, avtobusların yığılması istehsalatları artıq 40–60 faiz lokallaşdırılmışdır. Bu, Azərbaycan Respublikasının çox yüksək potensialına dəlalət edir. Ona görə biz yığma əməliyyatlarından müştərək müəssisələrə keçdik. Bu gün artıq müştərək müəssisələrdə minlərlə vahid texnika istehsal edirik. Prezidentlə biz belə bir faktı da qeyd etdik ki, bizim Azərbaycanda artıq istehsal etdiyimiz bütün məhsullar Azərbaycana sığmır, beləliklə, qarşımızda bir məsələ yaranmışdır – üçüncü ölkələrin bazarlarına çıxmaq və birgə istehsal etdiyimiz məhsulları birgə satmaq. Yəni biz artıq xeyli yol keçmişik, birgə məhsul yaratmışıq, sabah həmin məhsulu İranda, başqa respublikalarda satacağıq.

Sizin biznesmenlər və Sizin dövlət tərəfindən Belarusa fəal sərmayə qoyulması əməkdaşlığın yeni istiqamətidir. Əgər biz gənclərə və təhsilə böyük diqqət ayırmasaydıq, bu mümkün olmazdı. Mən həmişə deyirəm ki, İlham Heydər oğlu bizim aramızda ən ziyalı və savadlı prezidentdir və o bu məsələyə böyük diqqət yetirir. Görünür, bu səbəbdən o, dünyada normal təhsil olan yerlərə Azərbaycan gənclərini göndərməyə çalışır. Gənclər də, əlbəttə, yeni texnologiyaları buraya, öz vətənlərinə gətirəcəklər, onlar yüksək bilikli insanlar olacaqlar. Bu gün bizdə 150 azərbaycanlı tələbə təhsil alır. Onlar bizim üçün heç bir problem yaratmırlar. Ağıllı, sakit gənclərdir, normal təhsil almağa çalışırlar. Bax, bu mütəxəssislər hər il Azərbaycanın iqtisadiyyatına cəlb edilir və sanballı nəticə verirlər. Bunlar

olmasa, təhsil olmasa – bilirəm ki, texniki peşə təhsili üzrə də yeni layihələr vardır – normal əməkdaşlıq mümkün deyildir.

Bunu qeyd etmək bizim üçün çox xoşdur ki, lap yaxın vaxtlarda burada, Azərbaycan torpağında Belarus Mədəniyyəti Günləri keçirilmişdir. Hətta mənə verilən məlumata görə, yaxın vaxtlarda bizim artistlər Qara Qarayevin «Yeddi gözəl» baletini tamaşaya qoyacaqlar. Bu çox mühüm hadisə olacaq. Buna görə də biz həm səfiri, həm də Azərbaycandan olan qardaşlarımızı bu tamaşaya dəvət edirik. Əgər hər iş normal getsə, biz burada bir neçə tamaşa göstərməyə hazırıq. Görürsünüzmü, biz təhsil, mədəniyyət sahəsində və digər humanitar istiqamətlər üzrə bir-birimizlə nə qədər sıx bağlıyıq. Biz əməkdaşlığa hazırıq və sizdən yeni təkliflər gözləyirik. Əgər sizin üçün maraqlıdırsa, siz bizim neft-kimya sahəsinə, kənd təsərrüfatına, xüsusən sizin Prezidentin diqqət yetirdiyi istiqamətə – əczaçılıq sənayesinə sərmayə qoya bilərsiniz. Mən bu təklifləri tamamilə dəstəkləyirəm. Vaxtilə bizim də qarşımızda belə bir məsələ yaranmışdı, bu məsələ hələ də aradan qalxmayıb – ölkənin əczaçılıq baxımından müstəqilliyini, dərman təhlükəsizliyini təmin etmək məsələsi. Buna biz də hazırıq, İlham Heydər oğlu da bu gün təsdiq etdi ki, o burada tibbi preparatlar buraxılışı üzrə obyektlər tikintisi layihəsini dəstəkləməyə hazırdır. Biz öz texnologiyalarımızı təklif etməyə və ən qısa müddətdə təbii ki, Azərbaycan Prezidentinin nüfuzundan və təsirindən istifadə etməklə üçüncü ölkələrdə də satacağımız dərman preparatlarının qablaşdırılmasından başlanmış, onların istehsalına qədər bütün yolu keçməyə hazırıq.

Hörmətli İlham Heydər oğlu, mənim Sizi ənənəvi olaraq Minskə dəvət etməyim qalır. Bizim yaxşı təcrübəmiz vardır. Hər il gah Minskdə, gah burada – Bakıda görüşürük. Bu həm bizi müvafiq formada saxlayır, lakin daha çox həmkarlarımızı səfərbər edir ki, onlar da yaxşı formada olsunlar. Ona görə ki, bizə görüşlərdən əvvəl işlərin sürətini artırmaq lazımdır. Bizim iş qrafikimizin belə tərtib edilməsinə görə çox təşəkkür edirəm, düşünürəm ki, bu bizim üçün çox faydalı olacaqdır.

Bir daha təsdiq etmək istəyirəm ki, dövlətlərimiz arasında əməkdaşlıqda qapalı mövzular yoxdur. Biz heç kəsdən gizlətmirik ki, qida məhsulları istehsalından başlamış, müdafiə nazirliklərini maraqlandıran, Azərbaycan Respublikasının və Belarusun müdafiə qabiliyyətinin tələb etdiyi məsələlərə qədər hər sahədə əməkdaşlıq edirik. Bir daha vurğulayıram ki, biz heç kəsdən gizlətmirik və gizlətməyəcəyik. Azərbaycan Prezidenti ilə bizim çox etimadlı münasibətlərimiz var və mən əminəm ki, dövlətlərimiz arasında münasibətlər də eynilə bu cür olacaqdır. Xüsusən ona görə ki, bizim başqa çarəmiz yoxdur, bu münasibətlərin əsasını biz yaratmışıq, buna görə də qarşımızda bir vəzifə durur – dinamika, dinamika və yalnız irəli. Biz buna hazırıq və görürəm ki, Azərbaycan tərəfindən olan həmkarlarımız da buna hazırdırlar.

Səmimiyyətə, qarşımızda duran problemli məsələlərin həllinə görə çox sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*21 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından noyabrın 21-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə rəsmi nahar verilmişdir.*

*Dövlət başçıları naharda çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar, əziz dostlar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlamaq istəyirəm. Sizin səfəriniz bizim dostluq münasibətlərinin inkişafında böyük əhəmiyyətə malikdir. Dünən və bu gün biz bu barədə çox danışmışıq və əminəm ki, nümayəndə heyətlərinin üzvləri də fəal ünsiyyət saxlayıblar. Hesab edirəm ki, biz münasibətlərimizin dinamikasını və nəticələrini tamamilə eyni cür qiymətləndiririk. Mən 2006-cı ildə Belarusa ilk rəsmi səfərimi, sonra 2007-ci ildə Sizin Azərbaycana rəsmi səfərinizi xatırlayıram. Mətbuat konfransında Sizin qeyd etdiyiniz kimi, o vaxtdan biz ən azı ildə bir dəfə görüşürük. MDB sammitlərində iştirakımızı da nəzərə alsaq, daha tez-tez görüşürük. Yeri gəlmişkən, lap yaxın vaxtlarda mən yenə Minskdə oldum. Aleksandr Qriqoryeviçə demişəm, MDB Sammitinin gözəl təşkilinə, sammitin yaxşı nəticələrinə görə Belarusu bu tərkibdə bir daha təbrik etmək istərdim.

*Prezident İlham Əliyev müstəqilliyin ilk dövrlərində Belarusun bəzi çətinliklərlə qarşılaşmasına baxmayaraq, uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan dövlətinin başçısı ölkə-*

*lərimiz arasında qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu qeyd edərək dedi:*

– Biz məsələləri məhz qarşılıqlı rəğbət, qarşılıqlı dəstək və əlbəttə, qarşılıqlı maraqlar nəzərə alınmaqla həll edirik. Təsadüfi deyildir ki, ölkələrimiz həmişə, bütün beynəlxalq qurumlarda bir-birini dəstəkləyir və həmrəylik nümayiş etdirir. Fikrimcə, bu da bizim qarşılıqlı münasibətlərin, qarşılıqlı hörmətin göstəricisidir. Əlbəttə, bu münasibətlər sayəsində biz artıq bu gün gələcək haqqında fikirləşirik. Son bir neçə ildə münasibətlərimizin dinamikası mənim fikrimcə, ümumiyyətlə, ölkələrimiz, dövlətlərimiz arasında münasibətlərin tarixində xüsusi yer tutur.

*Prezident İlham Əliyev Aleksandr Lukaşenkonun bu səfərinin də yaxşı nəticələr verəcəyinə əminliyini ifadə edərək bildirdi:*

– Səfərin yekunlarını, imzalanmış sənədləri, əldə etdiyimiz razılaşmaları, növbəti görüşə qədər həyata keçirəcəyimiz tədbirləri çox müsbət qiymətləndirirəm. Ümidvaram ki, gələn il komissiyanın həmsədrləri bizə yeni uğurlar barədə məruzə edəcəklər. Əminəm ki, onlar hesabat verəcəklər ki, prezidentlərin tapşırığı hətta vaxtından əvvəl yerinə yetirilmişdir, bizim münasibətlərin bir sıra istiqamətləri üzrə olduğu kimi.

*Azərbaycan prezidenti İlham Əliyev ölkələrimiz arasında əlaqələrdə olduğu kimi, dünyada baş verən bir çox proseslərlə bağlı hər iki dövlətin mövqeyinin üst-üstə düşdüyünü məmnunluqla qeyd etdi.*

*Prezident Aleksandr Lukaşenko Azərbaycanda bütün sahələrdə əldə edilən uğurların Belarus Respublikasında məmnunluq hissi yaratdığını söylədi. O budəfəki səfəri zamanı Bakıda gördüklərinin onda xoş təəssürat yaratdığını bildirərək dedi:*

– Bizim dünənki tədbirlər axşam vaxtı keçirildi. Biz axşam Bakısını, gecə Bakısını gördük. Bunlar Sizin öz torpağınızda yaratdıqlarınızı çox gözəl təcəssüm etdirir.

*Belarus Prezidenti ölkəsində Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə böyük marağın olduğunu xüsusi vurğulayaraq bildirdi:*

– Biz əməkdaşlığı hökmən inkişaf etdirəcəyik. Mən çox istəyirəm ki, qısa müddətdən sonra deyə bilək ki, biz əmtəə dövriyyəsini, müştərək layihələrin sayını ikiqat artırmışıq və əməkdaşlığımızın istiqamətləri çoxalmışdır.

*Belarus dövlətinin başçısı prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsini Azərbaycan xalqının həyatında uğurlu hadisə kimi dəyərləndirərək dedi:*

– Müəyyən müddətdən sonra xalq Sizə misilsiz etimad göstərmişdir. Bu gün artıq heç kəs şübhə etmir ki, mənim fikrimcə, nəinki Azərbaycanın daxilində, hətta bütün dünyada hər bir normal adam deyərdi: bəli, Azərbaycan xalqının qüdrətli lideri vardır.

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ANDRİS BERZİNŞƏ**

Hörmətli cənab Prezident!

Riqa şəhərindəki ticarət mərkəzinin dam örtüyünün çökməsi nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2013-cü il*

**BOSNİYA VƏ HERSEQOVİNANIN**
**RƏYASƏT HEYƏTİNİN SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JELKO KOMŞİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı ənənəvi dostluq münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıq bundan sonra da inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 22 noyabr 2013-cü il*

## SƏBAİL RAYON İCRA HAKİMİYYƏTİ BİNASININ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*22 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Bakının Səbail Rayon İcra Hakimiyyətinin Üzeyir Hacıbəyli küçəsində yerləşən binasının əsaslı yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

Dövlətimizin başçısının tapşırığı ilə son illər paytaxtın sosial-iqtisadi inkişafı çərçivəsində görülən tədbirlər, icra edilən müasir infrastruktur layihələri ilə yanaşı, müxtəlif icra strukturlarında çalışan əməkdaşların iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Müasir memarlıq üslubu ilə seçilən Səbail Rayon İcra Hakimiyyətinin inzibati binasının əsaslı şəkildə yenidən qurulması paytaxtın görkəminə xüsusi yaraşıq verir.

Görülən işlər barədə prezident İlham Əliyevə məlumat verildi. Binanın girişində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin və Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyətlərinə həsr olunmuş fotostendlər quraşdırılmışdır. Bildirilibdi ki, bina əsaslı şəkildə yenidən qurulub, burada çalışan əməkdaşlar üçün ən müasir tələblərə cavab verən şərait yaradılıb. Sovet dövründə rayon partiya və icraiyyə komitələrinin fəaliyyət göstərdiyi binada əsaslı təmir və yenidənqurma işləri nəticəsində əlavə mərtəbə inşa olunub, fasad yenilənib. Təmir zamanı bina, ilk növbədə, dəmir-beton konstruksiyalarla möhkəmləndirilib, yenidənqurma işlərində keyfiyyətli yerli inşaat materiallarından da istifadə olunub. Yüksək tələblərə cavab verən işıqlandırma, havalandırma

sistemlərinin quraşdırıldığı bina ən müasir avadanlıqlarla təchiz olunub. Binadakı iş otaqlarının hamısı müasir tələblər səviyyəsində qurulub və lazımi texniki vasitələrlə təmin edilib. İnzibati binanın kommunikasiya və rabitə xətləri də yeniləri ilə əvəz olunub. İş otaqlarının, iclas və konfrans zallarının təmirində dünyanın qabaqcıl şirkətlərinin istehsalı olan keyfiyyətli materiallardan istifadə olunub. Birinci mərtəbədəki 200 yerlik iclas zalında rayon və respublika əhəmiyyətli tədbirlərin keçirilməsi üçün yüksək şərait yaradılıb.

Binaya bitişik 6 mərtəbəli yeni korpusda inşaat işlərinin davam etdirildiyi bildirildi. Qeyd olundu ki, yeni korpusun 2-ci mərtəbəsində ən müasir tələblərə cavab verən yüksək texniki imkanlara malik konfrans zalı yaradılıb. Burada vətəndaşlarla onlayn video-qəbulların həyata keçirilməsi nəzərdə tutulub. Sakinlər binaya gəlmədən rayon icra hakimiyyətinin nümayəndələri və məsul şəxslərlə birbaşa videoəlaqə yarada biləcəklər. Binada rayonun bütün ərazisi üzrə vahid elektron xəritə-məlumat bazası yaradılıb. Sistem rayon təsərrüfatının idarə olunmasında artıq ən yeni texnoloji vasitə kimi tətbiq edilməyə başlanmışdır. Elektron xəritənin köməyi ilə planlaşdırma aparılır və həyata keçirilən işlər haqqında operativ məlumatlar əldə edilir.

Dövlətimizin başçısının tapşırığı ilə rayonun Badamdar qəsəbəsində inşa olunacaq yeni idman zalının layihəsi ilə də tanışlıq olmuşdur. 2400 kvadratmetr ərazisi olacaq bu idman zalında ən müasir şəraitin yaradılacağı bildirildi.

Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD VƏLƏD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Mavritaniyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2013-cü il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BUYAR NİŞANİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2013-cü il*

**TİMOR-LESTE DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TAUR MATAN RUAKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqilliyin elan edilməsi Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Timor-Leste arasında təşəkkül tapmaqda olan münasibətlər dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2013-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ «JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*25 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ikinci dəfə «Jurnalistlərin dostu» seçilmişdir. Noyabrın 24-də bu münasibətlə mərasim keçirilmişdir.*

*Bütün media işçiləri adından prezident İlham Əliyevi ikinci dəfə «Jurnalistlərin dostu» mükafatına layiq görülməsi münasibətilə təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dedi:*

– Hörmətli cənab Prezident!

İcazə verin, çıxışıma başlamamışdan əvvəl «Jurnalistlərin dostu» adını ikinci dəfə qazanmağınız münasibətilə bütün həmkarlarım adından Sizi təbrik edim, Sizə ən xoş duyğularımı bildirim. «RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi «Jurnalistlərin dostu» mükafatını 1997-ci ildə təsis edib. Niyyətimiz cəmiyyətdə söz və mətbuat azadlığı prinsiplərini təbliğ və inkişaf etdirmək, bu məqsədlə dövlət məmurlarımızın, ictimai-siyasi təşkilatların tanınmış nümayəndələrinin kütləvi informasiya vasitələri ilə əlaqələrinin möhkəmlənməsinə nail olmaq, bununla da mediaya qayğı ənənələrini stimullaşdırmaqdır.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə «Jurnalistlərin dostu» mükafatının qalibi kimi çıxışı, Azərbaycan mediasının dünəni, bu günü və sabahı ilə bağlı fikirlərini bölüşməsi hamımız üçün böyük şərəf və hər zaman fərəhlə anılan, unudulmaz xatirədir. İndi 2013-cü ilin qalibini təbrik etdiyim bir gündə 11 il öncəki tarixi də yada salmaqdan böyük məmnunluq duyuruq.

«RUH» Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin bu ilin sentyabrında təşkil etdiyi sorğuda ölkədə ictimai fikrə təsir göstərən 30 gündəlik, 15 həftəlik, 4 bölgə qəzetinin, 6 jurnalın, 11 informasiya agentliyinin, 12 xəbər portalının, 7 telekanalın, 4 radionun və 11 jurnalist təşkilatının rəyləri öyrənilibdir. Sorğunun nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 89 faiz səslə qalib gəlibdir.

Cənab Prezident, bizim sorğuda ikinci və üçüncü yerləri tutanları da biz qeyd edirik. İkinci və üçüncü yerləri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri və «Bakcell» şirkətinin baş icraçı direktoru bölüşüblər. Onların da hər birinə təbrikimizi yetiririk.

Hörmətli mərasim iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ikinci dəfədir ki, «Jurnalistlərin dostu» seçilir. Milli jurnalistikamızın mənsubları ilk seçimlərini 2010-cu ildə ediblər. Seçimi zəruriləşdirən amillərə diqqət çatdırmaq istərdim. Əvvəlcə media ilə bağlı önəmli yaşantıları yada salardım. Milli mətbuatımızın 135 illik yubileyi bütün ölkədə bayram kimi qeyd olundu. Dövlətimizin başçısının imzaladığı sərəncama əsasən Bakıda və bütün bölgələrdə çoxsaylı tədbirlər həyata keçirildi, 100-dən çox media təmsilçisi «Əməkdar jurnalist», «Əməkdar mədəniyyət işçisi» fəxri adlarına, «Tərəqqi» medalına layiq görüldü. Ən böyük sevinclərdən biri Mətbuat Şurasında yaşandı.

Hörmətli cənab Prezident, Mətbuat Şurasının şəxsi diqqətinizlə ərsəyə gəlmiş yeni binasının açılışını bildirən lenti kəsdiniz. Şuranın İdarə Heyətinin üzvləri ilə keçirdiyiniz görüşdə medianın inkişafı ilə bağlı konseptual baxışınızı ifadə etdiniz. Bu baxış Azərbaycan mediasının perspektivlərini müəyyənləşdirmək baxımından son dərəcə önəmli idi. 2010-cu il iyulun 22-də jurnalistlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutan sərəncamı imzalamaqla milli mətbuatımızın 135 illik yubileyi təntənəsinə yeni ovqat bəxş etdiniz. Artıq 156 mənzilli binanın sakinləri məlumdur. Bu il

jurnalistlər üçün yeni yaşayış binasının təməlini qoydunuz. Daha neçə-neçə həmkarımızı onun sakininə çevirmək üçün ümidləndirdiniz, cənab Prezident. Söz yox ki, o amil də jurnalistlərimizin 2013-cü il seçiminə təsirsiz ötüşməyib. Amma qalibiyyəti yalnız bu faktla bağlamaq istəməzdim.

Ölkə mediası, sözün əsl mənasında, keyfiyyət dəyişiklikləri dövrünü yaşayır. Artıq internet Azərbaycan vətəndaşlarının operativ informasiya tələbatını ödəyən dünyəvi ünsiyyət vasitəsinə çevrilibdir.

Çoxsaylı internet, televiziya və radiolar 10 minlərlə insana yenilikləri çatdırır. Facebook şəbəkəsi ölkənin 1 milyondan çox vətəndaşını əhatə edir. 30 mindən çox bloqqer sərbəst və maneəsiz fikir və mülahizələrini cəmiyyətlə bölüşür. Jurnalist ictimaiyyətimiz bütün bunları, 2013-cü ilin «İnformasiya-kommunikasiya texnologiyaları İli» elan olunmasının məntiqi nəticələrini əyani surətdə görür və dəyərləndirir. Mətbuat Şurası da fəaliyyətini zamanın tələblərinə uyğun şəkildə qurur. Bilavasitə peşəkarlıq prinsiplərinin onlayn medianı da əhatə etməsinə yönələn layihələr reallaşdırır.

Son 5 ilin mühüm yeniliklərindən biri də kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin sistemli mexanizminin yaranmasıdır. Bu özünü mətbuat orqanlarının maddi-texniki bazasının möhkəmlənməsində, jurnalistlərin peşəkarlığının yüksəlməsində göstərməkdədir. Davamlı proseslər ictimai missiyanı yerinə yetirən jurnalistləri təkcə peşələrinə bağlamır, eyni zamanda, medianın cəmiyyətdəki nüfuzunu yüksəldir, ümumən, demokratik cəmiyyət quruculuğunda dövlətin jurnalistikaya dəyər verdiyini, etimadını bir daha təsdiqləyir. Hamımız yaxşı bilirik ki, bütün bunların qarantı dövlətimizin başçısıdır, cənab Prezident, Sizsiniz.

İnsan amilinin, dövlətin vətəndaşına qayğısının üzərində xüsusi dayanmaq istərdim. Bu qayğının sırf jurnalistə yönələn nümunəsinə «Teleqraf.az» saytının baş redaktoru Nicat Dağların şəxsində şahidlik etdik. Bir müddət əvvəl bu jurnalistimizin həyatı təhlükədə idi, cənab Prezident. Siz çox

vacib bir anda insan taleyinə reaksiya verdiniz. Şəxsi göstərişiniz əsasında onun Almaniyada dövlət hesabına müalicəsi təşkil olundu. Bu gün şükürlər olsun ki, o aramızdadır. Belə həssas münasibətinizə görə, Sizə bir daha dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, jurnalistlər cəmiyyətin düşünən beynidir. Onlar hadisə və proseslərə özlərinə xas yanaşmaları ilə seçilirlər. Bu mənada Azərbaycan jurnalistləri Sizin şəxsinizdə təkcə dövlətin onlara göstərdiyi qayğını deyil, eyni zamanda, yeritdiyiniz daxili və xarici siyasət kursunu yaxından izləyirlər. Söz yox ki, onların Sizi özlərinə ikinci dəfə dost seçmələri, eyni zamanda, yüksək səriştəli dövlət adamı olmağınızdan, prinsipial dəst-xəttinizdən, Azərbaycanın dövlət müstəqilliyini qətiyyətlə qorumağınızdan, Vətənimizi beynəlxalq aləmdə layiqincə təmsil etməyinizdən, son 10 ildə ölkəmizi dinamik iqtisadi inkişaf müstəvisinə çıxarmağınızdan, bir sözlə, Azərbaycanın dünya dövlətləri arasında layiqli yerini tutmasından qaynaqlanır.

Heç şübhəsiz, bütün bunlar öz nəticəsini insanların rifah halının yüksəlməsində, onların həyat şəraitinin durmadan yaxşılaşmasında göstərir. Media cəmiyyətin güzgüsüdür. Azərbaycan cəmiyyəti 9 oktyabr seçkisində Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Sizi bu münasibətlə ölkə jurnalistləri adından bir daha təbrik edir, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayırıq.

Cənab Prezident, Siz «Jurnalistlərin dostu» mükafatının qalibisiniz. Media təmsilçilərimiz Sizi həmişə özlərinin dostu biliblər. Sizi növbəti dəfə bu mükafatın qalibi seçməklə sadiq dostlarına olan ehtiramlarını bir daha nümayiş etdirdilər. Bu dostluq media təmsilçiləri ilə hər görüşünüzdə qaldırılan məsələlərə həssas münasibətinizdən, irəli sürülən təkliflərin real, əməli iş müstəvisinə daşınmasından qaynaqlanır. Bu mərasimin də yaddaşlarda eyni ruhda qalacağına tam əminik.

Sizi bir daha «Jurnalistlərin dostu» adını qazanmağınız münasibətilə ürəkdən təbrik edirik.

İcazə verin, cənab Prezident, mükafatı Sizə təqdim edək.

*Mətbuat Şurasının sədri Əflatun Amaşov «Jurnalistlərin dostu» mükafatını prezident İlham Əliyevə təqdim etdi.*

*Dövlətimizin başçısı mərasimdə giriş nitqi söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi**

Hörmətli qonaqlar, media nümayəndələri!

İlk növbədə, yenidən məni «Jurnalistlərin dostu» mükafatına layiq gördüyünüz üçün sizə minnətdaram. Doğrudan da mənim üçün böyük şərəfdir ki, ikinci dəfə bu ada layiq görülürəm. Çalışacağam ki, bundan sonra da «Jurnalistlərin dostu» kimi, Azərbaycanda azad mətbuatın inkişafı üçün səylərimi əsirgəməyim.

Bu mükafatın verilməsi böyük məna daşıyır. Çünki ölkə prezidentini «Jurnalistlərin dostu» adına sizin tərəfdən layiq görməyiniz, əlbəttə, Azərbaycanda azad mətbuatın inkişafında görülən işlərə işarə vurur. Mən bundan sonra da çalışacağam ki, prezident kimi, Azərbaycanda azad medianın inkişafı üçün dəstəyimi verim və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafını təmin edim. Çünki müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə belə məqsəd qoyulub ki, Azərbaycan gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilsin. Belə olan halda, Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır.

Bildiyiniz kimi, Azərbaycanda azad jurnalistikanın yaradılması prosesi keçən əsrin 80-ci illərinin sonlarına təsadüf edir. Ondan sonra 90-cı illərin əvvəllərində bu prosesə daha da böyük təkan verilmişdir. Ancaq sirr deyil ki, 1998-ci ilə qədər Azərbaycanda mediada olan senzura imkan vermirdi ki, mətbu orqanlar tam şəkildə azad və sərbəst fəaliyyət göstərsin. 1998-ci ildə ulu öndər Heydər Əliyevin qərarı ilə senzuranın ləğv edilməsi bu sahədə də dönüş yaratdı, bu sahədə də Azərbaycanın siyasətini əks etdirdi. Çünki XX əsrin 90-cı

illərinin ortalarından başlayaraq Azərbaycanın inkişaf konsepsiyası icra edilir. Bu konsepsiyanın əsas istiqamətləri bu gün artıq reallıqdır.

Azərbaycan dünya birliyinə inteqrasiya etməli idi. Azərbaycan öz iqtisadi potensialını azad iqtisadiyyat üzərində qurmalı idi. Azərbaycanda azad, demokratik cəmiyyət qurulmalı idi. 1998-ci ildə bu qərarın verilməsi, əlbəttə ki, təsadüfi deyildi və bir çox ölkələr üçün nümunə idi. Hesab edirəm ki, o gündən bu günə qədər Azərbaycanda azad medianın inkişafı ilə bağlı çox önəmli qərarlar qəbul edilmişdir. İldən-ilə bu sahəyə ayrılan dövlət diqqəti, dəstəyi artıb. Son illər ərzində hesab edirəm ki, Azərbaycan bu sahədə müxtəlif parametrlər üzrə çox böyük irəliləyişə nail ola bilmişdir.

Demokratik cəmiyyətin qurulması işində azad medianın xüsusi rolu vardır. Bu salonda əyləşən jurnalistlər, media nümayəndələri, media rəhbərləri o insanlardı ki, Azərbaycanda azad medianın yaradılmasında xüsusi rol oynamışlar və bu gün də öz fəaliyyətlərini davam etdirirlər. Deyə bilərəm ki, bu gün bu salonda Azərbaycanda medianın inkişafı ilə bağlı istiqamətverici qurumların nümayəndələri iştirak edirlər. Əlbəttə, jurnalist cəmiyyətinin fəaliyyəti və jurnalist cəmiyyətindən cəmiyyətə gələn sifariş hesab edirəm ki, azad jurnalistikanın, müstəqil medianın yaradılmasında mühüm rol oynayır. Ancaq eyni zamanda, dövlət siyasəti olmadan bu proseslər lazımi səviyyədə təşkil edilə bilməz. Hesab edirəm ki, Azərbaycanda bu 2 əsas istiqamətin birləşməsi bugünkü müsbət dinamikanı təmin etmişdir.

Azərbaycanda bütün azadlıqlar vardır. Azərbaycanda demokratik cəmiyyət qurulur. İqtisadi islahatlarla yanaşı, siyasi islahatların aparılması, əlbəttə ki, ölkəmizin gələcəyini müəyyən edəcəkdir. Bu istiqamətdə atılan addımlar hesab edirəm ki, gözəl bir nümunədir. Çünki bizim bütün istiqamətlər üzrə siyasətimiz açıqdır, aydındır. Dəfələrlə bu barədə mən fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan müasir dövlət qurur, müstəqil dövlət qurmuşdur və

Azərbaycanın gələcək inkişafı iqtisadi və siyasi islahatlardan asılı olacaqdır. Mən hesab edirəm, son illər ərzində bu sahədə əldə edilmiş nailiyyətlər deməyə əsas verir ki, biz gələcəkdə də hər 2 istiqamət üzrə inamla irəliyə gedəcəyik. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri artıq tam reallaşıbdır. Gələcək illərdə demokratik inkişafla bağlı aparılacaq islahatlar hesab edirəm ki, bu sahədə də Azərbaycandakı vəziyyəti ən yüksək səviyyəyə çatdıracaqdır.

Eyni zamanda, qeyd etməliyəm ki, demokratik inkişaf baxımından bu gün ölkəmiz heç bir ölkədən geridə qalmır. Azərbaycanda söz azadlığı, mətbuat azadlığı, siyasi fəaliyyət azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı təmin edilib. Hesab edirəm ki, bizim gündəlik həyatımız dediklərimi təsdiq edir. Azərbaycan o ölkələrdəndir ki, azad internet mövcuddur və internet istifadəçilərinin sayı 70 faizdən çoxdur. Heç bir məhdudiyyət yoxdur. Yüzlərlə mətbuat orqanı fəaliyyət göstərir. Bir sözlə, medianın inkişafı ilə bağlı dövlət tərəfindən yalnız dəstək göstərilir. Siz də qeyd etdiyiniz kimi, bəzi məsələlərdə, xüsusilə media nümayəndələrinin məişət problemlərinin həlli işində Azərbaycan ön yerlərdədir. Bu barədə mən bu ilin yayında öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Çünki jurnalistlərin o qədər də böyük maddi imkanları yoxdur. Onlar iş adamları, başqa kateqoriyadan olan insanlar kimi, öz fəaliyyəti hesabına layiqli mənzillərə sahib ola bilmirlər. Ona görə dövlət öz dəstəyini mütləq verməlidir.

Hesab edirəm ki, Azərbaycanda bütün başqa sahələrdə dinamik inkişafın təmin edilməsi üçün ictimai-siyasi sahədə də müsbət dinamika olmalıdır. Bu ilin prezident seçkiləri onu göstərdi ki, Azərbaycanda ictimai-siyasi vəziyyət müsbətdir. Cəmiyyətdə ölkəmizin ümumi inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Azərbaycan cəmiyyəti artıq əsas hədəflər üzərində səfərbər olunubdur. Müstəqillik, dövlətçilik, müasirlik prinsipləri bizim üçün üstünlük təşkil edir. Müstəqil Azərbaycan gənc dövlətdir, ancaq buna baxmayaraq, öz maraqlarını müdafiə

etməyə qadirdir, dünya miqyasında özünə layiq yer tuta bilibdir. İqtisadi müstəqilliyin əldə edilməsi nəticəsində siyasi müstəqillik də təmin edilir. Azərbaycan bu gün xarici siyasətlə bağlı nəinki bölgədə, regionda, dünya miqyasında da öz rolunu oynayır. Daxildə gedən proseslər ölkəmizi daha da gücləndirir. Son illərdə Azərbaycanda aparılan islahatlar, həyata keçirilən infrastruktur layihələri, sosial məsələlərin həlli ölkəmizi böyük dərəcədə gücləndirmişdir.

Əlbəttə, bütün bu müsbət nəticələrlə, nailiyyətlərlə yanaşı, demokratik inkişafla bağlı irəliləyiş olmalı idi. Biz bunu görürük. Hələ görüləsi işlər çoxdur, nöqsanlar da, çatışmayan cəhətlər də vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanın dövlət rəhbərliyində bu məsələlərlə bağlı çox dəqiq təsəvvür və çox güclü siyasi iradə vardır.

Müstəqillik tarixi bir şans idi. Bu salonda əyləşənlərin əksəriyyəti sovet dövründə yaşamış, fəaliyyət göstərmiş insanlardır. Biz hamımız o illəri yaxşı xatırlayırıq. Yaxşı xatırlayırıq ki, müstəqillik Azərbaycan xalqına çox baha başa gəldi. Ona görə bu tarixi şansı biz nəinki əldən verməməliyik, heç vaxt əldən vermərik, eyni zamanda, müstəqillik dövründən maksimum səmərə ilə istifadə etməliyik. Elə dövlət qurmalıyıq ki, bu dövlətin əsasları sarsılmaz olsun, bu dövlət daim yaşasın, Azərbaycan xalqı bundan sonra daim müstəqillik, azadlıq şəraitində yaşasın.

Ancaq müstəqillik sadəcə olaraq, dövlət atributları deyildir, müstəqil siyasət aparmaq imkanları da olmalıdır. Biz bir sıra müstəqil ölkə tanıyırıq ki, onların müstəqil siyasət aparmaq imkanları məhduddur. Azərbaycan o ölkələrdəndir ki, bütün çətinliklərə baxmayaraq, müstəqillik dövründə bu şansı əldən verməyib, dövlət müstəqilliyini möhkəmləndirə bilibdir, güclü dövlət əsasları qurulubdur, yaradılıbdır. Bu gün Azərbaycanın gələcək inkişafı ilə bağlı nə cəmiyyətdə, nə də ekspert cəmiyyətində heç bir şübhə yoxdur. Biz yalnız inkişaf yolunu gedəcəyik, öz qüdrətimizi artıracağıq, müstəqil xəttimizi bundan sonra da aparacağıq və güclü dövlət yaradacağıq. Bu

istiqamətdə artıq bir çox məsələlər öz həllini tapmışdır. Güclü dövlət quruculuğu işində demokratik prinsiplər xüsusi yer tutur.

Onu da qeyd etməliyəm ki, məhz keçən əsrin 90-cı illərinin ortalarında Azərbaycanın inkişaf konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada azadlıqlar, demokratik inkişaf məsələləri xüsusi yer tutur. Çünki demokratik cəmiyyət qurulmasa, bizim uğurlarımızın dayanıqlılığı təmin edilə bilməz. Ona görə bir daha demək istəyirəm ki, Azərbaycan rəhbərliyində demokratiyanın inkişafı ilə bağlı çox güclü siyasi iradə vardır. Cəmiyyətin dəstəyi, o cümlədən media nümayəndələrinin fəal iştirakı ilə biz bu istiqamətdə daha da böyük uğurlara çatacağıq.

Biz bütün siyasətimizi elə qurmalıyıq ki, ölkəmizin dayanıqlı inkişafı təmin edilsin. Çünki bu gün Azərbaycana qarşı dünyada çox böyük qüvvələr hərəkətə keçibdir. Əlbəttə ki, ilk növbədə, erməni lobbisi Azərbaycana qarşı kampaniya aparır, mütəmadi qaydada ölkəmizi qaralamaq, ləkələmək, Azərbaycan haqqında təhrif edilmiş rəy yaratmaq üçün fəaliyyət göstərir.

XXI əsr informasiya mübarizəsi əsridir. İnternetin mövcudluğu, əlbəttə ki, bu mübarizəni daha da kəskinləşdirir. Biz buna hazır olmalıyıq, biz öz reallıqlarımızı dünya birliyinə çatdırmalıyıq. Burada, əlbəttə ki, əsas vəzifəni ilk növbədə, dövlət öz üzərinə götürür. Ancaq media nümayəndələri də çalışmalıdırlar ki, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqemizi dünya birliyinə çatdırsınlar. Müxtəlif dillərdə internet resursları yaradılmalıdır. Dağlıq Qarabağla bağlı tarixi həqiqətlər dünya birliyinə çatdırılmalıdır. Belə olan halda biz informasiya mübarizəsində daha da böyük uğurlara nail ola biləcəyik. Hər halda, son illər ərzində Azərbaycan informasiya blokadasından çıxa bilmişdir. Bir çox hallarda erməni lobbisinə çox böyük zərbələr endirə bilmişdir. Ancaq bu mübarizə davam edir və davam edəcəkdir. Ona görə də biz buna hazır olmalıyıq.

Yəqin siz onu da yaxşı bilirsiniz ki, ölkəmizin uğurlu inkişafını, müstəqil siyasətini bəzi xarici dairələr qəbul etmək

istəmirlər. Bəzi xarici dairələr Azərbaycana qarşı «qara piar» kampaniyası aparırlar. Xüsusilə «Eurovision» ərəfəsində biz bunun şahidi olduq.

Azərbaycana qarşı düşünülmüş, koordinasiya edilmiş, məqsədyönlü qaralama kampaniyası aparılırdı və əlbəttə ki, bu məsələ də diqqətimizi çəkmişdi. Biz də öz tərəfimizdən lazımi tədbirləri gördük ki, buna son qoyulsun. Mən hesab edirəm ki, hər sahədə olduğu kimi, bu sahədə də biz müdafiə prinsipləri ilə yox, hücum taktikasından istifadə etməliyik və etdik də. Hesab edirəm ki, ölkəmizin maraqlarını və imicini qoruya bildik.

Ancaq o da həqiqətdir ki, bu gün dünyada gedən proseslər, təsir uğrunda aparılan mübarizələr – açıq və gizli mübarizələr – əlbəttə ki, Azərbaycandan da yan keçə bilməz. Ölkəmizin önəmi, təbii resurslarımızın mövcudluğu, müstəqil siyasətimiz və öz gücümüzə olan inamımız, əlbəttə ki, Azərbaycanı bu sahədə çox cəlbedici ölkəyə çevirir. Azərbaycanı təsir altına salmaq, təzyiq etmək, öz tərəfinə çəkmək cəhdləri son 10 il ərzində durmadan aparılır. Bəzi məsələlərdən media nümayəndələri xəbər tuturlar, bəzi məsələləri onlar çox düzgün təhlil edirlər. Məhdud da olsa məlumatdan istifadə edib düzgün təhlil aparmaq üçün imkanlar vardır. Amma bir çox məsələlər cəmiyyət üçün qaranlıq olaraq qalır.

Ancaq deyə bilərəm ki, bu mübarizə davam edir və Azərbaycanın müstəqil xətti, xüsusilə xarici siyasət, enerji resurslarının nəqli, daxili siyasət, Qarabağ məsələsi ilə bağlı barışmaz mövqeyi bəzi dairələri hərəkətə gətirir. Ölkəmizin inkişafı ilə bağlı atılan addımlarımız bəzi dairələrdə narahatlıq doğurur. Belə olan halda müxtəlif üsullardan istifadə edilə bilər və istifadə də edirlər – «qara piar» kampaniyası, ölkəmizi ləkələmək cəhdləri. Azərbaycanı qeyri-demokratik ölkə kimi təqdim etməyə çalışırlar, seçkilərlə bağlı hərdənbir, yəni 5 ildə bir dəfə fürsət düşdükcə istifadə edirlər. Bütün bu reallıqları Azərbaycan cəmiyyəti bilir və bilməlidir və biz özümüzü, müstəqil xəttimizi qorumaq üçün, əlbəttə ki, daha da güclü olmalıyıq.

Azərbaycan cəmiyyəti iqtisadi cəhətdən, siyasi cəhətdən və ictimai fikir baxımından daha da sıx birləşməlidir. Hesab edirəm ki, burada medianın çox böyük rolu vardır və ola bilər. İlk növbədə hesab edirəm, əsas məsələ ondan ibarətdir ki, bizim yerli mediamız xarici təsirdən azad olsun. Əlbəttə, biz demokratik cəmiyyətdə, plüralizm şəraitində yaşayırıq, müxtəlif fikirlər, siyasi baxışlar ola bilər. Mediamızın bir hissəsi hələ ki, siyasi partiyalara bağlıdır. Bu ayrı bir mövzudur. Mənim bu məsələ ilə bağlı öz fikirlərim vardır. İstəmirəm bu barədə geniş danışım. Amma hər halda inkişaf etmiş ölkələrin praktikası onu göstərir ki, güclü medialar siyasi təsirdən bir qədər azad olmalıdır. Ancaq hələ ki, bu belədir. Əlbəttə ki, ölkəmizin gələcək inkişafı ilə, ölkədə aparılan siyasətlə bağlı müxtəlif fikirlər vardır və olmalıdır. Bu təbiidir. Ancaq bir məsələdə – dövlət maraqlarımızın qorunması məsələsində hesab edirəm ki, vahid fikir olmalıdır. Çünki Azərbaycanın gələcək inkişafı bizdən asılıdır. Azərbaycan xalqı bu gün öz taleyinin sahibidir və bizim siyasətimiz əsasında Azərbaycanın inkişafı təmin edilir. Ona görə ilk növbədə, mediamızı xarici təsirdən azad etmək üçün əgər dövlətin əlavə dəstəyi lazımdırsa, biz bunu etməyə hazırıq.

Azərbaycanın problemləri ölkə daxilində müzakirə edilməlidir. Özünə hörmət edən hər bir cəmiyyət və ölkə məhz bu əsaslarla fəaliyyət göstərir. Biz bir çox hallarda inkişaf etmiş ölkələrin təcrübəsini əsas götürməyə çalışırıq. Orada da belədir. Bir neçə qonşu ölkədə də belədir. Azərbaycanda da belə olmalıdır. Daxili problemlər, siyasi mübarizə ilə bağlı olan məsələlər, müxalifət-iqtidar münasibətləri daxildə müzakirə edilməlidir. Bu məsələlər hüdudlarımızın kənarına çıxdıqda ilk növbədə, Azərbaycan haqqında bir rəy yaranır ki, bu ölkədə onlar özləri öz aralarında münasibətləri həll edə bilmirlər. Bu, ilk növbədədir. Ondan sonra bu, Azərbaycanın uğurlu inkişafını istəməyən qüvvələrə əlavə imkan, əlavə fürsət verir və bu fürsətlərdən istifadə edilir. Biz bunu bilirik. Biz bilirik hansı imkanlardan istifadə edilir ki, Azərbaycanın daxilində proseslər

başqa istiqamətdə getsin. Ona görə əgər jurnalistika ilə məşğul olan aparıcı simalar bu məsələdə də həmrəylik göstərərlərsə, hesab edirəm ki, bu, cəmiyyətimiz üçün də yaxşı olar.

Bax, bu barədə mən öz əsas fikirlərimi bildirmək istəyirdim. Əvvəlki görüşlərimizdə də biz jurnalistikanın inkişafı ilə bağlı fikir mübadiləsi aparmışıq. Jurnalistlərin peşəkarlığı, məsuliyyəti, dəqiq informasiyanın ötürülməsi – bütün bu məsələlər çox vacibdir. Siz özünüz də bunu hamıdan yaxşı bilirsiniz. Bilirəm ki, bu məsələlər Mətbuat Şurasında mütəmadi qaydada müzakirə edilir. Azərbaycan mediası daim inkişaf etməlidir. Əgər biz keçmiş illərə nəzər salsaq görərik ki, son illərdə Azərbaycan jurnalistikası doğrudan da böyük yol keçmişdir. Bu sadəcə, xoş sözlər deyil, bu həqiqətdir. Əgər 15 il bundan əvvəlki qəzetləri vərəqləsək görərik ki, orada daha çox böhtan, təhqir, iftira mövzuları üstünlük təşkil edirdi. Bəzi hallarda bu, bu gün də vardır. Ancaq onların miqdarı xeyli azalıbdır. Ona görə məsuliyyət və peşəkarlıq, dəqiq informasiya mütləq hər bir medianın imicini göstərir.

Eyni zamanda, cəmiyyətdə mövcud olan problemlərlə bağlı media daim öz sözünü deməlidir. Dövlət maraqlarının təmin edilməsi, o cümlədən nöqsanların aşkarlanmasından keçir. Azərbaycanda xoşagəlməz halların mövcudluğu barədə mediada kifayət qədər dolğun məlumatlar vardır. Mən bunu alqışlayıram. Xüsusilə bürokratiya, korrupsiya, rüşvətxorluq, özbaşınalıq, yekəxanalıqla bağlı olan mövzular, araşdırmalar bizim ümumi işimizə dəstək verir. Milli-mənəvi dəyərlərlə bağlı olan məsələlər, bəzi məmurlar tərəfindən bu dəyərlərə məhəl qoyulmaması – bütün bunlar diqqət çəkir. Media qurumlarının bu məsələlər ətrafında işləmələri diqqəti bu məsələlərə yönəldir və istər-istəməz müsbət təsir göstərir. Ona görə cəmiyyətin yaralarını aşkarlamaq, sağaltmaq üçün biz birlikdə çalışmalıyıq. Mən hesab edirəm ki, medianın bu funksiyası da çox önəmlidir.

Ümid edirəm ki, xoşagəlməz halların sayı gələcəkdə ölkəmizin sürətli və hərtərəfli inkişafı hesabına azalacaqdır. Hər halda, biz buna çalışırıq, çalışmalıyıq. Bir daha demək istəyirəm

ki, biz müasir dövlət qururuq. Müasir dövlət quruculuğu üçün bizim bütün imkanlarımız vardır. İlk növbədə, biz siyasi iradəmizi, müstəqil siyasətimizi davam etdirməli, dünyadakı müsbət praktikanı Azərbaycanda tətbiq etməliyik. Burada mən heç bir problem görmürəm. Bizim şəraitimizə, milli adətlərimizə uyğun ən mütərəqqi təcrübə Azərbaycanda tətbiq edilməlidir. Ona görə inkişaf etmiş ölkələrin, xüsusilə demokratik inkişafla, media azadlıqları ilə bağlı təcrübəsi bizim üçün çox maraqlıdır, cəlbedicidir. Biz bu təcrübədən istifadə edirik və edəcəyik.

Mən bu mükafata görə bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm. İkinci dəfə bu yüksək ada layiq görülürəm. Bu mənim üçün böyük şərəfdir. Həyatımda çoxlu mükafatlar, təltiflər olub. Ancaq Azərbaycan mediasının mükafatı onların içində xüsusi yer tutur. Jurnalistlərin dostu kimi çalışacağam ki, bundan sonra da azad jurnalistikanın inkişafı üçün səylərimi əsirgəməyim. Mən dostluqda sadiq adamam və hesab edirəm ki, bizim dostluğumuz bundan sonra da uğurla davam edəcək. Sağ olun.

## YEKUN NİTQİ

Çox sağ olun, əziz dostlar! Dediyiniz sözlərə, mənim ünvanıma dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Burada bir neçə təklif səsləndi. İstərdim ki, bu təkliflərə öz münasibətimi bildirim. Qabiliyyət imtahanları ilə bağlı hesab edirəm ki, bu çox düzgün təklifdir və bunu biz nəzərə almalıyıq. Çünki jurnalistika xüsusi peşədir. Burada sadəcə olaraq, gələcək jurnalistlərin peşəkarlığı, bacarığı testlə ölçülə bilməz. Ona görə hansısa formada yoxlamaq lazımdırsa – əgər bu qabiliyyət imtahanı olarsa – mən buna etiraz etmirəm. Baxın hansı formada bunu etmək mümkündür.

Seriallarla bağlı Aqil müəllim öz fikirlərini bildirdi ki, Azərbaycanda televiziya seriallarına dövlət öz dəstəyini verir. Doğrudan da belədir. Bilirsiniz, bunun səbəbi ondan ibarət idi ki, Azərbaycan telekanallarında daha çox xarici seriallar

nümayiş etdirilirdi. Bir çox hallarda bu seriallar xarici ölkələrin həyat tərzini, məişət münasibətlərini əks etdirirdi. Seriallar əslində milli seriallar olmalıdır ki, Azərbaycan vətəndaşlarının maraqlarını təmin etsin. Ona görə qərar qəbul edildi ki, xarici seriallar müvəqqəti olaraq Azərbaycan televiziyalarından çıxarılsın. Belə olan halda məsələ qalxdı ki, bəs yerli serialları çəkmək üçün imkan yoxdur. Ona görə də biz belə qərar qəbul etdik. Bu gün görürəm ki, müəyyən çətinliklər olsa da, hər halda, artıq yerli seriallar maraq doğurur və burada bir neçə məqsəd güdülür. İlk növbədə, biz öz mövzularımız ətrafında tamaşaçılara məlumat veririk. Eyni zamanda, serialların çəkilişi, xüsusilə dövlət vəsaiti hesabına olanda iş yerlərinin yaradılmasına gətirib çıxarır ki, bu da aktyorlar, rejissorlar, ssenari müəllifləri və bu işlərlə məşğul olanlar üçün əlavə qazanc mənbəyidir. Əlbəttə ki, Azərbaycanda bundan sonra da həm kino, həm də seriallar çəkiləcəkdir. Azərbaycan dövləti bu sahəyə öz dəstəyini bundan sonra da əsirgəməyəcəkdir.

Şirməmməd müəllimin çıxışı mənim üçün çox böyük maraq doğurdu. Doğrudan da bu bir qədər gözlənilməz oldu. Sözün düzü, mən bilmirdim ki, siz babam Əziz Əliyevlə təmasda olmusunuz. Bu mənim üçün də çox maraqlı, əziz xatirələrdir. Doğrudan da ötən əsrin 50-ci illərində babamla görüşmüsünüz.

Sizə öz hörmətimi bildirmək istəyirəm. Mən sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Yadımdadır ki, 70-ci illərdə siz Azərbaycan televiziyasında siyasi icmal verilişi aparırdınız. Mən o vaxt sizin verilişinizi maraqla izləyirdim. O vaxt sovet televiziyasında belə bir veriliş var idi – «Politiçeskoye obozreniye». Onu Zorin aparırdı, ondan sonra başqaları aparırdı, bizdə isə siz aparırdınız. O vaxt xarici siyasətlə, başqa ölkələrdə baş verən hadisələrlə bağlı bizim məlumatımız yox idi. Çünki qəzetlərdə bu məlumatlar çox az verilirdi. Ona görə bu icmaldan biz məlumat əldə edirdik və o vaxtdan mən sizi qiyabi tanıyıram, Sizin fəaliyyətinizi çox yüksək qiymətləndirirəm.

Azərbaycan xalqı, xüsusilə sizin Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı işinizə çox yüksək qiymət veribdir. Bu doğrudan da bizim tariximizin şanlı səhifəsidir, müsəlman aləmində ilk demokratik respublika olmuşdur. Respublikanın baniləri Azərbaycan xalqı qarşısında çox böyük xidmətlər göstərmişlər. Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, digər rəhbərlər, onların dünyagörüşü, cəsarəti, xalqa olan bağlılığı hər bir azərbaycanlı üçün bir nümunədir. Ona görə onların əziz xatirəsi bizim üçün daim qürur mənbəyidir. Müstəqillik mövzularında araşdırmalar nəticəsində yaradılan əsərlərə böyük ehtiyac var. Çünki bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və bizim əsas müstəqillik bayramımız da 28 May bayramıdır. Çünki o vaxt Azərbaycanın dövlətçilik əsasları qoyulmuşdur.

Ancaq biz yaxşı bilirik, siz də hamıdan yaxşı bilirsiniz, o vaxt ölkə ətrafında və hətta ölkə daxilində gedən proseslər imkan vermədi ki, bu müstəqillik qorunsun. Cəmi 2 ildən sonra müstəqillik əlimizdən alındı. O vaxt bolşeviklərin böyük yalanlarından biri də məhz bu olmuşdur. Çünki biz yaxşı bilirik ki, bolşeviklər bir neçə əsas şüarla hakimiyyətə gəlmişdilər – torpaq kəndlilərə, fabriklər fəhlələrə, xalqlara müstəqillik, özgürlük, hürriyyət. Heç birini də etmədilər. Axırıncını da – müstəqilliyi əlimizdən aldılar. Amma tarixi şans elə gətirdi ki, bu xoşbəxtlik Azərbaycana bir daha nəsib oldu. Olmaya da bilərdi. Çünki o vaxt Sovet İttifaqı, əlbəttə, ağır vəziyyətdə idi, amma çökməyə də bilərdi. O vaxt çökməsəydi ola bilsin ki, bu gün də, necə deyərlər, ölkə hələ yaşaya bilərdi. Hər halda, belə ehtimal da olmuşdur. Ona görə də bu, tarixi şans idi. Azərbaycanda xalq hərəkatı, müstəqillik uğrunda gedən mübarizə, digər bəzi postsovet ölkələrində gedən mübarizə, əlbəttə, Sovet İttifaqının süqutunu şərtləndirmişdir.

Bir daha demək istəyirəm ki, biz bu şansı əldən verə bilmərik. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində proseslər narahatedici idi. Bu gün isə bizim dövlət müstəqilliyimiz artıq sarsılmazdır. Müstəqillik mövzuları daim gündəlikdə

olmalıdır və tarixi paralellər aparılmalıdır. Buna da böyük ehtiyac vardır. Müstəqilliyin üstünlükləri – mən həmişə bu barədə danışıram – nədən ibarətdir. Bu gün Azərbaycan heç vaxt tarixdə olmadığı kimi güclü bir ölkədir. Bugünkü Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan ölkədir. Bizim incəsənətimiz, idmanımız tarixdə ən yüksək səviyyəyə qalxmışdır. Bir neçə gün bundan əvvəl mən şahmat komandamızın nümayəndələrini qəbul etdim. Avropa çempionu olmuş Azərbaycan şahmat komandası yenə də Avropa çempionudur. Sovet dövründə bunu heç təsəvvür etmək mümkün deyildi. Bir-iki şahmatçımız var idi. Onlar da şahmat cədvəlində təqribən 10-cu, 15-ci yerlərdə idilər. Bax, budur müstəqilliyin üstünlükləri – müstəqil siyasət, güclü iqtisadiyyat, cəmiyyətdə hökm sürən ab-hava, milli həmrəylik. Bütün bunlar müstəqilliyimizin üstünlükləridir. Hesab edirəm ki, jurnalistlər də bu mövzular ətrafında bundan sonra da öz sözlərini deyəcəklər.

Biz ahıl jurnalistlərin vəziyyəti ilə bağlı qaldırılan məsələyə də baxa, dövlət dəstəyini göstərə bilərik. Bu hansı formada ola bilər, onu siz müəyyən edin. Biz buna mütləq baxmalıyıq. Çünki Azərbaycanda hər bir sahədə xidmət göstərmiş, böyük işlər görmüş veteranlara çox böyük diqqət göstərilir. Belə də olmalıdır. Bu bizim cəmiyyətimizin əsaslarını təşkil edir. Hər bir cəmiyyətin, o cümlədən Azərbaycan cəmiyyətinin mənəvi dayaqları, sütunları vardır. Bunların içində yaşlı nəslə münasibət hesab edirəm ki, ön plandadır. Heç də hər bir ölkədə belə deyil. Azərbaycanda bu sahədə də tarixdən gələn meyillər, sifarişlər onu göstərir ki, bizim cəmiyyətimiz bu sahədə də nümunə ola bilər. Bir qədər bundan əvvəl mən yeni tikilmiş ahıllar evinə baş çəkdim, maraqlandım. Əlbəttə, orada şərait çox gözəl idi, beşulduzlu hotelə bənzəyirdi. Ancaq maraqlandım və mənə məlumat verdilər ki, Azərbaycanda cəmi bir neçə belə ahıllar evi vardır. Nəyə görə?! Çünki buna ehtiyac yoxdur. Çünki bizdə böyüklərə, yaşlı insanlara hörmət həmişə cəmiyyətimizin dayağı olmuşdur. Bu gün də belədir və hər bir

cəmiyyətin dayaqları möhkəm olmalıdır. Bizim milli adət-ənənələrimiz, milli bayramlarımız, böyüklərə olan hörmət, böyük-kiçik münasibətləri daim qorunmalıdır və qloballaşan dünyada buna daha da böyük diqqət verilməlidir. Çünki qloballaşma bir çox hallarda eyniləşmə prinsipi əsasında təsvir edilir. Buna yol vermək olmaz. Biz öz milli və dini adət-ənənələrimizi qorumalıyıq, saxlamalıyıq və gələcək nəsillər, gənc nəsil də milli ruhda böyüməlidir. Mən bu barədə də dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm və əminəm, siz hamınız bununla razılaşarsınız ki, gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməlidirlər və yaşlı nəslə olan hörmət eyni zamanda, bu gözəl hissləri daha da gücləndirir.

Burada medianın problemləri ilə bağlı qaldırılan digər məsələlərə də toxunmaq istərdim. Satışla bağlı. Hesab edirəm ki, burada da, əlbəttə, ciddi düzəlişlərə ehtiyac vardır. Deyə bilərəm ki, Bakıya yeni köşklərin gətirilməsi təşəbbüsü də məndən gəlmişdir. Çünki şəhərimizin hər bir tərəfi gözəlləşir, abadlaşır və gördüm ki, köhnə, sınıq-salxaq köşklər bizim şəhərimizə yaraşmır. Ona görə dövlət hesabına yeni köşklər alınmış və fəaliyyətə başlamışdır. Amma ondan bir müddət sonra şəhərdə, şəhərin müxtəlif yerlərində olarkən görürdüm ki, bu köşklər bir növ kiçik bazarlara çevrilir, onun ətrafında meyvə-tərəvəz, ət məhsulları və s. satılır. Ciddi irad tutdum ki, bunu yığışdırın. Köşkün daxili o qədər rahat qurulub ki, orada qəzetlər, şokolad, əşyalar, hər şey satıla bilər. Amma biz köşkün ətrafını bazara çevirməməliyik.

Mən hər zaman orada qəzetlərin də asıldığını görürdüm. Əgər indi məsələ qaldırılır ki, orada qəzetlər satılmır, mən bu məsələni aydınlaşdıracağam. Əgər belədirsə, göstəriş veriləcəkdir ki, bu köşklərdə ilk növbədə, qəzetlər satılsın, heç bir məhdudiyyət olmasın. Əli Həsənov bu barədə mənə məlumat verdi ki, bəzi hallarda qəzetlər asılır, ancaq məhdud sayda. Vətəndaşlar istədikləri qədər qəzet ala bilmirlər. Biz bu məsələni yoluna qoyacağıq. Burada heç bir məhdudiyyət ola

bilməz. Qəzet satışı ilə bağlı heç bir məhdudiyyət yoxdur və olmamalıdır.

Onu da qeyd etməliyəm, bəzi hallarda bizi bəzi beynəlxalq, xüsusilə qeyri-hökumət təşkilatları əsassız tənqid etməyə çalışır ki, Azərbaycanda mediaya qarşı siyasət düzgün deyildir, media boğulur, medianın problemləri vardır. Mən həmişə cavab olaraq deyirəm ki, Azərbaycanda azad internet var və internet istifadəçilərinin sayı 70 faizdən yuxarıdır. Bu gün Azərbaycan dövləti hər bir şəhərə dövlət hesabına genişzolaqlı internet çəkir. Bu layihə dövlət tərəfindən icra ediləcəkdir. Əminəm ki, yaxın bir neçə il ərzində hər bir şəhərə genişzolaqlı internet çəkiləcəkdir. Artıq indi kəndlərdə də internet vardır. Mənim göstərişimlə nazirlərin bölgələrə səfərləri əsnasında, o cümlədən əhalidən gələn təkliflər də təhlil edilir. Onların içində bir təklif də ondan ibarətdir ki, qəbula gələn bir kənd sakini demişdi ki, bizim kənddə internet pis, fasilələrlə işləyir, mən işləyə bilmirəm. Yəni dövlət bu işi öz üzərinə götürmüşdür.

Azad internet olan halda heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Əgər kimsə qəzet satışını qadağan edirsə, yaxud da ki, məhdudiyyət qoyursa, bu dözülməzdir. Buna yol verməmək olmaz. Yəqin ki, indi məni eşidəcəklər. Əlavə göstərişlər də verəcəyəm ki, heç bir məhdudiyyət olmasın.

Medianın bəzi hallarda diqqəti mənfi məsələlərə cəlb etməsinə Rəşad da toxundu, mən də bu barədə demişəm. Doğrudan da bu belədir. Bu, necə deyərlər, bir meyildir – Qərbdən gələn meyildir. İlk xəbərlər ancaq mənfi reaksiya doğura biləcək xəbərlərdir – ya zəlzələ, ya maşın qəzası, ondan sonra hansısa ölüm hadisəsi. Əlbəttə, bu, insanların şüuruna da müsbət təsir etmir. Çünki cəmiyyətimizin üstünlüyü ondan ibarətdir və bunu Azərbaycana gələn qonaqların, demək olar, əksəriyyəti qeyd edir ki, cəmiyyətdə çox gözəl ab-hava vardır. Xarici qonaqları qəbul edərkən bir çox hallarda mənə deyirlər ki, əlbəttə, Bakının gözəlliyi, inkişafı onları təsirləndirir. Amma insanların üzündə olan təbəssüm, xoş əhval-ruhiyyə onları daha çox təəccübləndirir. Çünki biz bir çox şəhərlərdə başqa mənzərə ilə üzləşirik. Mən də xaricdə olarkən

görürəm, siz də olursunuz, görürsünüz. Yəqin ki, bu, cəmiyyətimizin üstünlüyüdür. Ola bilər ki, ölkədə gedən müsbət proseslər, insanların rifah halının yaxşılaşması, ümumiyyətlə, sabitlik, sakitlik, təhlükəsizlik – bütün bu amillərə biz, necə deyərlər, artıq vərdiş etmişik. Amma heç də hər yerdə belə deyildir. Ona görə cəmiyyətdə müsbət meyillərin inkişafı üçün mən demirəm ki, bütün xəbərlər ancaq xoş xəbərlər olsun. Əlbəttə ki, müxtəlif xəbərlər ola bilər. Amma hər halda, burada balans gözlənilməlidir, saxlanılmalıdır ki, Azərbaycan cəmiyyəti həmişə olduğu kimi, nikbin olsun. Hesab edirəm bu, Azərbaycanı bir çox ölkələrdən fərqləndirən amillərdən biridir ki, Azərbaycana gələn hər bir qonaq özünü çox rahat hiss edir.

Xalqımız çox qonaqpərvər, tolerant xalqdır. Azərbaycanda ictimai asayiş qorunur, təhlükəsizlik tədbirləri yüksək səviyyədədir. Başqa ölkələrlə müqayisədə cinayətkarlıq çox aşağı səviyyədədir. Gün ərzində ölkə üzrə təxminən 30–40 cinayət baş verir, onların böyük əksəriyyəti məişət xarakteri daşıyır. Ona görə, əlbəttə ki, mən bu barədə hər hansı göstəriş vermək istəməzdim. Amma hesab edirəm ki, müsbət və necə deyərlər, digər xəbərlərin balansı gözlənilərsə pis olmaz.

Bizim görüşümüzün bazar gününə təsadüf etməsi də mənim üçün adi iş cədvəlidir. Mənim üçün bazar günləri də iş günüdür. Bu gün hələ bir görüşüm də olacaqdır. Dünən də olubdur. Elə olur ki, mən həftələr ərzində bazar günlərində də işləyirəm. Elə olur ki, istirahət üçün daha çox vaxt olur. Prezidentlərin işi belədir ki, heç bir cədvələ sığmır. Mən ötən bazar gününü Kiyevdə keçirmişəm, ondan sonra Avstriyada. Bakıda qonaqlar olur – dünən, bu gün, sabah. Həyat davam edir. İş çoxdur. Əgər biz doğrudan da böyük nailiyyətlərə çatmaq istəyiriksə, gərək hamımız fəal işləyək. Əminəm ki, işin nəticələrini görəndə hər bir vətəndaş sevinir. O cümlədən görəndə ki, media cəmiyyətində də xoş əhval-ruhiyyə var, bu məni doğrudan da çox sevindirir. Belə də olmalıdır.

Bir daha demək istəyirəm ki, siyasi baxışlar müxtəlifdir. Bu təbiidir. Siyasi mübarizə aparılır, aparılmalıdır. Əlbəttə, mən

istərdim ki, bu mübarizə daha çox sivil qaydada aparılsın. Son prezident seçkiləri və ondan sonrakı dövr onu göstərir ki, Azərbaycanda siyasi mədəniyyət artır.

Media nümayəndələri, iqtidar-müxalifət nümayəndələri də öz aralarında məsələlərini həll etməlidirlər. Biz hamımız Azərbaycan vətəndaşlarıyıq. Hamımızın bir Vətəni vardır – Azərbaycan. Hamımız vətənpərvərik, Vətənimizi sevirik. Ola bilər ki, ölkəmizin inkişafı ilə bağlı müxtəlif fikirlərimiz olsun. Kimsə kimisə istəməyə bilər. Bu da təbiidir. Ancaq biz əsas amallar ətrafında daim bir yerdə olmalıyıq. Bugünkü görüş hesab edirəm ki, onu göstərir. Media məsələlərinin, digər məsələlərin həlli ilə bağlı Azərbaycanda heç bir ayrı-seçkilik yoxdur, ola da bilməz. Jurnalistlər üçün mənzillərin verilməsi bir daha bunu göstərdi. O tədbirdən gedəndən sonra mənə dedilər ki, açıq, şəffaf şəkildə püşkatma da oldu. Belə də olmalıdır.

Mən hesab edirəm ki, bizim belə görüşlərimiz böyük məna daşıyır. Biz görüşürük. Deyə bilmərəm ki, tez-tez görüşürük, amma vaxtaşırı görüşürük. Əminəm ki, bundan sonra da belə görüşlərimiz olacaqdır. Ancaq burada bir problem ola bilər. Gələcəkdə, əgər bundan sonra da mən mediaya dəstəyimi verəcəyəmsə və bunu artıracağamsa, istisna edilmir ki, siz məni üçüncü dəfə «Jurnalistlərin dostu» seçəcəksiniz. Bir daha bu mükafata görə sizə minnətdaram. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## KONQRESMENLƏRDƏN İBARƏT ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də konqresmenlər – Vaşinqton ştatından demokrat Cim MakDermott, Virciniya ştatından demokrat Ceyms Moran, Missuri ştatından respublikaçı Billi Lonq, Nyu-Cersi ştatından demokrat Donald Peyndən ibarət ABŞ nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ABŞ nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını dedi.*

*Konqresmenlər ölkəmizdə gedən sürətli inkişaf proseslərindən məmnunluqlarını ifadə etdilər.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*Baş katib Ekmələddin İhsanoğlu yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, İslam Əməkdaşlıq Təşkilatını təmsil edən böyük müşahidə missiyasının seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırdı. Ölkəmizin İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biri olduğunu vurğulayan Ekmələddin İhsanoğlu təşkilatın layihələrinə Azərbaycanın verdiyi dəstəyin önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın gələcəkdə daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Maldiv arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Maldiv xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2013-cü il*

## FRANSANIN XARİCİ TİCARƏT NAZİRİ, İKİTƏRƏFLİ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ NİKOL BRİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Fransanın Xarici Ticarət naziri, ikitərəfli iqtisadi əməkdaşlıq komissiyasının həmsədri xanım Nikol Brikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Fransa arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əməkdaşlığın nəticələrinin yüksək səviyyədə olduğunu dedi. Prezident İlham Əliyev Fransa şirkətlərinin ölkəmizdəki fəaliyyətinin genişlənməsinin önəmini qeyd etdi. İkitərəfli iqtisadi əməkdaşlıq komissiyasının iclasına toxunan dövlətimizin başçısı iclasda müzakirə olunacaq məsələlərin ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*Fransanın yeni hökumətinin ilk naziri kimi, Azərbaycana səfər etdiyini vurğulayan xanım Nikol Brik strateji baxımdan xüsusi əhəmiyyətə malik olan Azərbaycanda Fransa şirkətlərinin fəaliyyətinin daha da genişləndirilməsində ölkəsinin maraqlı olduğunu dedi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulandı, yeni sahələrin müəyyənləşdirilməsinin əhəmiyyəti qeyd olundu, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Rusiya Federasiyasının Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında əməkdaşlığa toxunan Aleksandr Jilkin son illər ticarət dövriyyəsinin 4 dəfə çoxaldığını vurğulayaraq bunun növbəti illərdə daha da artacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən ölkəmiz ilə Rusiyanın ayrı-ayrı subyektləri arasında əməkdaşlığın bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı, bu əlaqələrin möhkəmlənməsinə Aleksandr Jilkinin verdiyi töhfəni yüksək qiymətləndirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında dostluq əlaqələrinin genişləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Həyata keçirilən birgə layihələrə toxunan dövlətimizin başçısı paytaxtımızda istifadəyə verilməsi nəzərdə tutulan «Həştərxan–Bakı» parkını dostluğumuzun yaxşı nümunəsi kimi*

*dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi və mədəni əlaqələrin inkişafındakı xüsusi xidmətlərinə görə Aleksandr Jilkinin Azərbaycanın «Dostluq» ordeni ilə təltif edildiyini dedi və ordeni ona təqdim etdi.*

*Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin Azərbaycanın yüksək ordenlərindən olan «Dostluq» ordeni ilə təltif olunduğuna görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Rumıniya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Ölkələrimiz arasındakı möhkəm dostluq əlaqələri siyasi, iqtisadi və humanitar sahələrdə səmərəli əməkdaşlığımıza yol açmışdır.

Əminəm ki, dostluq münasibətlərimizin və strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi və inkişaf etdirilməsi yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2013-cü il*

\

## LİTVA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*28 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Litva Respublikasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Vilnüs Beynəlxalq Aeroportunda Litvanın rəsmi şəxsləri qarşıladılar.*

## LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ ALGİRDAS BUTKEVİÇYUS İLƏ GÖRÜŞ

*Vilnüs*

*28 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Vilnüsdə Litva Respublikasının Baş naziri Algirdas Butkeviçyus ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu. Azərbaycan tərəfindən Litvaya investisiya qoyuluşu, ölkələrimiz arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğu bildirildi, ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERJİNS İLƏ GÖRÜŞ

*Vilnüs*

*28 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Vilnüsdə Latviya Respublikasının Prezidenti Andris Berjins ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında siyasi, iqtisadi və digər sahələrdə dostluq əlaqələrinin inkişaf etdiyi vurğulandı, yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişlənməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirilən görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ DEVİD KEMERON İLƏ GÖRÜŞ

*Vilnüs*

*28 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Vilnüsdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeron ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, ticarət, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluq bildirildi.*

*Əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunan görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT, HÖKUMƏT VƏ NÜMAYƏNDƏ HEYƏTİ BAŞÇILARI ÜÇÜN VERİLƏN QEYRİ-RƏSMİ İŞÇİ NAHARDA İŞTİRAK

*Vilnüs*

*28 noyabr 2013-cü il*

*Vilnüsdə «Şərq Tərəfdaşlığı» Sammitində iştirak edən dövlət, hökumət və nümayəndə heyəti başçıları üçün noyabrın 28-də qeyri-rəsmi işçi naharı verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işçi naharda iştirak etmişdir.*

## AVROPA İTTİFAQININ III «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK

*Vilnüs*

*29 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Litvanın paytaxtı Vilnüsdə keçirilən Avropa İttifaqının III «Şərq Tərəfdaşlığı» Sammitində iştirak etmişdir.*

*Litva Respublikasının Prezidenti Dalya Qribauskayte, Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy və Avropa Komissiyasının sədri Jose Manuel Barrozu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və digər dövlət və hökumət başçılarını qarşıladılar.*

*Sammiti hazırda Aİ-yə sədrlik edən Litva Respublikasının Prezidenti Darya Qribauskayte açaraq bütün tərəfdaş ölkələrin dövlət və hökumət başçılarını salamladı. O, Sammit çərçivəsində imzalanacaq sənədlərin ikitərəfli və çoxtərəfli əməkdaşlıq baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Həmin sənədlərin xalqlarımız arasında əlaqələrin də möhkəmlənməsinə töhfə verəcəyini deyən Litva prezidenti onların real həyatda əks olunması üçün güclü siyasi iradəyə ehtiyac duyulduğunu diqqətə çatdırdı.*

*Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompuy sənədlərin imzalanması münasibətilə tərəfdaş ölkələrin dövlət başçılarını təbrik etdi. Herman Van Rompuy Avropa İttifaqı ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsini nəzərdə tutan sazişin imzalanması münasibətilə prezident İlham Əliyevə təbriklərini çatdırdı. Avropa İttifaqı Şurasının prezidenti bu sənədin imzalanmasını Azərbaycanı Aİ-yə daha da yaxınlaşdıran mühüm addım kimi qiymətləndirdi. Bildirildi ki,*

*«Şərq Tərəfdaşlığı»na üzv ölkələr ilə imzalanacaq digər sənədlər də bu prosesə töhfəsini verəcəkdir.*

*Avropa Komissiyasının sədri Jose Manuel Barrozu da sənədlərin imzalanması münasibətilə təbriklərini çatdırdı, bu Sammiti əməkdaşlığın yeni mərhələsinin başlanğıcı kimi dəyərləndirdi.*

*Ölkələrin Avropa İttifaqı ilə əməkdaşlığına yönələn səylərini alqışladığını deyən Jose Manuel Barrozu bir daha əminliyini ifadə etdi ki, III Sammit «Şərq Tərəfdaşlığı» Proqramının nailiyyətlərini daha da artıracaqdır.*

*«Şərq Tərəfdaşlığı» Sammitinin ruhunu əks etdirən musiqi kompozisiyası nümayiş etdirildikdən sonra sənədlərin imzalanması mərasimi oldu.*

*Mərasimdə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsi haqqında Saziş imzalandı.*

*Sazişi Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən isə Litvanın Xarici İşlər naziri Linas Linkyaviçyus və təşkilatın genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Füle imzaladılar.*

*Sonra Sammitin iştirakçıları birgə foto çəkdirdilər.*

*Daha sonra III «Şərq Tərəfdaşlığı» Sammitinin plenar iclası keçirildi.*

*Prezident İlham Əliyev iclasda iştirak etdi.*

*İclasda III «Şərq Tərəfdaşlığı» Sammitinin Yekun Bəyannaməsi qəbul olundu.*

*Xatırladaq ki, Azərbaycan da daxil olmaqla, 6 ölkəni əhatə edən «Şərq Tərəfdaşlığı» Polşa və İsveçin Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB dövlətləri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür.*

*«Şərq Tərəfdaşlığı» Sammiti ilk dəfə 2009-cu ilin mayında Çexiyanın paytaxtı Praqada keçirilmiş, ikincisi isə 2011-ci ilin sentyabrında Varşavada təşkil edilmişdir. Növbəti Sammit 2015-ci ildə Latviyanın paytaxtı Riqada keçiriləcəkdir.*

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*Vilnüs*

*29 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Vilnüsdə Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, energetika və mədəniyyət sahələrində əməkdaşlığın inkişafından məmnunluq bildirildi. Fransa prezidenti Fransua Olland Azərbaycanın əldə etdiyi iqtisadi uğurların ölkəsində maraqla izləndiyini vurğuladı. Fransa şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd edildi və bu fəaliyyətin gələcəkdə də genişləndiriləcəyinə əminlik ifadə olundu.*

*İkitərəfli əlaqələrin genişləndirilməsi üçün qarşılıqlı marağın olduğu bildirilən görüşdə Azərbaycan ilə Fransa arasında əməkdaşlığın Avropa İttifaqı çərçivəsində inkişafının əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.*

## İSPANİYA KRALLIĞININ BAŞ NAZİRİ MARİANO RAHOY BREY İLƏ GÖRÜŞ

*Vilnüs*

*29 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Vilnüsdə İspaniya Krallığının Baş naziri Mariano Rahoy Brey ilə görüşmüşdür.*

*Baş nazir Mariano Rahoy Brey dövlətimizin başçısı İlham Əliyevi yenidən Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. O, İspaniya kralının salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Azərbaycan ilə İspaniyanın beynəlxalq təşkilatlar, o cümlədən BMT çərçivəsində uğurla əməkdaşlıq etdikləri vurğulandı. İqtisadiyyatın biznes, inşaat, kənd təsərrüfatı, energetika və digər sahələrində əlaqələrimizin genişləndirilməsi ilə bağlı ətraflı müzakirələrin aparıldığı görüşdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəmi qeyd edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev İspaniya kralının salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını krala çatdırmağı xahiş etdi.*

## ESTONİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDRUS ANSİP İLƏ GÖRÜŞ

*Vilnüs*

*29 noyabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Vilnüsdə Estoniya Respublikasının Baş naziri Andrus Ansip ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafında Vilnüs Sammiti çərçivəsində imzalanan viza rejiminin sadələşdirilməsinə dair sənədin əhəmiyyəti vurğulandı və bundan Estoniya tərəfinin məmnun qaldığı qeyd olundu. Ölkələrimizin turizm, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində əməkdaşlığının yaxşı perspektivlərinin olduğu bildirildi.*

* * *

*Noyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasına işgüzar səfəri başa çatdı.*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Laos Xalq Demokratik Respublikası arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2013-cü il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD AL MƏKTUMA

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş xalqınıza daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2013-cü il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2013-cü il*

## YUNESKO-nun QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİTƏSİNİN VIII SESSİYASINA

Hörmətli sessiya iştirakçıları!

Sizi Bakı şəhərində YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyasının öz işinə başlaması münasibətilə təbrik edir, hər birinizə bundan sonrakı fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Sessiyanız Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyanın onilliyinə təsadüf edir. Konvensiyanın qəbul edilməsi ötən müddət ərzində dünyada mədəni müxtəlifliyin təşviqi və qeyri-maddi mədəni irsin qorunması istiqamətində beynəlxalq strategiyaların həyata keçirilməsində əhəmiyyətli rol oynamışdır. Azərbaycan Respublikası bu Konvensiyaya qoşulduğu vaxtdan etibarən ölkəmizdə müvafiq silsilə tədbirlər təşkil olunmuş və mühüm layihələr gerçəkləşdirilmişdir.

YUNESKO Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra üzv olduğu ilk beynəlxalq təşkilatlardan biridir. Onun fəaliyyət dairəsinə aid bütün sahələrdə əməkdaşlıq Azərbaycan dövlətinin həmişə diqqət mərkəzində olmuşdur. Daim inkişaf edən və möhkəmlənən YUNESKO – Azərbaycan əlaqələri xalqımızın qədim, zəngin mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasına, onun nailiyyətlərinin dünyada nümayiş etdirilməsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan muğamının, aşıq sənəti və xalçaçılığın, tar ifaçılığı və Novruz bayramının, xalqımızın maddi-mənəvi irsinin qiymətli abidələrinin, həmçinin milli mədəniyyətimizin və elmimizin görkəmli nümayəndələrinin təbliğinin YUNESKO tərəfindən diqqət mərkəzində saxlanılması ölkəmizlə bu

mötəbər beynəlxalq təşkilat arasında əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsidir.

Cari ilin iyul ayında təhsil, elm, mədəniyyət və informasiya sahələrində Əməkdaşlıq haqqında Çərçivə Sazişinin imzalanması ilə Azərbaycan və YUNESKO arasında qarşılıqlı faydalı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş və qlobal çağırışların həllində birgə səylərimizin daha da gücləndirilməsinə əlverişli zəmin hazırlamışdır.

Əminəm ki, sessiyanız öz qərarları ilə ümumbəşər mədəni irsin qorunub saxlanması, dünya mədəniyyətləri arasında dialoq və anlaşmanın dərinləşməsi işinə layiqli töhfəsini verəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2013-cü il*

## TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Tailand münasibətlərinin və əməkdaşlığının inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2013-cü il*

## «BAKUTEL–2013» XIX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

«BakuTel–2013» XIX Beynəlxalq sərgi və konfransının öz işinə başlaması münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

İqtisadi və sosial sahələrin bütün istiqamətlərində davamlı artım tempinə nail olan Azərbaycan İKT sahəsində də dünyanın sürətlə inkişaf edən ölkələri səviyyəsinə yüksəlmişdir. Respublikada İKT cəmiyyətin həyatına dərindən nüfuz etmişdir. Əhalinin 70 faizi internet, onların yarısı isə genişzolaqlı internetdən istifadə edir. Ən yeni texnologiyaların tətbiqi və rəqəmli televiziya yayımı uğurla həyata keçirilir, sahə üzrə investisiya qoyuluşu və özəl sektorun fəaliyyəti ildən-ilə genişlənir.

Ölkəmizin tarixi nailiyyətlərindən biri olan «Azərspace-1» ilk milli telekommunikasiya peykinin orbitə çıxarılması, eləcə də informasiya texnologiyaları üzrə universitetin və dövlət fondunun, «Yüksək Texnologiyalar Parkı»nın yaradılması, stimullaşdırıcı tədbirlərin tətbiqi ölkədə təbii sərvətlərə əsaslanan iqtisadiyyatdan innovativ və texnoloji tutumlu iqtisadiyyata keçidin təmin edilməsinə möhkəm zəmin yaradır. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 67-ci sessiyasında Avrasiya Rabitə Alyansının təsis edilməsi ilə bağlı təklifinin bəyənilməsi barədə qətnamənin qəbul edilməsi ölkəmizin beynəlxalq İKT çağırışlarının həyata

keçirilməsinə dünya ölkələrinin artan dəstəyinin bariz təzahürüdür.

Azərbaycanda hər il keçirilən «BakuTel» Beynəlxalq sərgi və konfransı müxtəlif ölkələri təmsil edən təşkilatların, alim və mütəxəssislərin bir araya gələrək öz ideyalarını bölüşməsi, işgüzar əlaqələri genişləndirməsi, qabaqcıl texnoloji nailiyyətlər və yeniliklərlə tanış olması üçün əlverişli imkan yaradır.

Builki sərgi və konfransın ölkəmizdə elan edilmiş «İKT ili» çərçivəsində keçirilməsi, onun proqramına kibertəhlükəsizlik üzrə konfransın və digər mötəbər tədbirlərin daxil edilməsi, aparıcı şirkətlərin daha geniş təmsil olunması bu sərgi və konfransın əhəmiyyətini daha da artırır.

İnanıram ki, «BakuTel–2013» XIX Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi və konfransının gedişində aparılan təcrübə mübadiləsi iştirakçı ölkələr arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsinə, beynəlxalq və regional səviyyədə yeni təşəbbüslərin yaranmasına və gerçəkləşdirilməsinə sanballı töhfə verəcəkdir.

Sərgi və konfransın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2013-cü il*

## «BAKUTEL–2013» XIX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Sərgi Mərkəzi*

*2 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Bakı Sərgi Mərkəzində «BakuTel–2013» XIX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşdur.*

*İqtisadi və sosial sahələrin bütün istiqamətlərində davamlı artım tempinə nail olan Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sektorunda da dünyanın sürətlə inkişaf edən ölkələri səviyyəsinə yüksəlmişdir. İKT-nin iqtisadiyyatda artan çəkisi son illər ölkəmizdə bu sahədə beynəlxalq tədbirlər və konfranslar keçirilməsini də şərtləndirmişdir. Artıq ənənəyə çevrilmiş «BakuTel» sərgisi də Xəzər və Qafqaz regionlarında telekommunikasiya, o cümlədən informasiya texnologiyaları sahələrində ən böyük tədbirdir.*

*Bu il 19-cu dəfə keçirilən «BakuTel» sərgisi ötən illər ərzində telekommunikasiya aləmində mühüm hadisəyə çevrilmişdir. Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Telekommunikasiya İttifaqı və Regional Rabitə Birliyi nümayəndələrinin mütəmadi iştirakı, həmçinin Dünya Sərgi Sənayesi Assosiasiyasının keyfiyyət nişanı ilə təsdiq olunması «BakuTel»in nüfuzunu sübut edən amillərdir.*

*Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyev bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı tərəfindən 2013-cü ilin Azərbay-*

*canda «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilməsi bunun əyani təzahürüdür. «İKT ili»nin ilk əlamətdar hadisəsi «Azərspace-1» ilk milli telekommunikasiya peykinin orbitə çıxarılması olmuşdur. Ölkədə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının, Elektron Təhlükəsizlik Mərkəzinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin fəaliyyəti bu sahəyə göstərilən diqqətin davamlılığından xəbər verir. Yeni yaradılan İnformasiya Texnologiyaları Universiteti artıq ilk tələbələrini qəbul etmişdir.*

*Builki sərgi və konfransın «İKT ili» çərçivəsində keçirilməsi, onun proqramına kibertəhlükəsizlik üzrə konfransın və digər tədbirlərin daxil edilməsi, aparıcı şirkətlərin daha geniş təmsil olunması tədbirin əhəmiyyətini daha da artırır. Ümumiyyətlə, «İKT ili» «BakuTel–2013» sərgisinin bütün ekspozisiyasında xüsusi olaraq nəzərə çarpır. Sərgiyə marağın artmasını təsdiq edən digər amillər isə builki ekspozisiya meydançasının 35 faiz genişləndirilməsi və «BakuTel–2013»də dünyanın 28 ölkəsindən 300 şirkətin iştirak etməsidir. Sərginin digər fərqləndirici cəhəti Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin fəal dəstəyi ilə təşkil edilən milli stendlərin say etibarilə daha çox olmasıdır.*

*Sərgidə hər il fəal iştirak edən ölkələrə bu il ABŞ, İtaliya, Əfqanıstan və bir sıra digər dövlətlər də qoşulmuşdur. Sərginin iştirakçıları telekommunikasiyalar və şəbəkələr, genişzolaqlı rabitə və texnologiyalar, kabel və simsiz rabitə, peyk rabitəsi və texnologiyalar, teleradio yayım avadanlığı, proqram təminatı, İT və ofis texnologiyaları seqmentləri, habelə texnoloji yeniliklər və bir sıra digər məhsullar da nümayiş etdirirlər.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov dövlətimizin başçısı İlham Əliyevə məlumat verdi ki, «BakuTel» sərgisində ilk dəfə olaraq «İnnovativ məhsullar və həllər» adlı Azərbaycan milli pavilyonu yaradılmışdır. Burada son illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat, eləcə də sahənin*

*inkişafı üçün gələcək planlar təqdim olunur. Bildirildi ki, Azərbaycanda əhalinin 70 faizi internet istifadəçisidir. Onların 50 faizi genişzolaqlı xidmətlərdən istifadə edir. Mobil rabitədə hər 100 nəfərə 110 mobil abunəçi düşür, 3G və 4G texnologiyaları tətbiq edilir. Ölkə əhalisi rəqəmsal televiziya yayımı ilə əhatə olunmuşdur. «Elektron hökumət» həllərinin tətbiqi, vətəndaşlara təqdim olunan elektron xidmətlərin sayı və bu xidmətlərdən istifadənin səviyyəsi artır. Azərbaycan, həmçinin bir çox regional layihələrin, o cümlədən İKT sahəsində layihələrin təşəbbüsçüsü kimi çıxış edir. Bu layihələrdən biri olan Trans–Avrasiya Super İnformasiya Magistralı– «TASİM» layihəsi BMT Baş Məclisinin qətnamələri ilə dəstəklənmiş və onun həyata keçirilməsi üçün Avrasiya Rabitə Alyansının yaradılması istiqamətində mühüm addımlar atılmışdır. Ölkəmizin EPEG layihəsində iştirakı isə internetə tranzit çıxış imkanlarımızın artmasına səbəb olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Beynəlxalq Telekommunikasiya İttifaqının qiymətləndirilməsinə əsasən Azərbaycan son 10 ildə İKT sahəsində dünya üzrə dinamik inkişaf edən ilk 10 ölkə sırasındadır.*

*Azərbaycan prezidenti İlham Əliyevə «Dünya Azərbaycanlılarının onlayn Forumu» haqqında da məlumat verildi. Onlayn konfrans sərgi müddətində davam edəcəkdir. Bunun üçün Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən ABŞ, Almaniya, Fransa, Hollandiya, Rusiya, Ukrayna və Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının ofislərində xüsusi avadanlıqlar quraşdırılmışdır.*

*Dövlətimizin başçısı onlayn videokonfrans sistemi vasitəsilə Azərbaycan diaspor nümayəndələri qarşısında çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti genişlənir. İndi, demək olar ki, Avropanın əksər ölkələrində diaspor təşkilatları vardır. Onlar təşkilatlanıblar, gözəl fəaliyyət göstərirlər. Bu gün Amerika Birləşmiş Ştatlarında, MDB məkanında – Ukraynada, Rusiyada və ümumiyyətlə, bir çox ölkələrdə azərbaycanlılar təşkilatlanıblar. Bu gün

xaricdə yaşayan azərbaycanlılar üçün yeni imkanlar yaradılır. Azərbaycanın dövlət maraqlarının daha da dolğun şəkildə təmin edilməsi üçün diaspor təşkilatlarının rolu çox böyükdür.

Müxtəlif ölkələrə səfərlərimdə xaricdə yaşayan azərbaycanlılarla çoxsaylı görüşlər zamanı bütün bu məsələlər geniş müzakirə edilmişdir. Bakıda keçirilmiş diaspor forumlarında mən öz ürək sözlərimi demişəm. Bir daha demək istəyirəm ki, bu gün güclü diaspor güclü Azərbaycanın imkanlarını genişləndirir. Xaricdə yaşayan hər bir azərbaycanlı hesab edirəm, haqlı olaraq qürur hissi keçirir ki, bu gün dünyada güclü Azərbaycan dövləti vardır.

Siz həmişə bilirsiniz və bilməlisiniz ki, sizin arxanızda güclü, güclənən, inkişafda olan, bu gün dünya miqyasında böyük hörmətə malik Azərbaycan dövləti dayanır. Eyni zamanda, sizin fəaliyyətiniz Azərbaycanın dövlət maraqlarının qorunması baxımından bizim üçün çox vacibdir. Bax, bu birlik bizi daha da gücləndirir.

Bu gözəl elektron xidmət vasitəsilə sizinlə bu gün təmasda olmağımdan çox məmnunam. Sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun!

*Videokonfrans iştirakçıları dövlətimizin başçısına təşəkkür etdilər.*

*«BakuTel–2013» sərgisində ilk dəfə olaraq BMT-nin stendi də yer almışdır. Stenddə BMT-nin İnkişaf Proqramı çərçivəsində 4 sahə üzrə Azərbaycan hökuməti ilə əməkdaşlıq layihəsi əksini tapmışdır. Bunlar demokratik idarəçilik, davamlı inkişaf, qadınlara səlahiyyətlər verilməsi və böhranların qarşısının alınmasıdır.*

*Prezident İlham Əliyev sərginin digər pavilyonları ilə tanış oldu. Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi olan «Bakcell» şirkəti müasir mobil kommunikasiya xidmətlərini və geniş çeşiddə məhsulları, həmçinin «Sür@» ticarət nişanı ilə 3G mobil internet xidmətlərini istifadəçilərinə təklif edir. «Bakcell» şəbəkəsi ölkənin əhalisinin 99, ərazisinin isə 92 faizini əhatə edir. «Sür@» xidməti yeni*

*tərəfdaşlıqlar vasitəsilə Azərbaycan əhalisini yüksək səviyyəli mobil internet xidmətləri ilə təmin etməkdədir.*

*Dövlətimizin başçısı «Delta Telekom» MMC-nin fəaliyyətini əks etdirən pavilyonda da oldu. Bildirildi ki, regionun ən iri telekommunikasiya operatorlarından olan «Delta Telekom» rabitə və telekommunikasiya xidmətlərinin keyfiyyət göstəricilərinə görə ən etibarlı infrastruktura malikdir. DWDM şəbəkə texnologiyalarında ən yeni nəsil olan ASON/GMPLS əsaslı infrastruktur üzərindən regionun tranzit tutumlarını daşıyan «Delta Telekom» dayanıqlı supermagistrala sahibdir və regionun ən iri internet supermagistralı da «Delta Telekom»a məxsusdur.*

*«AzərFon» MMC 2007-ci ildən fəaliyyət göstərir. Şirkətin brendi olan «Nar mobile» hazırda Azərbaycanın telekommunikasiya bazarının inkişafında mühüm rol oynayır və xidmət sektorunu daha da genişləndirir. «Nar mobile» Azərbaycanda 3G xidmətlərini göstərən ilk mobil operatordur. Şirkət Azərbaycanda İKT sahəsinin inkişafına misilsiz töhfələr verən və ölkədə mütərəqqi mobil texnologiyaları tətbiq edən ticarət nişanı kimi tanınmışdır.*

*Sərgidə «Aztelekom» İstehsalat Birliyi də iştirak edir. Azərbaycanın milli rabitə operatoru olaraq, «Aztelekom» İstehsalat Birliyi tərəfindən fərdi və korporativ müştərilərə, rabitə operatorlarına və digər istifadəçilərə müxtəlif xidmətlər göstərilir. Şirkət tərəfindən yeni nəsil informasiya-kommunikasiya texnologiyalarının regionlarda fəal tətbiqinə təkan vermək məqsədi ilə yaradılmış «Aztelekom.NET» internet provayderinin əsas vəzifəsi müasir texnologiyalardan istifadə etməklə, yüksək keyfiyyətli və sürətli internetə qoşulmanı təmin etməkdir.*

*2010-cu ildə «AzQtel» MMC şirkəti tərəfindən yaradılan SAZZ əmtəə nişanı Azərbaycanda «4G Mobile WiMAX» texnologiyası əsasında genişzolaqlı simsiz internet xidməti göstərən ən böyük operatordur. SAZZ 4G internet xidmətinə paytaxt Bakı, Sumqayıt, Xırdalan, Mingəçevir şəhərləri, habelə Abşeron yarımadasının qəsəbələri daxildir.*

*Prezident İlham Əliyev «Hitachi» şirkətinin pavilyonunda da oldu. Şirkət müasir texnologiyaların tətbiqi sahəsində geniş nüfuza malikdir.*

*2010-cu ildə yaradılan «Azərkosmos» ASC Qafqaz regionunda fəaliyyət göstərən ilk peyk operatorudur. Bu il Azərbaycanın ilk milli telekommunikasiya peyki «Azərspace-1»in uğurla orbitə çıxarılması ilə şirkət öz müştərilərinə peyk rabitəsi əsasında yayım və genişzolaqlı internet xidmətləri, eləcə də yüksək etibarlı peyk əsaslı rabitə platformaları təqdim etməyə başlayıb. «Azərspace-1» peykinin qabaqcıl dizaynı və yüksək texnoloji göstəriciləri «Azərkosmos»a Avropa, Mərkəzi Asiya, Yaxın Şərq və Afrika regionunda keyfiyyətli peyk xidmətləri göstərməyə imkan verir.*

*Sərgidə Fransanın «Arianespace» kosmik-raket şirkəti də təmsil olunur. Azərbaycanın ilk telekommunikasiya peyki «Azərspace-1» də məhz bu şirkətin raketdaşıyıcısı ilə orbitə çıxarılmışdır.*

*Dövlətimizin başçısı sərgidə «Euronews» telekanalının müxbirinə müsahibə verdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin sərgidə «Euronews» telekanalına müsahibəsi

**S u a l: Bilirəm ki, Siz informasiya texnologiyaları sektoruna xüsusi diqqət yetirirsiniz. Bu barədə ətraflı danışa bilərsinizmi?**

**C a v a b:** Bəli, hazırda bu Azərbaycan iqtisadiyyatının inkişafı üçün əsas istiqamətlərdən biridir. Bu sektorun çox böyük perspektivi var. Bu, ideyalar yaradan, ölkəmizdə ümumi təhsilin səviyyəsinin yüksəlməsinə təkan verən sektordur, bizim aparıcı beynəlxalq elmi araşdırmalara qoşulmağımıza kömək edir. Eləcə də, əlbəttə ki, iqtisadiyyatın, xüsusən də qeyri-neft sahəsinin inkişafı üçün informasiya texnologiyaları sektoru böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu il ölkəmizdə «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan edilib. Bu

əsasən onunla əlaqədardır ki, bu il Azərbaycanın ilk süni peyki buraxılıb. Bu minvalla biz kosmik sənayesi olan ölkəyə çevrildik. Həmin peyk tamamilə Azərbaycan mütəxəssislərinin idarəsinə verilib. Biz bu proqramı daha da genişləndirmək niyyətindəyik. Yaxın vaxtlarda 2-ci, 3-cü peyklər də buraxılacaq. Bizim ölkəmizi informasiya texnologiyalarının tamamilə əhatə etməsi əhaliyə müasir xidmətlər göstərilməsinə imkanlar yaradacaqdır. Bildiyiniz kimi, ölkəmizdə bu yaxınlarda əhaliyə kütləvi xidmətlər göstərən «ASAN xidmət» fəaliyyətə başlayıb. Bu əslində Azərbaycanın brendidir.

Regionlarda informasiya-kommunikasiya texnologiyaları inkişaf edir. Hazırda biz genişzolaqlı internetin hər bir kənddə tətbiqi üzərində işləyirik. Bu layihəni dövlət maliyyələşdirəcəkdir. Hazırda bu istiqamətdə xeyli iş görülür. «BakuTel» sərgisinin iştirakçılarının sayı ilbəil artmaqdadır. Yeni tədqiqatlar üzə çıxır. Biz təkcə neft-qaz əməliyyatlarının, humanitar əməkdaşlığın deyil, eləcə də regionumuzda müasir texnologiyaların mərkəzinə çevrilmək istəyirik.

**S u a l: Siz «Elektron hökumət» – «ASAN xidmət»i xatırlatdınız. Sizcə əhalinin hökumət strukturlarına məhz bu cür müraciət etməsi nə qədər vacibdir?**

**C a v a b:** Bu çox mühüm məsələdir, bizə korrupsiya ilə mübarizə aparmağa, bürokratizmi aradan qaldırmağa, əhaliyə birbaşa almalı olduğu xidmətləri maneəsiz əldə etməyə kömək edir. Təəssüf ki, bu həmişə baş tutmur. Buna görə də «ASAN xidmət» özündə bir neçə funksiya daşıyır. Birincisi, müasir xidmətlər göstərilməsi, ikincisi, korrupsiya ilə mübarizə, şəffaflıq, kadrların hazırlanması.

«ASAN xidmət» sistemində artıq yüzlərlə könüllü çalışır. Onların əksəriyyəti gənclərdir. Bu könüllülər özləri gələrək insanlara təmənnasız yardım edirlər. Bu, dövlət ilə vətəndaşlar, dövlət məmurları ilə dövlət təsisatları arasında qarşılıqlı münasibətlərin yeni formasıdır. Təsadüfi deyil ki, «ASAN xidmət» sisteminin həyata keçirilməsindən bir ildən də az vaxt ötsə də, artıq 500 mindən çox vətəndaş bu xidmətə müraciət edib. Heç bir

şikayət olmayıb. Hamı razıdır. Bu həqiqətən, müasir Azərbaycanın brendinə çevrilib. Biz ölkəni modernləşdiririk, siyasi sistem də modernləşdirilir. Bu halda biz bütün sahələri modernləşdirməliyik. İnsanlar üçün elə bir şərait yaratmalıyıq ki, onlar razı qalsınlar və arayışların alınmasına hədər yerə vaxt itirməsinlər. Halbuki, indi bu sənədləri bir neçə dəqiqə ərzində əldə edə bilirlər.

**S u a l: Bu sərgi Sizin elan etdiyiniz «İnformasiya-kommunikasiya texnologiyaları ili»nin özünəməxsus aynasıdır. Bu sərgi barədə nə düşünürsünüz? Axı birinci dəfə deyil ki, «BakuTel» sərgisinə baş çəkirsiniz. O elə bil dəyişib, daha da böyüyüb.**

**C a v a b:** Mən hər il «BakuTel» sərgisində oluram. Əlbəttə, Bakı ildən-ilə genişlənir, iştirakçıların sayı artır. Məni sevindirən odur ki, həm yerli, həm də xarici şirkətlərin sayı çoxalır. Deməli, biznes artmaqdadır, informasiya texnologiyaları üzrə aparıcı beynəlxalq şirkətlərin Azərbaycana diqqəti də artır. Biz bu işə başlayanda qarşımıza belə bir məqsəd qoymuşduq ki, o, ənənəvi neft sərgisi kimi beynəlxalq nüfuz qazansın. Neft sərgisi bizə neft-qaz yataqlarını inkişaf etdirməyə kömək göstərmişdir. Biz neft-qaz layihəsinə başlayanda Azərbaycanı çox az ölkə tanıyırdı. «BakuTel» də eyni vəzifəni daşıyır. İndi biz bütün dünyada təkcə neft-qaz ehtiyatlarına malik olan ölkə kimi deyil, həmçinin gələcəkdə yüksək səviyyəli elmi potensiala və informasiya-kommunikasıya texnologiyalarının tətbiq olunduğu ölkə kimi tanınacağıq. Əlbəttə, Azərbaycanın bu sahədə dəb qanunvericisi rolunu oynayacağını düşünmək sadəlövhlük olardı. Mən həmişə demişəm ki, biz dəb qanunvericilərinin bir addımlığında olmalıyıq və ən müasir texnologiyaları iqtisadiyyatımıza tətbiq etməliyik. Bu proseslərdə dövlət təminatçı kimi çıxış edir, çünki maliyyənin əksər hissəsini dövlət təmin edir. Fərdi sektor isə dövlətin ardınca, yaxud onunla paralel olaraq addımlayır və bizim yaratdığımız bütün imkanlardan istifadə edir. Biz yüksək templərlə irəli gedirik, müasir dövlət qururuq. Bu gün müasir texnologiyalar olmadan heç bir dövlət normal inkişaf etməyə qadir deyildir.

**S u a l: Mümkünsə, «TASİM» layihəsi barədə də bir neçə kəlmə deyin. Çünki bu, böyük, qlobal layihədir, həm Azərbaycan, həm də region üçün vacibdir.**

**C a v a b:** Bəli, biz bir çox qlobal layihələrdə – kommunikasiya, energetika və nəqliyyat layihələrində iştirak edirik. Bizim coğrafi vəziyyətimiz elədir ki, həm Şimal ilə Cənub, həm də Qərb ilə Şərq arasında təbii kəsişmə nöqtəsiyik. Lakin infrastruktursuz belə coğrafi mövqenin heç bir əhəmiyyəti yoxdur. Deməli, onu səmərəli infrastrukturla gücləndirmək lazımdır. Energetika dəhlizləri bu gün Avropanın və digər qitələrin diqqətini cəlb edir. Həyata keçirdiyimiz nəqliyyat layihəsi – Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yollarının birləşdirilməsi, həmçinin qitələrarası əhəmiyyət daşıyacaqdır. Bu yol İpək yolunun bərpasıdır, Çindən Londona qədər gedib çatacaqdır. Kommunikasiya sahəsində də belədir. Elektron xidmətlərlə əlaqədar Azərbaycanda inşa olunan kommunikasiyalar insanları, ölkələri yaxınlaşdırmağa xidmət edir və Azərbaycana uzun illər boyu dividentlər gətirəcəkdir. «TASİM» layihəsi də bu qəbildəndir. Yəni bütün bunlar ölkənin ümumi inkişaf konsepsiyasına daxildir. Bizdə olan potensialdan – coğrafi mövqedən, təbii ehtiyatlardan, insan potensialından istifadə etməklə ölkəmiz inkişaf edəcəkdir. Əlbəttə ki, bizə öz məqsədlərimizə çatmaqda kömək edən xarici tərəfdaşlarımızla fəal işləməklə buna nail olacağıq.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident.

* * *

*Sonra Prezident İlham Əliyev sərgidə «NEURON Texnologiyası» MMC şirkətinin stendi ilə də tanış oldu. Şirkətin sərgidə nümayiş etdirdiyi spayder xüsusi cihazı dünyada canlı monitorinqi həyata keçirən ən kiçik elektron kardioqram sensorudur. Cihaz xüsusi dizayn olunub və sinəyə yapışdırılır. Dünyada analoqu olmayan bu cihazdan istifadə ölkəmizdə ürək-damar xəstəlikləri səbəbindən baş verən mənfi halların*

*qarşısını* ala *biləcək yüksək* texnologiyalı *qabaqlayıcı tədbirlərdən olacaqdır.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının stendinə də baxdı. Qeyd edildi ki, qardaş ölkə bu sərginin fəal iştirakçılarından* biridir. *Budəfəki sərgidə Türkiyənin İKT sahəsində inkişaf etmiş 5 şirkəti təmsil* olunub.

*Əfqanıstan isə bu sərgidə ilk dəfə təmsil* olunur. *Bu ölkə «BakuTel–2013» sərgisinə xüsusi* maraq *göstərir.*

*Sərgidə Vətəndaşlara Xidmət və* Sosial *İnnovasiyalar üzrə Dövlət* Agentliyi *və* onun *tabeliyində* olan *«ASAN xidmət» mərkəzlərinin səyyar avtobusları və digər nəqliyyat vasitələri nümayiş* olunur. *«ASAN xidmət» Mərkəzi* klassik vahid *pəncərə prinsipinə əsaslanaraq 9 dövlət orqanının 25 hüquq xidmətinin göstərilməsini təmin edən* qurumdur.

*Dövlətimizin başçısı «Azərpoçt»* MMC-nin *səyyar xidmətlərinin təşkilində istifadə* olunan *avtomobillərə baxdı.* Bildirildi *ki, vətəndaşlar bu avtomobillərlə poçt xidmətindən geniş yararlana bilirlər.*

*Sərgidə MDB ölkələri arasında ilk dəfə* olaraq *Azərbaycanda «Titan»* robotu *nümayiş* etdirilir. *Bu robot Tokiodan tutmuş, Vankuverə qədər bir çox dünya ölkələrini gəzmiş, Abu-Dabidə «Qran-pri* Formula *1» yarışında, eləcə də iri şirkətlərin, məşhur* brend *və markaların təqdimatlarında iştirak etmişdir.* Robot *həm hərəkət* edir, *həm də* insanlarla dialoq *qurur.*

*Prezident İlham Əliyev* «AzDimension» *şirkətinin* stendi *ilə də tanış* oldu. Burada *dövlətimizin başçısına yeni* milli *kompüter oyunu barədə məlumat* verildi. *Bu oyun ölkəmizin* tarixini *öyrənməyə* imkan *yaradır, gənclərin və yeniyetmələrin hərbi-vətənpərvərlik* ruhunda *tərbiyəsinə müsbət təsir göstərir.*

*Sərgidə təmsil* olunan *PERSECUTOR şirkəti İKT binaları üçün müasir məlumat mərkəzləri və əlaqədar* texnologiya *infrastrukturu üzrə kompleks xidmətlər təklif* edir. *1993-cü ildə yaradılan şirkət bu sahədə dünyada aparıcı* qurum *hesab* olunur.

Dövlətimizin başçısı HP şirkətinin pavilyonuna da baxdı. İnformasiya texnologiyaları sahəsində dünyanın ən iri şirkətlərindən biri olan HP korporativ sifarişçilər, kiçik və orta biznes qurumları, eləcə də fərdi istifadəçilər üçün əlverişli texnologiyaların təchizatçısıdır.

Prezident İlham Əliyevə Yüksək Texnologiyalar Parkı haqqında da geniş məlumat verildi. Dövlətimizin başçısının sərəncamı ilə yaradılan parkın əsas funksiyası İKT, digər yeni və yüksək texnologiyalar üzrə fəaliyyətin genişləndirilməsi, burada çalışan fiziki və hüquqi şəxslər üçün əlverişli şəraitin yaradılması və digər xidmətlərin inkişaf etdirilməsindən ibarətdir. Bu məqsədlə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində «Yüksək Texnologiyalar Parkı» MMC yaradılmışdır. Parkın tikintisi üçün Pirallahı rayonunda 50 hektar torpaq sahəsi ayrılmışdır.

Builki sərgidə ilk dəfə olaraq Amerika Birləşmiş Ştatları da təmsil olunmuşdur. «USA CC» şirkəti də İKT sahəsində ən son texnologiyaları təqdim edir.

Litva da «BakuTel–2013» sərgisində 5-ə yaxın şirkət ilə təmsil olunur. Bu ölkənin şirkətləri yüksək texnologiyalar üzrə tədqiqat və digər təyinatlı yeni məhsulları ilə sərgiyə qatılmışdır.

Prezident İlham Əliyev «LifeWatch V» şirkətinin pavilyonu ilə də tanış oldu. Bildirildi ki, «LifeWatch V» smartfon ailəsi insanlara öz səhhəti və sağlamlıqları barədə məlumatlı olmaları üçün yaradılmışdır. Buraya elektrokardioqramın qeydə alınması, qan dövranına nəzarət və digər tibbi xidmətlər paketləri daxildir.

«Azercell» 1996-cı ildə təsis edilmişdir və hazırda bazarda lider mövqeyini saxlayır. Şirkət Azərbaycana bir sıra innovativ texnologiyalar və konsepsiyalar gətirmişdir. Şəbəkə əhalinin 99,8 faizini əhatə edir. «Azercell» 2011-ci ildə 3G, 2012-ci ildə 4G xidmətlərini təqdim etmişdir. 2013-cü ildə isə şirkət mobil elektron imza –«Asan imza» xidmətini həyata keçirən ilk mobil operator olmuşdur.

*Dövlətimizin başçısı «SİNAM» MMC*-nin stendi *ilə də tanış* oldu. *Əsası 1994-cü ildə* qoyulan *«SİNAM» şirkəti* kompüter *bazarında və* telekommunikasiya *texnologiyaları sahəsində özünü etibarlı və* ciddi *tərəfdaş* kimi *tanıtmışdır.*

*Prezident İlham Əliyevə nəqliyyat və* texnika, *«Yollar GPS» nəzarət* sistemi *barədə də məlumat* verildi.

Qeyd olundu ki, *bütövlükdə* bu *sərgi Azərbaycanda İKT*-nin *inkişafına, yeni faydalı əməkdaşlığın və işgüzar münasibətlərin* qurulmasına *mühüm töhfə verəcəkdir.*

## XALÇA MUZEYİNİN YENİ BİNASINDA SƏRGİLƏRİN TƏRTİBATININ TƏŞKİLİ İLƏ TANIŞLIQ

*2 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olmuşdur.*

*Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir. Tətbiqi sənətin nadir nümunələrinin toplandığı Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşmişdir. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə prezident İlham Əliyevin sərəncamına əsasən muzey üçün xüsusi binanın tikilməsi qərara alınmışdı. Hazırda orijinal üslubda inşa olunmuş binada tikinti-quraşdırma işləri tam başa çatdırılaraq son tamamlama işləri aparılır. Burada 15 mindən çox eksponatdan ibarət nadir kolleksiya mühafizə olunur. Bu kolleksiyanın tamaşaçılara təqdimatı üçün binada müasir tipli sərginin nümunəsi yaradılır.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev məlumat verdi ki, müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzeyin yeni binasının əsas təyinatına ekspozisiya sərgilərinin təşkili, maarifləndirici proqramların işlənib hazırlanması, qeyri-maddi mədəni irsin qorunması, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi daxildir.*

*Muzeydə suvenir mağazası fəaliyyət göstərəcəkdir. Muzeyin kolleksiyasında, həmçinin XIX əsrin sonundan XX əsrin əvvəlinədək ölkəmizin müxtəlif bölgələrində hazırlanmış zərgərlik sənətinin nadir nümunələri toplanmışdır. Zirzəmidəki seyf otağı məhz həmin məmulatın saxlanılması üçün nəzərdə*

*tutulmuşdur. Burada yaradılmış «A1» kateqoriyalı qoruma sisteminə əsasən seyf yalnız barmaq izi ilə açılır.*

*Dövlətimizin başçısı fondların qorunması otağına da baxdı. Burada ilk dəfə Azərbaycanda elektron idarəetmə və elektron yaddaşlı sistem qurulmuşdur.*

*Diqqətə çatdırıldı ki, Xalça Muzeyinin eksponatlarının sonradan yeni binanın müasir fondların qorunması otağında yerləşdirilməsi məqsədilə onların müvafiq vəziyyətə gətirilməsi üçün bir neçə ay vaxt tələb olunur. Muzeyin ekspozisiyası xalça sənətində əsas bədii istiqamətləri dəqiq əks etdirməklə, onların özünəməxsus xüsusiyyətlərini, həmçinin materiallarını, işləmələrin texnikasını, incə və çox dərin bədii xüsusiyyətləri ilə ahəngdarlığını, aydın şəkildə təsnifatını açıq göstərir.*

*Prezident İlham Əliyev Xalça Muzeyinin yeni binasında ekspozisiyanın yerləşdirilməsi sxeminə baxdı. Burada muzeyin 3D görüntüsü də təqdim olunur.*

*Xalçaların toxunması və naxışları barədə qısa filmin təqdimatından sonra dövlətimizin başçısı sərgilənən xalçalarla tanış oldu.*

*Ekspozisiyadakı xalçalar arasında XVII–XX əsrlərdə toxunan dünya şöhrətli kompozisiyalara rast gəlmək olar. Burada, həmçinin zamanın diktə etdiyi ənənəvi xalq üslublu süjetlərin müəllifi olan rəssamların müasir işləri əks etdirilir.*

*Prezident İlham Əliyev Azərbaycanda ən böyük ölçülü xalçaya baxdı. Muzeyin sərgi konsepsiyası adi sərgilərdən fərqlənir. Əsas eksponatlar – xalçalar qövsşəkilli divarlardan asılır, onların da əksi bütün yuxarı mərtəbələrdən görünür. Bunun sayəsində sərginin böyük hissəsini müxtəlif rakurslardan izləmək mümkündür. Hər mərtəbədə muzeyin fondundan digər əşyaların və eksponatların sərgilənməsi üçün vitrinlər və platformalar quraşdırılmışdır ki, bu da sərgiyə tam dolğunluq verir və tamaşaçıların sərgini daha yaxşı izləməsinə şərait yaradır. Muzeydə nümayiş zalı da vardır. Burada xalçalar, naxışlar, xalçaçılıq sənətindəki ənənələr barədə filmlər nümayiş olunacaqdır.*

*Dövlətimizin başçısı buradakı xidməti otaqlara da baxdı.*

*Bildirildi ki, terrasda açıq səma altında sərgilərin təşkili mümkün olacaqdır.*

*Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin yeni binasında sərgilərin tərtibatının təşkili ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan–Finlandiya dostluğu və əməkdaşlığı bundan sonra da hərtərəfli inkişaf edərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Finlandiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 dekabr 2013-cü il*

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının keçmiş prezidenti, xalqınızın böyük oğlu, görkəmli dövlət xadimi, lider, aparteidə və rasizmə qarşı mübarizənin qəhrəmanı, Nobel mükafatı laureatı Nelson Mandelanın vəfatı xəbərindən son dərəcə kədərləndim.

Nelson Mandela Cənubi Afrika Respublikasının inkişafı, xalqının rifahının yüksəlməsi və ölkədə ədalətli cəmiyyətin qurulması istiqamətində böyük işlər görmüşdür. Nelson Mandelanın əziz xatirəsi doğma vətənində və onun hüdudlarından kənarda milyonların yaddaşında əbədi yaşayacaqdır.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə, Cənubi Afrika Respublikasının xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 dekabr 2013-cü il*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ BAŞ İNVESTİSİYA QURUMUNUN SƏDRİ ƏBDÜLLƏTİF ƏHMƏD ƏL-OSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı–Azərbaycan hökumətlərarası birgə Komissiyanın həmsədri Əbdüllətif Əhməd əl-Osmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənab Əbdüllətif Əhməd əl-Osman İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Abdullah bin Əbdüləziz Al Səudun, Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, Müdafiə naziri Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun salamlarını prezident İlham Əliyevə çatdırdı. O, yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi. Əbdüllətif Əhməd əl-Osman prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gedən böyük inkişaf proseslərinin şahidi olduqlarını dedi. İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı əlahəzrət Abdullah bin Əbdüləziz Al Səudun ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsində maraqlı olduğunu deyən qonaq bu münasibətlərin genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycanın əsas tərəfdaşlarından biri olan Səudiyyə Ərəbistanı Krallığı ilə*

*ölkəmiz* arasında *əməkdaşlığı yüksək qiymətləndirən* prezident *İlham Əliyev* bu *əməkdaşlığın böyük* potensiala malik olduğunu dedi *və* bu *istiqamətdə mühüm irəliləyişlərin əldə ediləcəyinə əminliyini* bildirdi.

*Dövlətimizin başçısı İki Müqəddəs Ocağın* Xadimi, *Səudiyyə Ərəbistanının Kralı əlahəzrət* Abdullah bin *Əbdüləziz* Al *Səudun, Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş* nazirin *müavini, Müdafiə* naziri *əlahəzrət* Salman bin *Əbdüləziz* Al *Səudun salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını Səudiyyə Ərəbistanının* Kralına *və Vəliəhdinə çatdırmağı xahiş* etdi.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*Fəxri xiyaban*

*12 dekabr 2013-cü il*

*Müstəqil Azərbaycan dövlətinin memarı və* qurucusu*, dünya şöhrətli* siyasi xadim*, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 10 il keçir. Ulu öndər Heydər Əliyev* misilsiz *xidmətlərinə görə hər* zaman *Vətəni, xalqı üçün əziz* olaraq *qalacaqdır.* Bu *böyük* insan *öz xidmətləri ilə hələ sağlığında ikən* tarixin *yaddaşında əbədiləşmiş ən böyük* azərbaycanlıdır*. Heydər Əliyev Azərbaycan salnaməsində təkrar*olunmaz *rəhbər, qüdrətli dövlət başçısı, fədakar* insan*, əfsanəvi şəxsiyyət,* ulu *öndər,* ümummilli lider*, müstəqil Azərbaycanın* qurucusu*, xalqının* sevimli *övladı* kimi *qalmışdır və qalacaqdır.*

*Dahi şəxsiyyət Heydər Əliyevin* parlaq *dühası* onu *Azər*baycan *xalqının ümummilli liderinə, dünya siyasətinin nəhənglərindən birinə çevirmişdir.* Ona *görə də Azərbaycan xalqı* bu *böyük övladı ilə haqlı* olaraq *öyünür. «Mənim həyat amalım bütün varlığım qədər* sevdiyim *Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin* iqtisadi, siyasi *və mədəni inkişafına xidmət olmuşdur» – deyən* ulu *öndər Heydər Əliyev 30 ildən artıq bir müddətdə – istər* sovet *dövründə, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında* layiqli *yerə çıxarmışdır. Azərbaycan* tarixinin *Heydər Əliyev mərhələsi* kimi *qiymətləndirilən* bu *dövrdə* ulu *öndərimiz tərəfindən görülən böyük işlərin,* onun *həyata keçirdiyi xilaskarlıq və* quruculuq *missiyalarının məntiqi nəticəsidir* ki, *bu gün xalqımız* demokratik *və hüquqi* bir *dövlətdə yaşamaq imkanı əldə etmiş,*

*xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmış, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olmuşdur.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasından sonra hər il olduğu kimi, ulu öndərin vəfatının 10-cu ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allah-Taaladan rəhmət diləyirdilər.*

*Dekabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Milli Məclisin deputatları, nazirlər, komitə, şirkət və idarə rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏFATI GÜNÜ İLƏ ƏLAQƏDAR EHSAN MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*12 dekabr 2013-cü il*

*Dekabrın 12-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ümummilli liderin vəfatı günü ilə əlaqədar ehsan verilmişdir.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva, ölkəmizin bütün şəhər və rayonlarından ictimaiyyətin nümayəndələri mərasimdə iştirak etmişlər.*

*Ehsan mərasimi Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün ulu öndər Heydər Əliyevin anım günüdür. 10 il bundan əvvəl Vətən öz böyük oğlunu itirmişdir. Ancaq bu 10 ilin hər bir ili Heydər Əliyev siyasətinin təntənəsi ili olmuşdur. Çünki bu 10 ildə Heydər Əliyev siyasəti davam etdirilmiş, Azərbaycan uğurla inkişaf etmişdir.

Heydər Əliyev böyük tarixi şəxsiyyətdir. Müstəqil Azərbaycanın qurucusudur, onun banisidir. Azərbaycan 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində dövlət müstəqilliyinə qovuşmuşdur. Ancaq 1993-cü ilə qədər Azərbaycanı müstəqil dövlət saymaq düzgün olmazdı. Müstəqil dövlətin bir neçə əlaməti vardır ki, onların heç biri Azərbaycanda yox idi. Azərbaycan müstəqil xarici siyasət apara bilmirdi, başqa

dövlətlərin təsiri altında idi. Müstəqil iqtisadiyyat, demək olar ki, yox idi, ümumiyyətlə, iqtisadiyyat dağılmış vəziyyətdə idi. Dövlətçiliyin əsasları yaradılmamışdı. Belə olan halda Azərbaycanı 1993-cü ilə qədər müstəqil dövlət saymaq düzgün olmazdı.

Məhz Heydər Əliyevin müdrikliyi, siyasəti nəticəsində Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlətə çevrildi. Ona görə biz hamımız haqlı olaraq Heydər Əliyevi Azərbaycan dövlət müstəqilliyinin qurucusu kimi qəbul edirik və Heydər Əliyevin tarix, xalq qarşısında gördüyü işlər içərisində bu, ən böyük xidmətdir.

1993-cü ildə Azərbaycan xalqı böyük müdriklik göstərmiş, ölkəmiz, xalqımız üçün ən ağır anlarda Heydər Əliyevə müraciət etmiş, onu hakimiyyətə dəvət etmişdir. Nə üçün? Bir neçə səbəb var idi. İlk növbədə, Heydər Əliyevin ötən əsrin 70–80-ci illərində gördüyü işlər xalqın yaddaşında yaşayırdı. Azərbaycan 1970-ci ilə qədər sovet məkanında ən geridə qalmış respublika idi. Heydər Əliyevin fəaliyyəti nəticəsində isə 1980-ci illərin əvvəllərində sovet miqyasında ən qabaqcıl respublikaya çevrilmişdi. O illər xalqın yaddaşında yaşayırdı. Eyni zamanda, xalqımız üçün ən ağır anlarda Heydər Əliyev daim xalqın yanında idi. 20 Yanvar faciəsi zamanı da o öz haqq səsini ucaltmışdı. O vaxt Sovet İttifaqının süqutuna hələ 2 il vaxt qalmışdı. Ancaq Heydər Əliyev öz cəsarətli səsini ucaltmış, sovet rəhbərliyinin bu cinayətini pisləmiş, onu qınamışdı. Sovet rəhbərliyini ittiham etmişdi, Kommunist Partiyasından imtina etmişdi, onun sıralarını tərk etmişdi və əsl liderlik keyfiyyətləri nümayiş etdirmişdi. Məhz Heydər Əliyevin qərarı ilə Azərbaycanın milli bayrağı – Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda Dövlət bayrağı kimi elan edilmişdi.

Bütün bunlar onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə əsl lider, əsl öndər idi. Məhz buna görə 1993-cü ildə – xalqımızın ən ağır anlarında xalq ona üz tutmuş, hakimiyyətə dəvət etmiş və ondan sonra

Azərbaycanın sabitlik və inkişaf dövrü başlamışdır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ciddi islahatlara start verildi. Azərbaycan beynəlxalq aləmdə öz möhkəm yerini tuta bilib. Ölkə daxilində aparılan islahatlar ölkəmizin inkişafını təmin edib. Azərbaycan dövləti çox dərin milli köklər, milli dəyərlər üzərində qurulub. 1993–2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqları da təmin edib. Məhz o illərdə aparılan siyasət nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı olan bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu. Ölkə daxilində başlanan islahatlar dövlətimiz üçün həlledici rol oynayıb.

Ondan sonrakı dövrdə də Heydər Əliyev siyasəti davam etdirilmişdir. 2003–2013-cü illərdə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkə kimi tarixdə qalıb. Bu inkişafın təməli məhz ulu öndər tərəfindən qoyulub. Sadəcə olaraq, biz ulu öndərin siyasətinə sadiq qalaraq onun siyasətini yaşatmışıq, zənginləşdirmişik və Azərbaycanı inamla irəliyə aparmışıq.

Son 10 il ərzində istənilən istiqamət üzrə böyük nailiyyətlər, nəticələr, uğurlar vardır. Azərbaycan dünya birliyinin böyük dəstəyi ilə dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Azərbaycan iqtisadi sahədə dünya miqyasında ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün istiqamətlər üzrə nəticələr göz qabağındadır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bizim rayonlarımızın abadlaşması proqramı uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilib. Biz kosmik dövlətə çevrilmişik. Artıq Azərbaycan peyki fəzaya qaldırılmışdır. Biz energetika, nəqliyyat sahələrində ölkəmiz üçün, dünya üçün vacib olan layihələri icra etmişik ki, bu layihələr xalqımızın, ölkəmizin uğurlu yaşaması üçün bundan sonra onilliklər ərzində xidmət göstərəcəkdir.

Bütün bu nailiyyətlərin əldə edilməsində başlıca şərt Heydər Əliyev siyasətinə olan sədaqətimizdir. 10 il bundan əvvəl Azərbaycan xalqına söz vermişdim ki, əgər mənə etimad göstərilərsə, mən bu siyasətə sadiq qalacağam, bu yoldan dönməyəcəyəm. Şadam ki, verilən bütün sözlər həyatda öz əksini tapıb. 10 il ərzində Heydər Əliyev siyasəti yaşadı, inkişaf etdi, Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində yaşadı.

Son 20 il ərzində Azərbaycanın əldə etdiyi uğurlar bu gün dünyada öyrənilir, tədqiq edilir, müxtəlif məqalələr, elmi əsərlər yazılır və Azərbaycanın uğurlu inkişafının sirləri araşdırılır. Mənə dəfələrlə bu məsələlərlə bağlı suallar verilir ki, Azərbaycan son illər ərzində belə böyük inkişafa necə nail ola bilmişdir?!

Əlbəttə ki, bu barədə çox danışmaq olar. Bu gün sadəcə olaraq, demək istəyirəm ki, öz xalqına bağlı olmaq, xalqı sevmək lazımdır. Dövlətə bağlı olmaq lazımdır. Müstəqilliyi hər şeydən üstün tutmaq lazımdır və Heydər Əliyev kimi lider olmaq, ona oxşamaq lazımdır. O öz müdrikliyi, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanmışdır. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, dövlət maraqlarını, xalqımızın, dövlətimizin maraqlarını qoruyacaq və xalqımızın inkişafı ilə bağlı ən düzgün qərar verəcəkdir. Xalqın inamı ona əlavə güc verirdi. Ona imkan verirdi ki, ölkə maraqlarını daha da böyük uğurla müdafiə etsin. Xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızın əsas səbəbidir. Çünki bizim siyasətimizin təməlində Azərbaycan xalqı, Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları dayanır. Belə olan halda, əlbəttə ki, uğurlar da olacaqdır. Düşünülmüş siyasət aparılmalıdır, xalqla iqtidar arasındakı birlik möhkəm olmalıdır və əlbəttə ki, müasir dünyada, dünya xəritəsində layiqli yer tutmaq üçün cəsarətli siyasət aparılmalıdır.

Bütün bunları biz Heydər Əliyevdən öyrənmişik, öyrənirik, öyrənəcəyik. Gənc nəsil də vətənpərvərlik ruhunda tərbiyə alır.

Gənc nəsil də gələcəkdə bu yolla getməlidir. Heydər Əliyev siyasəti davam etdirilməlidir. Ölkəmizin xoşbəxt gələcəyi üçün bu siyasətin alternativi yoxdur. Mən bunu 10 il bundan əvvəl demişəm, bu gün də deyirəm və həyat bunu təsdiq etdi.

Əgər Azərbaycan 1993-cü ildə, yaxud da ki, 2003-cü ildə başqa yolla getsəydi, ölkəmizi böyük faciələr gözləyərdi. Bizim üstünlüyümüz, xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan xalqı həlledici anlarda müdriklik göstərərək düzgün seçim etmişdir və bu seçimə sadiqdir. Bu seçim bizim gələcək uğurlarımızı da təmin edəcəkdir.

Bu gün bu ehsan mərasimi Heydər Əliyevin adını daşıyan bu möhtəşəm Mərkəzdə keçirilir. Bu Mərkəz dünya miqyasında ən gözəl və ən əzəmətli binalardan biridir. Bu Mərkəz Heydər Əliyevin xatirəsinə abidədir. Ancaq Heydər Əliyevin xatirəsinə ən böyük abidə müstəqil Azərbaycan dövlətidir.

Bu gün burada hər bir rayondan nümayəndələr, ziyalılar, ağsaqqallar, tanınmış insanlar əyləşiblər. Bu gün bütün Azərbaycan buradadır. Ölkəmizin hər bir rayonunda bu gün ehsanlar verilir, ulu öndər yad edilir. Bu gün kədərli bir gündür. 10 il bundan əvvəl Azərbaycan öz böyük oğlunu itirmişdir. Eyni zamanda, bu gün milli birlik, milli həmrəylik günüdür. Çünki bu gün Azərbaycan xalqı Heydər Əliyev siyasəti ətrafında, onun ideyaları ətrafında daha da sıx birləşmişdir.

Əminəm ki, gələcəkdə bu siyasət uğurla davam etdiriləcəkdir. Bizim qarşımızda bütün yollar, bütün üfüqlər açıqdır, aydındır. Biz irəliyə gedirik, inkişafa doğru gedirik, bundan sonra da Azərbaycanı Heydər Əliyev siyasəti ilə idarə edəcəyik, Azərbaycan xalqının xoşbəxt gələcəyini bundan sonra da təmin edəcəyik. Allah ulu öndərə rəhmət etsin.

## Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin çıxışı

Bismillahir-rəhmanir-rəhim!
Zati-aliləri möhtərəm prezident İlham Əliyev həzrətləri!
Möhtərəm Mehriban xanım!

Hörmətli məclis əhli, qonaqlar!

Dünya tarixində elə şəxsiyyətlər vardır ki, o şəxsiyyətlər təkcə öz xalqına, millətinə deyil, bütün bəşəriyyətə mənsub olurlar və bəşəriyyət onlardan örnək alır. Belə şəxsiyyətlərdən biri də ulu öndər Heydər Əliyev həzrətləri idi.

Heydər Əliyev həzrətləri ictimai-siyasi həyatın bütün sahələrində böyük zirvələr fəth etmişdir. Bu bizim üçün sirr deyil, yaxın keçmişimizdə biz hamımız bunun şahidi olmuşuq ki, Azərbaycanda milli qırğın, aclıq, hətta Azərbaycanın parçalanması gündəlikdə idi. Allahın köməyi, xalqın dəstəyi və çağırışı ilə Heydər Əliyev həzrətləri ikinci dəfə Azərbaycana qayıtdı. Nəinki Azərbaycanı parçalanmaqdan qurtardı, yeni Azərbaycanın tarixini yazdı, yaratdı. Bu gün də bu siyasət onun davamçıları tərəfindən davam etdirilir.

Ulu öndər 10 ildir ki, cismən bizdən ayrıdır, amma ruhən bizimlədir. Onun dediyi sözlər, onun arzuları, göstərdiyi yol, bizə öyrətdiyi dövlətçilik məktəbi, həyat verdiyi müstəqillik yaşayır və yaşamaqdadır. Əlbəttə ki, Azərbaycan 20 il əvvəlki Azərbaycan deyildir. Azərbaycan bu gün dünyada tanınmış qüdrətli dövlətlərdən birinə çevrilmişdir və biz bu nailiyyətləri dövlətimizin rəhbərinin sayəsində əldə etmişik.

Məni bir məsələ də çox sevindirir ki, dövlətin təməli nə qədər möhkəmlənirsə, nə qədər qüdrətli olursa, dövlətimizin rəhbəri mənəvi həyata da çox böyük önəm verir. Dünən Gürcüstandan, həmçinin Dərbənddən Krasnodara qədər dini liderlər mənə zəng etdilər, Prezident həzrətləri, Sizə və bütün Azərbaycan xalqına başsağlığı verdilər. Onlar bu anım gününü qeyd edirlər, Quran oxunur, dualar edilir. Əlbəttə, tarix budur. Tarixi yaradanlar özləri də sonra tarixə çevrilirlər. Bu gün Heydər Əliyev həzrətlərinin özü bizim üçün bir tarixdir. Bayaq Prezident həzrətləri buyurdu, bu əzəmətli binanın özü də Heydər Əliyev həzrətlərinin adını daşıyır. Əlbəttə, bu onun xatirəsinin əbədiləşdirilməsi deməkdir.

Dünyada Heydər Əliyevin arzularının gerçəkləşməsində dövlətçiliyimizi, irsimizi, mədəniyyətimizi dünya səviyyəsinə qaldıran

Heydər Əliyev Fondunun və Mehriban xanımın böyük zəhmətləri vardır. Allah-Taala ona bu işdə yardımçı olsun.

Mən bir məsələni də demək istəyirəm. Burada həmişə dövlət tədbirləri keçirilir. Dövlət rəhbərləri, prezidentlər burada olur, konfranslar keçirilir. Amma mən bir sirri də sizə açmaq istərdim ki, Prezidentlə məsləhətləşəndə ulu öndərin xatirəsini, anım gününü burada keçirməyi məsləhət gördü. Dedi, mən adi insanlarla, ağsaqqallarla, ağbirçəklərlə, möminlərlə birlikdə süfrə arxasında əyləşmək istəyirəm. Bu, Prezidentin dinindən, dilindən, milliyyətindən asılı olmayaraq bütün Azərbaycan xalqının prezidenti olmasının daha bir dəlilidir.

Bu mənəvi həyatı, Prezident həzrətləri, bizə yaşatdığınıza görə mən bütün buradakı iştirakçılar adından Sizə minnətdarlığımı bildirirəm. Bu bizim yadımızdan çıxmaz. Bu bizim üçün böyük bir tarixdir. Allah-Taala Sizin verdiyiniz bu ehsanları qəbul etsin, inşallah! Allah-Taala ulu öndər Heydər Əliyev həzrətlərinə rəhmət etsin! Allah-Taala onun ömür-gün yoldaşı Zərifə xanıma rəhmət etsin! Allah-Taala bütün şəhidlərə rəhmət etsin!

Amma ulu öndərin böyük arzularından biri də Qarabağ torpaqlarının azad olunması idi. Allah-Taala bizə Prezidentimizin rəhbərliyi ilə tezliklə o torpaqların azadlığını və oralarda da anım günü keçirməyi nəsib etsin.

Bir daha mən Allah-Taaladan ulu öndərə rəhmət diləyirəm. Bütün Azərbaycan xalqına dövlətimizin rəhbəri başda olmaqla, xoşbəxtlik arzu edirəm.

* * *

*Ehsan mərasimi şeyxülislam Allahşükür Paşazadənin Fatihə surəsini oxuması ilə başa çatdı.*

## AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYINA

Hörmətli Qurultay iştirakçıları!

Sizi və sizin simanızda bütün Azərbaycan müəllimlərini səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və xoşbəxtlik, fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan müəlliminin tarixən xalqımızın intellektual potensialının formalaşdırılmasında böyük xidmətləri vardır. Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin və mənəviyyatımızın keşiyində dayanan müəllim daim cəmiyyətimizdə hörmət və ehtiramla əhatə olunmuşdur. Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur. Təhsil sistemində həyata keçirilən bütün işlər, o cümlədən son 10 il ərzində 2700 məktəbin tikilməsi, təhsilin maliyyələşməsinin artırılması, idarə edilməsinin təkmilləşdirilməsi və digər islahatlar bütövlükdə təhsilimizin aparıcı qüvvəsi olan müəllimin mövqeyinin gücləndirilməsi üçün möhkəm zəmin yaradır.

«Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası»nın qəbul olunmasından sonra keçirilməsi qurultayınızı Azərbaycan müəllimlərinin əvvəlki ali məclislərindən fərqləndirən mühüm hadisədir. Strategiya qarşıdakı dövr üçün milli təhsil sisteminin prioritet istiqamətlərini və başlıca məqsədlərini müəyyən edərək, sizin qarşınızda xalqımızın gələcəyi naminə həyati əhəmiyyətli yeni vəzifələr qoyur. Onun tələbi sürətlə modernləşən ölkəmizdə təhsil sisteminin insan kapitalının inkişafına xidmət etməsinin, təhsilin keyfiyyət göstəricilərinin ən yüksək səviyyəyə çatdırılmasının və bütün pillələrində köklü dönüş yaradılmasının, həmçinin müəllimin səmərəli fəaliyyətinin dünya standartlarına uyğun təşkilinin təmin olunmasından ibarətdir.

Qurultayınızın ötən müddət ərzində görülən işləri obyektiv qiymətləndirəcəyinə, taleyüklü məsələlər ətrafında müzakirələri və qərarları ilə ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə öz layiqli töhfəsini verəcəyinə ümidvar olduğumu bildirir və hər birinizə uğurlar arzu edirəm. İnanıram ki, Azərbaycan müəllimi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, azərbaycançılıq məfkurəsinə sadiq və qloballaşan dünyada ölkəmizi layiqincə təmsil etməyə qadir vətəndaş yetişdirilməsində bundan sonra da var qüvvəsini əsirgəməyəcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2013-cü il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu gün dost Qazaxıstan dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafı yolunda inamla irəliləyir. Qazaxıstan dünya birliyində layiqli yer tutur.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qarşılıqlı dəstək ənənələrinə əsaslanan dövlətlərarası münasibətlər və strateji tərəfdaşlıq bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Nursultan Abişeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Qazaxıstan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2013-cü il*

## BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA AL XƏLİFƏYƏ

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Bəhreyn əlaqələrinin, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2013-cü il*

## İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DİDYE BURKHALTERƏ

Hörmətli cənab Burkhalter!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan–İsveçrə münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, dostluq əlaqələrimizin daim möhkəmləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın hərtərəfli inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2013-cü il*

## «KİTABİ-DƏDƏ QORQUD» ABİDƏSİNİN VƏ DƏDƏ QORQUD PARKININ AÇILIŞI MƏRASİMİ

*13 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Bakının Nərimanov rayonunda ucaldılan «Kitabi-Dədə Qorqud» abidəsinin və yeni salınan Dədə Qorqud parkının açılışı mərasimində iştirak etmişdir.*

*«Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının tarixi keçmişini əks etdirən möhtəşəm sənət abidəsidir. Əsərdə vətənpərvərlik, qəhrəmanlıq, müdriklik, Azərbaycan xalqının tarixi keçmişi, Oğuz türklərinin dünyagörüşü, mənəvi dəyərləri, adət-ənənələri, Azərbaycan toponimləri əks olunmuşdur. Dastan dilimizin qədim incəliklərini, tarixi hadisələri və şəxsiyyətləri, xalqımızın mədəniyyətini öyrənməkdə əvəzsiz mənbədir.*

*Müasir dövrdə «Kitabi-Dədə Qorqud» dastanının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1975-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycanda tanınmış sənət xadimlərinin iştirakı ilə «Dədə Qorqud» bədii filmi çəkilmişdir. Ulu öndər Heydər Əliyevin fərmanı ilə dastanın 1300 illiyi türkdilli ölkə rəhbərlərinin iştirakı ilə dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı fərmana əsasən Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və «Dədə Qorqud dünyası» tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdır. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə Dədə Qorqud abidəsinin təntənəli açılışında iştirak etmişdir. Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı «Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» sərəncama əsasən, Dədə*

Qorqud heykəli və «Dədə Qorqud dünyası» tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir. Geniş tikinti və abadlıq işləri nəticəsində Bakının Nərimanov rayonunda 6 hektar ərazidə Dədə Qorqud parkı salınmışdır. Parkın mərkəzində «Kitabi-Dədə Qorqud» abidəsi ucaldılmışdır.

Dövlətimizin başçısı kompleksdə həyata keçirilən tikinti-quruculuq işlərini daim nəzarətdə saxlamış, mütəmadi olaraq əraziyə gələrək, müvafiq tapşırıq və tövsiyələrini vermişdir. Yeni salınan park Bakı şəhərinin simasının daha da gözəlləşməsinə geniş imkanlar açaraq paytaxt sakinlərinin istirahəti baxımından xüsusi əhəmiyyət daşıyır.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə park haqqında ətraflı məlumat verdi.

Dövlətimizin başçısının Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən, bu ərazidə xüsusi layihə üzrə müasir səviyyədə yeni park salınıb. Bu istirahət məkanı paytaxtın ən böyük parklarından biridir. Parkda sakinlərin istirahəti üçün hər bir şərait yaradılıb, geniş yaşıllıq zolaqları salınıb, müasir standartlara uyğun işıqlandırma sistemi qurulub. Dədə Qorqud parkı həm də qədim Azərbaycan tarixinin və mədəniyyətinin açıq havada nümayişi meydanıdır. Park Azərbaycan Diplomatik Akademiyasının yanında salınmışdır. Burada ölkəmizin qədim tarixi və zəngin mədəniyyəti ilə bağlı toplanan məlumatlar, şübhəsiz ki, şəhər sakinlərinin, qonaqların, xüsusilə də Azərbaycan Diplomatik Akademiyasının yerli və əcnəbi tələbələrinin informasiya almasında mühüm rol oynayacaqdır.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox əlamətdar bir gündür. Biz Bakıda Dədə Qorqud abidəsinin açılışına toplaşmışıq. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu abidənin ucaldılması böyük hadisədir. «Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür.

Bildiyiniz kimi, XX əsrin 50-ci illərinə qədər «Kitabi-Dədə Qorqud» Sovet İttifaqında qadağan edilmişdi. Ancaq o illərdən sonra Azərbaycan alimlərinin səyləri nəticəsində bu əsər tədqiq edilməyə başlanmışdır. Təsadüfi deyil ki, bu əsərin tədqiqi ilə bağlı olan elmi işlər Azərbaycan alimlərinə məxsusdur. Bu bir daha onu göstərir ki, bu əsər bizim xalqımıza, bütün türk dünyasına məxsusdur. Amma Azərbaycanda «Kitabi-Dədə Qorqud» dastanına xüsusi münasibət vardır. Əsərdə Oğuz eli kimi coğrafi məfhum bütün Azərbaycan ərazilərini əhatə edir. Keçən əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə əsərin təbliği, onun sovet, dünya ictimaiyyətinə çatdırılması ilə bağlı konkret qərarlar qəbul edilmişdir. Ulu öndərin tövsiyəsi ilə 70-ci illərdə bədii film çəkilmişdir. Ondan sonra müstəqillik dövründə – 1993–2003-cü illərdə artıq bu dastanı dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük işlər görülmüşdür.

2000-ci ildə Bakıda dastanın 1300 illik yubileyi təntənəli şəkildə keçirilmişdir. Bütün türkdilli ölkələrin dövlət başçılarının, YUNESKO-nun baş direktorunun iştirakı ilə böyük təntənəli mərasim keçirilmişdir. «Dədə Qorqud» ensiklopediyası nəşr olunmuşdur. Ulu öndər Heydər Əliyev Dədə Qorqud heykəlinin ucaldılması haqqında sərəncam vermişdir. Yəni bütün bunlar bir daha onu göstərir ki, Dədə Qorqud Azərbaycan xalqının qəlbində daim yaşayıb, yaşayır və yaşayacaqdır. «Kitabi-Dədə Qorqud» dastanı eyni zamanda, bütün türk dünyasını daha da sıx birləşdirir. Azərbaycan türkdilli dövlətlərin daha da sıx birləşməsi üçün öz səylərini əsirgəmir. Bu bizim xarici siyasətimizin ayrılmaz hissəsidir, əsas istiqamətlərindən biridir. Türkdilli ölkələrin dövlət başçılarının Azərbaycanda keçirilmiş zirvə görüşləri bunun əyani sübutudur. Bakıda, Naxçıvanda, Qəbələdə keçirilmiş bu zirvə görüşləri türk dünyasını daha da sıx birləşdirir. Son zirvə görüşündə mən qeyd etmişdim və bir daha demək istəyirəm ki, XXI əsr türk dünyasının əsri olmalıdır.

Türk dünyasında gedən inkişaf, qarşılıqlı əməkdaşlıq, müsbət demoqrafik dinamika, əlbəttə ki, bizi daha da gücləndirəcək və bütün türkdilli dövlətlərin əməkdaşlığı, bir-birinə olan dəstəyi hesabına hər bir dövlət öz milli maraqlarını daha da böyük dərəcədə qoruya biləcəkdir.

Bizim ölkələrimizi, əlbəttə ki, siyasi maraqlar, iqtisadi sahədəki əməkdaşlıq bağlayır. Ancaq əməkdaşlığımızın təməlində ortaq tarix, tarixi köklər dayanır, o cümlədən «Kitabi-Dədə Qorqud» dastanı burada çox böyük rol oynayır. Ona görə mən hesab edirəm ki, bugünkü mərasim bütün türk dünyasında gözəl əks-səda verəcəkdir.

Bu gün biz gözəl parkın – Dədə Qorqud parkının açılışını qeyd edirik. Yəqin ki, hamımız yaxşı xatırlayırıq, bu ərazi çox baxımsız vəziyyətə düşmüşdü. Burada böyük abadlıq işlərinə ehtiyac var idi. Bu parkın ərazisi genişləndirilmişdir, gözəl süni göl yaradılmışdır. Bu gölün sahəsi 3 hektardır. Gəzinti zolaqları yaradılmışdır. Yəni bu park Bakı sakinlərinin sərəncamına

verilir və əminəm ki, bu, növbəti gözəl istirahət zonası olacaqdır. Onu da qeyd etmək istəyirəm ki, ulu öndərin sərəncamı ilə Dədə Qorqud heykəlinin məhz bu parkda ucaldılması nəzərdə tutulmuşdur. Sadəcə olaraq, biz ulu öndərin siyasətinə sadiq qalaraq bu işləri başa çatdırdıq. Mən çox şadam ki, bu gün bu gözəl park və abidə açılır.

Bakı şəhəri artıq parklar, bağlar şəhərinə çevrilib. Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib və bizim bu sahədəki fəaliyyətimiz getdikcə genişlənəcəkdir. Bakıda yeni istirahət zonalarının yaradılması ilə bağlı planlarımız vardır. Onların bir hissəsi icra edilir, bir hissəsi icra edilmişdir.

Bakı nadir bir şəhərdir. Təkcə gözəlliyinə görə yox, ona görə ki, Bakıda bir neçə mərkəz vardır. Adətən, şəhərlərdə, hətta böyük şəhərlərdə bir, ya iki mərkəz olur, ancaq Bakıda bir neçə mərkəz vardır.

İçərişəhər Bakının mərkəzidir. Azadlıq Meydanı, Bulvar şəhərin mərkəzidir. Yeni Bulvar, tikilməkdə olan Ağ Şəhər Bulvarı, Heydər Əliyev Mərkəzi artıq şəhərin mərkəzinə çevrilib. Heydər Əliyev sarayının önündə və arxa hissəsində salınmış yeni parklar – onların uzunluğu bir kilometrdən çoxdur – mərkəzə çevrilibdir. Yəni bu, şəhərimizin xüsusiyyətidir. Əlbəttə, bu parkın açılması həm insanların istirahəti üçün yeni imkanlar yaradacaq, eyni zamanda, şəhərin bu hissəsinin abadlaşdırılmasına xidmət göstərəcəkdir. Biz gözəl şəhərimizin daha da gözəlləşdirilməsi işində bundan sonra daha böyük işlər görəcəyik.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan bu gün dünya miqyasında siyasi və iqtisadi mərkəzlərin birinə çevrilmişdir. Yüksək səviyyəli çoxsaylı tədbirlərin, zirvə görüşlərinin, iqtisadi forumların, dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Forumunun Azərbaycanda keçirilməsi, əlbəttə ki, ölkəmizin siyasi və iqtisadi mərkəz kimi təqdim edilməsinə xidmət göstərir.

Eyni zamanda, Azərbaycan bu gün dünyanın humanitar mərkəzlərinin birinə çevrilmişdir. Ölkəmizdə keçirilən humani-

tar forumlar, Mədəniyyətlərarası Dialoq Forumunun 2 toplantısı, digər tədbirlər Azərbaycanı artıq dünya miqyasında bir humanitar mərkəz kimi təqdim etmişdir. Bizim bu sahədəki rolumuz getdikcə artacaqdır. Çünki müasir, qloballaşan, ziddiyyətlə, toqquşmalarla dolu olan dünyada humanitar əməkdaşlığın əhəmiyyəti daha da artmalıdır. Azərbaycan bu sahədə nəinki bu tədbirlərə ev sahibliyi edir, eyni zamanda, öz təcrübəsini bölüşür, öz reallıqlarını ortaya qoyur və sübut edir ki, humanitar sahədə əməkdaşlıq təkcə humanitar sahə ilə məhdudlaşmır. Humanitar sahədə əməkdaşlıq dünyada gedən siyasi proseslərə müsbət təsir edir və etməlidir. Azərbaycanın siyasi konsepsiyası bu təməl üzərində qurulubdur – əməkdaşlıqdan maraqların təmin edilməsinə, qarşılıqlı yardımdan daha da dərin əməkdaşlığa. Bizim bu sahədə siyasətimiz yenə də demək istəyirəm ki, təkcə humanitar məsələlərlə məhdudlaşmır.

Əslində bütün dünya humanitar əsaslar üzərində qurulubdur. Bir daha demək istəyirəm ki, müasir, qloballaşan, böyük çətinliklərlə üzləşən dünyada humanitar əməkdaşlığın çox böyük mənası vardır. Ona görə mədəniyyət sahəsinə ayrılan diqqət, dövlət siyasəti hesab edirəm ki, xalqımız və dünya üçün lazımdır, vacibdir. Azərbaycan cəmiyyəti, əgər belə demək mümkündürsə, çox zəngin mədəni həyatı ilə yaşayır. Ölkəmizdə, Bakıda və bölgələrdə keçirilən çoxsaylı mədəni tədbirlər, festivallar, müsabiqələr artıq bir ənənəyə çevrilmişdir. Azərbaycana gələn qonaqlar dünyanın incəsənət və mədəniyyət elitasını təmsil edirlər, ölkəmizlə tanış olurlar, ölkəmizdən çox gözəl təəssüratlarla ayrılırlar. Bu da Azərbaycanın dünya miqyasında tanınmasında öz rolunu oynayır və xaricdə, dünyanın aparıcı ölkələrində keçirilən «Azərbaycan günləri» bizim zəngin mədəniyyətimizi bir daha dünya birliyinə çatdırır. Dünyanın aparıcı şəhərlərində açılan Azərbaycan mədəniyyət mərkəzləri öz rolunu oynayır. Xaricdə Azərbaycan sərgilərinin keçirilməsi adi hala çevrilibdir. Yəni mən hesab edirəm ki, mədəni, humanitar sahələrdə Azərbaycan böyük uğurlara imza

atmışdır və cəmiyyətimizin normal, sağlam yaşaması üçün bu sahəyə daim böyük diqqət göstərilməlidir. Mən şadam ki, ölkəmizdə bu sahədə də Heydər Əliyev siyasəti davam etdirilir. Əminəm ki, biz gələcəkdə bu sahədə daha da böyük işlər görə biləcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq Bakıda Dədə Qorqud parkı, Dədə Qorqud abidəsi var. Bir neçə dəqiqədən sonra biz hamımız bu abidənin açılışını qeyd edəcəyik.

Hər bir Azərbaycan vətəndaşına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

**Anar Rzayev** (*Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı):* Hörmətli cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Xanımlar və cənablar!

Dədə Qorqud abidəsinin açılışının bu günlərdə keçirilməsi təsadüfi deyildir. Çünki dünən biz tariximizin kədərli bir gününü yaşadıq. 10 il bundan qabaq ulu öndərimiz Heydər Əliyev dünyasını dəyişmişdir. Bu gün isə sevincli bir gün yaşayırıq. Dədə Qorqudun heykəli açılır. Amma Dədə Qorqudun adı da Heydər Əliyevin adı ilə əbədi bağlıdır. Çünki Dədə Qorqud tədbirlərinin dünya səviyyəsində keçirilməsi məhz ulu öndərin xidmətidir.

Biz qırğızların dastanı olan «Manas»ın 1000 illik yubileyində iştirak edəndə orada Dədə Qorquddan söhbət düşdü ki, biz də Dədə Qorqudun yubileyini keçirək. Dünyada heç bir yerdə keçirilməyəcək bir səviyyədə Dədə Qorqud yubileyi keçirildi. «Dədə Qorqud» ensiklopediyası çap olundu. Çoxlu qonaqların iştirakı ilə tədbirlər keçirildi. Dədə Qorqudun abidəsi haqqında qərar qəbul olundu. Mən çox şadam ki, Heydər Əliyevin başqa arzuları kimi, bu arzularını da onun oğlu, bizim hörmətli Prezidentimiz bu gün həyata keçirir. Bu gün biz həmin o Dədə Qorqud abidəsinin açılışında iştirak edirik.

«Dədə Qorqud» Azərbaycan xalqının müqəddəs kitabıdır. Mərhum prezidentimiz Heydər Əliyevin bir böyük xidməti də

onda oldu ki, Dədə Qorqudun məhz 1300 yaşının olduğunu təsdiq etdi. Bu rəqəm havadan götürülməmişdir. Dastanda deyilir ki, Dədə Qorqud Həzrəti Məhəmmədin müasiri idi. Həzrəti Məhəmməd də məlumdur ki, 1300 il bundan əvvəl yaşayıb. Bunu biz əsas götürərək Dədə Qorqudun 1300 illiyini təklif etdik. Ulu öndərin bu qərarından sonra YUNESKO da, türk alimləri də bu qərarı qəbul etdi. Bizim bu 1300 rəqəmi təsadüfi bir rəqəm deyildir. Bu o deməkdir ki, biz ədəbiyyat tariximizi başqa dillərdə yaranan əsərlərlə yox, öz ana dilimizdə, qədim Azərbaycan dilində, oğuz dilində yaranan bir dastanla başlaya bilərik.

Bu rəqəmin ikinci əhəmiyyəti isə ondan ibarət idi ki, «Kitabi-Dədə Qorqud»un mətnində Azərbaycan şəhərlərinin – Dərbəndin, Bərdənin, Gəncənin, Naxçıvandakı Əlincə qalasının adları vardır. Hətta «Gürcüstan», «Abxaziya» sözləri vardır. Amma bir yerdə «Ermənistan», «erməni», «hay» sözü yoxdur. Bu da onu sübut edir ki, 1300 il bundan əvvəl də burada ermənilər olmayıb. Bu da bizim tariximiz üçün çox böyük bir hadisə idi.

Bütün bunları nəzərə alaraq, mən bir daha ulu öndərimizin ruhuna rəhmət diləyirəm. Təkliflərdən biri də o idi ki, – o vaxt ulu öndər bu təklifi də məmnuniyyətlə qəbul etmişdi – çoxseriyalı «Dədə Qorqud» televiziya filmi çəkilsin. Hörmətli prezidentimiz İlham Əliyev də burada qeyd etdi ki, «Dədə Qorqud» həm də bütün türk dünyasını birləşdirən bir əsərdir. Yaxşı olardı ki, belə bir çoxseriyalı televiziya filmi çəkilsin.

Mən Sizdən xahiş edirəm, cənab Prezident, bunun da təşəbbüsü Azərbaycandan gəlsin.

Diqqətinizə görə təşəkkür edirəm.

**K a m a l  A b d u l l a** (*Bakı Slavyan Universitetinin rektoru, professor*): Zati-aliləri cənab Prezident!

Bu gün həqiqətən də böyük mədəni, ədəbi, filoloji bir bayramdır. Bu bayramı Siz Azərbaycan xalqına bəxş etdiniz. Bu bayram bu günün həqiqəti, bu günün sədası, unudulmaz ulu öndərimizin böyük arzularından birinin reallığa çevrilməsidir.

Biz bu gün «Dədə Qorqud» dastanlarından təkcə Azərbaycan xalqının, təkcə türk xalqlarının mədəni abidəsi kimi deyil, eyni zamanda, Azərbaycan xalqının dünyaya bəxş etdiyi ədəbi-mədəni bir abidə kimi bəhs edirik. Bu tədqiqatlarımızda biz xarici ölkələrin – Almaniyanın, Fransanın, Rusiyanın, Türkiyənin alimləri ilə bərabər çalışmaqdayıq, müştərək layihələrimiz vardır. Bu gün «Dədə Qorqud» dastanlarını biz qədim germanların «Nibelunqlar nəğməsi», qədim skandinavların saqaları, ingilislərin «Beovulf» dastanı, qədim yunanların mifləri ilə müqayisədə öyrənirik və bu tədqiqatlarımızı xarici həmkarlarımızla bir yerdə aparırıq. Onlar «Dədə Qorqud»u, Azərbaycan mədəniyyətini, tarixini, ədəbiyyatını, dilini öyrənməyə maraq və həvəs göstərirlər. Nə üçün? Çünki onların bu həvəsi bugünkü Azərbaycana olan maraqdan yaranır. Bugünkü Azərbaycanın dünya qarşısında göstərdiyi bu intibahdan yaranır, bu intibaha olan maraqdan yaranır. Bunun da müəllifi, əlbəttə ki, Sizsiniz.

«Dədə Qorqud» dastanının, bayaq burada qeyd olundu, əlbəttə ki, 1300 illik tarixinin o dastanın öz mətnindən çıxan məntiqi var. 1300 il «Peyğəmbərimizin zamanına yaxın – «Rəsul-əleyhissəlam dövrünə yaxın Bayat boyundan Qorqud Ata deyilən bir ər qopdu» cümləsindən çıxmışdı. Ulu öndər bu cümlənin məntiqindən çıxış edərək bu yaşı müəyyən etdi. Onun ən böyük arzusu həm də o idi ki, biz bu dastanın əlyazmasının dünyaya təqdimedilmə tarixini unutmayaq. Bu, 1815-ci ildir. Böyük alman filoloqu Fridrix fon Dits ilk dəfə olaraq dünyaya «Dədə Qorqud» dastanının əlyazmasının bir hekayətini tərcümə edərək təqdim etdi. Gözəl, rəğbət dolu, məhəbbət dolu bir «Ön söz»lə təqdim etdi. Bu dastanı qədim, dünyaya yaxşı tanış olan yunan mifləri ilə müqayisə etdi. 1815-ci il və 2015-ci il. 200 il kifayət qədər yuvarlaq rəqəmdir ki, biz bunu yenə də dünyanın mədəni mərkəzlərindən biri olan Azərbaycanın filoloji, mədəni bir bayramına çevirək. Bizim alman həmkarlarımız, bizim qorqudşünaslarımız, bizim filoloq həmkarlarımız xarici ölkələrdən də bu rəqəmin ətrafına yığışıb «Dədə Qorqud»u və dünya mədəniyyətinin bir çox nümunələrini tədqiq etməyə, qeyd

etməyə hazırdırlar. Mən inanıram ki, biz yaxın vaxtda alman həmkarlarımızla bir yerdə Sizin diqqətinizə layiq bir sənədlə müraciət edəcəyik. Fridrix fon Ditsin bu möhtəşəm xidmətinin 200 illik tarixini mənə elə gəlir ki, Siz də diqqətinizdən kənarda qoymazsınız. Elə bunun özü də bizim ulu, unudulmaz öndərimiz Heydər Əliyevin arzularından biri idi.

Zaman keçəcək, Azərbaycanda nəsillər bir-birini əvəz edəcək. Bu gözəl abidənin ətrafına, bu gözəl parka yeni nəsil azərbaycanlılar, formalaşmaqda olan məktəblilər, tələbələr, yaşlı nəslin nümayəndələri gələcəklər. Onlar Dədə Qorqud ruhuna təmasdan minnətdarlıq hissi ilə bu günü, bu günün yaradıcılarını, Dədə Qorquda olan yeni məhəbbət dalğasının yaradıcılarını, ilk növbədə, unudulmaz ulu öndərimizi, Sizi minnətdarlıq hissi ilə xatırlayacaqlar. O minnətdarlıq hissini yüz illərdən, min illərdən sonra da Azərbaycan xalqı öz ürəyində saxlayacaqdır. Təşəkkür edirəm.

**G ö r ü ş  B a b a y e v** *(heykəltəraş):* Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Çox həyəcanlıyam. Buraya gəlməzdən əvvəl ürəyimdə çox sözlər fikirləşmişdim ki, nə deyəcəyəm. Amma inanın, həyəcandan bir söz deyə bilmirəm. Yaxşı ki, ürəyimdəki sözləri deyə bilmirəm, çünki onun sonu yoxdur.

Çox sağ olun ki, bu işi mənə həvalə etdiniz. Bu işi işləmək indi danışmaqdan mənə yüngül idi. İndi 2-3 dəqiqə danışa bilmirəm, amma mən bu işin üzərində 1 il yarımdı ki, çalışıram. Bu işi mənə etibar etdiyinizə görə Sizə ürəkdən təşəkkür edirəm, minnətdaram. Özümü çox xoşbəxt hesab edirəm. Çox sağ olun.

*** * ***

*Sonra Azərbaycan Prezidenti abidənin üzərindəki örtüyü götürdü. «Kitabi-Dədə Qorqud» abidəsində dastanın müqəddiməsi və 12 boyundan hissələr əks olunmuşdur. Buradan da görünür ki, Oğuz türklərinin tarixini əks etdirən «Kitabi-Dədə Qorqud» yüksək bəşəri idealların tərənnümçüsü kimi, dünya xalqlarının mənəvi*

*sərvətlər xəzinəsinə daxil olmuşdur. Dastanın dilində və bədii məzmununda Azərbaycan və digər türk xalqlarına məxsus qədim izləri görmək mümkündür. Dastandakı bir çox hadisələr Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göyçə gölü və digər yerlərdə baş verir. Epos Azərbaycan tarixinin öyrənilməsi üçün tarixi-etnoqrafik məlumatlarla zəngindir.*

*Abidənin önündə xatirə şəkli çəkdirildi.*

*Prezident İlham Əliyev və mərasim iştirakçıları Dədə Qorqud parkında yaradılan süni gölə də baxdılar. 3 hektar sahəsi olan gölün tikintisi və onun mühəndislik həlli bütövlükdə xarici mütəxəssislər tərəfindən layihələndirilmişdir. Gölün inşası zamanı bu sahədə ən son nailiyyətlər tətbiq edilib. 10 min kvadratmetrə yaxın əraziyə təbii yaşıl örtük döşənilib. Parka istirahətə gələnlər xüsusi qayıqlarla gəzintiyə çıxa biləcəklər. Bunun üçün 2 liman inşa edilib. Bundan əlavə, süni şəlalənin alt hissəsində, habelə xüsusi su bitkiləri üçün nəzərdə tutulan kiçik körfəzin üzərində gəzinti üçün körpülər inşa olunub. Ümumilikdə gölün 2 yerində xüsusi su bitkiləri ilə örtüləcək kiçik körfəzlər yaradılıb. Ümumi su tutumu 25 min kubmetrə yaxın olan göl üçün əlavə olaraq 1200 kubmetr tutumu olan yeraltı ehtiyat hovuz inşa edilib. İdarəolunma nəzarət otağından həyata keçirilir. Burada quraşdırılan xüsusi monitorlar vasitəsilə həm gölün texniki stansiyasında baş verən prosesləri, həm də onun altındakı geotermal sistemin fəaliyyətini müşahidə etmək mümkündür. Parka istirahətə gələnlər monitorlarda əks olunan məlumatları canlı izləyə biləcəklər.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ), Jak Foru (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə edildi.*

## QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 dekabr 2013-cü il*

## MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Monteneqronun prezidenti Filip Vuyanoviç ilə görüşmüşdür.*

*Monteneqronun prezidenti Filip Vuyanoviç yenidən prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.*

*Dövlətimizin başçısı öz növbəsində Filip Vuyanoviçi yenidən prezident seçilməsi münasibətilə təbrik etdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, həyata keçirilən birgə layihələrin əhəmiyyəti qeyd olundu. Həmçinin görüşdə dekabrın 17-də Bakıda «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanmasına həsr olunan tədbirin önəmi vurğulandı, bu layihənin ölkələrimiz və region üçün böyük əhəmiyyət daşıdığı qeyd olundu.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu, Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri qlobal iqtisadi layihələrin önəmi qeyd edildi, dekabrın 17-də «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanmasına həsr olunan tədbirin əlaqələrimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı. Söhbət zamanı Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin uğurla davam etdirildiyi bildirildi, enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.*

## XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ZORAN MİLANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Xorvatiyanın Baş naziri Zoran Milanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xorvatiyanın Baş naziri Zoran Milanoviç ölkəmizdə gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, Xorvatiya şirkətlərinin ölkəmizdəki fəaliyyətinin əlaqələrimizin inkişaf etdirilməsi baxımından əhəmiyyəti qeyd olundu. Söhbət zamanı dekabrın 17-də Bakıda «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması ilə bağlı keçiriləcək tədbirin önəmi vurğulandı.*

*Görüşdə Azərbaycan ilə Xorvatiya arasında əməkdaşlığın bir sıra sahələrdə inkişaf etdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «ŞAHDƏNİZ-2» ÜZRƏ YEKUN İNVESTİSİYA QƏRARININ İMZALANMASI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları dekabrın 17-də Bakıda Heydər Əliyev Mərkəzində «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak etmişlər.*

*«Şahdəniz-2» layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə, Trans–Anadolu və Trans–Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaqdır. Layihə çərçivəsində 26 sualtı quyunun qazılması, həmçinin körpü ilə birləşdiriləcək 2 platformanın tikintisi, Səngəçalda isə yeni texniki emal və kompressor qurğularının inşası nəzərdə tutulur. 3500 kilometr məsafədə nəql olunacaq qaz Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və digər ölkələrdə milyonlarla istehlakçını təmin edəcəkdir. İlk qazın Avropaya 2019-cu ildə çatdırılması planlaşdırılır.*

*1999-cu ildə kəşf olunan «Şahdəniz» yatağının işlənilməsinin birinci mərhələsi çərçivəsində 2006-cı ildən Gürcüstan və Türkiyəyə qaz ixrac edilir. «Şahdəniz» yatağının işlənilməsinin ikinci mərhələsi və «Cənub Qaz Dəhlizi» layihələri isə dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb təşəbbüslərdən hesab olunur.*

*Prezident İlham Əliyev və «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Əvvəlcə hər birinizi bu gün Azərbaycanda salamlayıram. Dövlət və hökumət başçılarına, nazirlərə bizim dəvətimizi qəbul edərək, bu tədbirdə iştirak etdiklərinə görə minnətdarlığımı bildirirəm. Bu gün müasir Azərbaycanın tarixində tarixi bir gündür. Bu gün «Şahdəniz-2» enerji layihəsinin icrasına başlanılacaqdır. Bu isə ölkəmizin uzunmüddətli inkişafını təmin edəcəkdir.

«Şahdəniz-2» dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu tarixi layihədə iştirakçı dövlət və şirkətlərin geniş əməkdaşlığı təmin ediləcəkdir. Lakin bu gün mən 19 il bundan öncəyə – Azərbaycanın enerji strategiyasının yarandığı 1994-cü ilə dönmək istəyirəm. Biz buna ümummilli liderimiz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi nəticəsində nail olmuşuq. Müstəqillik əldə etdikdən sadəcə 3 il, Azərbaycanda vətəndaş müharibəsinin bitməsindən 1 il, Ermənistanla müharibədə atəşkəsin əldə edilməsindən yalnız 4 ay sonra Azərbaycan xarici tərəfdaşları ilə birlikdə «Əsrin müqaviləsi»ni imzalamışdır. Bu hadisə ilk dəfə Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdır. «Şahdəniz» isə düşünürəm ki, XXI əsrin müqaviləsi olacaqdır. Bu tədbirdən əvvəl isə müstəqil Azərbaycanın enerji sahəsinin inkişafında bir sıra mühüm tarixi hadisələr baş vermişdi. 1996-cı ildə «Şahdəniz» qaz yatağı ilə bağlı saziş imzalanmış, sonra 1999-cu ildə Xəzər dənizini Gürcüstanın Qara dəniz sahilləri ilə birləşdirən ilk boru kəməri inşa edilmişdir. Daha sonra – 2006-cı ildə Xəzər dənizini Aralıq dənizi və beynəlxalq bazarlarla birləşdirən Bakı–Tbilisi–

Ceyhan əsas neft ixrac boru kəməri, 2007-ci ildə isə «Cənub Qaz Dəhlizi» boru kəməri inşa edilmişdir. Bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyəni hazırkı mərasimin tərkib hissəsi olan digər layihə ilə birləşdirmişdir.

2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında strateji enerji əməkdaşlığına dair Memorandum imzalanmışdır. Bu da öz növbəsində ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə yardım etmişdir. Ötən il biz Türkiyə ilə Trans–Anadolu boru kəməri – TANAP-a dair tarixi saziş imzalamışıq. Bu il isə TAP layihəsi əsas ixrac marşrutu seçilmişdir. Nəhayət, bu gün biz «Şahdəniz-2» yekun investisiya qərarını imzalayırıq.

Bu, tarixə bir ekskurs, Azərbaycanın ən iri qaz yatağının tam həcmdə işlənilməsi layihəsi istiqamətində keçdiyimiz yolda mühüm hadisələr idi. Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Azərbaycanın qaz ehtiyatları bu sərvəti gözləməkdə olan bazarlara nəql ediləcəkdir. Bizim hesablamalarımıza görə, Azərbaycanın qaz ehtiyatı 3 trilyon kubmetrə bərabərdir.

«Şahdəniz-2», TANAP və TAP dünyanın ən iri enerji layihələrindəndir. Layihəyə 45 milyard dollar məbləğində sərmayə cəlb ediləcək, marşrut boyu yerləşən ölkələrdə 30 mindən çox yeni iş yeri yaradılacaqdır. Təbii ki, bu layihə əlavə səylər tələb edəcəkdir.

Biz birgə səylərlə həyata keçirəcəyimiz nəhəng layihənin yalnız başlanğıcındayıq. Bu gün mən Azərbaycan xalqını bu tarixi gün münasibətilə təbrik edirəm. Bu layihə ölkəmizin uzunmüddətli və dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir. Eyni zamanda, «Şahdəniz» konsorsiumuna Azərbaycanla bağlı səylərinə görə minnətdarlığımı bildirirəm. Xüsusilə Azərbaycanda enerji sahəsinin 2 lideri və strateji tərəfdaşı olan ARDNŞ və *bp*-yə təşəkkürümü bildirirəm. *bp* və ARDNŞ arasında 20 illik əməkdaşlıq təcrübəsi vardır. İmzalayacağımız

sazişlər bu əməkdaşlığın 40 il və hətta ondan da uzun müddət davam edəcəyinə imkan verəcəkdir.

Onu da qeyd etmək istərdim ki, Azərbaycanın enerji siyasəti iqtisadiyyatımızın transformasiyasına və şaxələndirilməsinə imkan yaratmışdır. Biz müstəqilliyimizi bərpa etdiyimiz dövrdə özəl sektordakı ümumi daxili məhsul sıfır faizə bərabər idi. Bu gün isə özəl sektor iqtisadiyyatımızın 85 faizini təşkil edir. Biz işsizlik səviyyəsini 4,8 faizə endirmişik. Yoxsulluq səviyyəsi 5,5 faizə endirilmişdir. Bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 8 faizini təşkil edir. Nəhayət, maliyyə vəziyyəti sabitdir və biz iqtisadiyyatımızın 55 faizini təşkil edən qeyri-neft sektoruna yatırımlar etməkdəyik.

Bu səbəbdən enerji siyasəti, beynəlxalq təsisatlarla sıx əməkdaşlıq, şaxələndirmə və şəffaflıq uğurlu inkişafın əsas elementlərindəndir. Düşünürəm ki, Azərbaycan neft bəlasına, məşhur «Holland sindromu»na tutulmamışdır. Biz neftin və qazın xalqın mənafeyinə necə xidmət etdiyinin nümunəsiyik. Əlbəttə ki, bunun başlıca səbəblərindən biri beynəlxalq əməkdaşlıq olmuşdur. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk, çünki xarici şirkətlərin bilik və təcrübəsi bizim üçün çox əhəmiyyətlidir.

Bu gün bu əməkdaşlıq daha geniş formata qədəm qoyur və daha çox ölkə və şirkəti əhatə edəcək yeni əməkdaşlıq formatı yaradılır. Əminəm ki, gələcəkdə «Şahdəniz-2» layihəsi hazırda nəzərdə tutulduğundan daha çox coğrafi məkanı əhatə edəcəkdir.

Bu gün biz təbii ki, qazımızın Avropa bazarlarına vaxtında çatdırılması üçün diqqətimizi TANAP və TAP layihələrinin icrasına yönəltməliyik. Burada «Şahdəniz» layihəsinin ilkin mərhələsinin əhatə etdiyi ölkələr – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya, Bolqarıstan ilə sıx əməkdaşlıq tələb olunacaqdır. Sonrakı mərhələdə biz Monteneqro və Xorvatiya ilə fəal əməkdaşlığa başlayacağıq. Bu boru kəmərinin Balkanlar istiqamətində uzadılması planlarımız da vardır. Eyni zamanda, ümid edirəm ki, qarşıdan gələn illərdə

Rumıniya, Macarıstan və Avstriyadakı tərəfdaşlarımızla boru kəmərinin həmin istiqamətdə də uzadılması üzrə fəal iş görəcəyik. Bizim böyük planlarımız vardır və boru kəmərinin dizaynı da bu planlara uyğun şəkildə nəzərdə tutulmuşdur.

Gələcəkdə biz hasil edə biləcəyimiz qədər qaz həcmini nəzərdə tutulmuş kəmərlər vasitəsilə nəql edəcəyik. Təbii ki, «Şahdəniz-2» layihəsi enerji təhlükəsizliyi layihəsidir. Hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyindən ayrılmazdır. «Şahdəniz» layihəsinin imzalandığı ötən əsrin 90-cı illərində bu belə deyildi. Bu gün isə bu, artıq reallıqdır. Enerji təhlükəsizliyinin əsas elementlərindən biri təbii qazdır. Hazırda vəziyyət belədir və zənnimcə, növbəti illərdə heç bir dəyişiklik baş verməyəcəkdir. Bu səbəbdən enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi Azərbaycan kimi istehsalçı ölkə, həmçinin tranzit və istehlakçı ölkələr üçün eyni dərəcədə vacibdir. Əminəm ki, biz istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqlarının düzgün balansına birlikdə nail ola biləcəyik. Hamımız üçün faydalı əməkdaşlıq formatı yaradılacaqdır.

Bizim enerji strategiyamız dostluq, əməkdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Tariximizdə Azərbaycan heç bir zaman öz enerji potensialını digər məqsədlər üçün istifadə etməmişdir.

Bu tarixi gün münasibətilə Azərbaycan xalqını, bütün dostlarımızı və xarici tərəfdaşlarımızı təbrik edirəm. Layihəmizə uğurlar arzulayıram. Uğurlar, «Şahdəniz-2»!

* * *

*Albaniyanın Baş naziri Edi Rama bu layihənin icrası nəticəsində Azərbaycan və Albaniyanın Xəzər və Adriatik dənizlərini əlaqələndirəcəyini və alternativ enerji marşrutlarının xəritəyə gətirilməsinə töhfə verəcəyini bildirdi.*

**E d i R a m a:** Azərbaycan şirkətləri və ehtiyatları Cənubi Avropa ölkələri üçün yeni mənzərə yaradacaq, Albaniya mühüm enerji layihəsi şəbəkəsinin tərkib hissəsi olacaq. Mən hesab edirəm ki, TAP yalnız imkan və fürsətlər demək deyil,

həm də böyük məsuliyyət deməkdir. Bizim hökumətlərimiz zəruri, maddi və insani kapital yönəldəcəkdir ki, bu layihə uğurlu nəticələrini versin. Biz təminat veririk ki, Albaniya və Cənub-Şərqi Avropa ilə bağlı bütün öhdəliklər yerinə yetiriləcək. Həm sizin, həm də Türkiyə kimi strateji tərəfdaşımızın dəstəyi nəticəsində Albaniya, Xorvatiya, Monteneqro və digər Balkan ölkələri inkişaf edəcəkdir. Azərbaycanın xüsusi dəstəyi və əməkdaşlığı nəticəsində mənim ölkəm qazlaşdırmaya müvəffəq olacaqdır.

*Bolqarıstanın Baş naziri Plamen Oreşarski bu layihənin ölkəsi üçün də yeni imkanlar açdığını vurğuladı.*

**Plamen Oreşarski:** Əvvəlcə, cənab Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, məni bu tədbirə dəvət edib. Bu mərasim «Cənub Qaz Dəhlizi»nin başlanmasıdır, mənim ölkəm üçün də yeni imkanlar deməkdir. TAP Bolqarıstan ərazisindən keçəcəkdir və bu bizə qazın əlavə həcmlərini təmin edəcəkdir. Bu işdə sizə uğurlar arzulayıram.

Cənab Prezident, ölkəmə olan diqqətinizə görə təşəkkür edirəm.

*«Şahdəniz-2» layihəsinin ölkələrimizin həyatında əhəmiyyətli rol oynayacağını bildirən Gürcüstanın Baş naziri İrakli Qaribaşvili vahid enerji siyasətində uğur əldə edilməsində «Cənub Qaz Dəhlizi» layihəsinin önəmindən danışdı.*

**İrakli Qaribaşvili:** Azərbaycan regionumuzun və Avropa İttifaqı ölkələrinin enerji ehtiyaclarının təmin edilməsində mühüm ölkəyə çevrilməkdədir. Gürcüstanın coğrafi mövqeyi Cənubi Qafqazda nəqliyyat qovşağı rolunu oynamağa imkan verir və Türkiyə ilə birlikdə Avropanı Xəzər dənizi regionu ilə birləşdirən ən qısa tranzit marşrutu təklif edir.

Əminəm ki, bu, uzunmüddətli və dayanıqlı çoxtərəfli əməkdaşlığımızın yalnız başlanğıcıdır. Növbəti addımlar Trans–Xəzər layihələrinin inkişafına və Xəzər hövzəsinin digər dövlətləri ilə danışıqların intensivləşdirilməsinə yönəldiləcəkdir. Son irəliləyişlər və ötən 20 il ərzində toplanmış birgə təcrübəmiz səmərəli əməkdaşlıq və nəqliyyat marşrutlarının

mənbələrinin, təchizatçıların şaxələndirilməsi üçün zəruri şəraitin yaradılmasının nə dərəcədə əhəmiyyətli olduğunu aydın göstərir.

Cənab Prezident, Sizi bu tarixi gün – vahid enerji siyasəti, inkişaf və uğurun əldə edilməsində həlledici rol oynayan «Cənub Qaz Dəhlizi» layihəsinin icrasına başlanılması münasibətilə təbrik edirəm.

*Xorvatiyanın Baş naziri Zoran Milanoviç bu layihə ilə Azərbaycanın tarixində yeni mərhələnin başlandığını, «Şahdəniz-2» layihəsinin ölkəsi üçün də xüsusi əhəmiyyət kəsb etdiyini dedi. O, layihə çərçivəsində yeni iş yerlərinin açılacağına, əməkdaşlıq əlaqələrinin genişlənəcəyinə əminliyini ifadə etdi.*

**Zoran Milanoviç:** Mən 20 il bundan əvvəl Azərbaycanda olmuşam. Bu mənim ikinci səfərimdir. Mən gördüklərimə valeh olmuşam. Bu gün Azərbaycanın yeni bir tarixi mərhələsidir. Bu sadəcə olaraq, bir gündür. Bundan əvvəl isə uzun illər sıx əməkdaşlıq həyata keçirilmiş, gərgin işlər görülmüşdür. Siz sadə əməkdaşlıq yolu seçməmisiniz. Bu tədbirdən əvvəl uzun illər planlaşdırma həyata keçirilmişdir. Sizin ölkəniz siyasi və təhlükəsizlik baxımından çox təmkinli olmuşdur.

Xorvatiya bu layihənin, demək olar ki, ən sonunda yerləşir. Biz Aralıq dənizində limanlara sahibik. Eyni zamanda, biz də enerji təchizatımızı şaxələndirmək niyyətindəyik. Bizim bir sıra planlarımız vardır. Bu layihə bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan mən bunun icrasını səbirsizliklə gözləyirəm. Bu, yalnız enerji təhlükəsizliyi demək deyil, bu, əməkdaşlıq deməkdir. Bu, ölkələri bir araya gətirmək, yeni iş yerləri, yeni sərmayələr deməkdir.

Ümid edirəm ki, növbəti dəfə Azərbaycana 20 ildən sonra yox, daha tez gələcəyəm. Amma bu gün gördüyüm məni həqiqətən də təsirləndirdi, valeh etdi. Diqqətinizə görə təşəkkür edirəm.

*Monteneqronun prezidenti Filip Vuyanoviç dedi ki, bu layihəyə qoşulmaqla Monteneqro özünün uzunmüddətli enerji sabitliyini təmin edəcəkdir. Prezident İlham Əliyevə ölkələrimiz arasında əlaqələrin inkişafına göstərdiyi diqqətə görə təşəkkürünü bildirdi.*

**Filip Vuyanoviç:** Azərbaycanda olmaq, «Cənub Qaz Dəhlizi»nin Avropaya birləşdirilməsi ilə bağlı tədbirdə iştirak etmək məndə xüsusi məmnunluq doğurur. Bu dəhliz ilə Azərbaycan qazı Avropaya nəql ediləcəkdir. Bu isə Monteneqro üçün strateji və enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Mən burada yalnız bir neçə məqamı diqqətinizə çatdırmaq istəyirəm. Bu layihəyə qoşulmaqla Monteneqro özünün uzunmüddətli enerji təhlükəsizliyini təmin edəcəkdir. Çünki burada çox etibarlı təchizatçıdan söhbət gedir. Bu boru kəməri ilə Monteneqroda daha münbit sərmayə mühiti yaradılacaq və yeni sərmayə imkanları açılacaqdır. Bu layihə həm inkişaf, həm tikinti dövründə və daha sonra layihənin işə salınması mərhələsində mənim ölkəmdə yeni iş yerləri yaradacaqdır. Bizim vətəndaşlarımız və iqtisadiyyatımız münasib qiymətə enerji ilə təmin ediləcəkdir ki, bu da sakinlərin yaşayış səviyyəsini yaxşılaşdıracaqdır. Bundan əlavə, bu qazın nəqli nəticəsində mənim ölkəm böyük mənfəət əldə edəcəkdir.

Xanımlar və cənablar, mən Azərbaycan prezidenti cənab İlham Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Mənim ölkəmin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə yeni qurduğu əməkdaşlığı qeyd etmək istərdim. SOCAR bu gün Monteneqronun ən elitar turist məkanlarının birində nəhəng infrastruktur inşa etməkdədir və bu, Adriatik dənizi sahilinin ən gözəl incilərindən olacaq.

Möhtərəm cənab Prezident, bir daha Sizə təşəkkürümü bildirirəm ki, Siz bizim ölkələrimiz arasında əlaqələrə bu qədər əhəmiyyət verirsiniz.

Diqqətinizə görə təşəkkür edirəm.

*«Şahdəniz-2» layihəsinin yekun investisiya qərarı kimi mühüm sənədin imzalanması münasibətilə təbriklərini çatdıran Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər naziri Uilyam Heyq yeni yaradılan «Cənub Qaz Dəhlizi»nin mühüm əhəmiyyətini xarakterizə etdi.*

**U i l y a m H e y q:** Birincisi, bu, Avropanın qaz təchizatı baxımından həm marşrut boyu, həm də yeni mənbə qismində enerji təhlükəsizliyini artıracaqdır. Yeni boru kəməri ilə Türkiyəyə nəql ediləcək 6 milyard kubmetr qazla yanaşı, əlavə 10 milyard kubmetr qazın Avropaya nəqli bizim yeganə təchizatçı və ya bir tranzit sistemindən asılılığımızı azaldacaqdır. Qarşıdan gələn illərdə «Cənub Qaz Dəhlizi»nin Yaxın Şərqdə nəhəng qaz təchizatçılarını əhatə edərək, genişlənmə potensialı vardır. Bu isə öz növbəsində Avropanın enerji təhlükəsizliyinə çox böyük töhfə ola bilər.

İkincisi, Avropanın qaz bazarında rəqabət artacaqdır. Bu isə enerjinin qiymətini daha münasib edəcəkdir. Bundan əlavə, Avropa İttifaqının qaz bazarı o qədər əlaqəlidir ki, bilavasitə Azərbaycandan qaz alan ölkələrdən savayı, digər dövlətlər də bunun bəhrəsini görəcəklər.

Üçüncüsü, «Cənub Qaz Dəhlizi» bizim iqlim dəyişikliyi ilə bağlı qarşıya qoyduğumuz məqsədləri dəstəkləyəcəkdir. Yenilənən enerjiyə yönəlmiş sərmayələrin fonunda qaz bizə ən sadə və etibarlı enerji təmin edəcəkdir. Həm də qaz ekoloji baxımdan kömürdən təmizdir. Hazırda bir sıra Avropa dövlətlərinin hökumətləri üçün enerji təhlükəsizliyinin təmin edilməsi qlobal iqlim dəyişikliyi ilə mübarizədən daha ön sırada durur. Lakin enerji təhlükəsizliyimizi gücləndirməklə «Cənub Qaz Dəhlizi» bizə zəhərli tullantıların azaldılmasına diqqəti yönəltməyə imkan verəcəkdir.

Nəhayət, «Cənub Qaz Dəhlizi»nin işlənilməsi 2 min mil uzunluğunda marşrut boyu dövlətlərə mənfəət gətirəcək və tikinti mərhələsində 30 mindən artıq yeni iş yeri yaradacaqdır. İnşası başa çatdıqdan sonra boru kəmərləri Azərbaycan üçün Avropa bazarına uzunmüddətli çıxış təmin edəcəkdir. Bu çox

böyük nailiyyət olacaqdır. Mən fərəhlənirəm ki, *bp* başda olmaqla, Britaniya şirkətləri layihəyə öz töhfəsini vermişdir və bu iş bundan sonra da davam edəcəkdir.

Azərbaycanın neft və qaz ehtiyatlarının işlənməsində Böyük Britaniya 20 ilə yaxındır ki, aparıcı rol oynayır. Bu isə birbaşa xarici sərmayələrin yarısından çoxunu təşkil edir və hazırkı qərarla böyük həcmdə əlavə sərmayələr cəlb olunacaqdır. Maliyyə vəsaitləri ilə yanaşı, *bp* və digər Britaniya şirkətləri zəngin təcrübələrini cəlb edərək, Azərbaycan hökuməti, şirkətləri və xalqı ilə çiyin-çiyinə çalışaraq bu layihəni reallığa çevirəcəkdir. Məhz bu səbəbdən bu qərar istər neft və qaz, istərsə də digər sahələr üzrə Azərbaycan–Böyük Britaniya əlaqələrinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Bu gün Azərbaycanda Böyük Britaniyanın 300-dən artıq şirkəti fəaliyyət göstərir. Biz bundan sonra da 2 ölkə arasında güclü ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi imkanlarını araşdırmalıyıq. Hökumətlərimiz BMT Təhlükəsizlik Şurasında bir sıra məsələlər üzrə mühüm əməkdaşlıq etmişdir. Britaniyada təhsil alan çoxsaylı azərbaycanlı tələbələr Bakıda uğurla fəaliyyət göstərirlər. «British Council» və Azərbaycanda yaşayan 3 mindən artıq britaniyalı ölkələrimiz arasında güclü təmaslar qururlar. Bir sözlə, bugünkü tədbirin əhəmiyyəti ölkələrimiz arasında ikitərəfli münasibətlərdən tutmuş, enerji təhlükəsizliyinə qədər bir sıra sahələrdə hiss olunacaqdır. Bununla biz yeni iş yerlərinin yaradılması, iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artırılması və qlobal iqlim dəyişikliyi ilə mübarizədə səylərimizi dəstəkləyəcəyik.

Dünyanın ən iri enerji layihələrindən biri artıq reallığa çevrilməyə başlayıb. Biz Avropanın enerji marşrutlarının xəritəsini başa çatdırırıq və mən mühüm nailiyyətin əldə edilməsində əməyi olan bütün tərəfləri təbrik edirəm.

*İtaliyanın Xarici İşlər naziri xanım Emma Bonino «Cənub Qaz Dəhlizi»nin yaradılmasına başlanmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı və bunun uzunmüddətli məqsədyönlü əməkdaşlıq nəticəsində baş tutduğunu söylədi. TAP layihəsinin İtaliya,*

*həmçinin digər Avropa İttifaqı ölkələri, eləcə də Balkan regionu dövlətləri üçün taleyüklü məsələ olduğunu vurğuladı.*

**E m m a  B o n i n o:** Xüsusi qeyd etmək istərdim ki, Avropa Komissiyası TAP layihəsini birgə maraq kəsb edən layihələr siyahısına daxil etmişdir və bununla da müxtəlif prosedurlar sürətlənəcəkdir. Mühüm zəruri maliyyə vəsaitlərinin ayrılması prosesi daha da sürətlənəcəkdir.

İtaliya enerji təhlükəsizliyi və vacib enerji infrastrukturunun yaradılmasına mühüm töhfə verir. Zənnimcə, bu layihə bizim münasibətlərin çox əhəmiyyətli bir elementidir. Avqustun 11-də cənab prezident İlham Əliyev və İtaliyanın Baş naziri cənab Enriko Letta arasında imzalanmış Memorandum da bu istiqamətdə çox mühüm bir sənəd olmuşdur. Mən sizi əmin etmək istərdim ki, İtaliya hökuməti də bu işin sürətlə aparılmasında əlindən gələni əsirgəməyəcəkdir. Eyni zamanda, bu bizim ikitərəfli əməkdaşlığımızın mühüm elementləridir. Azərbaycan İtaliyanın 4 ən iri neft təchizatçılarından biridir. Artıq bizim əməkdaşlığımız qaz sahəsini də özündə ehtiva edəcəkdir. Bundan sonra bizim ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələr inkişaf edəcəkdir. Bu baxımdan mənim bu tədbirdə iştirakım bizim ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyətin bariz nümunəsidir. Təşəkkür edirəm.

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Tanər Yıldız bu layihəni ölkəsinin daim dəstəklədiyini və bunun reallaşması üçün səyini əsirgəmədiyini bildirdi və əlamətdar tarixi hadisə münasibətilə Türkiyə dövləti və xalqının təbriklərini çatdırdı.*

**T a n ə r  Y ı l d ı z:** Təbii ki, Bakı–Tbilisi–Ceyhan neft boru kəməri ilə Xəzər neftinin dünya bazarına açılması və Bakı–Tbilisi–Ərzurum boru kəməri ilə də təbii qazın Türkiyədə istifadə edilməsi təmin olunmuşdur. Bunlar vacib layihələrdir, amma kifayət etmirdi. Hazırda biz istər Türkiyənin təxminən 50 milyard kubmetrlik təbii qaz ehtiyacının bir hissəsinin ödənilməsi, istərsə də Avropa İttifaqına üzv ölkələrin təbii qaz tədarükünün həll edilməsi baxımından mühüm bir layihəni, inşallah, imzalayacağıq.

Olmayan bir şey paylaşılmaz, amma var olan bir şey həmişə paylaşıla bilər. Xəzər xüsusilə bu sərvətlərini dünya bazarlarına təqdim edərək həm yerləşdiyi bölgənin, həm də digər bölgələrin rifah səviyyəsini daha da artıracaqdır. Türkiyə bütün strateji və coğrafi üstünlüklərindən bu layihələrin xeyrinə istifadə edəcəkdir.

*Tanər Yıldız ötən illərdə birgə neft-qaz layihələrinin reallaşması üçün Türkiyənin Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə sıx və səmərəli əməkdaşlıq etdiyini vurğulayaraq dedi:*

– SOCAR və digər şirkətlərin təmsilçiləri bizimlə bərabər çox səy göstərdilər. İnşallah, müsbət sonluğa doğru çox əmin addımlarla irəliləyirik.

Mən bu layihədə əməyi olan bütün pay sahiblərinə bir daha təşəkkür edirəm. Allahdan bu layihənin həm istehsalçı, həm tranzit, həm də istehlakçı ölkələr üçün uğurlu olmasını diləyirəm. Hamınızı sevgi və ehtiramla salamlayıram.

*Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger Avropa İttifaqının TAP layihəsini tam dəstəklədiyini, «Şahdəniz-2» layihəsinin yekun investisiya qərarının imzalanmasının səmərəli əməkdaşlıq üçün yeni imkanlar açdığını vurğuladı.*

**Günter Ottinger:** Azərbaycan 2011-ci ildə verdiyi vədinə sadiq qalaraq «Cənub Qaz Dəhlizi»nin icrasına başlayır. Zaman keçdikcə biz görəcəyik ki, bu layihə də digər uzunmüddətli layihələr kimi, xüsusi əhəmiyyət kəsb edəcəkdir. Lakin gələcəyin inkişafını təmin edən siyasi təməl bu gün qoyulur.

2011-ci ildə Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Jose Manuel Barrozu əməkdaşlığımızın parametrlərini müəyyən etmişlər. Burada təmsil olunan şirkətlər isə layihəni kommersiya baxımından dəstəkləyir. Məmnunam ki, biz vədlərimizə sadiq qaldıq. «Cənub Qaz Dəhlizi»nin işlənilməsi hökumətlər və biznes dairələri arasında

əməkdaşlığın parlaq nümunəsidir və bu əməkdaşlıq qarşılıqlı faydalıdır.

Avropa İttifaqı və Türkiyə yeni qaz mənbəyinə çıxış eldə edir. Qaz təchizatı şirkətləri tələb olunan sərmayələrin əsaslandırılması üçün müvafiq həcmlərə malikdir.

Buraya qədərki yolumuz heç də asan olmamışdır. Bu işdə qarşılıqlı anlaşma, təmkin və danışıqlar tələb olunmuşdur. Bütün tərəfləri bu işdə təqdir etmək istərdim. «Şahdəniz» və onunla birləşəcək digər kəmərlər Avropa İttifaqında ehtiyac duyulan nəhəng qaz infrastrukturu olacaqdır.

Mən böyük məmnuniyyətlə Avropa Komissiyasının sədri Jose Manuel Barrozu adından «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması münasibətilə layihədəki iştirakçı dövlətləri və şirkətləri təbrik edirəm. Bu uzaqgörən planın memarları ilə birlikdə olmağımdan fərəhlənirəm.

Yaxın keçmişdə bəziləri bu layihəni mümkünsüz adlandırmışlar. Lakin ilk dəfə deyildir ki, bu regionda mümkünsüz hesab edilən layihələr tərəfdaşların əməkdaşlığı nəticəsində uğurla başa çatdırılır. Birincisi, Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, indi isə «Cənub Qaz Dəhlizi». Qərar Avropanın qaz mənbələrinin şaxələndirilməsinə xidmət edəcək və Qafqaz ilə Avropa İttifaqı arasında əlaqələri möhkəmləndirəcəkdir. Bu, enerji və sənaye əlaqəsi olmaqla yanaşı, həm də mədəni bağlılıqdır. Şadam ki, bu layihənin Cənub-Şərqi Avropada davam etdirilməsinə dair Azərbaycan, Albaniya, Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro arasında razılıq vardır. Buraya Rumıniya, Macarıstan və Avstriyanı da əlavə etmək olar. Bu onun sübutudur ki, bugünkü tədbir daha böyük layihənin başlanğıcıdır.

Hörmətli cənab Prezident, xanımlar və cənablar. Bu işdə əməyi olanları səmimi-qəlbdən təbrik edirəm. Qapı artıq açılmışdır. Bu marşrut üzrə əməkdaşlığımız davam etməlidir. Hər birinizə uğurlar arzulayıram.

*İxrac kəmərlərinin şaxələndirilməsinin vacib əhəmiyyət kəsb etdiyini bildirən ABŞ-ın Enerji nazirinin müşaviri Conatan*

*Elkind rəsmi Vaşinqtonun Azərbaycanın yerləşdiyi regionun enerji ehtiyatlarının işlənməsi və digər regionlar ilə əməkdaşlığın gücləndirilməsinə tərəfdar olduğunu söylədi.*

**C o n a t a n  E l k i n d:** Bu regionun zəngin enerji ehtiyatları vardır. Bu baxımdan Azərbaycan çox xoşbəxt bir ölkədir. Bu gün SOCAR başda olmaqla, müxtəlif şirkətlər bu ehtiyatları dünya bazarlarına çıxarır. Bu ehtiyatlarda marağı olan ölkələrə təbii qazın nəqli çox vacib elementdir. Vacibdir ki, istehsalçı və istehlakçı ölkələr arasında əlaqələr güclü olsun və bu baxımdan da mən Vaşinqtondan Enerji nazirinin və Obama Administrasiyasının salamlarını çatdırıram.

Cənab Prezident, Sizi əmin etmək istərdim ki, ABŞ Prezidentinin Administrasiyası bizim bacarıqlı səfirimiz Riçard Morninqstar vasitəsilə Azərbaycanı dəstəkləyəcək və Sizin ölkənizi və regionda olan tərəfdaşlarınızı dəstəkləməyə hazırdır. Təşəkkür edirəm.

*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev yekun investisiya qərarının imzalanmasını ulu öndər Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyasının növbəti uğuru kimi dəyərləndirdi.*

**R ö v n ə q  A b d u l l a y e v :** Möhtərəm cənab Prezident, mən bu gün ilk növbədə, çoxminli Azərbaycan neftçiləri adından, eləcə də bu layihədə iştirak edən tərəfdaşlarımız adından Zati-alinizə dərin təşəkkürümü bildirirəm. Bu 5 ildə Sizin diqqətiniz və dəstəyiniz olmasaydı, fəaliyyətimizin belə uğurla nəticələnməsi mümkün olmazdı.

Tarixi baxımdan mühüm əhəmiyyət kəsb edən bu əlamətdar hadisənin gerçəkləşməsində və Azərbaycan qazının gələcəyinə yol açmaqda aparıcı rol oynamasından qürur duyuruq.

Bu layihə çərçivəsində Xəzər dənizində ən qabaqcıl sualtı hasilat texnologiyasının tətbiqi ilə Azərbaycandan Avropaya qədər 6 ölkəni birləşdirəcək təxminən 3500 kilometr uzunluğunda boru kəmərləri sisteminin tikintisi və istismarı gerçəkləşdiriləcəkdir.

Qeyd etmək istəyirəm ki, avropalıların bir çox nəsillərinə xidmət edəcək «Cənub Qaz Dəhlizi»nin yaradılmasında ən böyük investorlardan biri SOCAR olacaqdır.

Biz artıq *bp* və «BOTAŞ»la birgə həyata keçirəcəyimiz TANAP layihəsində ən böyük investor və operator, Avropa şirkətləri ilə birlikdə inşa edəcəyimiz TAP layihəsində isə ən böyük investorlardan biriyik.

Bu gün həm də «Şahdəniz» və Cənubi Qafqaz boru kəmərində payımızın artırıldığını fəxrlə bəyan edirik. Bir neçə dəqiqədən sonra burada yekun investisiya qərarını imzalayacağımız «Şahdəniz-2» layihəsi üzrə platforma və sualtı qurğuların əksər hissəsinin faktiki olaraq Azərbaycanda inşa olunacağını bəyan etməkdən böyük məmnunluq duyuram.

Bunun üçün Bakı yaxınlığında yerləşən tikinti-quraşdırma sahələrinin texniki və texnoloji imkanları artırılacaq, sualtı əməliyyatların həyata keçirilməsinə xidmət edən bir neçə gəminin texniki və funksional imkanları təkmilləşdiriləcəkdir.

Sualtı tikinti işlərinin həyata keçirilməsi üçün çoxprofilli bir nadir gəmi inşa ediləcəkdir. Onu da xüsusi vurğulamaq istəyirəm ki, həmin gəminin Bakıda yenicə istifadəyə verilmiş Gəmiqayırma zavodunda hazırlanması planlaşdırılır.

Bunlar ölkəmiz üçün yeni texnologiyalar, yeni biliklər, yeni potensial deməkdir. Ən mühümü isə «Şahdəniz-2» və Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi layihələri Azərbaycanda işçi qüvvəsi üçün təxminən 10 mindən artıq yeni iş yerinin açılmasına səbəb olacaqdır.

TANAP və TAP layihələrinin inşası prosesində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, İtaliya və digər ölkələrdə də minlərlə yeni iş yeri açılacaq, həmin ölkələrin iqtisadiyyatlarına müsbət təsir göstərəcəkdir.

Beləliklə, «Cənub Qaz Dəhlizi»nin açılmasına start verilir. Lakin bu dəhlizlə bağlı planlarımız «Şahdəniz-2» yatağından hasil olunacaq qazın nəql edilməsi ilə kifayətlənməyəcəkdir. Bu, həmin zəncirin yalnız birinci halqası olacaqdır.

Azərbaycanın qaz potensialı zəngindir. Bizim 2,5 trilyon kubmetrdən artıq təsdiqlənmiş qaz ehtiyatımız vardır. Əgər mövcud imkanları nəzərə alsaq, «ikinci qaz dalğasını» bu gün də aydın görə bilərik.

Strategiyamız son illərdə kəşf edilmiş yataqların, habelə ölkəmizin qaz potensialını daha da artıracaq bir neçə kəşfiyyat layihəsinin işlənilməsini nəzərdə tutur. Bugünkü tərəfdaşlıq münasibətlərimiz digər bazarlara da Azərbaycanın işlənilməkdə olan böyük qaz ehtiyatları ilə asanlıqla əlaqə yaratmaq üçün nadir imkanlar vəd edir.

«Mərhələ-2» çərçivəsində işlənilməsi planlaşdırılan «Şahdəniz»in əlavə ehtiyatlarından, bu yaxınlarda Xəzərdə kəşf edilmiş «Abşeron» və «Ümid» yataqlarının, «Azəri–Çıraq–Günəşli» neft yataqları blokundakı dərin qaz ehtiyatlarının, olduqca perspektivli «Şəfəq–Asiman», «Babək», «Zəfər–Məşəl» və başqa strukturların potensialından tam istifadə ediləcəkdir.

Çıxışımı ümummilli liderimiz Heydər Əliyevin 1997-ci ildə «Şahdəniz» yatağı üzrə müqavilə layihəsinin idarəetmə komitəsi üzvləri ilə görüşündə söylədiyi sözlərlə tamamlamaq istəyirəm: «Şahdəniz» yatağında gördüyümüz işlər və əldə etdiyimiz nəticələr bizə bundan da dərin yerlərdə, bundan da mürəkkəb işlər görməyə imkan yaradacaqdır». Bugünkü mərasim o vaxt deyilmiş bu sözlərin həqiqətə çevrildiyini bir daha sübut edir.

Diqqətinizə görə çox sağ olun.

*Əlamətdar hadisə münasibətilə təbriklərini çatdıran bp şirkətinin baş icraçı direktoru Robert Dadli «Şahdəniz-2» layihəsinin bp və SOCAR üçün də mühüm əhəmiyyət kəsb etdiyini bildirdi.*

**R o b e r t D a d l i:** Prezident İlham Əliyevin qeyd etdiyi kimi, «Cənub Qaz Dəhlizi» Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Region ölkələri üçün də gələcək dəyişəcəkdir. Mən bununla tamamilə razıyam.

*Robert Dadli artıq Azərbaycanın Avropanın enerji təhlükəsizliyində ən vacib ölkələrdən birinə çevrildiyini xüsusi vurğulayaraq bildirdi:*

– XXI əsrdə Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən bir ölkəyə çevrilmişdir. Bu, birbaşa xarici sərmayə baxımından ən böyük layihə olacaqdır. Bu, Azərbaycanda əlavə 10 min iş yerinin açılması deməkdir. Qürurverici haldır ki, bütün zəruri infrastruktur Azərbaycanda inşa ediləcəkdir. *bp* isə öz növbəsində, Azərbaycanın enerji və hasilat bacarığının artırılmasına öz töhfəsini verəcəkdir. Azərbaycandan kənarda daha 20 min yeni iş yeri açılacaqdır.

Mən cənab prezident İlham Əliyevə xüsusi minnətdarlığımı bildirirəm və burada iştirak edən digər liderlərə təşəkkür edirəm ki, bu layihənin uğurla həyata keçirilməsinə öz töhfələrini vermişlər. Bu layihə şirkətlər üçün də xüsusi əhəmiyyət kəsb edir. SOCAR, Statoyl, Total, LUKoyl, NIKO, TPAO, BOTAŞ, Axpo, Fluxys, E.ON və *bp* – bunlar böyük bir qrupdur. Zənnimcə, bu layihə yalnız birgə səylər nəticəsində mümkün olmuşdur.

Biz dünyada olan bütün tərəfdaşlarımızın təcrübəsindən bəhrələnmişik və buna görə də təşəkkürümü bildirirəm. Bu, səhmdarlar üçün də çox mühüm gündür. Bu o deməkdir ki, növbəti 25 il ərzində dəyəri 100 milyardlarla ölçülən sənədlər imzalanacaqdır. Bu sənədlərin bəhrəsi qarşıdan gələn bir çox illərdə hiss olunacaqdır.

Cənab Prezident, qeyd etmək istərdim ki, «Şahdəniz» konsorsiumu SOCAR ilə anlaşma əldə edib və öz payımızı 1,4 milyard kubmetr artırırıq. Bu heç də son deyil, hasilatın pay bölgüsü müqaviləsini də 2048-ci ilə qədər uzatmışıq. Bu sahədə işlərimiz davam edəcəkdir.

Bununla da «Şahdəniz» layihəsi XXI əsrin ikinci yarısında da qaz ehtiyaclarını təmin edəcəkdir. Bu bizim sənayemiz üçün də çox mühüm bir hadisədir. Bu, təkcə nəhəng bir layihə deyil. Bu, misilsiz bir layihədir. Ona görə ki, bu bizim sənayedə tətbiq edilən ən son texnologiyaların ilk dəfə istifadə edilməsi

olacaqdır. Bununla da çıxışımı bitirərək qeyd etmək istərdim ki, *bp* bu layihədə iştirakından fərəhlənir. Bir çox insanın əməyi nəticəsində ərsəyə gəlmiş bu layihənin uğurla başa çatacağına ümid edirəm.

Cənab Prezident, şəxsi dəstəyinizə görə təşəkkür edirəm. Bizim komandamız qarşıdan gələn illərdə Sizinlə sıx əməkdaşlığa ümid edir.

* * *

*Sonra sənədlərin imzalanması mərasimi oldu.*

*Əvvəlcə Azərbaycan, Albaniya, Xorvatiya və Monteneqro arasında əməkdaşlıq, «Cənub Qaz Dəhlizi» layihəsi və Cənub-Şərqi Avropa dəhlizi Anlaşma Memorandumunu Azərbaycanın Energetika naziri Natiq Əliyev, Albaniyanın Energetika və Sənaye naziri Damian Gjiknuri, Xorvatiyanın İqtisadiyyat naziri İvan Vrdolyak və Monteneqronun İqtisadiyyat naziri Vladimir Kavariç imzaladılar.*

*Sonra «Şahdəniz» layihəsinin ikinci mərhələsi və Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi üzrə yekun investisiya Sazişi imzalandı. Sənədi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Şahdəniz» üzrə Hasilatın Pay Bölgüsü Sazişi əməliyyatçısının prezidenti Qordon Birrel imzaladılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak edən dövlət və hökumət başçıları ilə birgə nahar etdilər.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ UİLYAM HEYQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər naziri Uilyam Heyqi qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə edildi, neft-qaz sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulandı. Dünyanın ən böyük enerji layihələrindən biri olan «Şahdəniz-2»nin Avropada və regionda əməkdaşlığın gücləndirilməsi baxımından önəmi qeyd edildi. Həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.*

*2015-ci ildə I Avropa oyunlarının Azərbaycanda keçiriləcəyinin vurğulandığı görüşdə yarışların yüksək səviyyədə təşkili istiqamətində ölkələrimiz arasında təcrübə mübadiləsi aparılmasının önəmi qeyd edildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ PLAMEN OREŞARSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarskini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Bolqarıstan arasında güclü əməkdaşlıq əlaqələrinin olduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən energetika sahəsində inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu dedi. Dövlətimizin başçısı «Şahdəniz-2» üzrə yekun investisiya qərarının Azərbaycan ilə Bolqarıstan arasında əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynayacağına əminliyini bildirdi.*

*Bolqarıstan Respublikasının Baş naziri Plamen Oreşarski «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimini tarixi hadisə kimi dəyərləndirdi. Layihəni Azərbaycandan Avropaya açılan enerji dəhlizi kimi səciyyələndirən Baş nazir bunun qaz təchizatının şaxələndirilməsi baxımından yaxşı fürsət yaratdığını dedi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Günter Ottingeri qəbul etmişdir.*

*Görüşdə «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasiminin önəmi vurğulandı, layihənin reallaşdırılmasına Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Günter Ottingerin verdiyi dəstək yüksək qiymətləndirildi. Söhbət zamanı layihənin Azərbaycan ilə Avropa İttifaqına üzv olan ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Albaniya Respublikasının Baş naziri Edi Ramanı qəbul etmişdir.*

*Görüşdə «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasiminin yüksək səviyyədə təşkil olunmasından məmnunluq ifadə edildi. Layihənin Azərbaycan ilə Balkan ölkələri arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Albaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən sərmayə qoyuluşu, energetika və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ EMMA BONİNO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də İtaliya Respublikasının Xarici İşlər naziri Emma Boninonu qəbul etmişdir.*

*Görüşdə «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasimi yüksək qiymətləndirildi. Layihənin həyata keçirilməsində Azərbaycanın siyasi və iqtisadi baxımdan böyük işlər gördüyü vurğulandı. Avropanın enerji xəritəsində əhəmiyyətli rol oynayacaq bu layihənin enerji resurslarının şaxələndirilməsi işinə də töhfə verəcəyi bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın ENERJİ NAZİRİNİN MÜŞAVİRİ CONATAN ELKİND İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də ABŞ-ın Enerji nazirinin müşaviri Conatan Elkindi qəbul etmişdir.*

*Görüşdə «Şahdəniz-2» üzrə yekun investisiya qərarının imzalanması mərasiminin keçirilməsi mühüm tarixi hadisə kimi dəyərləndirildi, layihəyə ABŞ-ın verdiyi dəstək yüksək qiymətləndirildi.*

*Söhbət zamanı ölkəmizlə ABŞ arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycanın liderliyi ilə bu layihənin həyata keçirilməsindən məmnunluq ifadə olundu, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də bp şirkətinin baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp arasında uzunmüddətli əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, «Şahdəniz-2» üzrə yekun investisiya qərarının Avropanın enerji təhlükəsizliyinin təmin olunması və regional əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bp arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bu əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Almaniya Federativ Respublikasının Federal Kansleri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinə böyük əhəmiyyət veririk. Ölkələrimizi və xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələri, siyasi, iqtisadi və humanitar sahələrdə çoxşaxəli səmərəli əməkdaşlığımız xüsusi məmnunluq doğurur.

Əminəm ki, qarşılıqlı faydalı işbirliyimizi, istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində birgə fəaliyyətimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, dost Almaniya xalqının rifahı naminə məsul işinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2013-cü il*

**ÇİLİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM MİŞEL BAÇELETƏ**

Hörmətli xanım Baçelet!

Çili Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Çili münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, dost Çili xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2013-cü il*

## QUSARDA «ŞAHDAĞ», «PİK PALAS» HOTELLƏRİNİN AÇILIŞI VƏ 2013-cü İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK

*19 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 19-da Qusar rayonunda «Şahdağ» qış-yay turizm kompleksində olmuşlar.*

*Dövlətimizin başçısı və xanımı «Şahdağ», «Pik Palas» hotellərinin açılışı və 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimlərdə iştirak etmişlər.*

*«Şahdağ» qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində yerləşən kompleksin tikintisinin hazırlıq işlərinə 2006-cı ildən başlanılmışdır. Həmin il keçirilən tenderdə dünyanın aparıcı şirkətləri qalib gəlmişdir. Bu kompleksin təməli 2009-cu ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. O vaxtdan etibarən görülən işlər nəticəsində «Şahdağ» qış-yay turizm kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, körpülər tikilmiş, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmişdir.*

*Dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən olan «Şahdağ» qış-yay turizm kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağ-*

*xizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.*

*Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən hotellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hotellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Prezident İlham Əliyevin rəhbərliyi altında bütün ölkə üzrə turizm marşrutlarının müəyyənləşdirilməsi və bununla bağlı bölgələrdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Təsadüfi deyil ki, son bir neçə ildə beşulduzlu hotellərin açılması ilə dünyanın ən məşhur hotel brendləri Azərbaycana gəlmişdir.*

*2011-ci il Azərbaycanda «Turizm ili» elan edilmiş və bu istiqamətdə bir çox tədbirlər görülmüşdür. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına göstərilən diqqətin göstəricisidir. Bu çərçivədə «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən hotellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir.*

*Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan «Şahdağ» qış-yay turizm kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Kompleksin inşası bir neçə mərhələdə aparılmışdır. Prezident İlham Əliyev 2011-ci ilin fevralında kompleksin 2-ci kanat yolunun və xizək enişinin açılışında iştirak etmişdir. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısı dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olmuş, bir neçə obyektin və hotelin açılışında iştirak etmişdir. Artıq ötən qış mövsümündə kompleks ilk turistləri qəbul etməyə başlamışdır.*

*Kompleksin birinci mərhələsi üzrə tikinti işləri dövlət tərəfindən maliyyələşdirilir. Tikintiyə nəzarəti Mədəniyyət və*

*Turizm Nazirliyinin tabeliyində olan «Şahdağ» qış-yay turizm kompleksinin müdiriyyəti həyata keçirir.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə beşulduzlu «Pik Palas» hotelinin açılışında iştirak etdilər.*

*Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu. Prezident İlham Əliyev hotelin rəmzi açılışını bildirən lenti kəsdi. Paytaxtdan 230 kilometr şimalda, «Şahdağ» qış-yay turizm kompleksində yerləşən «Pik Palas» hoteli dağların əzəmətli gözəlliyi ilə əhatə olunmuşdur və onun hər bir elementi məmnunluq doğurur.*

*Dövlətimizin başçısı hotelin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Hotel yeni qurulan «PAŞA Hotels and Resorts» şirkəti tərəfindən idarə olunur. «Pik Palas» hoteli geniş çarpayılar, rahat qonaq və iş guşələri, döşəmədən tavana qədər uzanan pəncərələr və fransız üslublu eyvanları ilə 167 geniş yataq otağı və lüks nömrələri qonaqlara təqdim edir. Bütün qonaq otaqları müasir avadanlıqlarla təchiz olunub. Hoteldəki restoranlar, barlar və istirahət guşələri dağlarda zövqlə nahar etmək üçün nadir vəhdət yaradır.*

*Mehmanxananın lobbisində yerləşən «Chocolat Patisserie» cah-calallıq və rahatlıq aurası yaradır. Burada şokolad trüfeli hazırlanan guşə mövcuddur. «Alpina Brasserie & Wine Bar» gün ərzində nahar etmək üçün nadir inqrediyentlər və orijinal yeməklər təqdim edir. «Fujisan Restaurant & Bar» Yaponiya və Koreya yeməklərinin nadir vəhdətini təcəssüm etdirən mətbəxi ilə fərqli təcrübə təklif edir. Xüsusi bayramlar və ya özəl nahar görüşləri üçün bu restoran ideal məkandır. Fitnes xidmətlərinə idman zalı, saunalar və buxar otağı, qapalı üzgüçülük hovuzu və cakuzi, açıq havada günəş şüası qəbul etmək üçün isidilmiş üzgüçülük hovuzu daxildir. Dəbdəbəli SPA məkanında çalışan təcrübəli terapevtlər müxtəlif aromaterapiya, masajlar və SPA prosedurları, o cümlədən kosmetik qulluq və müalicə təqdim edirlər. Sütunsuz, hündür tavanlı, təbii gün işığı ilə işıqlanan*

*«Akasiya» ziyafət zalında ayaqüstü tədbirlər üçün 600-ə qədər, banket üslubunda 350-dək qonağı yerləşdirmək mümkündür.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni tikilmiş beşulduzlu «Şahdağ» hotelinin açılışı mərasimində iştirak etdilər.*

*Azərbaycan Prezidenti hotelin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etdilər.*

*Azərbaycan Prezidenti mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, hörmətli xanımlar və cənablar!

Biz hər ilin sonunda idmançılarla görüşürük, ilin idman yekunlarını müzakirə edirik. Əslində mənim ildə bir neçə dəfə idmançılarla görüşlərim olur. Ancaq bu, ilin sonunda bir ənənədir. Hər il bu görüşlər Milli Olimpiya Komitəsinin binasında keçirilir. Bu dəfə biz bu görüşü Şahdağda keçiririk. Hesab edirəm ki, bu da bir ənənə olacaqdır. Çünki Şahdağ bu gün Azərbaycanın turizm və idman mərkəzinə çevrilmişdir.

Bu gün eyni zamanda, «Şahdağ» və «Pik Palas» hotellərinin açılışı günüdür. Bu gün Azərbaycanda, Qusar rayonunda, Şahdağda 2 beşulduzlu hotel açılır. Bu münasibətlə də sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Buraya gələrkən mən ilk dəfə bu dağlarda olduğumu yada saldım. Yadımdadır ki, biz Azərbaycanda dağ turizmini inkişaf etdirmək istəyəndə yerin seçilməsi ilə məşğul idik. Xarici mütəxəssisləri dəvət etdik. İlk dəfə burada olarkən mən heç təsəvvür edə bilməzdim ki, Şahdağ qısa müddət ərzində beynəlxalq turizm mərkəzinə çevriləcəkdir. Əlbəttə ki, bizim konkret planlarımız var idi. Çox məhdud vaxt müddəti də qoyulmuşdu. Ancaq deyə bilərəm ki, biz bu dərəcədə inkişaf etmiş və dünyanın ən yüksək səviyyəsinə çatan kurortun yaradılmasını arzulayırdıq, amma bəlkə də təsəvvür edə

bilmirdik. Çünki burada heç nə yox idi. Dağlar idi, qar idi. Heç yaşayış yeri də yox idi. Bu yerdə biz ilk növbədə, infrastruktur layihələrinin icrasına başladıq. Yollar, elektrik, qaz, su xətləri çəkildi, bütün digər infrastruktur layihələri icra edildi. Qaldırıcılar tikilməyə başlandı. Birinci hotelin tikintisi ilə bağlı konkret qərar verildi. Bu hotelin tikintisi təsdiqləndi və tikinti başlandı. Ondan sonra mən hesab etdim ki, Şahdağ bir çox turistləri cəlb edəcəkdir. Belə olan halda burada bir hotelin tikintisi yəqin ki, tələbatımızı ödəyə bilməyəcəkdi. Ondan sonra digər hotellərin tikintisi ilə bağlı məsələlər qalxdı. Şadam ki, artıq bu meydanda 3 hotelin tikintisi başa çatır. 2 hotel bu gün açılır, 3-cü hotel isə yəqin ki, bir neçə aydan sonra açılacaqdır.

Bu ilin əvvəlindən artıq turistlər buraya gəlməyə başlamışlar. Baxmayaraq ki, burada qalmağa da yer yox idi. Aşağıda kiçik bir «Zirvə» hoteli fəaliyyət göstərir. Ancaq şənbə, bazar günlərində buraya Bakıdan, digər yerlərdən, Qusar rayonundan minlərlə insan gəlmiş, istirahət etmiş, xizək idman növü ilə tanış olmuşdur.

Beləliklə, artıq 1 ildir ki, bu kurort yaşayır. Bu 2 hotelin açılması bu kurortun inkişafına yeni təkan verəcəkdir. Əminəm ki, bundan sonra da Azərbaycan və xarici iş adamları, investorlar burada yeni hotellərin tikintisi ilə bağlı təkliflərini verəcəklər. Ümid edirəm ki, gələcəkdə burada bir çox hotellər tikiləcəkdir. Beləliklə, biz Azərbaycanda ilk dəfə olaraq dağ xizəyi kurortunun yaradılmasına nail ola bilmişik.

«Şahdağ» kurortunun yaradılması Azərbaycanda turizmin inkişafına xidmət göstərir və ölkəmizin imkanlarını göstərir. Çünki bir halda ki, biz bir neçə il ərzində dünya səviyyəli kurortu yarada bilmişiksə, deməli, bütün başqa sahələrdə də böyük işlər görməyə qadirik. Əslində bugünkü Azərbaycan reallıqları bunu təsdiqləyir. Biz strateji xəttimizə sadiqik, hədəflər düzgün seçilir, qərarlar, konkret tapşırıqlar verilir, icra müddəti müəyyən edilir və məsələlər öz həllini tapır. Sovet dövründə Azərbaycanda heç vaxt dağ kurortları olmamışdır. Baxmayaraq ki, qonşu bölgələrdə var idi. Ona görə qərar verildi

ki, Azərbaycanda da olsun və Azərbaycanda bu kurort ən yüksək standartlara cavab verməlidir. İnfrastruktur, hotellər, qaldırıcılar, sürüşmə zolaqları və əlbəttə ki, insanların rahatlığı üçün burada çox böyük işlər görülmüşdür.

Deyə bilərəm ki, dünya miqyasında, Avropada dağ xizəyi kurortları arasında «Şahdağ» artıq öz layiqli yerini tutub. Daxili turizm çox sürətlə inkişaf edir. Ancaq biz çalışmalıyıq ki, xarici qonaqlar da bu imkanlardan istifadə etsinlər. Onsuz da Azərbaycana gələn turistlərin sayı ildən-ilə artır. Əminəm ki, qış kurortlarına da xarici qonaqlar gələcəklər. Deyə bilərəm ki, bu layihə Qəbələ rayonunda da dağ xizəyi kurortunun yaradılmasına təkan vermişdir. Orada da artıq kurort hazırdır və xizək idman növündən istifadə etmək mümkün olacaqdır.

Azərbaycanın sürətli inkişafı bütün sahələri əhatə edir. Bu layihə deyə bilərəm ki, ölkəmizin turizm sektoruna qoyulan ən böyük sərmayədir. Bizim ən böyük dövlət sərmayəmiz Qusar rayonunun turizm potensialına qoyulubdur və qoyulacaqdır. Bu eyni zamanda, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı deməkdir. Bu kurortun fəaliyyətə başlaması yüzlərlə, gələcəkdə isə minlərlə yeni iş yerinin açılmasına gətirib çıxaracaqdır. Burada fəaliyyət göstərən qurumlardan tələbim və xahişim ondan ibarətdir ki, yerli insanları bu işlərə daha çox cəlb etsinlər, Qusarda və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunsunlar. Yəni bu kurortun yaradılması bir neçə məqsədi güdür. Bu bizə qeyri-neft sektorunun, turizmin inkişafı, ölkəmizi dünyada daha da dolğun şəkildə tanıtmaq imkanlarını yaradır. Bu, Azərbaycan vətəndaşları üçün çox gözəl şərait yaradır. Çünki mən bilirəm ki, xizək idman növü Azərbaycanda populyarlaşır və vətəndaşlarımız xarici ölkələrə üz tuturlar. Artıq Azərbaycanda dünyanın ən yüksək standartlarına cavab verən gözəl bir yer vardır.

Bu gün biz idmançıların uğurlarını da qeyd edirik. 2013-cü il Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. 2012-ci ildə Olimpiya oyunlarında qazanılmış qələbələr 2013-cü ildə davam etmişdir. Azərbaycan idmançıları Tələbələrin Yay

Universiadasında böyük uğurlara imza atmışlar – komanda hesabında 15-ci yerə layiq görülmüşlər, 16 medal qazanmışlar. Ümumiyyətlə, ölkə idmançıları 780-dən çox medal qazanmışlar ki, onlardan 280-ni qızıl medaldır. Eyni zamanda, olimpiya idman növləri üzrə 4 dünya çempionumuz olmuşdur. Bu da çox böyük göstəricidir.

Azərbaycan idman dövlətidir. Bunu artıq dünya idman aləmi etiraf edir, qəbul edir. Əlbəttə ki, idmanın dayanıqlı inkişafı üçün çox böyük işlər görülür. Azərbaycanda mütəmadi qaydada beynəlxalq yarışlar, dünya, Avropa çempionatları keçirilir. Yeniyetmələr, gənclər idmana böyük maraq göstərirlər. İndi idmanla məşğul olmaq üçün bizim gözəl imkanlarımız vardır. 40 regional olimpiya mərkəzi fəaliyyət göstərir. Bölgələrdə 5 mərkəz tikilməkdədir, 5 mərkəzin tikintisi nəzərdə tutulur. Beləliklə, bölgələrdə olimpiya komplekslərinin sayı 50-yə çatacaqdır. Bakıda böyük idman qurğuları tikilir. Hazırda 65 minlik Olimpiya stadionu, Böyük Su İdmanı sarayı, Milli Gimnastika Arenası, Stend Atıcılığı Mərkəzi tikilir. Yəni bunlar böyük infrastruktur layihələridir, Azərbaycanda istənilən beynəlxalq yarışın keçirilməsi üçün imkan yaradan infrastrukturdur.

Əlbəttə ki, 2014-cü ildə biz I Avropa oyunlarına hazırlıqla bağlı daha da böyük addımlar atacağıq. Çünki gələn il oyunlara hazırlıq üçün həlledici il olacaqdır. I Avropa oyunlarının Azərbaycanda keçirilməsi dövlətimizin, xalqımızın böyük qələbəsidir. Bu, tarixdə qalacaqdır. Biz elə etməliyik ki, bu oyunlar ən yüksək səviyyədə keçirilsin.

Bu günə qədər Avropa oyunları keçirilməmişdir. Avropa oyunlarının tarixi yoxdur, baxmayaraq ki, olimpiya hərəkatı Avropada yaranmışdır və Avropada bərpa edilmişdir. Ona görə Avropa oyunlarının hansı standartlara cavab verəcəyini biz müəyyən edəcəyik. Bizim standartlar artıq oyunlar başa çatandan sonra Avropa oyunlarının standartları kimi qəbul ediləcəkdir. Biz isə istəyirik ki, bu oyunları ən yüksək səviyyədə, Yay Olimpiya oyunları səviyyəsində keçirək və buna

imkan vardır. O vaxta qədər bizim idman obyektlərimiz tam hazır olacaqdır. Eyni zamanda, Əl Oyunları sarayında, Heydər Əliyev İdman Mərkəzində əsaslı təmir işləri aparılır. Bakıda artıq 10-a yaxın beşulduzlu hotel fəaliyyət göstərir. Dünyanın bütün aparıcı hotel şirkətləri Azərbaycandadır. Yol infrastrukturu yeniləşir, təhlükəsizlik tədbirləri yüksək səviyyədə təmin edilir. Əminəm ki, Azərbaycanda bütün texniki məsələlər yüksək səviyyədə həll olunacaqdır. Çünki biz artıq dünya və Avropa çempionatlarının keçirilməsində böyük təcrübə toplamışıq.

Bir sözlə, əminəm ki, Avropa oyunları Avropanın, dünyanın diqqətini çəkən oyunlar olacaqdır. Ona görə biz çalışmalıyıq ki, bu oyunları ən yüksək səviyyədə keçirək. Əminəm ki, biz buna nail olacağıq. Təşkilat Komitəsi yaranmışdır. Təşkilat Komitəsi fəal işləyir. Biz tanınmış idmançılarımızı da bu işlərə cəlb etməliyik ki, onlar da, könüllülər də fəal iştirak etsinlər. Bir sözlə, gələn il bu oyunlara hazırlıq üçün həlledici il olacaqdır. Ondan 2 il sonra – 2017-ci ildə Azərbaycanda İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Azərbaycan yeganə ölkə olacaqdır ki, həm Avropa, həm İslam Həmrəyliyi oyunları keçiriləcəkdir.

Əminəm ki, bu oyunlar həm Avropanı, həm islam aləmini biri-birinə daha da yaxın edəcəkdir. Biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Dünyanı, qitələri, xalqları, sivilizasiyaları birləşdirən ölkələrdən biri də Azərbaycandır. Ölkəmizdə mövcud olan xoş əhval-ruhiyyə, xoş niyyət, dözümlülük, mehribanlıq bu gün artıq dünya ictimaiyyəti tərəfindən təqdirlə qeyd edilir. Çoxsaylı forumlar, humanitar forumlar, iqtisadi, siyasi tədbirlər keçirilir.

İki gün bundan əvvəl Azərbaycanda tarixi hadisə baş vermişdir. «Şahdəniz-2» layihəsinə start verildi. Bu layihə XXI əsrin layihəsidir, Azərbaycanın böyük tarixi uğurudur. Xalqımızın rifahı, ölkəmizin inkişafı üçün bu layihənin müstəsna rolu olacaqdır. Bütün bu uğurları biz öz zəhmətimiz hesabına əldə etmişik.

Azərbaycanın enerji siyasəti birmənalıdır, düşünülmüş siyasətdir. 2 gün bundan əvvəl Avropanın bir çox ölkələrindən

olan dövlət, hökumət başçılarının iştirakı ilə keçirilən tədbir bir daha ölkəmizin önəmini ortaya qoyur.

Azərbaycan etibarlı tərəfdaşdır, layiqli dövlətdir, güclü dövlətdir, iqtisadiyyatı güclüdür, güclü siyasət aparır, idmanı güclüdür, infrastrukturu yeniləşir. Ən önəmlisi Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü rahat hiss edir. Azərbaycan bizim hamımızın Vətənidir, hamımızın evidir. Elə etməliyik ki, bundan sonra da ölkəmizin uğurlu inkişafı təmin edilsin.

İdman isə hər bir ölkənin ümumi inkişaf potensialını göstərir. Əgər idman sahəsində aparıcı ölkələrə nəzər salsaq görərik ki, onların arasında mütləq əksəriyyət inkişaf etmiş ölkələrdir. İnkişaf etmiş ölkələrdə idman da güclü olur.

Azərbaycan bu gün sürətlə inkişaf edən ölkədir. Gələcəkdə inkişaf etmiş ölkəyə çevriləcəkdir. İdman isə bizim gücümüzü göstərir. İdmançılar ölkəmizi ləyaqətlə təmsil edirlər, bayrağımızı göylərə qaldırırlar. Onların qələbələri hər birimizin qəlbində gözəl əks-səda verir. 2013-cü il də bu sahədə uğurlu il olmuşdur. Biz hər ilin sonunda idmançıları mükafatlandırırıq, onlara mənzillər verilir. Bu da gözəl ənənəyə çevrilibdir. Bu ənənə bu gün də davam etdiriləcəkdir.

Mən bütün idmançıları, turizm sahəsinin bu gün bu salonda əyləşən işçilərini və bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun!

* * *

*Azərbaycan Boks Federasiyasının vitse-prezidenti, Milli Olimpiya Komitəsinin baş katibi Ağacan Əbiyev Azərbaycan idmanının intibahının ümummilli lider Heydər Əliyevin idmana qayğını öz üzərinə götürdükdən sonra başlandığını əsaslandırdı. İdmana o dövrdən başlanan diqqət və qayğının bu gün ölkəmizin dünyanın idman mərkəzlərindən birinə çevrilməsinə əsaslı zəmin yaratdığını bildirdi.*

**A ğ a c a n  Ə b i y e v :** Müstəqil Azərbaycanın bədən tərbiyəsi və idmanının intibah dövrü məhz 1994-cü ildən başlayır. Həmin ilin mart ayında ulu öndərimiz Bakı İdman Oyunları sarayında bütün idmançıları görüşə dəvət etmişdi. Ulu öndər oradakı çıxışında həm gəncləri, həm yeniyetmələri, həm də veteranları təbrik etdi, mükafatlar verildi. Orada qeyd etdi ki, əziz idmançılar, bu gündən sonra idmana qayğını öz üzərimə götürürəm və əmin ola bilərsiniz ki, bu qayğını siz həmişə hiss edəcəksiniz.

Bəli, biz bu qayğını doğrudan da hiss edirik. Elə, bax, bizim bugünkü görüşümüz də həmin qayğının təzahürüdür. Möhtərəm Prezident, bu qayğını bizə, bütün idmançılara Siz göstərirsiniz. Məhz prezident tərəfindən idmançılarımıza göstərilən bu qayğının nəticəsidir ki, medalların sayı artıq yüzlərlədir. Hesab edirəm ki, doğrudan da idman sahəsində qazanılan uğurlar, medallar, qələbələr Azərbaycanın çox inkişaf etdiyindən xəbər verir.

Möhtərəm Prezident, mən bütün idmançılar adından Sizə minnətdarlığımızı bildirir, bizə göstərdiyiniz qayğıya görə «Çox sağ olun» – deyirəm.

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev Azərbaycanın tarixində ilk dəfə yeni idman-turizm növünün formalaşmasının dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin təşəbbüsü və iradəsi sayəsində mümkün olduğunu söylədi.*

**Ə b ü l f ə s  Q a r a y e v:** Cənab Prezident, düşünürəm ki, bütün sahələrdə – enerji sektorunda, siyasətdə, iqtisadiyyatda, sosial məsələlərdə Sizin apardığınız fəaliyyət nə qədər uğurludursa, həm idman, həm turizm, həm mədəniyyət – mən bu gün bununla məşğul olduğuma görə onu deyirəm – sahələrində də Sizin siyasətiniz Azərbaycanın dünya miqyasında tamamilə yeni müstəvidə tanıdılmasında, gücləndirilməsində əsas amildir. Cənab Prezident, bu gün mən xüsusi vurğulamaq istəyirəm ki, bütün Azərbaycan vətəndaşları Sizin fəaliyyətiniz nəticəsində tamamilə yeni bir ölkədə yaşayır. Bu

ölkə XXI əsrin ölkəsidir. Ölkəmiz bu səviyyəyə Sizin müdrik siyasətiniz, iradəniz, dünyagörüşünüz, rəhbərliyiniz sayəsində gəlib çatmışdır.

Mən bu gün Sizə, hörmətli Mehriban xanıma Azərbaycan xalqının yaşadığı, yaratdığı və ümid bəslədiyi gələcəyə bütün işlərdə verdiyiniz dəstəyə, göstərdiyiniz köməyə, qayğıya görə təşəkkürümü bildirmək istəyirəm.

Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin. Çox sağ olun. Yaxşı ki, Siz varsınız.

*Sonra prezident İlham Əliyev müxtəlif beynəlxalq yarışlarda fərqlənən, ölkəmizdə idmanın inkişafına töhfə verən bir qrup idmançıya və idman xadiminə yeni mənzillərin orderlərini, habelə Milli Olimpiya Komitəsinin Fəxri fərmanlarını təqdim etdi.*

*Yunan-Roma güləşi üzrə Tələbələrin XXVII Universiadasının qalibi Rəsul Çunayevə, Yunan-Roma güləşi üzrə Avropa çempionu Rafiq Hüseynova, sərbəst güləş üzrə məşqçi Firdovsi Ömərova, sərbəst güləş üzrə məşqçi Elşad Allahverdiyevə, sərbəst güləş üzrə məşqçi Elçin Zeynalova, boks üzrə dünya çempionu Cavid Çələbiyevə, boks üzrə məşqçi Yadigar Məmmədova, ağır atletika üzrə İslam Həmrəyliyi oyunlarının bürünc mükafatçısı Zülfüqar Süleymanova, Atletika üzrə Dünya Tələbələrinin Universiadasının və İslam Həmrəyliyi oyunlarının qalibi Hayle İbrahimova, taekvondo üzrə Avropa çempionu Fəridə Əzizovaya, London Yay Paralimpiya oyunlarının qalibi Natali Proninaya, London Yay Paralimpiya oyunlarının qalibi Ramin İbrahimova, Paralimpiya üzrə marafon yarışının qalibi İmran Hüseynova, şahmat üzrə beynəlxalq dərəcəli hakim və məşqçi Lütfiyar Rüstəmova, şahmat üzrə məşqçi Rəsul İbrahimova, Respublika Yüksək İdman Ustalığı Məktəbinin müəllimi Nabat Camalovaya, pauerliftinq üzrə Avropa və dünya çempionu İbrahim İbrahimova, milli karate üzrə baş məşqçi Rəhman Hətəmova, universal döyüş üzrə məşqçi Vasif İsgəndərova, Azərbaycan Kikboksinq Federasiyasının milli komandasının rəisi Sadıx Bağırova, basketbol üzrə məşqçi Fikrət*

*Həsənova, bədii gimnastika üzrə yığma komandanın baş məşqçisi Mariana Vasilyevaya yeni mənzillərin orderləri təqdim edildi.*

*Kunq-fu üzrə Avropa və dünya çempionu Əli Mirələkbərli, pauerliftinq üzrə dünya çempionu Raif Süleymanov, kikboksinq üzrə dünya və Avropa çempionu Rail Rəcəbov isə Milli Olimpiya Komitəsinin Fəxri fərmanı ilə təltif olundular.*

**E l ç i n Z e y n a l o v** *(sərbəst güləş üzrə məşqçi):* Cənab Prezident! Gəncəlilər Sizi sevirlər. Oktyabrın 9-da prezident seçkilərində xalq Sizə öz etimadını göstərdi. Seçkidən sonra Gəncədə böyük bayram əhval-ruhiyyəsi var idi.

Mən ümummilli lider Heydər Əliyevin bir fikrini xatırlatmaq istəyirəm. Ulu öndər demişdir ki, Vətənin idman şərəfini qorumaq səngərdə Vətən torpağını qorumaq kimi şərəfli bir işdir. Mən bu kəlamdan sonra ona söz verdim ki, ömrümün axırınadək əynimdə idman paltarı Azərbaycanın idman şərəfini qoruyacağam.

Yaşasın Azərbaycan xalqı!

Yaşasın prezidentimiz İlham Əliyev!

*Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi, onlara fəaliyyətlərində uğurlar arzuladı.*

* * *

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Şahdağ» hotelində yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, bu hotel yüksək səviyyəli dəbdəbəni, qonaqpərvərliyin ən üst səviyyəsini əməkdaşlarının səmimiyyəti ilə qonaqlarına təqdim edən gözəl istirahət məkanıdır. Burada təklif olunan müasir interyer və yüksək xidmətlər, xoş əhval yaradan otaqlar qonaqlara unudulmaz təəssürat bağışlayacaqdır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, 173 otaqdan ibarət hotelin nömrələri 5 kateqoriyaya bölünür – superior,*

deluxe, junior suite, suite və yüksək səviyyəli qonaqlar üçün nəzərdə tutulan nömrələr. Otaqlarda qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb, termostatik duş, kabel televiziyası, havalandırma sistemi quraşdırılıb, internet və digər xidmətlər təklif olunur. Hoteldə fəaliyyət göstərən restoranlar şəbəkəsində milli və dünya mətbəxinin ləziz nümunələri təqdim edilir. Bar və kafelərdə də yüksək xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb. «Ovdan SPA» və «SPA Bar» Azərbaycanda olan ən böyük SPA mərkəzlərindən biridir. Bundan əlavə, hoteldə 1 qapalı hovuz, zəruri avadanlıqla təchiz olunan idman zalı, uşaq bağçası, xizək avadanlığının satıldığı alış-veriş mərkəzi fəaliyyət göstərir. Buradakı 3 iclas və konfrans zallarında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb, ən son səs avadanlığı quraşdırılıb.

«Şahdağ» qış-yay turizm kurortu qonaqlara ilboyu sonsuz həyəcanlı idman və əyləncə növləri təklif edir. Qonaqların burada möhtəşəm təbiət gözəlliyinin mərkəzində, dağ havasının təravətində, müxtəlif əyləncə növlərinin əhatəsində olmaq şansı vardır. Burada müxtəlif səviyyəli idmançılar və həvəskarlar üçün 19-dan çox xizəklə sürüşmə yamacları planlaşdırılıbdır. Buradakı xizəksürmə məktəbi müxtəlif kurslar təklif edir. Kompleksdə hər yaş kateqoriyasından olan insanlara müxtəlif yay əyləncələri də təklif ediləcəkdir. Bölgəni yenidən kəşf etmək istəyənlər, macəra axtarışında olanlar üçün raftinq, paraşütlə tullanma, qayaya dırmanma, velosipedlə gəzinti, göldə üzgüçülük və başqa idman əyləncələri də gələcəkdə qonaqların istifadəsinə təqdim olunacaqdır. Bundan əlavə, böyük qolf sahəsinin, maraqlı aqvaparkların və hovuzların da tikilməsi planlaşdırılır.

Dövlətimizin başçısı və xanımı «Şahdağ» qış-yay turizm kompleksində tikintisi başa çatmaq üzrə olan yeni beşulduzlu hoteldə aparılan tikinti-quraşdırma işləri ilə də tanış oldular.

Xüsusi memarlıq üslubunda inşa olunmuş binada aparılan tikinti-quraşdırma işləri zamanı ilk növbədə qonaqların istirahətinin və rahatlığının təmin edilməsi diqqət mərkəzində

*saxlanılmışdır. Ümumi sahəsi 22 min kvadratmetrdən çox olan hoteldə 164 nömrə yaradılacaqdır. Onlardan 149-u standart, 13-ü suit, 2-si isə dupleks suit nömrədir. Burada müxtəlif restoran, kafe və barlar fəaliyyət göstərəcəkdir. Hoteldəki 112, 65, 52 və 45 nəfərlik restoran və kafelərdə qonaqlara keyfiyyətli xidmət göstərilməsi üçün hər cür şərait yaradılacaqdır. Burada 130 nəfərlik konfrans zalı da qurulur. Hotelə biznes mərkəzi, müxtəlif trenajorların quraşdırıldığı idman zalı, 4 prosedur otağını özündə birləşdirən SPA, hovuz və digər xidmət obyektləri daxildir. Binanın altında 77 yerlik avtomobil dayanacağı da inşa olunub.*

## QUSARDA «ŞAHDAĞ» QIŞ-YAY TURİZM KOMPLEKSİNDƏ YÜKSƏK XİDMƏT ŞƏRAİTİ İLƏ TANIŞLIQ

*20 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-20-də «Şahdağ» qış-yay turizm kompleksində tikilmiş yeni hotellərin açılışında iştirak etmiş, yaradılmış yüksək xidmət şəraiti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı dekabrın 20-də xizəklə sürüşdü. Prezident İlham Əliyev əvvəlcə ikinci liftin yamacından sürüşüb dördüncü liftin yanına gəldi. Sonra dördüncü liftlə yuxarı qalxaraq həmin liftin yamacı ilə üçüncü liftə qədər sürüşdü. Daha sonra dövlətimizin başçısı üçüncü liftlə yuxarı qalxaraq yeni açılan yamacla sürüşdü.*

*Ölkəmizdə ilk dəfə yaradılan və dünya standartlarına cavab verən bu layihənin reallaşdırılması respublikada dağ-xizək və digər qış idman növlərinin, xüsusilə də turizmin inkişafı üçün geniş imkanlar açır.*

*Dəniz səviyyəsindən 1300–2300 metr yüksəklikdə yerləşən turizm kompleksinə gələnlərin sayı gündən-günə artır. Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan «Şahdağ» qış-yay turizm kompleksində inşa edilən və bir gün əvvəl prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən hotellər bu istirahət məkanına olan marağı daha da artırır. Kompleksdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafı əsas prioritetlərdəndir.*

## QUBADA «RİXOS QUBA AZERBAİJAN» HOTEL-KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*20 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Qubada «Rixos Quba Azerbaijan» hotel- kompleksinin açılışında iştirak etmişdir.*

*Avropa və Asiya arasında körpü rolunu oynayan Azərbaycanda iqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırmışdır. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə turizmin inkişafı istiqamətində mühüm layihələrin icrası da buna əlverişli zəmin yaradır. Bu baxımdan Azərbaycanda hotel biznesinin daha da inkişafı üçün kompleks tədbirlər reallaşdırılır. Bu hotellərdə müştərilərə yüksək səviyyəli xidmətlər göstərilir.*

*Dünyada mövqeyini daha da möhkəmləndirməyi qarşıya məqsəd qoyan Azərbaycan artıq ən mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən ölkədir. Bundan başqa, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi, turizmin inkişafı da başlıca prioritetlərdəndir. Hazırda ölkəmizdə hotel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır.*

*Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmizin bütün bölgələri kimi, Quba da öz qədim və tarixi görkəmini saxlamaqla müasirləşir. Rayonda 2011-ci ilin aprelində tikintisinə başlanılmış və artıq istismara hazır olan «Rixos Quba Azerbaijan» hotel-kompleksi də həmin istiqamətdə atılan addımlardan biridir. Prezident İlham Əliyev bu ilin sentyabrında Qubaya səfər edərkən bu*

*hotelin mükəmməl infrastruktura və müasir xidmət şəbəkəsinə malik bir kompleks kimi formalaşması üçün müvafiq tapşırıq və tövsiyələrini vermişdi. Ölkəmizdə bu cür komplekslərin sayının çoxalması Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də respublikamıza gələn turistlərin sayının artmasına zəmin yaradır. «Rixos Quba Azerbaijan» hoteli təkcə Quba rayonu üçün deyil, bölgə üçün də əhəmiyyətli turizm obyektidir. Hotel mükəmməl infrastruktura malikdir.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, «Rixos Quba Azerbaijan» hoteli Qudyalçayın sahilində inşa olunub. Yüksək keyfiyyətli müxtəlif xidmətlərin göstəriləcəyi hotel-kompleksi maraqlı memarlıq üslubunda tikilib. Avanqard və modern memarlıq üslublarının sintezi əsasında inşa edilən binanın interyerinin tərtibatında xaricdə hazırlanan mebel və aksessuarlardan istifadə olunub. Turistlərin Heydər Əliyev Beynəlxalq Aeroportundan «Rixos Quba Azerbaijan» hotelinə çatdırılması üçün özəl VİP servis və helikopter xidməti göstəriləcəkdir.*

*Prezident İlham Əliyev komplekslə tanış oldu. Bildirildi ki, hotel-kompleksi yeddimərtəbəli əsas binadan, 16 villadan, 3 restoran və 1 gecə klubundan, əyləncə parkından, qolf sahəsindən və digər müasir xidmət obyektlərindən ibarət olmaqla, 210 hektar ərazini əhatə edir. Hoteldə tennis kortu, voleybol, basketbol, mini-futbol sahələri də yaradılıb. Villalar 7 otaqdan ibarətdir. Bundan əlavə, sauna, masaj otağı, idman salonu, ev kinoteatrı, istirahət otağı, terraslar və digər xidmət infrastrukturu müştərilərin ixtiyarına veriləcəkdir.*

*Hotelin «The Challette» restoranı yüksəklikdə – mənzərəli ərazidə yerləşir. Restorana getmək üçün kanat və avtomobil yolları vardır. Restoran qonaqlara müxtəlif çeşiddə yeməklər təklif edir. Ərazisi 2,6 hektar olan süni gölün ətrafında qurulmuş «Le Coquet» restoranında isə dəniz məhsullarından yeməklər hazırlanır. «Mosaic restaurant» isə hotelin əsas iaşə obyekti kimi, qonaqlara səhər, nahar və şam yeməkləri təklif*

*edir. Eyni zamanda, bu restoranda dünya mətbəxinin ləziz nümunələri də təklif olunur. Qonaqlar 24 saat ərzində otaqlara yemək və içki sifariş verə bilərlər. Burada fəaliyyət göstərən «Planet Quba» əyləncə mərkəzi 1000 nəfər üçün nəzərdə tutulmuş ailəvi məkandır. Əyləncə mərkəzi bütün növ xidmətlər və hər cür oyun avadanlığı ilə təchiz olunub. Hoteldə 4–12 yaşında uşaqlar üçün nəzərdə tutulan «Rixy clubda» balacalara əyləncəli proqram təşkil edilir. Burada müxtəlif mərasimlər keçirmək üçün gözəl şərait vardır.*

*Diqqətə çatdırıldı ki, kompleksdəki «Rixos SPA & Welness» sağlamlıq mərkəzinin ümumi ərazisi 1800 kvadratmetrdir. Burada açıq və qapalı hovuz, masaj otağı, trenajor zalı və gözəllik salonu vardır. Əsas binadakı otaqlar ən modern mebel, yataq dəsti, avadanlıqla təchiz olunmaqla, zövqlə tərtib edilib. «Rixos Quba Azerbaijan»da «Şimal», «Xəzər» və «Bakı» adlı 3 görüş zalı vardır. «Xəzər» zalında görüşlərdən əlavə, 1500 nəfərlik təntənəli tədbirlər, forumlar və şənliklər keçirmək planlaşdırılır. Hoteldə meşədə gəzinti, xüsusi maşınlarla «safari» bölgə turu təşkil olunacaqdır.*

*Kompleksə xüsusi gözəllik verən qolf sahəsinin ərazisi 68 hektardır. Burada Azərbaycanda ilk və yeganə qolf kursları təşkil olunacaqdır. Kanat yolu ilə qonaqlar üçün xüsusi dağ gəzintisi xidmətləri göstəriləcəkdir. Kompleksin ərazisi tam abadlaşdırılıb. «Rixos Quba Azerbaijan» hotelində 300-dən çox daimi iş yerinin açılması nəzərdə tutulur.*

*Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı hotelin kollektivi ilə görüşdü. Azərbaycan Prezidentinə məlumat verildi ki, hoteldə xidmət göstərəcək heyət yüksək hazırlıq kursu keçmişdir və onların əksəriyyətini yerli kadrlar təşkil edir.*

*Prezident İlham Əliyev hotelin kollektivini salamladı:*

– Hotelin açılışı münasibətilə sizi təbrik edirəm. Gözəl hoteldir, ən yüksək standartlara cavab verir. «Rixos» hotellər qrupu dünya səviyyəsində məşhur brenddir. Şadam ki, artıq Azərbaycanda da, məhz bölgələrdə, Quba rayonunda «Rixos» hoteli vardır. Bu da ölkəmizin ümumi inkişafını göstərir. Bu

onu göstərir ki, Azərbaycanda, ölkəmizin hər bir yerində gözəl xidmət sahələri yaranır.

Son illər ərzində Bakıda bir neçə beşulduzlu hotel açılmışdır. Təkcə son 2 ildə «Kempinski», «Hilton», «Marriott», «Four Seasons», «Jumeirah», «Fairmont» hotelləri tikilmişdir, daha əvvəl «Hyatt» hoteli var idi. Yəni Bakıda dünya şöhrətli 8 hotel şəbəkəsi vardır. Bu proses artıq bölgələrdə başlanıbdır. Qubada da bu, birinci beşulduzlu hoteldir. Dünən Qusar rayonunda, Şahdağda 2 beşulduzlu hotel açıldı. Üçüncüsünün inşası davam edir. Yəqin ki, gələn ilin ortalarına qədər o da hazır olacaq. Bu, şimal zonasının ümumi inkişafını şərtləndirən sahədir. Mən dəfələrlə demişəm ki, şimal zonasının inkişafı daha çox turizmlə bağlı olmalıdır və biz artıq bunu görürük. Belə hotellər hər bir böyük şəhərə yaraşıq verə bilər. Şadam ki, Quba rayonunda belə gözəl hotel vardır.

Mən sentyabr ayında burada olmuşam. O vaxt biz qolf meydançasının açılışını qeyd etdik. Ondan sonra villalarla da tanış oldum. Burada o vaxt hələ inşaat gedirdi. İndi, demək olar ki, hotel tam hazırdır. Bilirəm ki, yeni il ərəfəsində çoxlu qonaqlar gözlənilir. Əminəm ki, burada hər kəs özünü rahat hiss edəcəkdir.

Hesab edirəm ki, bütövlükdə gələcəkdə ölkəmizin digər bölgələrində də beşulduzlu, dördulduzlu, üçulduzlu hotellər tikiləcək. Çünki bu gün Azərbaycanı dünyada tanıyırlar. Azərbaycanda gedən inkişaf dünya ictimaiyyətinin diqqətini çəkir. Azərbaycanda inkişaf üçün bütün imkanlar – gözəl təbiət, gözəl iqlim, qonaqpərvər insanlar, təhlükəsizlik – Azərbaycan bəlkə də dünyanın ən təhlükəsiz yerlərindən biridir – insanların xoş münasibəti vardır. Əlbəttə ki, xidmət də yüksək səviyyədə olmalıdır. Mənim buna şübhəm yoxdur. Çünki bir daha demək istəyirəm ki, «Rixos» dünya miqyasında tanınmış brenddir.

Bu hotelin tikintisi ölkəmizin ümumi inkişaf dinamikasını göstərir. Hətta dünyanı bürümüş böhran illərində də ölkəmizə böyük investisiyalar qoyulur. Dövlət və özəl qurumlar investisiyalar qoyur. Dövlət və özəl sektorun tərəfdaşlığı bu gün

Azərbaycanda özünü göstərir. Əminəm ki, gələcəkdə Qubada və ətraf rayonlarda yeni gözəl hotellər, istirahət zonaları tikiləcəkdir.

Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram.

## YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və humanitar əlaqələrimiz ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verməkdədir.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin genişlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yaponiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2013-cü il*

## «BAKI ŞƏHƏRİNİN VƏ ONUN QƏSƏBƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI»NIN İCRASININ YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*Bakı Şəhər İcra Hakimiyyəti*

*23 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə dekabrın 23-də «2011–2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın icrasının yekunlarına həsr olunmuş konfrans keçirilmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə Bakı Şəhər İcra Hakimiyyətinin binasında 2011–2013-cü illərdə paytaxtda və ətraf qəsəbələrdə həyata keçirilən yenidənqurma tədbirlərini əks etdirən fotostendlərlə tanış oldu. Fotostendlərdə Bakıda və ətraf qəsəbələrdə sosial inkişaf və infrastruktur layihələri, o cümlədən turizm, mədəniyyət, sahibkarlığın inkişafı, həmçinin ətraf mühitin qorunması sahələrində həyata keçirilən çoxsaylı tədbirlər barədə məlumatlar verilir.*

*Dövlətimizin başçısı konfransı giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasını müzakirə edəcəyik. Bu ikinci proqramdır. Birinci proqram 2006-cı ildə qəbul olunmuşdu, 2 ili əhatə edirdi. Bu proqram 2011–2013-cü illəri əhatə edir və proqram başa çatır.

Bütövlükdə 2013-cü ildə Azərbaycanın uğurlu dinamik inkişafı təmin edilmişdir. İl ərzində qarşıda duran bütün vəzifələr icra edilmişdir, iqtisadiyyat artmışdır. Dünya miqyasında müqayisə etsək görərik ki, Azərbaycan iqtisadiyyatı ən yüksək templərlə artır. Bu il ümumi daxili məhsul təxminən 6 faiz, qeyri-neft sektorumuz isə təxminən 10 faiz artmışdır.

Bu da əslində görülən işlərin təzahürüdür. Onu göstərir ki, bizim siyasətimizin əsas istiqaməti iqtisadi islahatlardır. Bu islahatlar nəticəsində biz bu uğurlara imza ata bilmişik. Qeyri-neft sektorumuz artır, indi ümumi daxili məhsulda qeyri-neft sektoru üstünlük təşkil edir. Əminəm ki, bu meyillər gələcək illərdə güclənəcək. Ancaq buna nail olmaq üçün biz daha da fəal işləməliyik. Çünki neft-qaz sektorunun artması da gözlənilir. Xüsusilə bu ayın 17-də Bakıda imzalanmış «Şahdəniz-2» layihəsi gələcəkdə neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Ona görə biz qeyri-neft sektorunun inkişafına daha da böyük diqqət göstərməliyik. Biz bunu edəcəyik. Ölkəmizdə aparılan islahatlar, düşünülmüş iqtisadi və sosial siyasət imkan verəcəkdir ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin.

Bütövlükdə bu il 2003–2013-cü illəri əhatə edən bir dövr başa çatır. Bu dövr ölkəmiz üçün çox uğurlu olmuşdur. Deyə bilərəm ki, son 10 il ərzində dünyada iqtisadi cəhətdən Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün statistik məlumatlar bunu təsdiqləyir. İqtisadiyyatımız 300 faizdən çox – 3,4 dəfə artmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə azalmışdır. İndi Azərbaycanda yoxsulluğun səviyyəsi 5 faizdən bir qədər çoxdur. Yəni inkişaf etmiş ölkələrin səviyyəsindədir. Biz hətta inkişaf etmiş bir neçə ölkəni qabaqlayırıq. İşsizliklə bağlı məsələlər öz həllini tapır. İşsizlik çox aşağı səviyyədədir, 5 faiz səviyyəsindədir. Bakı şəhərində isə məncə, bütövlükdə bu məsələ öz həllini tapmışdır.

Bizim iqtisadi islahatlarımız dünyanın aparıcı iqtisadi və maliyyə qurumları tərəfindən də təqdirlə qarşılanır. Dünyanın bir nömrəli iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 39-cu

yerə layiq görmüşdür. Yəni bütün bunların təməlində düşünülmüş siyasət, Azərbaycanda ötən əsrin 90-cı illərinin ortalarında başlamış islahatlar, ulu öndər Heydər Əliyevin siyasəti dayanır.

Son 10 il ərzində isə biz fəal işləyərək Azərbaycanın siyasi, iqtisadi maraqlarını tam şəkildə təmin edə bilmişik. Azərbaycan bu gün beynəlxalq müstəvidə çox böyük hörmətə malik olan bir ölkə kimi tanınır. Biz bu il BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətimizi başa çatdırırıq. Hesab edirəm ki, bu da xalqımız, dövlətimiz üçün çox böyük nəticədir, tarixi bir qələbədir. Dünya birliyinin bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasına seçilmək ölkəmizin tarixi qələbəsidir.

Yəni istənilən sahəyə baxsaq görərik ki, Azərbaycanın uğurlu inkişafı təmin edilir. Dünyada, Avropada yaşanan iqtisadi böhranlar, bəzi hallarda siyasi çəkişmələr bizə heç bir təsir etməmişdir, edə də bilməz. Çünki bizim siyasətimizin təməlində dövlət maraqları dayanır. Xalqla iqtidar arasındakı birlik bizim inkişafımızı şərtləndirən amillərdən biridir. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf, demokratiya, milli həmrəylik yoludur.

Ölkəmizin hərtərəfli inkişafı, o cümlədən humanitar sahədə –millətlərarası, dinlərarası dialoqun aparılması sahəsində uğurlu təcrübəsi bu gün dünyada öyrənilir. Təsadüfi deyildir ki, Bakı şəhəri bölgənin və hətta deyə bilərəm ki, dünyanın mərkəzlərindən birinə çevrilmişdir. Bakıda yüksək səviyyəli tədbirlər artıq adi hala çevrilmişdir. Zirvə görüşləri, dünya liderlərinin görüşləri, iqtisadi forumlar, humanitar forumlar – bütün bunlar reallıqdır və Bakı dünya xəritəsində artıq öz layiqli yerini tuta bilmişdir.

Növbəti illər üçün də bizim konkret proqramlarımız vardır. Biz gələcəkdə də bu proqramlar üzrə işləyəcəyik. Mən heç şübhə etmirəm ki, ölkəmizin dayanıqlı inkişafı təmin ediləcəkdir. Yəni görülən işləri – bu gün çıxışlarda onların bir hissəsi səslənəcək – foyedə qoyulan stendlərdə əyani şəkildə görmək olar. Bunlar təkcə Bakı şəhərinə aid olan stendlərdir.

Amma bütövlükdə ölkə üzrə gedən müsbət proseslər əminəm ki, gələcəkdə də davam etdiriləcəkdir.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı qəbul olunarkən biz bir neçə məqsədi qarşımıza qoymuşduq. İlk növbədə, qarşıya bölgələri inkişaf etdirmək, bölgələrdə iş yerlərinin açılmasına, yerli sahibkarlığın inkişafına nail olmaq, idxaldan asılılığımızı azaltmaq, infrastruktur layihələri yaratmaq məqsədləri qoyulmuşdu ki, insanlar bölgələrdən böyük şəhərlərə miqrasiya etməsinlər. Nəticə etibarilə qarşıya məsələ qoyulmuşdur ki, bölgələrlə Bakı arasındakı fərqi azaltmaq lazım idi. Biz son 10 il ərzində – artıq 2 regional proqram icra edilibdir – buna nail ola bilmişik.

Ancaq Bakı şəhərinin sürətli inkişafı, əlbəttə, bu fərqi tam aradan qaldırmağa imkan vermir və bu da təbiidir. Çünki Bakı bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bakıya gələn hər bir qonaq bunu qeyd edir və öz təəccübünü gizlədə bilmir. Mənim çoxsaylı təmaslarımda, xarici qonaqlarla görüşlərimdə, demək olar, onların mütləq əksəriyyəti qeyd edir ki, Bakının bu dərəcədə gözəl olduğunu gözləmirdilər. Bakı gözəl şəhərdir, gözəl təbiəti, gözəl ab-havası vardır.

Bakının gözəlliyi təkcə binalarda deyil. Bakının gözəlliyi şəhərimizdə olan tarixi ab-havadadır. Gözəl şəhərlər, gözəl binalarla dolu olan şəhərlər vardır. Ancaq şəhərin gözəlliyini bunlar müəyyən etmir. Bakının özünəməxsus, spesifik bir aurası, tarixi, tarixi siması vardır. Mən şadam ki, son illər biz Bakının tarixi simasını qoruya bilmişik, hər bir şəhər kimi, Bakının da inkişafı təmin edilməli idi. Hesab edirəm ki, biz burada həm tarixi saxlamaqla, memarlıq abidələrini bərpa etməklə, həm də müasir infrastrukturun yaradılması, yeni binaların tikilməsi istiqamətində də çox düzgün siyasət aparmışıq ki, müasirliklə qədim tarix burada – Bakıda ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır.

Bakının bir neçə mərkəzi var. Bu da hər bir şəhərdə mövcud olan mənzərə deyil. İçərişəhər, Azadlıq meydanı, «Azneft» meydanı tarixi mərkəzdir. Hazırda Bayraq Meydanı mərkəzə

çevrilibdir, bulvar, onun yenilənmiş variantı və yeni bulvar, «Ağ şəhər» bulvarı, Heydər Əliyev Mərkəzi, mərkəzi park – görün, Bakıda son illər ərzində nə qədər ictimai yerlər abadlaşıb, yaradılıb. Biz bu istiqamətdə siyasəti davam etdirəcəyik. Bu barədə bir qədər sonra danışacağıq.

Yəni regional inkişaf proqramının qəbul olunması, ölkə iqtisadiyyatına qoyulan sərmayə, xarici sərmayə üçün yaradılan şərait bizim dinamik inkişafımızı təmin edib. Əgər fikir vermisinizsə, son vaxtlar biz neft-qaz sektorunun inkişafı ilə bağlı o qədər də geniş müşavirələr keçirmirik. Çünki burada hər şey yerinə oturubdur.

Azərbaycanın neft strategiyası keçən əsrin 90-cı illərində müəyyən edilibdir. Bu strategiyanı icra edirik. Əlbəttə, son 10 il ərzində neft-qaz sektorunun inkişafı, maraqlarımızın təmin edilməsi üçün tarixi nailiyyətlər əldə edilmişdir. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft, qaz kəmərləri, «Şahdəniz» layihəsinin icrası, «Şahdəniz-2» layihəsinə start verilməsi xalqımız üçün, gələcək üçün böyük bir nailiyyət olacaq və ölkəmizin müstəqil inkişafını təmin edəcəkdir.

Biz 22 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Dünyaya, özümüzə sübut edə bilmişik ki, müstəqil ölkə kimi nəinki yaşaya, inkişaf da edə bilərik və dünya miqyasında çox sürətlə inkişaf edə bilərik. Bu bizim böyük nailiyyətimizdir, uğurumuzdur, xalqımızın qələbəsidir. Biz çalışmalıyıq ki, Azərbaycan bundan sonra da yalnız yüksələn xətlə inkişaf etsin.

Buna nail olmaq üçün, əlbəttə, hamımız çox fəal işləməliyik. Deyə bilərəm ki, cəmiyyətdə də çox gözəl ab-hava vardır. Cəmiyyət bizim siyasətimizə öz səsini əlavə edir. Bu dəstək olmasa idi, biz bu nailiyyətlərə çata bilməzdik. Ona görə gələcək illərlə bağlı konkret proqramların icrası nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil edilməlidir. Qeyri-neft sektorunun inkişafı davam etdirilməlidir. Yüksək texnologiyaların inkişafı təmin ediləcək.

Azərbaycan artıq kosmik dövlətdir. Kim bunu bir neçə il bundan əvvəl təsəvvür edə bilərdi?! Kim təsəvvür edə bilərdi ki,

bu gün o qədər də sayca böyük olmayan kosmik kluba Azərbaycan da üzv olacaqdır?! Yəni bu mümkündür. İradə, düşünülmüş siyasət və dövlət maraqları ön yerdə olan halda, bütün bu nailiyyətlərə çatmaq mümkündür.

Ona görə bizim müstəqillik illərindəki təcrübəmiz, bugünkü maliyyə vəziyyətimiz, hökm sürən sabitlik, ictimai-siyasi asayiş imkan verir ki, biz ölkəmizi uğurla inkişaf etdirək, inamla idarə edək. Dünyada, bölgədə yaşanan böhranlara baxmayaraq, biz öz yolumuzla gedirik. Bu yoldan bizi heç kim döndərə bilməz. Bizim yolumuz müstəqillik yoludur, inkişaf yoludur. Bu yolda əminəm ki, biz yeni qələbələrə nail olacağıq.

Bakı şəhərinin və xüsusilə onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının da çox böyük əhəmiyyəti vardır. Çünki Bakıda hələ bir çox infrastruktur layihələri icra edilməli idi. Xüsusilə qəsəbələrdə böyük işlər görülməli idi. Bu proqramın əsas mahiyyəti ondan ibarət idi ki, Bakı şəhərinin hər bir rayonunda ən müasir şərait yaradılsın. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyildir. Mərkəzdən uzaq olan yerlərdə də inkişaf getməlidir və gedir. Burada, foyedə nümayiş etdirilən stendlərdə son 2 il ərzində görülən işlər haqqında məlumat verilir.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair ikinci Dövlət Proqramı qısamüddətli proqram idi. Cəmi iki il yarımı əhatə edirdi. Mən başa düşürdüm ki, bu çox az bir müddətdir, 2 il yarım ərzində bütün məsələləri həll etmək mümkün deyildir. Ancaq qarşıya hədəf qoyulmuşdur ki, nə qədər mümkündürsə, Bakıda bütün problemlərin həllinə tez nail olaq.

Proqram qəbul olunandan sonra onun icrasına başlanılmışdır. Əlbəttə ki, dövlət büdcəsində Bakı şəhərinin və onun qəsəbələrinin inkişafı məsələləri öz əksini tapmışdır. Qısa müddət ərzində böyük işlər görülüb, infrastruktur layihəsi icra edilib. Bu gün Bakıda elektrik enerjisi ilə bağlı problemlər, demək olar ki, yoxdur. Yığımla bağlı problemlər yoxdur. Vaxtilə ən böyük problemlərdən biri də ödəməmələr idi. Dövlət

qurumları bir-birinə olan borcları ödəyə bilmirdi. Beləliklə, çox qeyri-sağlam vəziyyət yaranmışdı. Artıq bu, keçmişdə qaldı.

Qazlaşdırma ilə bağlı, demək olar ki, problem öz həllini tapmışdır. Bakı şəhəri təxminən 100 faizə yaxın qazlaşdırılıb. Qazlaşdırılmayan yerlərə də qaz çəkiləcəkdir. Su-kanalizasiya layihələrinin icrası istiqamətində genişmiqyaslı işlər başlamışdır. Bu işlər davam etdiriləcəkdir. Biz bu barədə danışacağıq.

Bakının istilik sisteminin bərpa edilməsi məsələsi kəskin şəkildə dayanmışdır. Çünki sovet vaxtında quraşdırılan avadanlıq sıradan çıxmışdır. Ondan sonra bəzi hallarda vətəndaşlar batareyaları kəsib kənara atmışlar. Ona görə bəzi yerlərdə bu günə qədər də istiliyi bərpa etmək çətindir. Ancaq buna baxmayaraq, bu istiqamətdə də işlər gedir.

Bakının yolları bərpa olunur, təmir edilir, yeni yollar açılır. İctimai zonalar yaradılır. Qəsəbələrlə bağlı kompleks tədbirlər icra edilir. Qəsəbələrin problemlərini biz bilirik. Mən Bakı qəsəbələrində tez-tez oluram. Biz problemləri dərindən öyrənirik və son 2 il ərzində onların bir hissəsi, deyə bilərəm ki, böyük hissəsi həll olunmuşdur. Qalan hissəni də biz yaxın illərdə həll edəcəyik. Qəsəbələrarası yolların tikintisi sürətlə gedir. Bu yollar təkcə qəsəbələrarası yollar deyil, bütövlükdə Bakı şəhərinə xidmət göstərir. Yeni yollar çəkilir, bərpa edilir, genişlənir. Yəni Bakıda yaşayan vətəndaşlar bunların hamısını yaxşı bilir. Bəlkə də bu barədə çox danışmağa ehtiyac yoxdur.

Ancaq biz kompleks şəkildə yanaşmışıq ki, qəsəbələrdə bütün məsələlər öz həllini tapsın. Məktəb, xəstəxana, yollar, su, kanalizasiya, işıq, qaz, iş yerləri, – bu məsələlərə də diqqət göstərilir. Əgər ilkin mərhələdə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə daha çox bölgələrə kreditlər ayrılmışdısa, hazırda Bakı qəsəbələrinə də güzəştli şərtlərlə böyük həcmdə kreditlər ayrılır.

Yəni biz bu istiqamətdə, yenə də demək istəyirəm ki, böyük işlər görmüşük. Görüləcək işlər çoxdur. Ona görə biz bu gün – ilin sonunda Bakı və onun qəsəbələrinin inkişaf proqramının

başa çatması ilə əlaqədar bu konfransı keçiririk. Burada indi vəzifəli şəxslər çıxış edəcəklər. Biz gələcək planlarımız haqqında fikir mübadiləsi aparacağıq.

## YEKUN NİTQİ

Burada səslənən çıxışlarda son 2 ildə proqramın icrası ilə bağlı məsələlər öz əksini tapmışdır. Bütövlükdə deyə bilərəm ki, bu proqramın icrası şəhərimizin abadlaşması üçün çox böyük addım oldu. Düzdür, proqramda nəzərdə tutulmuş bəzi məsələlər öz həllini tapmamışdır. Sadəcə olaraq, vaxt çatmadı. Bu məsələlər öz həllini tapacaqdır. Ancaq proqramda nəzərdə tutulmayan məsələlər sonra proqrama əlavə olundu.

Bir sözlə, deyə bilərəm ki, proqramın icrası müsbət olmuşdur. Əminəm ki, başa çatdıra bilmədiyimiz məsələləri də biz gələcək illərdə həll edəcəyik. Xüsusilə növbəti illərdə Bakının və onun qəsəbələrinin infrastruktur obyektlərinə daha da böyük diqqət göstərilməlidir. Elektrik enerjisi ilə təchizatda hazırda problem yoxdur. Son illər ərzində ölkəmizdə bir çox elektrik stansiyası tikilib. Deyə bilərəm ki, biz öz enerji potensialımızı böyük dərəcədə gücləndirə bilmişik. Son 10 il ərzində tikilən stansiyaların istehsal gücü mövcud potensialımızın təxminən 40 faizini təşkil edir. Əgər o stansiyalar tikilməsəydi, bu gün biz ölkəmizin uğurlu inkişafına nail ola bilməzdik. Ona görə 2004-cü ildən başlayaraq Azərbaycanda – bölgələrdə və eyni zamanda, Bakıda elektrik stansiyalarının tikintisi geniş vüsət almışdır. Beləliklə, biz bu problemi aradan qaldırmışıq.

Ancaq son 10 ildə elektrik enerjisinə olan tələbat böyük dərəcədə artmışdır. Bu da təbiidir. Çünki son 10 ildə həm iqtisadiyyat, sənaye artmışdır, həm də insanların rifah halı yaxşılaşmışdır. Əgər əvvəlki illərdə həm də bizdə qışda və yayda enerji sərfiyyatında fərq var idisə, indi bu fərq yoxdur. Nə üçün? Çünki əvvəlki illərdə yay aylarında daha az istifadə olunurdu. Ancaq son illərdə insanların yaşayış səviyyəsinin

yaxşılaşması nəticəsində, demək olar ki, vətəndaşlarımızın əksəriyyəti kondisionerlər əldə etmişlər və beləliklə, yayda da enerjiyə olan tələbat artmışdır.

Ancaq biz gələcəkdə yeni stansiyaların tikintisinə başlayacağıq. Bakı şəhərində və bölgələrdə yarımstansiyaların tikintisi də nəzərdə tutulmalıdır. Çünki bizim uğurlu inkişafımız bunu tələb edir. Tələbat artır və mövcud potensial tələbatdan çox, ondan böyük olmalıdır. Biz öz inkişaf dinamikamızı bilirik. Bilirik ki, 10 il bundan sonra Azərbaycan necə inkişaf edəcəkdir. Ona görə də yeni stansiyaların tikintisinə böyük ehtiyac vardır.

Hazırda Bakıda yeni böyük elektrik stansiyası tikilir – «Şimal-2». Ola bilər ki, bir dənə də böyük stansiyanın tikintisinə ehtiyac olacaqdır. Ötürücü xətlər də yenilənir. Ötürücü xətlərin yerin altına salınması prosesi də gedir. Biz buna da nail oluruq. Bir sözlə, elektrik təchizatı ilə hazırda şəhərdə heç bir problem yoxdur. Ancaq gələcəyə baxmaq lazımdır və daim bu sahə diqqət mərkəzində olmalıdır.

Qazlaşdırma da, demək olar ki, Bakı şəhərində öz həllini tapmışdır. Qazlaşdırma 96 faizdir. Qazlaşdırılmayan məntəqələr, yerlər də qazlaşdırılmalıdır ki, Bakı şəhəri 100 faiz qazla təmin edilsin.

Bütövlükdə ölkə üzrə qazlaşdırmanın templəri çox yüksəkdir. Biz təqribən 90 faizə yaxınlaşırıq. Hətta sovet dövründə qazlaşdırılmayan rayonlara, kəndlərə qaz xətləri çəkilir. Bu daha çox sosial xarakter daşıyan təşəbbüsdür. Biz bunu edirik, etməliyik ki, insanlar qazla təmin olunsunlar.

İçməli su və kanalizasiya layihələri isə bu gün deyə bilərəm ki, Bakı üçün, ölkəmiz üçün ən vacib olan məsələdir. İndi ölkə üzrə hər bir yerdə içməli su, kanalizasiya layihələri icra edilir. Bəzi rayon mərkəzlərində, şəhərlərdə artıq bu, icra edilibdir. Bu da tarixi nailiyyətdir. Çünki biz həmişə sudan əziyyət çəkirdik, su qıtlığını yaşayırdıq. Azərbaycanda kanalizasiya sistemi nasaz vəziyyətdə idi. İçməli su ilə də problemlər var idi, fasilələrlə verilirdi. Bu gün də hələ Bakının bir hissəsi fasilələrlə içməli su

alır. Yəni bu sahəyə də göstərilən diqqət öz nəticəsini verir. Ümid edirəm ki, növbəti illərdə bu məsələ tam şəkildə öz həllini tapacaq. Oğuz–Qəbələ–Bakı, Taxtakörpü su kəmərləri, su anbarları və gələcək illərdə görüləcək işlər imkan verəcəkdir ki, biz bu problemi tam şəkildə həll edək. Bakıda ən müasir standartlara cavab verən kanalizasiya sistemi və yeni su xətləri yaradılmalıdır, yaradılacaqdır və bu məsələ birdəfəlik öz həllini tapacaqdır.

Eyni zamanda, istilik sisteminin bərpası prosesi gedir. Hələ görüləsi işlər çoxdur. Biz çalışmalıyıq ki, Bakıda istiliyi 100 faiz təmin edək. Bu bir tərəfdən, sosial layihədir, digər tərəfdən istilik olan yerdə elektrik enerjisinə tələbat da azalır. Çünki qış aylarında qızdırıcılara ehtiyac qalmayacaq. Bu işlər kompleks şəkildə öz həllini tapacaq. Mən buna şübhə etmirəm. Sadəcə olaraq, istəyirəm ki, bu, tezliklə öz həllini tapsın. Vaxtilə elektrik enerjisi ilə olan problemlər də öz həllini tapmışdır. O vaxt mən demişdim ki, həm ölkə üzrə, o cümlədən Bakı şəhərində çətinliklər, problemlər var idi. «Bakıelektrikşəbəkə»ni biz dövlət nəzarətinə qaytardıq. Ondan sonra investisiya da qoyuldu və məsələ öz həllini tapmağa başladı. Çətinliklər hər yerdə vardır. Mən yaxşı xatırlayıram, o vaxt demişdim, elə olmalıdır ki, hər bir yerdə, hər bir evdə hər bir vətəndaş düyməni basıb elektrik enerjisindən istifadə etməlidirlər.

Eyni sözləri mən indi digər infrastruktur layihələrinə də aid edirəm. Elə olmalıdır ki, hər bir vətəndaş evində kranı açıb suyu ala bilsin, istilik də, qaz da, işıq da olmalıdır. Bu, hansısa böyük qəhrəmanlıq deyil, təbii ehtiyaclardır. Biz bunu təmin etməliyik. Vaxtilə bunlar olmayıb. Həmişə bizim vətəndaşlarımız əziyyət çəkiblər. Ancaq olmalıdır və olacaq. Azərbaycan kimi inkişafda olan ölkədə, Bakı kimi gözəl bir şəhərdə biz belə problemləri saxlaya bilmərik, buna dözə bilmərik.

Ona görə növbəti illərdə bu həm dövlət investisiya proqramında nəzərdə tutulacaq, həm də bütün işlər yüksək keyfiyyətlə və qısa müddət ərzində öz həllini tapmalıdır. Bakıda içməli su ilə təminat yaxşılaşıb. Son 2 il ərzində böyük inkişaf,

irəliləyiş vardır. Elə etməliyik ki, növbəti 3 il ərzində Bakı şəhərində su, kanalizasiya problemi olmasın. Bir daha demək istəyirəm ki, bütün bu işlər dünyanın ən yüksək standartlarına cavab verməlidir.

Burada lift təsərrüfatı haqqında söhbət açıldı. Bu da çox vacib məsələdir. Mən bir müddət bundan əvvəl maraqlandım ki, lift təsərrüfatı hansı vəziyyətdədir, bu sahədə vəziyyət necədir?! Mənə məlumat verildi ki, böyük problemlər var. Bəzi hallarda işləmir, köhnəlib, nasaz vəziyyətdədir. Ona görə qərar qəbul edildi ki, biz dünyanın aparıcı firmalarının istehsalı olan liftləri Bakıya gətirək. Nəinki Bakıda, Sumqayıt, Gəncə və Mingəçevir şəhərlərində də lift təsərrüfatı yenilənir. Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. İndi burada məlumat verildi ki, 1000 ədəd lift gətirilmişdir, quraşdırılır. Növbəti illərdə biz Bakının lift təsərrüfatını tam şəkildə yenidən qurmalıyıq. Bu da bundan sonra onilliklər ərzində bu məsələnin həllini təmin edəcəkdir.

Yaşayış binalarının həyətləri də abadlaşmalıdır. İndi Bakıda müxtəlif yerlərdə – bu gün bu barədə mən dedim – parklar, bağlar salınır. Elə etməliyik ki, insanların yaşadıqları evlərin həyətləri də abadlaşdırılsın, harada mümkündürsə kiçik idman meydançaları tikilsin. İnsanların rahatlığı üçün nə lazımdırsa biz bunu etməliyik və edəcəyik.

Bakının, xüsusilə onun qəsəbələrinin ən ciddi problemlərindən biri yol təsərrüfatıdır. Bakı qəsəbələrində bu proqram başlamazdan əvvəl əksər yollar torpaq yollar idi. Yağış yağan kimi, o yollar bərbad vəziyyətə düşürdü. Ümumiyyətlə, biz Bakıda, qəsəbələrdə torpaq yollarını aradan qaldırmalı idik və bu məqsədlə proqramda konkret tədbirlər planı nəzərdə tutulub. Düzdür, bu məsələlər kanalizasiya və su xətlərinin çəkilişi ilə uzlaşmalıdır. Çünki ilk növbədə, kommunikasiyalar çəkilməlidir, ondan sonra yollar salınmalıdır. Burada həm şəhər icra hakimiyyəti, həm də İqtisadiyyat və Sənaye Nazirliyi nəzarət edirlər ki, bu məsələlər paralel şəkildə öz həllini tapsın.

Qəsəbələrarası yollar yenidən qurulur. Biz artıq bunu görürük. Bu iş gələcəkdə davam etdiriləcəkdir. Qəsəbədaxili yollar bir qədər diqqətdən kənarda qalır. Ancaq qəsəbələrə tez-tez səfər edərkən vəziyyətlə maraqlanıram. Hələ ki, görüləsi işlər çoxdur. Biz çalışmalıyıq ki, Bakı qəsəbələrində daxili yolların hamısı asfalt yollar olsun. Orada bir dənə də torpaq yol qalmamalıdır. Ona görə növbəti proqramda bu məsələlər öz həllini tapmalıdır. Konkret hər qəsəbə üzrə proqramda göstərilməlidir ki, neçə kilometr yol çəkiləcəkdir. Bunun çəkilmə müddəti göstərilməlidir ki, bu məsələ də birdəfəlik öz həllini tapsın.

Şəhər nəqliyyatı ilə bağlı son illərdə irəliləyiş vardır. Artıq bir dənə də olsun köhnə marşrut avtobusu, marşrut taksisi yoxdur. Artıq onlar yaddan çıxır. Amma biz yaxşı xatırlayırıq ki, bu, şəhərə nə qədər yaraşmayan bir nəqliyyat vasitəsi idi. Yeni avtobuslar alınıbdır. Ancaq hesab edirəm ki, Bakı kimi gözəl şəhər üçün daha da gözəl avtobuslar gətirilməlidir. Mən artıq müvafiq göstərişlər vermişəm. İndi baxmaq lazımdır ki, ya özəl qurumlar, ya Nəqliyyat Nazirliyi, ya Bakı Şəhər İcra Hakimiyyəti, ya hər birisi bu işlə məşğul olsun. Mən burada istisna etmirəm ki, dövlət xətti ilə də yeni avtobusların gətirilməsi təmin edilə bilər. İnsanlar üçün lazım olan, insanları narahat edən məsələlərdə dövlət nəzarəti çox güclü olmalıdır. Ona görə biz Azərbaycanda strateji infrastrukturu dövlət nəzarəti altında saxlayırıq. «Azərsu», «Azəristilik», «Azəriqaz», əlbəttə ki, Neft Şirkəti, «Azərenerji», «Bakıelektrikşəbəkə», metro və digər sahələr dövlət nəzarətindədir.

Ona görə dövlət orada tarif siyasətini uğurla apara bilər. Bildiyiniz kimi, Azərbaycanda olan kommunal tariflər dünya miqyasında ən aşağı yerlərdədir. Dövlət investisiyaları da cəlb edilə bilər bu sahələrə. Ona görə şəhər nəqliyyatı ilə bağlı məsələyə baxmaq lazımdır, təkliflər verilməlidir. Xüsusilə əlavə avtobuslar, taksilər alınmalıdır ki, insanlar özlərini daha da rahat hiss etsinlər.

Metro tikintisi Azərbaycanda geniş vüsət almalıdır. Konkret proqram qəbul edilib. Metro tikintisi ilə bağlı xüsusi müşavirə də keçirmişdim. Hazırda bizdə 23 stansiya vardır. Son illərdə bir neçə stansiya tikilib. Ancaq proqrama əsasən 2035-ci ilə qədər Azərbaycanda, Bakıda 70 stansiya tikilməlidir. Deməli, hər il minimum 2 stansiya tikilməlidir. Buna biz nail olmalıyıq. Düzdür, bu çox böyük vəsait tələb edən, sırf sosial xarakter daşıyan məsələdir. Çünki bu gün metro tarifləri heç metronun ehtiyaclarının beşdə birini ödəmir. Dövlət tərəfindən subsidiyalar verilir. İstəyirəm bunu da əhali bilsin ki, metro ancaq dövlət subsidiyaları hesabına fəaliyyət göstərir. Əlbəttə, nə qədər çox stansiya tikilərsə, dövlət büdcəsinə bir o qədər də çox yük olacaqdır. Ancaq biz bu sahəyə digər kommunal sahələr kimi sosial prizmadan yanaşırıq.

Bizdə qaz tarifləri də ən aşağı səviyyədədir. Qonşu ölkələrlə müqayisədə bizdə qaz tarifləri aşağıdır. Su tarifləri də həmçinin, benzin də həmçinin, elektrik enerjisi də. Yəni bütün bunları dövlət tənzimləyir. Bütün bunlar dövlət tərəfindən ödənilir. O cümlədən metro tikintisi də dövlət investisiyası hesabına icra edilir. Metronun istismarı da bir daha demək istəyirəm ki, subsidiyalar əsasında öz həllini tapır.

Bizim planlarımız böyükdür. Çünki ictimai nəqliyyat elə rahat olmalıdır ki, insanlar daha çox ictimai nəqliyyatdan istifadə etsinlər. Düzdür, indi insanların rifah halı yaxşılaşır, biznes mühiti çox müsbətdir. Azərbaycana hər il 100 min, bəlkə ondan da çox avtomaşın idxal edilir. Yəni əgər rifah halı yaxşılaşmasaydı, bunların heç biri mümkün olmazdı. Əlbəttə, gətirilən 10 minlərlə, 100 minlərlə maşın yol infrastrukturuna əlavə təzyiq göstərir. Ona görə tıxaclar yaranır. Biz nə qədər yol qovşağı, tunel, yolötürücüsü tiksək də, yenə də bu təzyiq olacaqdır. Son 10 il ərzində onlarla tunel, yolötürücüsü, yol qovşağı, yeni yollar tikilmişdir. O yollar yox idi. Misal üçün, təbiidir ki, indi hər şey tez unudulur. Ancaq bu gün aeroportu şəhər ilə birləşdirən ikinci yol fəaliyyət göstərir ki, bu yol heç vaxt olmamışdır. Şəhərin içində nə qədər yol genişləndi. Aeroport yolu 2 dəfə genişləndi. Əgər genişlənməsəydi

nə olacaqdı?! Digər yerlər də, harada mümkündürsə biz yeni yolları, damarları açırıq ki, şəhər nəqliyyatı rahat fəaliyyət göstərsin. Biz bu prosesi gələcəkdə də davam etdirəcəyik. Yeni yol qovşaqlarının, yolların tikintisi nəzərdə tutulur. Ancaq ictimai nəqliyyat elə olmalıdır ki, insanlar rahat istifadə etsinlər. Onların içində metro ən ucuz, ən rahat nəqliyyat vasitəsidir. Metro tikintisi növbəti illərdə sürətlə aparılacaqdır.

Sosial infrastrukturun yaradılması ilə bağlı son illərdə böyük işlər görülmüşdür. Bakı şəhərində məktəblərin bərpası, tikintisi gedir. Məktəblərin böyük əksəriyyəti yüksək səviyyədə təmir edilmişdir. Ancaq təqribən 90-a yaxın məktəbdə təmir işləri aparılmalıdır. Hesab edirəm ki, əgər biz əvvəlki illərin templəri ilə getsək 2014-cü və 2015-ci illərdə Bakıda məktəb tikintisi, təmiri problemi tam aradan qalxacaqdır. Yeni təmir olunmuş məktəblər ən müasir avadanlıqlarla təmin edilir.

Uşaq bağçaları problemi çox ciddi problemdir. Xüsusilə son illərdə valideynlər uşaqlarını daha çox uşaq bağçalarına vermək istəyirlər. Bu da təbiidir. Çünki uşaq bağçaları çox yüksək səviyyədə təmir edilibdir. Ancaq bizim mövcud imkanlarımız hələ ki, məhduddur. Deyə bilərəm ki, uşaq bağçaları ilə təminat təqribən 20–25 faizdir. Ona görə biz növbəti illərdə uşaq bağçalarının tikintisinə, təmirinə böyük diqqət verməliyik. Yaxşı ki, vaxtilə – sovet dövründə həm məktəblər, həm uşaq bağçaları elə tikilmişdi ki, onların həyəti çox genişdir, böyükdür və orada yeni korpuslar tikmək mümkündür. Bu imkandan da istifadə etməliyik. Ondan sonra yeni yerlər müəyyən edilməlidir. Yeni yaşayış binaları, yeni massivlər tikilərkən orada məktəb və uşaq bağçası nəzərdə tutulmalıdır. Bunsuz tikinti üçün icazə verilməməlidir. Biz çalışmalıyıq, maksimum dərəcədə insanları uşaq bağçaları ilə təmin edək ki, bu məsələ də öz həllini tapsın.

Tibb ocaqları bərpa edilir, Bakı şəhərində yeniləri tikilir. 150-dən çox tibb müəssisəsi vardır. Onlardan son illər ərzində 41-i təmir edilib və tikilib, 13 müəssisədə təmir işləri gedir. Bakıda böyük Sağlamlıq Mərkəzi tikilir. Tibbi xidmət, əlbəttə ki, yüksək səviyyədə olmalıdır. Bu da sosial infrastrukturun

yaradılması deməkdir. Bu məsələ də daim diqqət mərkəzindədir. Qəbul ediləcək növbəti proqramda da, əlbəttə ki, bu məsələlər öz həllini tapacaqdır.

Ekoloji tədbirlər görülür və görüləcəkdir. Əfsuslar olsun ki, Bakıda 200 ilə yaxın davam edən neft istehsalı ekologiyaya böyük dərəcədə ziyan vurmuşdur. Bu ziyanı biz indi aradan götürürük. Bu çox çətin, çox böyük vəsait tələb edən məsələdir. Bakıda neftlə, digər tullantılarla çirklənmiş kifayət qədər yerlər vardır. Siz də bunu yaxşı bilirsiniz, mən də yaxşı bilirəm. Biz bu yerləri tədricən təmizləyirik, rekultivasiya aparılır. Bu gün çıxışlarda bu səsləndi.

Bu, böyük vəsait və vaxt tələb edir. Görülən işlər sübut edir ki, bu sahədə də biz uğurlara çatacağıq. Misal üçün, Bakının və dünyanın ən qədim neft mədənlərindən biri olan Bibiheybət mədənində indi təmizlik işləri aparılıbdır. İndi buruqların ətrafı təmizdir. Mən demişəm ki, orada ağaclar əkilsin, park salınsın. Bir neçə ildən sonra o buruqlar yaşıllıqlar arasında qalacaqdır.

«Ağ şəhər» layihəsinin icra olunduğu ərazidə vaxtilə Nobel qardaşlarının gördüyü işlər nəticəsində böyük çirklənmə olmuşdur. İndi o torpaqlar oradan çıxarılır, rekultivasiya işləri aparılır. Yeni şəhər içində yeni bir şəhər salınır.

Digər yerlərdə ekoloji tədbirlər görülür. Biz Balaxanıda tullantıların təmizlənməsinə nail ola bilmişik. Bu da hesab edirəm ki, böyük tarixi layihədir. Bu layihəyə başlayanda bir çoxları inanmırdı ki, biz buna nail olacağıq. Çünki siz də yaxşı xatırlayırsınız ki, orada tullantılarla əlaqədar yanğınlar nəticəsində bütün ətrafı tüstü bürüyürdü. Hazırda ora da təmiz bir yerdir, poliqondur. Dövlət hesabına Məişət tullantıları zavodu tikilmişdir. İndi məişət tullantılarının idarə edilməsi, utilizasiya ilə bağlı əlavə konkret tədbirlər görülür. Tullantıların insanların həyətlərindən götürülməyindən Məişət tullantıları zavoduna qədər bir zəncir qurulur. Əminəm ki, biz bu sahədə də lazımi səviyyəyə çatacağıq. Burada heç nə icad etmək lazım deyil. Sadəcə olaraq, inkişaf etmiş şəhərlərdə bu məsələlər necə

həll olunursa, Bakıda da bu məsələ o səviyyədə öz həllini tapmalıdır.

Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün digər tədbirlər də həyata keçirilir. Ağacəkmə tədbirləri görülür. Düzdür, son illər bu işlər bir az səngiyib. Hesab edirəm ki, biz buna yol verməməliyik. «Ekologiya ili»ndə daha çox ağac əkilmişdir. Yadımdadır, mən «Ekologiya ili» başa çatanda dedim ki, «Ekologiya ili» rəsmən başa çatır. Ancaq hər il «Ekologiya ili» olmalıdır. Ağacəkmə yaddan çıxmamalıdır. Yerli icra orqanları, bələdiyyələr lazımi vaxtlarda, mövsümdə bu işlərlə ciddi məşğul olsunlar. Biz Bakını daha da yaşıllaşdırmalıyıq. Bu proses daim getməlidir, yaddan çıxmamalıdır.

Bakının ekoloji vəziyyətini ağırlaşdıran o illər boyu mövcud olan göllərdir. O göllərə axıdılan sular çirkab sularıdır, lay sularıdır, neft mədənlərindən çıxan sulardır. Bu göllər həm ekoloji vəziyyəti korlayır, həm ümumi görüntünü pozur. Artıq vaxt gəlib çatıb ki, biz bu məsələ ilə də məşğul olaq. Bu da maliyyə baxımından çox ağır bir məsələdir. O göllərin təmizlənməsi məsələsi gündəlikdədir. Bəzi təkliflər var idi ki, göllər qurudulsun. Digər təkliflər var idi ki, təmizlənsin. Hər bir gölə fərdi qaydada yanaşmaq lazımdır. Deyə bilərəm, ictimaiyyət də bunu bilməlidir ki, biz əgər belə demək mümkünsə, ən ağır göldən – Böyük Şor gölünün təmizlənməsindən başlamaq istəyirik. Böyük Şor gölü 1000 hektarı əhatə edir. Bu çox nəhəng bir göldür. Ona görə təklif verilmişdir ki, biz bu gölü 2 yerə bölək. Göl üzərindən avtomobil yolu çəkiləcəkdir. Belə layihə vardır. Altızolaqlı avtomobil yolu çəkiləcək. Gölün birinci hissəsini – 300 hektar olan sahəni biz təmizləməliyik, şəffaf gölə çevirməliyik. Bu həm istirahət zonasına çevriləcəkdir, həm nəqliyyat üçün çox vacib bir infrastruktur olacaqdır. Bütövlükdə biz özümüzü bu işlərdə də sınamalıyıq. Yəni biz buna nail ola biləcəyik, yoxsa yox?

Bu günə qədər Azərbaycanda, Bakıda heç vaxt belə işlər görülməyib. Bizim də təcrübəmiz yoxdur. Əlbəttə ki, biz bu sahədə təcrübəsi olan xarici şirkətləri dəvət etmişik, onlarla

işləyəcəyik. Ancaq biz baxmalıyıq bu mümkündür, yoxsa yox. Çünki müxtəlif fərziyyələr, müxtəlif fikirlər var. Ona görə biz həm özümüzü sınamalıyıq, həm də ki, bu üsuldan istifadə etməliyik.

Əgər istədiyimizə nail ola bilsək, 2015-ci ilin yayına qədər Bakıda 300 hektarı əhatə edən gözəl, təmiz, şəffaf bir göl yaranacaqdır. Digər göllərlə bağlı həm şəhər icra hakimiyyəti, həm İqtisadiyyat və Sənaye Nazirliyi, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə işləsinlər, konkret təkliflər versinlər. Ola bilər, biz xüsusi proqram da qəbul edək ki, bu məsələlər də öz həllini tapsın və Bakının ekoloji məsələləri yüksək səviyyədə həll edilsin.

Bakıda ictimai zonaların yaradılması geniş vüsət alıb. Siz də, ictimaiyyət də bunu yaxşı bilir ki, Bakı ilə, Bakının inkişafı ilə bağlı əsas istiqamətlərdən biri də parkların, bağların salınmasıdır. Hesab edirəm ki, son illər ərzində bu sahədə də böyük nailiyyətlər əldə edilib. Bakı bulvarı yenidən qurulub, bərpa edilib. Bu gün dünya miqyasında ən rahat, gözəl istirahət zonalarından biridir. Bakı bulvarının uzadılması layihəsi də öz həllini tapmışdır, yeni bulvar, Bayraq Meydanı salınıb. Bayraq Meydanından Bibiheybət istiqamətinə yeni bulvar salınır. Bibiheybətin birinci, yəni bu tərəfdən birinci buruğuna qədər ərazidə gəzinti zolağı tikilir. Onun arxasında böyük Su İdmanı sarayı tikilir, orada digər idman qurğuları, incəsənət şəhərciyi olacaqdır. Digər istiqamətə – Dəniz vağzalından Neftayırma zavoduna qədər yeni bulvar yaradılır. Ümumiyyətlə, Neftayırma zavodundan Bibiheybət buruqlarına qədər yeni bulvarın uzunluğu təxminən 20 kilometr olacaqdır. Biz daha da uzağa gedə bilərdik, ancaq, bax, bu 2, necə deyərlər, sədd, yəni maneə elə bil ki, bizim qarşımızı kəsir. Neftayırma zavodunu biz indi köçürə bilmərik. Yeni Bakıda, Qaradağ rayonunda Neftayırma zavodunun tikintisi nəzərdə tutulur. O zavod tikiləndən sonra – hesab edirəm ki, təxminən 5 il çəkər – köhnə Neftayırma zavodunun köçürülməsi də mümkün olacaqdır və biz «Ağ

şəhər» və Zığ bulvarını uzadacağıq. Hazırda bizim bu planlarımız vardır, biz buna da nail olacağıq.

Yəni Bakıda ictimai yerlərin yaradılması prosesi sürətlə gedir. Deyə bilərəm ki, dünyanın heç bir şəhərində bu qədər ictimai yerlərin, parkların yaradılmasına diqqət göstərilmir. Biz hamımız yaxşı xatırlayırıq ki, Əl Oyunları sarayından Bayraq Meydanına qədər olan zonada sənaye müəssisələri, dağılmış zavodlar var idi. Mən məsələ qaldıranda ki, biz bunları köçürməliyik, burada bir gəzinti zonası yaratmalıyıq, bəziləri dedilər bu mümkün deyil, bunlar strateji əhəmiyyətli layihələrdir. Mən bilirdim bunlar hamısı yalan idi. Sadəcə olaraq, ora nəzarət edənlər istəmirdilər ki, o yerlər onların əlindən çıxsın. Bəlkə də istəyirdilər ki, gələcəkdə onları özəlləşdirsinlər, sonra o torpaqları satsınlar, binalar tikilsin. Mən bilirəm məsələ nə idi. Eyni məsələ biz Heydər Əliyev Mərkəzini tikəndə də ortaya çıxmışdı. Mənə deyirdilər ki, bu, strateji əhəmiyyəti olan bir zavoddur – əvvəllər leytenant Şmidt, sonra Səttərxan adlanan zavod. Mən oraya gedib baxanda gördüm ki, şüşələr dağılıb, divarlar sökülüb, heç nə yoxdur. Soruşdum, əgər bu əhəmiyyətlidirsə, şüşələr niyə sökülüb?! Dedilər ki, bu ventilyasiya üçün sökülüb. Bilirsiniz, belə olan halda güclü iradə göstərilməlidir və biz bu iradəni göstərdik.

Heydər Əliyev Mərkəzi bu gün dünya miqyasında ən gözəl memarlıq abidələrindən biridir. Yeni bulvar bu gün ən gözəl istirahət zonalarından biridir. İndi baxın, insanlar üçün nə qədər gözəl imkanlar yarandı. Bu gün hansı şəhərdə bu sahələrə bu qədər investisiya qoyulur? Ancaq Bakıda. Digər ictimai yerlərin yaradılması da, bax, bizim iradəmizi göstərir. Mərkəzi park – onu kimsə qış bulvarı adlandırırdı. Bilmirəm haradan çıxdı, sonradan da elə Qış bulvarı kimi tanınır, amma mən Qış bulvarının mənasını başa düşə bilmirəm, bu nə deməkdir. Yəni əgər qapalı bir yer olsaydı deyərdim ki, insanlar gəzmək üçün qışda oraya gedə bilərlər. Bunun adı Mərkəzi parkdır. Onun altında 4 min maşınlıq parkinq tikilib. Üstü də gözəl parkdır, gəzinti zonasıdır. Əgər biz o vaxt iradə göstərib o yerləri

yenidən qurmasaydıq nə olacaqdı?! Orada o küçə ilə maşınlar keçə bilmirdi. Füzuli küçəsindən o tərəfə – Dram Teatrına qədər bircərgəli sağ-sol yolda maşının keçməsi mümkün deyildi. İndi hər iki istiqamətə 4-5 zolaqlı yollar çəkilib. O sahələrlə bağlı bizim gələcək planlarımız da vardır. Orada köçürülən binaların yerində ictimai yerlər olmalıdır, ancaq ictimai yerlər. İndi harada ki, şəhərsalma qaydalarına uyğun olaraq köçürülmə baş verirsə, onların yerində ictimai yerlər, parklar salınmalıdır. Orada bir dənə də bina tikilməməlidir. Kim bina tikmək istəyirsə, iş adamları getsinlər harada indi köçürmə lazımdırsa, orada yaşayan vətəndaşlarla danışsınlar, anlaşsınlar, köçürsünlər, onların yerində bina tiksinlər. Biz Bakını parklar, bağlar şəhərinə çeviririk. Bakının artıq bir neçə mərkəzi vardır. Bu da deyə bilərəm ki, Bakının əlamətidir, xüsusiyyətidir. Burada abadlıq, gözəllik, rahatlıq və funksional tərəflər vəhdət təşkil etməlidir. Bu yaxınlarda biz Dədə Qorqud parkının açılışını qeyd etdik. Orada ilk dəfə olaraq süni göl yaradıldı, 6 hektarı əhatə edən böyük parkdır, gözəl gəzinti yerinə çevrilibdir. Biz parkın genişləndirilməsini də nəzərdə tuturuq. Yəni bütün bu işlər insanlara xidmət göstərir, şəhərimizi gözəlləşdirir və Bakıda yeni bir mühit yaradır.

Yeni yaşayış binalarının tikintisi ilə bağlı hesab edirəm ki, bu sahədə də daha ciddi nəzarət olmalıdır, özbaşınalıq olmamalıdır. Çünki hətta bu yaxınlarda yeni köçürülmüş ərazidə, hansı ki, ictimai yerlərin yaradılması nəzərdə tutulurdu, bir də gördüm ki, orada bina qaldırırlar. Zəng etdim Hacıbala Abutalıbova, dedim bu nə məsələdir? Dedi ki, belə şey ola bilməz. Dedim ki, gedin yoxlayın, necə ola bilməz?! Getdi yoxladı, gördü ki, bəli, qanunsuz bina qaldırırlar. O yer 2 həftə nəzarətsiz qaldı, dərhal kimsə gəlib orada bina qaldırmağa başladı. Təbii ki, dərhal söküldü və o binanı orada tikmək istəyən də öz payını almalıdır. Özbaşınalıq və anarxiya ola bilməz. Qanunsuz tikirlər, sonra da gəlirlər bunu qanunsuz yollarla sənədləşdirirlər. Şəhərimizin bütün memarlıq ansamblı pozulur.

Ona görə hesab edirəm ki, yeni yaşayış binalarının tikintisi ilə bağlı məhdudiyyət qoyulmalıdır. Hər bir layihə ciddi araşdırılmalıdır. Biz şəhərin mərkəzində bütövlükdə yeni binaların tikintisinə baxmalıyıq, bunları çox ciddi şəkildə məhdudlaşdırmalıyıq. Ona görə bu məsələlərə çox ciddi nəzarət olmalıdır və bu işlər planlı şəkildə görülməlidir.

Bakının gələcək inkişafı ilə bağlı şəhərsalma konsepsiyası vardır, təsdiq edilibdir. Bütün işlər onun əsasında görülməlidir.

Qəsəbələrlə bağlı artıq burada deyildi. Bu proqramın qəbul edilməsi əslində daha çox qəsəbələrin inkişafına hesablanmışdır. Bu gün də bu belədir və qəbul ediləcək növbəti proqramda da qəsəbələrin bütün problemləri öz həllini tapmalıdır və tapacaqdır. Qəsəbələrdə iş yerləri açılır, yeni müəssisələr yaradılır. Bu da çox müsbət haldır. Biz bunu da alqışlayırıq. Bu işlər dövlət tərəfindən veriləcək güzəştli kreditlər hesabına daha da sürətlə gedəcəkdir.

Bakı sənaye şəhəri kimi formalaşıb və təsadüfi deyildir ki, Bakıda çoxsaylı sənaye müəssisələri vardır. Onların bir hissəsi artıq köhnəlib, sıradan çıxıb. Biz onları köçürmüşük, sökmüşük. Onların yerində bayaq da qeyd etdiyim kimi, yeni, gözəl parklar, ictimai yerlər salınır. Ancaq, əlbəttə ki, iqtisadi inkişafımızın gələcək istiqaməti sənayeləşmə ilə bağlı olacaqdır. Bu barədə mən dəfələrlə demişəm ki, Azərbaycanda müasir sənaye kompleksləri tikilməlidir. Ancaq bu komplekslərin tikintisi üçün yerlər artıq müəyyən edilib. Sənaye mərkəzi Bakıdır, Sumqayıtdır, Gəncədir, Mingəçevirdir. Sənaye daha çox bu şəhərlərdə inkişaf edəcəkdir. Paytaxtın sənaye potensialının gücləndirilməsi ilə bağlı Bakıda, Qaradağ rayonunda bu işləri görmək üçün daha da yaxşı imkanlar vardır. Həm ərazi böyükdür, həm şəhərin mərkəzindən bir qədər aralıdır. Ona görə Bakıda, şəhərin mərkəzində sənaye müəssisələrinin yaradılması məqsədəuyğun deyildir. İşləməyən, havanı çirkləndirən sənaye müəssisələri ya bağlanmalıdır, ya onlara qarşı cəza tədbirləri görülməlidir. Ümumiyyətlə, biz ekologiyanı pozan müəssisələrin fəaliyyətinə yenidən

baxmalıyıq. Kim o müəssisələri işlədir, ya dövlət, ya özəl qurumlar buyursunlar getsinlər bütün ekoloji normalara riayət etsinlər.

Ona görə Bakının sənaye inkişafı ilə bağlı hesab edirəm ki, Qaradağ rayonunda böyük imkanlar var və bizim sənayemiz orada inkişaf edəcəkdir. Onsuz da orada həm Gəmiqayırma zavodu, həm yeni dəniz limanı tikilir. Orada digər böyük müəssisələr tikilmişdir. Gələcəkdə orada neftayırma, neft-kimya kompleksi tikiləcəkdir. Ona görə şəhər icra hakimiyyəti də bu məsələyə diqqət yetirsin ki, Bakı şəhərində böyük sənaye müəssisələrinin tikintisinə ehtiyac yoxdur.

Biz Ələt Dəniz Limanının tikintisini sürətləndirməliyik. Bu, böyük bir layihə olacaq, artıq icra edilir. Bizim potensialımız artır, Azərbaycan bir tranzit ölkəsi kimi, özünü təqdim edir. Bizim ərazimizdən istənilən istiqamətlər üzrə yükdaşımaları artır. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi yəqin ki, yaxın vaxtlarda başa çatacaq. Belə olan halda, əlbəttə ki, yeni dəniz ticarəti limanının tikintisi məsələsi gündəlikdədir. Sadəcə olaraq, biz bu işləri daha da sürətlə aparmalıyıq ki, tezliklə limanın birinci mərhələsi başa çatsın.

Birinci mərhələ başa çatan kimi, Bakının hazırkı dəniz limanı oraya köçürülməlidir. Bu gün Bakı limanının ərazisində də, bəri başdan deyirəm, ictimai zonalar olmalıdır. İndiki limanın ərazisində, ona bitişik ərazidə, Dəniz vağzalına bitişik ərazidə gözəl park olacaq. Beləliklə, biz bulvarı Dəniz vağzalından «Ağ şəhər» istiqamətinə olan bulvarla birləşdirəcəyik. Dediyim kimi, artıq orada «Ağ şəhər» istiqamətində bulvar tikilir. Nobel prospektindən dənizə qədər olan bütün binalar artıq yoxdur, onları vətəndaşlar görmürlər, çünki orada stendlər qoyulubdur. Müvəqqəti hasarlama aparılıbdır, ancaq o ərazi tam boşdur. Biz orada gözəl yeni bir istirahət zonası yaradırıq və beləliklə, bulvarı tam birləşdirəcəyik. Ona görə Ələt Dəniz Limanının birinci mərhələsinin istifadəyə verilməsi gələn ilin iyun ayına qədər olmalıdır. Gələn ilin iyun

ayından başlayaraq indiki dəniz limanında abadlıq işləri başlanmalıdır.

Bildiyiniz kimi, 2015-ci ildə Avropa oyunları keçiriləcəkdir. Bu oyunlara hazırlıq gələn il öz həlledici mərhələsinə qədəm qoyacaqdır. Bu oyunların çox böyük əhəmiyyəti vardır. Ona görə ki, I Avropa oyunlarıdır. Heç vaxt Avropa oyunları keçirilməmişdir. İlk dəfə Azərbaycanda keçiriləcəkdir. Bu, ölkəmizə Avropa idman aləmindən gələn hörmətin təzahürüdür, inamın əlamətidir. Biz, əlbəttə, çalışmalıyıq ki, bu oyunları ən yüksək səviyyədə keçirək. Hazırlıq işləri gedir. Gələn il biz həlledici fazaya başlayacağıq. Bakıda böyük idman qurğuları tikilir. Əslində o qurğuların tikintisi Avropa oyunları bizə veriləndən əvvəl başlanmışdır – Olimpiya stadionu, Milli Gimnastika Arenası, Su İdmanı sarayı, Stend Atıcılığı Mərkəzi. Ancaq, əlbəttə ki, bu obyektlər də Avropa oyunlarında öz sözünü deyəcəkdir.

Son illərdə bütövlükdə Bakıda müasir hotellərin tikintisi çox geniş vüsət almışdır. Deyə bilərəm ki, Bakı bəlkə bu sahədə də rekord həddə çatıbdır. 2 il ərzində Bakıda beşulduzlu 6 hotel açılmışdır. Bu, investorların inamının əlamətidir. Ancaq nəzərə alsaq ki, qonaqların sayı çoxalır, ölkəmiz haqqında məlumat bütün dünyaya yayılır və Bakıya gəlmək istəyənlərin sayı böyük dərəcədə artmışdır, gələcəkdə yeni hotellərin tikintisinə də ehtiyac olacaqdır. Ona görə şəhər icra hakimiyyəti yerləri müəyyən etməlidir. Şəhərsalma planına uyğun olaraq, üçulduzlu, dördulduzlu, əlbəttə ki, beşulduzlu hotellər də olmalıdır ki, bütün kateqoriyalı insanlar, onların maddi vəziyyətinə uyğun olaraq Bakıda rahat qala, şəhərimizlə tanış ola bilsinlər. Bir sözlə, görülən işlər doğrudan da çox əhəmiyyətlidir. İkinci proqramın icrası bir daha onu göstərir ki, Azərbaycanda istənilən məsələ öz həllini tapa bilər.

Biz gələn ildən Bakı şəhərinin və onun qəsəbələrinin sosial iqtisadi inkişafı Dövlət Proqramının üçüncü mərhələsinə də başlamalıyıq. Hesab edirəm ki, üçüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmayan məsələlər və

Bakının, onun qəsəbələrinin bütün infrastruktur, nəqliyyat, sosial problemləri öz həllini tapacaqdır.

Gələn ilin əvvəlində üçüncü Dövlət Proqramı qəbul edilməlidir. Şəhər icra hakimiyyəti, İqtisadiyyat və Sənaye Nazirliyi, aidiyyəti qurumlar bu istiqamətdə fəal işləyirlər. Proqramın, deməK olar ki, böyük hissəsi hazırdır. Bu gün burada Bakının bütün rayonlarının rəhbər işçiləri, bələdiyyə sədrləri, ictimaiyyətin nümayəndələri iştirak edirlər. Xahiş edirəm ki, hər bir qəsəbədən əlavə konkret təkliflər verilsin. Bilirəm ki, bu təkliflər verilibdir. Siz daha yaxşı bilirsiniz ki, insanları hansı məsələlər narahat edir. Elə etməliyik ki, 2014–2016-cı illər üzrə Dövlət Proqramı bütün məsələləri özündə ehtiva etsin, bir dənə də olsun məsələ diqqətdən kənarda qalmasın.

Beləliklə, gözəl şəhərimizin gələcək inkişafı və abadlaşması üçün yeni dövr başlayır. Bu işlərin görülməsində sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## YENİ RAMANA QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD GƏNCLƏRİN PEŞƏ REABİLİTASİYA MƏRKƏZİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Bakının Sabunçu rayonunun Yeni Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin yenidənqurmadan sonra açılışında iştirak etmişlər.*

*Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Odur ki, hazırda dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, prezident İlham Əliyevin ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə göstərdiyi diqqət insan amilinə verilən yüksək dəyərin nümunəsinə çevrilmişdir. Bu çərçivədə son illərdə əlilliyi olan şəxslərlə bağlı ölkə qanunvericiliyi təkmilləşdirilmiş, 10-a qədər yeni hüquqi-normativ akt qəbul edilmişdir. Dövlətimizin başçısının imzaladığı müvafiq fərman və sərəncamlara əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği hər il artırılır. Dövlət əlil vətəndaşların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət, texnikibərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunmasını həyata keçirir.*

*Əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin edilmişdir. Ötən illərdə 100 minlərlə əlil vətəndaşın sosial müdafiəsinin gücləndirilməsi və onların*

maddi təminatının yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlərə nail olunmuşdur. Bu dövrdə Qarabağ müharibəsində sağlamlığını itirənlərin və şəhid ailələrinin problemlərinin həlli həmişə diqqət mərkəzində saxlanılmışdır. Prezident İlham Əliyevin göstərişləri və sərəncamları əsasında bu kateqoriyadan olan vətəndaşların mənzillə təmin olunması məqsədilə son bir neçə ildə paytaxtda və regionlarda yeni çoxmənzilli yaşayış binaları, o cümlədən fərdi evlər tikilmişdir.

Dövlətin əlil vətəndaşlara qayğısı çərçivəsində yeni reabilitasiya mərkəzləri də tikilmişdir. Paytaxtın Sabunçu rayonunun Ramana qəsəbəsindəki Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində yaradılan şərait də bir daha sağlamlıq imkanları məhdud insanların dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu nümayiş etdirir.

Dövlətimizin başçısı və xanımı mərkəzdə yaradılan şəraitlə tanış oldular.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov bildirdi ki, nazirliyin tabeliyində olan, əvvəllər Gənc Əlillərin Əmək və İstirahət evi adlanan bu müəssisə 1990-cı ildə 2 saylı internat evinin bazasında yaradılmışdır. Müxtəlif sahələrdə əmək vərdişləri qazanmaq üçün ayrı-ayrı bölgələrdən buraya gələn əlillər sonralar yaşadıqları rayonların Ermənistan tərəfindən işğal olunduğuna, həmçinin ailə qurduqlarına görə burada məskunlaşıblar.

Məlumat verildi ki, 2011-ci ildə burada əsaslı təmir və yenidənqurma işlərinə başlanılmışdır. Əsas məqsəd əlilliyi olan şəxslərin səmərəli peşə hazırlığını təmin etmək üçün müvafiq şəraitin yaradılması idi.

Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi əsas və çoxfunksiyalı binadan ibarətdir. Tibbi korpusda sağlamlıq imkanları məhdud gənclər reabilitasiya keçəcəklər. Korpus ən müasir tibbi avadanlıqla təchiz olunub. Mərkəzin digər korpusunda ayrı-ayrı bölgələrdən gələn əlillərin qalması üçün 53 otaq var. Bu otaqların hamısında yüksək şərait yaradılıb. Mərkəzdə kompüter, toxuculuq, xalçaçılıq, rəssamlıq

*və digər sahələr üzrə peşə hazırlığı, həmçinin musiqi və bədii yaradıcılıq otaqları var.*

*Mərkəzdə hər kurs müddətində 200 gəncin peşə hazırlığı təmin ediləcəkdir. Ümumiyyətlə, il ərzində mərkəzdə 800-dən çox şəxs peşə hazırlığına cəlb olunacaqdır. Mərkəz əlilliyi olan gənclərin peşə reabilitasiyasını təmin etməklə, onların məşğulluğu üçün imkanlar yaradacaqdır.*

*Azərbaycanda sosial proqramların icra olunmasında Heydər Əliyev Fondu da fəal iştirak edir. Fondun təşəbbüsü ilə Şağan qəsəbəsində 3 saylı və Saray qəsəbəsində 7 saylı əlil uşaqlar üçün internat evləri yüksək səviyyədə yenidən qurularaq istifadəyə verilib.*

*Yenidən qurulan mərkəzin idman korpusunda trenajor, stolüstü oyunlar və konfrans zalları da vardır.*

*Mərkəzlə tanışlıqdan sonra Azərbaycan Prezidenti və xanımı sağlamlıq imkanları məhdud insanlarla görüşdülər.*

*Dövlətimizin başçısı sağlamlıq imkanları məhdud gəncləri mərkəzin açılışı münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Mən sizi bu gözəl mərkəzin yenidən açılması münasibətilə təbrik edirəm. Tanış oldum, bütün şərait vardır. Burada həm reabilitasiya, həm peşə hazırlığı yüksək səviyyədə təşkil olunacaqdır. Artıq Bakıda fiziki imkanları məhdud olan gənclər üçün gözəl reabilitasiya və peşə mərkəzi yaradılıbdır. Əminəm ki, bizim gənclərimiz bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər. Burada həm reabilitasiya kursları keçiriləcəkdir, həm də peşə sahibi olmaq üçün gözəl imkanlar vardır, qalmaq, işləmək üçün yüksək şərait yaradılıb.

Əslində, belə mərkəzlərin yaradılması Azərbaycanda güclü sosial siyasətin aparılması deməkdir. Mən dəfələrlə demişəm ki, Azərbaycan sosial dövlətdir. Baxmayaraq ki, biz artıq 22 ildir bazar iqtisadiyyatı şəraitində yaşayırıq, sosial siyasət daim diqqət mərkəzində olmalıdır. Ümumiyyətlə, hesab edirəm ki, Azərbaycanın təcrübəsi, bu sahədə əldə edilmiş təcrübə başqa ölkələr üçün də maraqlı ola bilər. Çünki biz keçid dövrünü başa çatdırmışıq. Biz sovet sistemində yaşamışıq. Ondan sonra bazar

iqtisadiyyatı sisteminə keçmişik. Ancaq biz vacib olan bütün sosial əlamətləri saxlamışıq və onları gücləndirmişik.

Ona görə əsaslı iqtisadi islahatların aparılması ilə bərabər, güclü sosial siyasətin həyata keçirilməsi bugünkü reallıqları müəyyən edir. Əlbəttə ki, gələcəkdə bu sahəyə diqqət daha da böyük olacaqdır. Çünki bizim maliyyə imkanlarımız yaxşılaşır, iqtisadiyyat artır. Güclü iqtisadiyyatı olan ölkələrdə, əlbəttə ki, sosial məsələlər də uğurla həll olunur. Maaşlar, pensiyalar qaldırılır, sosial obyektlər tikilir, bir neçə ay bundan əvvəl Bakıda «Qocalar evi» açılıb. Orada da gözəl şərait yaradılıb. Bu mərkəz gənclər üçün nəzərdə tutulur və biz sosial məsələlərin həlli üçün bundan sonra da böyük addımlar atacağıq.

Əminəm ki, bu sahə ilə bağlı bizim bütün planlarımız həyatda öz əksini tapacaqdır. Sosial sahə hər bir ölkə üçün vacib olan sahədir. Sosial sahə hər bir insana təsir edir. Onun yaşayış səviyyəsinə təsir edir. Burada həm dövlət siyasəti düzgün aparılmalıdır, eyni zamanda, cəmiyyət də bu sahədə dövlətlə bir yerdə olmalıdır.

Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibət müsbətdir. Bu, cəmiyyətimizin xüsusiyyətidir. Heç də hər yerdə belə deyildir. Dövlət siyasəti də bu istiqamətdə aparılır. Burada müxtəlif peşələrə sahib ola biləcək gənclərin gələcəkdə işlə təmin edilməsi üçün də biz gərək səylərimizi əsirgəməyək. Burada təlim kursları keçəcək insanların gələcək taleyi ilə də biz gərək maraqlanaq. Dövlət və özəl müəssisələrdə əlillərin işlə təmin edilməsi məsələləri qanunvericiliklə tənzimlənir. Ancaq həyatda heç də hər zaman buna riayət edilmir. Ona görə hesab edirəm ki, burada həm ciddi nəzarət olmalıdır, eyni zamanda, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsi də öyrənilməlidir. O təcrübə müsbətdir. Biz o təcrübəni Azərbaycanda tətbiq etməliyik ki, fiziki imkanları məhdud olan insanlar, xüsusilə gənclər cəmiyyətdə özlərini rahat hiss etsinlər, cəmiyyətdən təcrid edilməsinlər və cəmiyyətin fəal üzvləri olsunlar.

İndi gənclər cəmiyyətimizin ən fəal üzvləridir. Bütün gənclər özlərini rahat hiss etməli, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər. Bizim gənclərimiz vətənpərvərdir, Vətənə bağlı olan gənclərdir, biliyə, savada çox meyillidirlər. Bu gün hesab edirəm, hər kəs dərk edir ki, yüksək bilik olmasa, cəmiyyətdə layiqli yer tutmaq mümkün olmayacaqdır.

Dövlət bundan sonra da bu sahədə öz siyasətini aparacaqdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılan islahatlar qısa müddət ərzində öz müsbət nəticələrini verəcəkdir. Hər bir sahə üzrə təmizlik, şəffaflıq, ədalət əsas prinsiplər olacaqdır. Əminəm ki, hər bir vətəndaş, xüsusilə əlil, fiziki imkanları məhdud olan vətəndaş bunu hiss edəcəkdir.

Bizim sosial sahə ilə bağlı fəaliyyətimiz çox genişdir. Sosial proqramların icra edilməsi, sosial infrastrukturun yaradılması, məktəb, xəstəxana tikintisi, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması – bütün bunlar sosial sahəyə aid olan məsələlərdir. Biz çalışırıq imkan daxilində bu sahədə maksimum nəticəni əldə edək. Xüsusilə ən ağır vəziyyətdə yaşayanlara biz dövlət olaraq daim arxa, dayaq olmalıyıq.

Bilirsiniz ki, məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaq və məşğulluğu artırmaq üçün dövlət proqramları icra edilir. Hər il 20 min köçkün yeni mənzillərə yerləşdirilir. Demək olar ki, hər il Azərbaycanda bir orta səviyyəli şəhər yaradılır. Çadır şəhərcikləri ləğv edilibdir və yeni mənzillər verilir. Fiziki imkanları məhdud olan şəxslərə, Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə dövlət tərəfindən hər il mənzillər, minik maşınları verilir. Dünən növbəti sərəncam imzalanmışdır. Prezidentin ehtiyat fondundan 5 milyon manat ayrılmışdır ki, bu da növbədə duranların problemlərini həll etsin. Gələn il də müəyyən məbləğ ayrılacaqdır. Beləliklə, minik maşınlarına olan tələbat tam təmin ediləcəkdir.

Yəni bütün bunlar sosial sahəyə aid olan məsələlərdir. Sosial sahə hər bir ölkənin, dövlətin qüdrətini əks etdirir. Əlbəttə, bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Ona görə sosial sahəyə ayrılan vəsait də artır. Ancaq hətta bizim maddi

imkanlarımız məhdud olan dövrdə də sosial sahəyə daim diqqət göstərilmişdir.

İndi bəzi inkişaf etmiş ölkələrdə sosial proqramlar ixtisar edilir, maaşlar kəsilir, iş yerləri ixtisara düşür. Ancaq Azərbaycanda istənilən dövrdə, hətta böhranlı illərdə də maaşlar, pensiyalar, sosial müavinətlərin məbləğləri artmış və sosial proqramların heç biri təxirə salınmamışdır. Nəzərə almalıyıq ki, bizim bundan sonra da iqtisadi inkişafımız uğurlu və sürətli olacaqdır. Əlbəttə, gələcək illərdə sosial məsələlərin həlli üçün bizdə daha da yaxşı imkanlar olacaqdır.

Bax, belə gözəl mərkəzlərin yaradılması dövlətimizin qüdrətini göstərir. Biz müstəqil, güclü dövlətdə yaşayırıq. Fəxr edirik ki, bu dövlətdə yaşayırıq. Hamımız elə etməliyik ki, bu dövlət daim inkişafda, yüksəlişdə olsun. Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm.

**Görüş iştirakçıları:** Çox sağ olun. Təşəkkür edirik.

**Vüqar Xəlilov** *(I qrup əlil):* Sizi əlillər adından salamlayırıq, hörmət və ehtiramımızı bildiririk, xoş gəlmisiniz! Siz keçən il ad gününüzdə Sumqayıtdakı tədbirdə iştirak etmişdiniz. Çox sağ olun, minnətdarıq. Sizin qayğınızı, diqqətinizi hər bir zaman hiss edirik.

Siz ulu öndərimizin siyasətini uğurla davam etdirirsiniz. Dövlətimiz gündən-günə möhkəmlənir, qüdrətlənir, inkişaf edir. Hər bir işin səbəbkarı, memarı Sizsiniz. Biz də onun bəhrəsini görürük. Bugünkü açılış da buna misaldır. Mən burada 1990-cı ildən yaşayıram, buraya köçmüşəm. Vallah, naşükürlük olmasın, bilsəydim bura belə olacaq, evimi atıb gəlib burada qalardım. Çox gözəldir, yaraşıqlıdır. Allah Sizə kömək olsun. İşlərinizdə uğurlar arzulayırıq.

Bu gün əlamətdar günlərdən biridir. Siz həmişə olduğu kimi, öz ad gününüzü bizlərlə keçirirsiniz, bizə şərəf verirsiniz. Sizə minnətdarıq. Sizi təbrik edirik, yeni-yeni uğurlar arzulayırıq. Sizi qarşıdan gələn 31 dekabr – Həmrəylik Günü, Yeni il münasibətilə təbrik edirik.

**Q ə n i r ə   Ə b i l o v a** *(I qrup əlil):* Gəlişinizə çox sevindik. Sizin ad gününüzü ürəkdən təbrik edirik. Vaxtınızı çox almaq istəmirəm. Mən Cəbrayıl rayonundanam. 1992-ci ildə orada müharibə gedirdi. Həmin ərəfədə mən müalicə almaq üçün buraya gəldim. O vaxtdan da burada yaşadım. 2012-ci ildə mənə verilmiş evin qapısını açıb içəri girəndə Sizə ürəkdən təşəkkürümü bildirdim.

Siz and içib bayrağımızı öpəndə belə bir söz demişdiniz: «Mən hər birinizin prezidenti olacağam». Mən evimin qapısını açıb içəri girəndə dedim ki, Prezidentimiz sözünə sadiq qaldı. Bu qayğı və diqqətə görə çox sağ olun!

Hər dəfə yolum Bakıya düşəndə şəhərimizin çox gözəlləşdiyini görürəm. Dünən də buraya gələrkən gördüm ki, şəhərimiz nə qədər gözəlləşib. Çox sevinirəm. Allaha and olsun, gələ-gələ belə dua etmişəm: «Ya Rəbbim, Prezidentimiz başda olmaqla, ölkəmizi pis gözdən, pis xatalardan, fəlakətlərdən, nəfsdən qoru. Hamımızın, bacımızın, qardaşımızın hər kəsin övladı bu gözəl ölkəmizdə xoşbəxt yaşasın».

Burada yaşadığım dövrdə biz kurslar keçdik. Mən nənəmdən, anamdan öyrəndiyim xalça sənətini burada daha da təkmilləşdirdim. İstəyirəm ki, başqa əlillər də mənim kimi, cəmiyyətdə öz yerlərini tutsunlar. Bayaq Siz qeyd etdiniz, onlar bir küncə qısılıb qalmasınlar. Kimin nə qabiliyyəti var ortaya qoysun, özünü həyatda sübut etsin.

**İ l h a m   Ə l i y e v:** Ona görə mən dedim ki, həm dövlət qurumları, həm özəl qurumlar gərək əlilləri işə götürərkən ayrı-seçkiliyə yol verməsinlər. Bir də demək istəyirəm ki, inkişaf etmiş ölkələrdə gözəl təcrübə vardır. Orada müəyyən güzəştlər, digər üstünlüklər var ki, hansısa bir şirkət fiziki imkanı məhdud olan insanları işə götürəndə o güzəştlərdən istifadə edir. Ona görə biz də gərək bu sahəyə diqqət yetirək.

Bu mərkəzin açılması çox əlamətdar hadisədir. Siz də vaxtilə burada olmusunuz, indi o fərqi görürsünüz. Ancaq burada hansısa bir peşəyə sahib olan gənc gələcəkdə də gərək işlə təmin edilsin. Ona görə burada fəaliyyət göstərəcək gənclərin

gələcək həyatı da diqqət mərkəzində olmalıdır. Yəni biz gərək izləyək ki, onlar bundan sonra hansı işlə təmin olunurlar, necə yaşayırlar ki, cəmiyyətdən kənarda qalmasınlar. Cəmiyyət və dövlət onları elə bir qayğı ilə əhatə etməlidir ki, özlərini rahat hiss etsinlər, yəni cəmiyyətdən ayrı düşməsinlər.

Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır və mən bunu dəfələrlə bəyan etmişəm. Bu sadəcə, sözlər deyildir, bu reallıqdır, siyasətdir. Azərbaycan inamla irəli gedir. Cəmiyyətdə heç bir qarşıdurma, ziddiyyət yoxdur. Cəmiyyətdə həmrəylik və birlik vardır. Biz bir amal ətrafında birləşmişik ki, ölkəmizi daha da inkişaf etdirək, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın gücü artsın, dünyadakı mövqeləri möhkəmlənsin, sosial məsələlər həll olunsun, iqtisadiyyat inkişaf etsin və biz müstəqil ölkə kimi əbədi yaşayaq.

Buna nail olmaq üçün güclü dövlət olmalıdır. İndi mən görürəm ki, siz də siyasi proseslərə biganə deyilsiniz. Baxırsınız, dünyanı görürsünüz. Elə ölkələr var ki, müstəqil yaşaya bilmir. Yaxud da ki, böyük çətinliklər içində yaşayır. Xaricdən yardım olmadan o ölkələr yaşaya bilmir. Əlbəttə ki, o ölkələrin gələcək müstəqil taleyi şübhə altına düşə bilər. Çünki müstəqillik sadəcə olaraq, dövlət atributu deyildir.

Biz çalışmışıq və bundan sonra çalışacağıq ki, Azərbaycanı daha da möhkəmləndirək. Bu gün bizə heç kim təsir edə bilməz. Ancaq Azərbaycan xalqının iradəsi Azərbaycanın inkişafını müəyyən edir. Ona görə daha da güclü, daha da möhkəm olmalıyıq. Buna nail olmaq üçün bütün imkanlar vardır. Cəmiyyətdə, bir daha demək istəyirəm ki, həmrəylik, birlik vardır. Sosial proqramlar icra edilir, iqtisadi islahatlar aparılır. Bu yaxınlarda böyük qaz layihəsinə start verdik. Bu bundan sonra ən azı 100 il Azərbaycanın iqtisadi inkişafını təmin edəcəkdir.

Beynəlxalq mövqelərimiz güclüdür. Bizimlə əməkdaşlıq, dostluq etmək istəyən ölkələrin sayı durmadan artır. Biz öz müstəqil həyatımızı, öz vətəndaşlarımızı qoruyuruq. Hər bir

vətəndaşın taleyi, onun qayğıları, problemləri dövlətin diqqət mərkəzində olmalıdır.

Güclü dövlətləri başqalarından fərqləndirən bu amillərdir. Harada yaşamasından asılı olmayaraq – Azərbaycanda, yaxud da ki, başqa ölkələrdə – biz öz vətəndaşlarımızı heç vaxt darda qoymuruq, qoymayacağıq. İmkan daxilində onların bütün problemlərini həll etməyə çalışacağıq.

Əlbəttə ki, ölkə daxilində belə mərkəzlərin yaradılması, bilirsiniz, doğrudan da böyük hadisədir. Çünki ən ağır vəziyyətdə yaşayanlar üçün biz belə şərait yaratmalıyıq. Mən demişəm ki, internat məktəbləri, kimsəsiz uşaqlar üçün tikilən mərkəzlər, uşaq evləri, qocalar evi, bax, bu mərkəz kimi, ən yüksək səviyyədə olmalıdır. Çünki bizim vətəndaşlar buna layiqdir və belə şəraitdə yaşamalıdırlar, işləməlidirlər. Deyə bilərəm ki, bu gün ölkədə tikilən bütün sosial obyektlər gözəl səviyyədədir. Bu indi Azərbaycan standartlarıdır.

*Prezident İlham Əliyev ölkədə həyata keçirilən sosial islahatların davamlı olacağını vurğulayaraq ədalət prinsipinin cəmiyyətdə mühüm meyarlardan biri olduğunu qeyd edərək dedi:*

– Bəzi hallarda ədalət pozulur. Ədalət pozulduqda insanların inamı itir. Çünki ən böyük problem odur ki, beynəlxalq əlaqələrdə, ölkələr arasındakı münasibətlərdə və istənilən sahədə ədalət pozulur. Ona görə hər yerdə ədalət olmalıdır.

Mən bilirəm, yəqin siz də, ictimaiyyət də bilir, ünvanlı sosial yardım ilə bağlı problemlər var idi. Onlar aradan qaldırılacaq. Ədalətsizliyə yol verilirdi. Yardıma ehtiyacı olanlar yardım ala bilmirdilər. Ehtiyacı olmayanlara müəyyən şərtlərlə yardımlar verilirdi. Mən dəfələrlə vətəndaşlara müraciət etmişəm ki, xoşagəlməz hallar haqqında, ədalət pozulduqda məlumat versinlər.

Mən əminəm ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bütün xoşagəlməz halları yaxın zamanda aradan götürəcəkdir. Artıq işlər başlanmışdır. Ciddi təmizlik işləri aparılır, rüşvətə, korrupsiyaya bulaşmış məmurlar işdən çıxa-

rılır. Mən bunu alqışlayıram. Hər bir yerdə belə olmalıdır. Ədalət və eyni münasibət hamıya olmalıdır və olacaqdır.

Bilirsiniz, beynəlxalq əlaqələrdə də, beynəlxalq məsələlərdə də ədalət pozulur. Bizim Qarabağ kimi problemimiz ona görə həll edilmir ki, ədalət yoxdur.

**Q ə n i r ə  Ə b i l o v a:** İnşallah, ondan da sevinək.

**İ l h a m  Ə l i y e v:** Ədalət yoxdur, əlbəttə. Beynəlxalq hüquq, ədalət, tarixi ədalət pozulur. Ancaq bəzi ermənipərəst qüvvələr bunu görmək istəmirlər. Ədaləti bərpa edəcəyik, həm ölkə daxilində, həm beynəlxalq müstəvidə.

Ona görə istəyirəm ki, bu gün məni bütün məmurlar bir daha eşitsinlər. Mən bu barədə dəfələrlə demişəm. Azərbaycan dövləti korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da çox ciddi və güzəştsiz, amansız mübarizə aparacaqdır. Ədalət prinsipləri hər yerdə bərqərar olmalıdır. Həyatda, ailədə və cəmiyyətdə ədalət həmişə zəfər çalmalıdır. Ulu öndər Heydər Əliyev bunu hələ keçən əsrin 70-ci illərində demişdi.

**Q ə n i r ə  Ə b i l o v a:** Allah rəhmət etsin. 2 dəfə görüşmüşəm.

**İ l h a m  Ə l i y e v:** Dahi Nizaminin kəlamıdır: «Qoy ədalət zəfər çalsın». Bu gün də aktualdır. Hər bir ölkə üçün aktualdır, təkcə Azərbaycan üçün yox. Amma biz Azərbaycanda nümunəvi cəmiyyət formalaşdırırıq. Ona görə burada xoşagəlməz hallara yer olmamalıdır.

**Ş ü k u f ə  Y u n u s o v a** *(I qrup əlil):* Bütün əlillər adından Sizə, həmçinin Mehriban xanıma böyük təşəkkür edirik. Allah Sizlərə yar olsun. Allah Sizə kömək olsun. Allah Sizlərə cansağlığı versin.

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində sizi ürəkdən salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Mənəvi birliyimizin rəmzinə çevrilmiş bu bayram soydaşlarımızın qəlbindəki Vətən sevgisi və milli təəssübkeşlik duyğularını təcəssüm etdirir. Dünya azərbaycanlılarının həmrəyliyi hazırda özünü təkcə emosional hiss və duyğularda deyil, həm də daha çox real məzmuna malik milli-siyasi birlikdə, əməli addımlarda və konkret nəticələrdə göstərir. Azərbaycanlılar arasında həmrəyliyin daha da möhkəmlənməsi və diaspor qurumlarının təsirli qüvvəyə çevrilməsi prosesi uğurla davam edir. Son illərdə xarici ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının təminatı, Azərbaycan haqqında obyektiv məlumatların yayılması və dövlət maraqlarının qorunması sahəsində diaspor təşkilatlarının rolu xeyli artmışdır. Dövlətimiz diaspor təşkilatlarına bu istiqamətdə indiyə qədər verdiyi dəstəyi bundan sonra da davam etdirəcək.

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs əsasında həyata keçirdiyimiz ardıcıl islahatlar hazırda bütün sahələrdə mütərəqqi dəyişikliklərə gətirib çıxarmış, ölkəmiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Fərəhləndirici haldır ki, bu ilin əvvəlində biz «Azərspace-1» milli peykini orbitə çıxararaq dünyanın kosmik dövlətləri sırasına qoşulduq. Bu günlərdə isə Bakıda Avropanın aparıcı neft-qaz şirkətləri ilə imzalanmış «Şahdəniz-2» enerji sazişi Azərbaycanın uzunmüddətli və dayanıqlı tərəqqisi yolunda aydın üfüqlər açır. Haqlı olaraq XXI əsrin müqaviləsi adlandırılan bu möhtəşəm layihə 1994-cü ildə

imzalanmış «Əsrin kontraktı» kimi, Avropanın enerji təminatı xəritəsində əsaslı dəyişiklik edəcək və dövlətimizin beynəlxalq rolunu daha da gücləndirəcəkdir.

Azərbaycanda son 10 ildə sosial-iqtisadi sahədə baş vermiş güclü sıçrayış cəmiyyət həyatının bütün sahələrinə müsbət təsir göstərmiş, ictimai-siyasi proseslərin sağlam məcraya yönəlməsini şərtləndirmişdir. Respublikamız demokratiya yolu ilə inamla addımlayır, ölkədə siyasi plüralizm, insan hüquq və azadlıqları təmin edilir, vətəndaş cəmiyyətinin inkişafına geniş şərait yaradılır. Bu il keçirilmiş prezident seçkiləri göstərdi ki, Azərbaycanda siyasi mədəniyyətin səviyyəsi yüksəkdir və davam etdirilən strateji kurs xalqın iradəsinə söykənir.

Hazırda Azərbaycan bölgədə həm də beynəlxalq iqtisadi, siyasi, humanitar tədbirlərin və idman yarışlarının keçirildiyi əsas mərkəzə çevrilmişdir. Ölkəmiz dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Azərbaycanın 2 il ərzində BMT Təhlükəsizlik Şurasında təmsil olunması isə dövlətimizin nüfuzuna və yürütdüyü siyasətə dünya birliyinin verdiyi yüksək qiymətin əyani təzahürüdür.

Uğurlarımızla bərabər, qeyd etməliyəm ki, qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası kimi taleyüklü vəzifə dayanır. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə nail olmaq üçün qarşı tərəflə danışıqları davam etdiririk. Hesab edirəm ki, harada yaşamalarından asılı olmayaraq dünya azərbaycanlıları da bu işə öz dəstəklərini verməlidir.

Bir reallığı da qeyd etməliyəm ki, müasir dünyada yaşanan qlobal proseslər müsbət meyillərlə yanaşı, ölkələrin milli inkişafına, xalqların milli-mənəvi dəyərlərinin qorunmasına bir çox problemlər də yaradır. Belə şəraitdə dünya ölkələrində yaşayan həmvətənlərimizin həmrəyliyi güclənməli, diaspor qurumlarının fəaliyyəti daha mütəşəkkil və çevik olmalıdır. Birliyimizin və həmrəyliyimizin əsasında dayanan müstəqil Azərbaycan Respublikasının qorunması və inkişaf etdirilməsi,

dünya birliyində mövqelərinin möhkəmləndirilməsi hər birimizdən xüsusi səy tələb edir. Biz hamılıqla milli mənafelərimizin müdafiəsi, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməliyik.

Bu bayram münasibətilə bütün həmvətənlərimizi və soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, hər birinə xoşbəxtlik, firavanlıq və işlərində uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2013-cü il*

## DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ ƏLAQƏDAR ATƏT-in BAKI OFİSİNİN RƏHBƏRİ KORAY TARQAY İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də ATƏT-in Bakı ofisinin rəhbəri Koray Tarqayı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Azərbaycanın sürətlə inkişaf edən ölkələrdən biri olduğunu vurğulayan Koray Tarqay ölkəmizdə diplomatların fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını bildirdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə ATƏT arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «RUS İCMASI – 20 İL YENİ AZƏRBAYCANIN XALQLAR AİLƏSİNDƏ» RESPUBLİKA KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanın Rus İcması təşkilatının yaradılmasının 20 illiyi münasibətilə ürəkdən salamlayır, hamınıza ən səmimi arzularımı yetirirəm.

Rus İcması ictimai birliyi fəaliyyət göstərdiyi illər ərzində Azərbaycanda millətlərarası münasibətlərin inkişafına və vətəndaş cəmiyyəti quruculuğuna mühüm töhfələr verərək ölkənin nüfuzlu təşkilatlarından birinə çevrilmişdir. Sıralarında vətənpərvər və yaradıcı insanları birləşdirən təşkilatınız rus dili və mədəniyyətinin, milli adət-ənənələrin qorunub saxlanması və inkişafı sahəsində gərəkli fəaliyyət göstərir.

Azərbaycan tarixən sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu unikal məkan olmuşdur. Xalqımızın mentalitetinə xas olan yüksək insanpərvərlik və dözümlülük ayrı-ayrı xalqların və etnik qrupların yüz illər boyu burada əmin-amanlıq, dostluq və qardaşlıq şəraitində, etnik-dini tolerantlıq mühitində yaşamasını təmin etmişdir. Biz cəmiyyətimizdə mövcud olan etnik-mədəni müxtəlifliyi, multikulturalist ənənələri xalqımızın tarixi nailiyyəti kimi qiymətləndirir və bunu milli siyasətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Bu gün çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətini rus icması olmadan təsəvvür etmək mümkün deyildir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Cənubi Qafqazda sayca ən çox rus məhz bizim ölkədə yaşayır. Onlar Azərbaycanı özlərinin doğma Vətəni sayır, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi həyatımızın bütün sahələrində yaxından iştirak edirlər. Bir çox rus vətəndaşlarımız ölkəmizin ərazi

bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizədə əsl vətənpərvərlik və qəhrəmanlıq nümunələri göstərmişlər.

Azərbaycanla Rusiya arasında mehriban dostluq və qonşuluq münasibətləri zəngin tarixi ənənəyə malikdir. Hazırkı mərhələdə həmin ənənələrə əsaslanan və bütün sahələri əhatə edən çoxtərəfli əməkdaşlıq əlaqələrimizin inkişafında hər iki ölkədə fəaliyyət göstərən diaspor təşkilatları və icmalar əhəmiyyətli rol oynayır.

Əziz dostlar!

Rus İcması ictimai birliyi Azərbaycanda yaşayan rusları layiqincə təmsil edərək, son 20 ildə səmərəli bir yol qət etmişdir. Əminəm ki, təşkilatınız ölkəmizdə vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində, xalqlarımızın və mədəniyyətlərimizin bir-birinə yaxınlaşmasında və qarşılıqlı zənginləşməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əzmkar fəaliyyətini bundan sonra da davam etdirəcəkdir. Bu yolda hər birinizə cansağlığı və uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2013-cü il*

## BİLGƏH–NOVXANI – SUMQAYIT AVTOMOBİL YOLUNDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ, ZABRAT–PİRŞAĞI AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Bilgəh–Novxanı– Sumqayıt avtomobil yolunda inşaat işlərinin gedişi ilə tanış olmuş, Zabrat–Pirşağı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son illər paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunur, beynəlxalq standartlar səviyyəsində avtomobil yolları salınır. Bütün bu işlər «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yenilənməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq görülür. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara buraxılır. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə işlər uğurla icra olunur. Yeni yol qovşaqlarının, körpülərin, yeraltı və yerüstü keçidlərin inşası Bakıda tıxac probleminin aradan qaldırılması və əhalinin rahatlığının təmin edilməsi məqsədini daşıyır. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir. İndi respublikamızda həyata keçirilən nəhəng infrastruktur layihələri bir reallığı da ortaya qoyur ki, bu illər ərzində qazanılan nailiyyətlər Azərbaycanın potensialını tam üzə çıxarmaqla yanaşı, ölkəmizin gələcəyinə hesablanan addımların da düzgün istiqamətdə atıldığını təsdiqləyir. Dövlətimizin başçısının tapşırıqlarına əsasən paytaxtın yol-*

nəqliyyat infrastrukturunun daha da müasir səviyyəyə çatdırılması istiqamətində məqsədyönlü və mühüm tədbirlər sırasına yeniləri də əlavə edilib.

Prezident İlham Əliyev əvvəlcə Bilgəh–Novxanı–Sumqayıt avtomobil yolunda aparılan tikinti işlərinin gedişi ilə tanış oldu. Bilgəh–Novxanı–Sumqayıt avtomobil yolunda salınmış yol qovşaqları və piyada keçidləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Bildirildi ki, ümumi uzunluğu 42 kilometr olan altızolaqlı yolun 16,5 kilometri artıq hazırdır. Magistral boyu eyni səviyyəli 6 yol qovşağı tikiləcəkdir. Bundan başqa, layihəyə əsasən yol üzərində 12 körpü, 4 yeraltı və 1 dəmir yolu keçidinin tikintisi nəzərdə tutulub. Artıq Nardaran və Bilgəhdə 2 yol qovşağı istismara hazırdır. Kürdəxanı qovşağında isə tamamlama işləri aparılır.

2011–2013-cü illər üzrə Bakı və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil olan layihənin reallaşdırılmasında əsas məqsəd Abşeron yarımadasının şimal-qərb hissəsindəki yaşayış məntəqələrini Mərdəkan–Bilgəh–Novxanı–Sumqayıt avtomobil yolu vasitəsilə Bakı şəhərinə daxil olmadan Bakı-Quba yolu ilə şimal istiqamətində nəqliyyat əlaqəsini təmin etməkdir. Eyni zamanda, bu magistral Bakı–Şamaxı yoluna çıxmaqla, respublikanın qərb zonası ilə səmərəli və rahat nəqliyyat əlaqəsi qurmağa imkan verəcəkdir. Yeni avtomobil yolu Bakı qəsəbələrinin ölkənin beynəlxalq əhəmiyyətli magistralları ilə nəqliyyat əlaqəsinin asanlaşmasına kömək etməklə yanaşı, paytaxtın mərkəzi hissəsinin nəqliyyat yükünün azalmasına da öz təsirini göstərəcəkdir. Prezident İlham Əliyev layihənin yüksək səviyyədə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Sonra prezident İlham Əliyev yenidən qurulması başa çatmış Zabrat–Pirşağı avtomobil yolunun açılışında iştirak etdi.

Dövlətimizin başçısına Zabrat dairəsi–Kürdəxanı–Pirşağı avtomobil yolunun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, birinci dərəcəli yolun uzunluğu 8 kilometrdir. Mövcud yol əvvəllər dar olduğu üçün hərəkətin intensivliyinin

təmin olunmasında problemlər yaranır, tıxaclara səbəb olurdu. Yenidənqurmadan sonra yolun hərəkət hissəsinin eninin 15 metrə çatdırılması burada avtomobillərin rahat və maneəsiz hərəkətinə şərait yaratmışdır. Yol 4 hərəkət zolağından ibarətdir. Bu avtomobil yolu da Bakı şəhərinin kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində yenidən qurulmuşdur.

Zabrat dairəsi–Kürdəxanı–Pirşağı avtomobil yolu bundan əvvəl istifadəyə verilən Sabunçu dairəsi–Zabrat–Maştağa–Buzovna avtomobil yolu ilə birlikdə 200 mindən çox əhalisi olan Kürdəxanı, Pirşağı, Zabrat, Maştağa, Buzovna, Zuğulba, Bilgəh, Lahıc Bağları, Novxanı, Nardaran və bu yolların xidmət dairəsində olan digər yaşayış məntəqələrini birləşdirəcəkdir. Bununla yanaşı, bu yol tikintisi davam etdirilən Bilgəh–Pirşağı–Bentonit dairəsi yolu ilə birləşdirilərək adı çəkilən kənd və qəsəbələrin yol-nəqliyyat problemini həll edəcəkdir.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq respublikamızda, o cümlədən Bakı şəhərində yol-nəqliyyat sisteminin yenidən qurulması zamanı beynəlxalq standartlar və milli memarlıq ənənələrinin üzvi şəkildə uzlaşdırılması əsas götürülür. Bütün yeni qurğular yüksək keyfiyyəti və müasirliyi ilə diqqəti cəlb edir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

## DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ RAMAZAN ABDULATİPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 dekabr 2013-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Ramazan Abdulatipovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin genişləndirilməsində ölkəmiz ilə Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Dağıstan Respublikası arasında əlaqələrin mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Prezident İlham Əliyev Dağıstan Respublikasının Prezidenti Ramazan Abdulatipovun ölkəmizə səfərinin Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin, eləcə də Dağıstan Respublikası ilə tarixi və mədəni köklərə əsaslanan dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev səfərin iqtisadi sahədə əməkdaşlığa dair məsələlərin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını dedi.*

*Ramazan Abdulatipov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Dağıstan ilə Azərbaycan arasında münasibətlərin fəal şəkildə davam etdirilməsinə önəm verdiyini söylədi. Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirələrini ehtiramla yad etdiklərini vurğulayan Ramazan Abdulatipov Dərbənddə Heydər Əliyevin xatirəsinə yeni xiyaban və parkın salınması istiqamətində də işlərin görüləcəyini dedi.*

*Dövlətimizin başçısı Dağıstanda xalqımızın ümummilli* lideri *Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərin ölkəmizdə yüksək qiymətləndirildiyini vurğulayaraq* bunun *xalqımız tərəfindən əlaqələrimizin* daha da *gücləndirilməsi işində böyük xidmətlər göstərmiş* ulu *öndərə* olan ehtiram*ın və xalqlarımız arasında* dostluq *və* qardaş*lıq əlaqələrinin təcəssümü* kimi *dəyərləndirildiyini* dedi. *Prezident İlham Əliyev görkəmli dövlət* xadimi *Əziz Əliyevin həyat və fəaliyyətinin* bir *hissəsinin Dağıstanla bağlı olmasını* da *məmnunluqla xatırlatdı.*

## QEYDLƏR

**1. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 5–6,10,144–162.

**2. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5–6, 10, 144–162.

**3. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 8–9, 19, 30–31, 50, 92, 113, 116, 117, 194, 354–355.

**4. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 8–9, 19, 31, 116, 354.

**5. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 11, 56,99,135.

**6. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 11,56,99,115,135,235.

**7. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 11, 56, 99, 115, 135, 249, 330.

**8. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb

İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 19, 49, 56, 58, 59, 60, 65, 77, 99, 100, 115, 235, 240, 264, 281, 291, 294, 301, 302, 344.

**9. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$,

əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 8, 245.

**10. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 8, 245.

**11. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 23, 50, 129, 130, 348.

**12. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə

görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 23, 34, 36, 50, 53, 69, 75, 92, 93, 95, 134, 135, 178, 179, 259, 263, 282, 344, 346.

**13. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 35–37, 44–46, 56–99, 266, 267, 274–275.

**14. Süleyman Dəmirəl** (1924–2015) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. 5 dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının Prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. – 35–37, 44–46.

**15. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 39, 50, 92, 193, 204.

**16. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi

təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 44, 45,61, 68, 78, 84–85, 103, 104, 112, 139,165, 170, 234–242, 254, 265, 299, 302, 344, 354.

**17.** ***bp,*** «B r i t i s h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 47, 279– 281, 288.

**18. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə Baş direktorudur. – 47, 279–281, 288.

**19. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma Papasıdır. – 48–49.

**20. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 49, 104, 337.

**21. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 50, 92, 190,216, 276– 277, 287.

**22. Kamboca,** Kamboca Krallığı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 181 min km$^2$, əhalisi 16 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 51.

**23. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 57.

**24. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 62, 86–99.

**25. Cəmil Çiçək** (d.1946) – hüquqşünas. 2011–2015-ci illərdə Türkiyə Böyük Millət Məclisinin Sədri olmuşdur. – 75.

**26. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 101, 163, 199.

**27. Andris Berzinş** (d.1944) – Latviyanın siyasi və dövlət xadimi. 2011–2015-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. – 101,163, 199.

**28. Bəxtiyar Vahabzadə,** B ə x t i y a r M a h m u d o ğ l u (1925–2009) – Azərbaycanın Xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademiki olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 80.

**29. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 104, 111–112, 240–242.

**30. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon

nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 115, 118–132.

**31. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2002–2005 və 2006–2007-ci illərdə Ukrayna Respublikasının Baş naziri, 2010–2014-cü illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 120–132.

**32. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 134–135, 188.

**33. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 131.

**34. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 136, 200, 271–273, 282.

**35. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 136, 200.

**36. Şəhriyar Məmmədyarov,** Şəhriyar Həmid oğlu (d.1985) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster. Azərbaycan Milli Komandasının tərkibində 3 dəfə (2009, 2013, 2017) Avropa çempionu, sürətli şahmat üzrə (2013) dünya çempionu, 20 yaşınadək gənc şahmatçılar arasında dünya çempionu. – 140–141.

**37. Hafiz Paşayev,** Hafiz Mir Cəlal oğlu (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 152, 153.

**38. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 167.

**39. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyə-

tinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 184, 237.

**40. Məmmədəmin Rəsulzadə** (1884–1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi və dövlət xadimi, publisist, Müsavat Partiyasının yaradıcılarından biri. Onun Azərbaycanın milli-azadlıq hərəkatında müstəsna rolu olmuşdur. 1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 184.

**41. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 184.

**42. Ekmələddin İhsanoğlu** (d.1943) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005–2013-cü illərdə İslam Konfransı Təşkilatının baş katibi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 191.

**43. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min $km^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 197–206.

**44. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 202.

**45. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 202–203, 204, 266, 274, 275–276, 284.

**46. Herman Van Rompuy** (d.1947) – Belçika siyasətçisi. 2008–2009-cu illərdə Belçikanın Baş naziri, 2009–2014-cü illərdə Avropa Şurasının sədri olmuşdur. – 202.

**47. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 202–203.

**48. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 204.

**49. İspaniya** – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 505,9 min km$^2$, əhalisi 46,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 205.

**50. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki,

prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 208.

**51. Şeyx Məhəmməd bin Rəşid Al Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 208.

**52. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 209.

**53. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 210–211.

**54. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 212.

**55. Bhumibol Adulyadej** (1927–2016) – 1950–2016-cı illərdə (faktiki 1946-cı ildən) Tailand Krallığının Kralı olmuşdur. – 212.

**56. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi** (L ə t i f K ə r i m o v a d ı n a) – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, çoxsaylı çeşidləri qorunub saxlanılır. Muzeydə 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 227–229.

**57. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanın Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 232–233.

**58. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 235.

**59. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri,

Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 235, 254.

**60. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 235.

**61. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 235.

**62. Bəhreyn,** B ə h r e y n d ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 km$^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 246.

**63. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi

amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 246.

**64. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,2 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 247.

**65. Anar,** R z a y e v  A n a r  R ə s u l  o ğ l u (d.1938) – görkəmli yazıçı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komitəsinın sədri, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 254–255.

**66. Məhəmməd Peyğəmbər** (əleyhissəlam) (570/571–632) – islamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı «Quran»ı xalqa çatdırmışdır. – 255.

**67. Kamal Abdulla,** K a m a l  M e h d i  o ğ l u  A b d u l l a - y e v  (d.1950) – 2014–2017-ci illərdə Dövlət müşaviri. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Yaradıcılıq Fondunun sədri, Bakı Slavyan Universitetinin rektoru (2000–2014), 2017-ci ildən Azərbaycan Dillər Universitetinin rektoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 255–257.

**68. Tanər Yıldız** (d.1962) – Türkiyə siyasətçisi, mühəndis. 2009–2015-ci illərdə Türkiyə Cümhuriyyətinin Enerji və Təbii Sərvətlər naziri olmuşdur. – 274–275.

**69. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 277–279.

**70. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 289.

**71. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 289.

**72. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 311.

**73. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 311.

## Şəxsi adlar göstəricisi

**Abbasov Əli** – 88
**Abbasova Ətayə** – 97
**Abdullayev Rövnəq** – 277–279
**Abdullayev Səbuhi** – 126
**Abdulatipov Ramazan** – 354–355
**Abutalıbov Hacıbala** – 11, 56, 99, 115, 135, 249, 330
**Adulyadej Bhumibol** – 212
**Ağayev Asif** – 152
**Akihito** – 311
**Akino Beniqno** – 55
**Al Səud Abdullah** – 232
**Al Məktum Məhəmməd** – 208
**Al Səud Salman** – 232
**II Aleksi** – 105, 109, 112
**Aleksandr** *(arxiyepiskop)* – 104, 107–108,110
**Allahverdiyev Elşad** – 301
**Altınbaşaq Vüsəl** – 88
**Amaşov Əflatun** – 170
**Ansip Andrus** – 206
**Atatürk Mustafa Kamal** – 57
**Babayev Görüş** – 257
**Baçelet Mişel** – 290
**Bağırov Faiq** – 88
**Barrozu Joze** – 202–203
**Bertaş Vasili** – 126
**Berzinş Andris** – 101, 163, 199
**Besesku Trayan** – 196
**Bin Səid Qabus** – 102
**Boqutski Yuri** – 127
**Bonino Emma** – 273–274, 286
**Bokova İrina** – 33–34

**Brey Mariano** – 205
**Brik Nikol** – 193
**Burkhalter Didye** – 247
**Butkeviçyus Algirdas** – 198
**Cabbarov Mikayıl** – 151
**Camalova Nabat** – 301
**Cəfərova Bahar** – 359
**Çaplin Vsevolod** – 112–113
**Çəlik Faruk** – 89
**Çiçək Cəmil** – 75
**Çunayev Rəsul** – 301
**Dadli Robert** – 47, 279–281, 288
**Davudoğlu Əhməd** – 76
**Dəmirəl Süleyman** – 35–37, 44–116
**Dermott Cim** – 190
**Elkind Conatan** – 276–277, 287
**Əbiyev Ağacan** – 299–300
**Əbilova Qənirə** – 341, 344
**Əbdüləziz Məhəmməd** – 167
**Əl-Xəlifə Həməd** – 246
**Əl-Nəhəyyan Xəlifə** – 209
**Əl-Tani Təmim** – 260
**Əl-Tüveycri Əbdüləziz** – 34–55, 39
**Əliyev Əziz** – 235, 354
**Əliyev Heydər** – 44, 45,61, 68, 78, 84–85, 103, 104, 112, 139,165, 170, 234–242, 254, 265, 299, 302, 344, 354, 358
**Əliyev Tamerlan** – 235
**Əliyeva Mehriban** – 19, 49, 56, 58, 59, 60, 65, 77, 99, 100, 115, 235, 240, 264, 281, 291, 294, 301, 302, 344, 364, 365
**Əliyeva Zərifə xanım** – 235
**Ərdoğan Əminə** – 99

**Ərdoğan Rəcəb Tayyib** – 62, 86–99
**Əsədov Heydər** – 126
**Əsədov Oqtay** – 235
**Əzizova Fəridə** – 301
**Feofan (arxiyeriskor)** – 104
**Fişer Hayntz** – 134
**Fon Lits Fridrix** – 256
**For Jak** – 50, 259
**Füle Ştefan** – 203
**Füzuli Məhəmməd** – 78
**Gül Abdullah** – 58–74, 77–83
**Gül Heyrünnisə** – 58, 59, 65
**Gülər Muammər** – 89
**Heydərov Kəmaləddin** – 357
**Heyq Uilyam** – 271–273, 282
**Hendri Çarlz** – 136
**Həsənov Faiq** – 142–143
**Həsənov Əli** – 186
**Hikki Patrik** – 13
**Hüseynov Rafiq** – 301
**Xəlilov Vüqar** – 340
**Xoyski Fətəli xan** – 184
**İhsanoğlu Ekmələddin** – 191
**Jilkin Aleksandr** – 194–195
**Kajado Klaudio** – 16
**Kamal Abdulla** – 255–257
**Kapralos Spiros** – 13
**Kasprşik Anji** – 259
**Kastro Raul** – 363
**Kemeron Devid** – 136,200
**Kirill** *(patriarx)* – 108–109, 112
**Kojara Leonid** – 126
**Komşiç Jelko** – 164
**Qarayev Qara** – 158
**Qasımov Adışirin** – 152

**Qarayev Əbülfəs** – 300–301
**Qaribaşvili İraklii** – 262, 269–270
**Qribauskayte Darya** – 202
**Lukaşenko Aleksandr** – 5–6, 10, 144–162
**Lefort Filipp** – 12
**Linkyaıiçyus Linas** – 203
**Lonq Billi** – 190
**Makey Vladimir** – 151, 152
**Marqvelaşvili Georgi** – 14
**Maskeviç Sergey** – 151, 153
**Mehdiyev Ramiz** – 11, 56, 99, 115, 135, 235
**Merkel Angela** – 289
**Mesiç Stepan** – 18
**Mədətli Eynulla** – 126
**Məhəmməd Peycambər (***əleyhissəlam***)** – 255
**Məmmədov Fazil** – 152
**Məmmədyarov Elmar** – 126, 151, 203
**Məmmədyarov Şəhriyar** – 140–141
**Milanoviç Zoran** – 263, 270
**Minnixanov Rüstəm** – 117
**Moran Ceyms** – 190
**Müslümov Səlim** – 88, 152, 336
**Nazarbayev Nursultan** – 8, 245
**Niinistö Sauli** – 230
**Nişani Buyar** – 168
**Olland Fransua** – 204
**Oreşarski Plamen** – 269, 283
**Ottinger Günter** – 275–276, 284
**Otorbayev Comart** – 8
**Özal Turqut** – 78
**Ömərov Firdovsi** – 301
**Pan Gi Mun** – 32–33
**Paşayev Hafiz** – 152, 153
**Paşazadə Hacı Allahşükür** – 104, 111–12, 240–242
**Patskeviç Nikolay** – 152

**Peyn Donald** – 190
**Pırvanov Georgi** – 17
**Poluyan Vladimir** – 152
**Popov İqor** – 50, 259
**Prisyajnyuk Nikolay** – 126
**Putin Vladimir** – 8–9, 19, 31, 116, 354, 362
**Rama Edi** – 268–269, 285
**Rasizadə Artur** – 11, 56, 99, 135
**Ravazi Canfranko** – 48–49
**Rəhmon Emoməli** – 52
**Rəsulzadə Məmməd Əmin** – 184
**Ruak Taur** – 169
**Rüytel Arnold** – 42
**Rzayev Anar** – 254–255
**Sarkisyan Serj** – 135
**Sayasone Çoummali** – 207
**Seyn Theyn** – 369
**Siamoni Norodom** – 51
**Süleyman Mişel** – 133
**Şvidkov Mixail** – 30–31
**Tadiç Boris** – 41
**Tarqay Koray** – 348
**Timofti Nikolae** – 8
**Turan Aysun** – 98
**Uorlik Ceyms** – 50, 259
**Usubov Ramil** – 89
**Vahabzadə Bəxtiyar** – 80
**Van Der Linden Rene** – 38
**Van Rompuy Herman** – 202
**Vəliyev Elmar** – 152
**Vuyanoviç Filip** – 261, 270–271
**Yanukoviç Viktor** – 120–132
**Yevdayev Milix** – 112
**Yevgeni** *(arxiyepiskop)* – 104, 108
**Yıldız Tanər** – 274–275

**Yunusova Şüküfə** – 344
**Yıldırım Binəli** – 88
**Zeynalov Elçin** – 302
**Zorin Valentin** – 183
**Zuma Ceykob** – 231

## Coğrafi adlar göstəricisi

**Afrika** – 29,33,220
**Adriatik dənizi** – 268
**Albaniya** – 168, 266, 268–269, 285
**Almaniya** – 289
**Amerika Birləşmiş Ştatları** – 50, 92, 190, 216, 276–277, 287
**Ankara** – 56–99
**Aralıq dənizi** – 131, 265
**Asiya** – 29
**Avrasiya** – 92, 112, 113
**Avropa** – 29, 113, 137, 139, 140, 141, 142, 143, 220, 264, 272
**Avstriya** – 134–135, 188
**Avstraliya** – 266
**Balkan** *(yarımada)* – 92, 97
**Balaxanı** – 326
**Belarus** – 5–6, 10, 144–162
**Bəhreyn** – 246
**Bərdə** – 255
**Bibiheybət** – 328
**Bilgəh** – 352
**Birləşmiş Ərəb Əmirlikləri** – 208, 209
**Bolqarıstan** – 17, 264, 266, 269, 283
**Bosniya və Herseqovina** – 164

**Böyük Britaniya** – 136, 200, 271–273, 282
**Braziliya** – 16
**Cənubi Afrika Respublikası** – 231
**Cənubi Qafqaz** – 12, 264
**Çexiya** – 203
**Çili** – 290
**Çin** – 223
**Dağıstan** – 354–355
**Dağlıq Qarabağ** – 23, 34, 36, 50, 53, 69, 75, 92, 93, 95, 134, 135, 178, 179, 250, 263, 282, 244, 246, 369, 370
**Dərbənd** – 255
**Estoniya** – 42, 206
**Əfqanıstan** – 216
**Filippin** – 55
**Finlandiya** – 230
**Fransa** – 39, 50, 92, 193, 204
**Gəncə** – 152, 255, 322, 331
**Gürcüstan** – 14, 162, 266, 269
**Həştərxan** – 194–195
**Xəzər dənizi** – 78, 131, 265, 268
**Xorvatiya** – 18, 263, 266, 270
**İğdır** – 92
**İspaniya** – 205
**İsrail** – 112
**İstanbul** – 79
**İtaliya** – 216, 264, 266, 273–274, 286
**İsveç** – 203
**İsveçrə** – 247
**Kamboca** – 51
**Kazan** – 116, 117
**Kiyev** – 112, 115, 118–182, 184
**Kuba** – 363
**Kürdəxanı** – 352

**Qafqaz** – 21, 92, 106, 113, 220
**Qara dəniz** – 131, 265
**Qars** – 64
**Qazaxıstan** – 8, 245
**Qəbələ** – 79, 251
**Qətər** – 260
**Qərbi Avropa** – 93
**Qırğızıstan** – 8
**Quba** – 306–310
**Qusar** – 291–305
**Laos** – 207
**Latviya** – 101, 163, 199
**Litva** – 197–206
**Livan** – 133
**London** – 79, 92
**Macarıstan** – 266
**Maldiv** – 192
**Mavritaniya** – 167
**Mərkəzi Asiya** – 21, 220
**Mingəçevir** – 322, 331
**Minsk** – 158, 160
**Moldova** – 8
**Monteneqro** – 261, 266, 270–271
**Myanma** – 368
**Naxçıvan** – 79, 92, 93, 143, 237, 251, 255
**Nardaran** – 352
**Niderland** – 38
**Novxanı** – 352
**Oman** – 102
**Pekin** – 79, 92
**Pirşağı** – 352
**Polşa** – 203
**Praqa** – 203
**Riqa** – 203
**Rumıniya** – 43, 196, 266

**Rusiya** – 8, 19, 30–31, 50, 92, 113, 116, 117, 194, 354–355, 362
**Serbiya** – 41
**Səudiyyə Ərəbistanı** – 232–233
**Sumqayıt** – 322, 331
**Şağan** – 337
**Şamaxı** – 152
**Şəki** – 106
**Tacikistan** – 52
**Tailand** – 212
**Tatarıstan** – 116, 117
**Timor-Leste** – 169
**Türkiyə** – 35–37, 44–46, 56–99, 264, 266, 267, 274–275
**Ukrayna** – 115, 118–132
**Varşava** – 203
**Vatikan** – 48–49
**Vaşinqton** – 276
**Vilnüs** – 197–206
**Vyana** – 134, 135
**Volqaqrad** – 362
**Yaxın Şərq** – 113, 220
**Yaponiya** – 311
**Yeni Ramana** – 335–344
**Yunanıstan** – 264, 267
**Zabrat** – 351

# MÜNDƏRİCAT

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*25 oktyabr 2013-cü il* .............................................................................5

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ FİLİPP LEFORT İLƏ GÖRÜŞ

*28 oktyabr 2013-cü il*..............................................................................12

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKKİ VƏ AVROPA OLİMPİYA KOMİTƏSİNİN İCRAEDİCİ KOMİTƏSİNİN ÜZVÜ SPİROS KAPRALOS İLƏ GÖRÜŞ

*28 oktyabr 2013-cü il*..............................................................................13

GÜRCÜSTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ MARQVELAŞVİLİYƏ

*29 oktyabr 2013-cü il*..............................................................................14

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*29 oktyabr 2013-cü il*..............................................................................15

BRAZİLİYA–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ, DEPUTATLAR PALATASININ MÜVƏKKİLİ KLAUDİO KAJADO İLƏ GÖRÜŞ

*29 oktyabr 2013-cü il*..............................................................................16

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*30 oktyabr 2013-cü il*..............................................................................18

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*30 oktyabr 2013-cü il*......................................................................*18*

III BEYNƏLXALQ HUMANİTAR FORUMUN AÇILIŞI MƏRASİMİ

*31 oktyabr 2013-cü il*......................................................................*19*

AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASININ SABİQ PREZİDENTİ, AZƏRBAYCAN–NİDERLAND DOSTLUQ CƏMİYYƏTİNİN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*38*

FRANSA PARLAMENTİNİN DEPUTATLARI VƏ SENATORLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*39*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*40*

SERBİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ BORİS TADİÇ İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*41*

ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜYTEL İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*42*

RUMINİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ EMİL KONSTANTİNESKU İLƏ GÖRÜŞ

*31 oktyabr 2013-cü il*......................................................................*43*

TÜRKİYƏ RESPUBLİKASININ IX PREZİDENTİ
SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞ

*1 noyabr 2013-cü il ............................................................................44*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU ROBERT DADLİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2013-cü il ............................................................................47*

VATİKAN DÖVLƏTİNİN MƏDƏNİYYƏT ÜZRƏ PONTİFİK
ŞURASININ PREZİDENTİ KARDİNAL CANFRANKO
RAVAZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*4 noyabr 2013-cü il ............................................................................48*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in
FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN
XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*4 noyabr 2013-cü il ............................................................................50*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİAMONİYƏ

*6 noyabr 2013-cü il ............................................................................51*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*7 noyabr 2013-cü il ............................................................................52*

İSESKO-ya ÜZV ÖLKƏLƏRİN UŞAQ MƏSƏLƏLƏRİ ÜZRƏ
MƏSUL NAZİRLƏRİNİN IV KONFRANSININ
İŞTİRAKÇILARINA

*8 noyabr 2013-cü il ............................................................................53*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB III BENİQNO AKİNOYA

*11 noyabr 2013-cü il ..........................................................................55*

TÜRKİYƏ RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*11 noyabr 2013-cü il ..........................................................................56*

ANITQƏBİRİ ZİYARƏT

*12 noyabr 2013-cü il ..........................................................................57*

ÇANKAYA KÖŞKÜNDƏ RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 noyabr 2013-cü il ..........................................................................58*

AZƏRBAYCAN İLƏ TÜRKİYƏ PREZİDENTLƏRİ VƏ XANIMLARININ BİRGƏ GÖRÜŞÜ

*12 noyabr 2013-cü il ..........................................................................59*

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN TƏLTİF OLUNMASI MƏRASİMİ

*12 noyabr 2013-cü il ..........................................................................60*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ GÖRÜŞ

*12 noyabr 2013-cü il ..........................................................................66*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ABDULLAH GÜL İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 noyabr 2013-cü il ..........................................................................67*

TÜRKİYƏ AEROKOSMİK SƏNAYESİ ŞİRKƏTİNİN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*12 noyabr 2013-cü il ..........................................................................72*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏMİL ÇİÇƏK İLƏ GÖRÜŞ

*12 noyabr 2013-cü il ..........................................................................75*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*12 noyabr 2013-cü il ........................................................................76*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*12 noyabr 2013-cü il ........................................................................77*

ANKARADA YENİDƏN QURULAN HEYDƏR ƏLİYEV
PARKI İLƏ TANIŞLIQ

*13 noyabr 2013-cü il ........................................................................84*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB
TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*13 noyabr 2013-cü il ........................................................................86*

TÜRKİYƏ–AZƏRBAYCAN YÜKSƏK SƏVİYYƏLİ
STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ ÜÇÜNCÜ
İCLASINDA İŞTİRAK

*13 noyabr 2013-cü il ........................................................................87*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 noyabr 2013-cü il ........................................................................88*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*13 noyabr 2013-cü il ........................................................................90*

BAŞ NAZİR RƏCƏB TAYYİB ƏRDOĞAN
İLƏ BİRGƏ NAHARDA İŞTİRAK

*13 noyabr 2013-cü il ........................................................................99*

«BAKI AĞ ŞƏHƏR» BULVARINDA GÖRÜLƏN TİKİNTİ
İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*14 noyabr 2013-cü il* ..........................................................................*100*
LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

*15 noyabr 2013-cü il* ..........................................................................*101*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*15 noyabr 2013-cü il* ..........................................................................*102*

BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASININ PRAVOSLAV
DİNİ-MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*15 noyabr 2013-cü il* ..........................................................................*103*

UKRAYNA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*17 noyabr 2013-cü il* ..........................................................................*115*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*18 noyabr 2013-cü il* ..........................................................................*116*

TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB RÜSTƏM MİNNİXANOVA

*18 noyabr 2013-cü il* ..........................................................................*117*

«NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*18 noyabr 2013-cü il* ..........................................................................*118*

«QOLODOMOR» QURBANLARININ XATİRƏSİNƏ
EHTİRAM

*18 noyabr 2013-cü il* ..........................................................................*119*

RƏSMİ QARŞILANMA  MƏRASİMİ

*18 noyabr 2013-cü il* ..........................................................................*120*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*18 noyabr 2013-cü il ......................................................................121*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ IV İCLASINDA İŞTİRAK

*18 noyabr 2013-cü il ......................................................................122*

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN TƏLTİF EDİLMƏSİ MƏRASİMİ

*18 noyabr 2013-cü il ......................................................................125*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*18 noyabr 2013-cü il ......................................................................126*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*18 noyabr 2013-cü il ......................................................................128*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA

*19 noyabr 2013-cü il ......................................................................133*

AVSTRİYA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*19 noyabr 2013-cü il ......................................................................134*

ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYAN İLƏ GÖRÜŞ

*19 noyabr 2013-cü il ......................................................................135*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN ÜZVÜ, BAŞ NAZİRİN AZƏRBAYCAN, QAZAXISTAN VƏ

TÜRKMƏNİSTANDA TİCARƏT MƏSƏLƏLƏRİ ÜZRƏ
ELÇİSİ ÇARLZ HENDRİ İLƏ GÖRÜŞ

*20 noyabr 2013-cü il .......................................................................136*

KİŞİ ŞAHMATÇILAR ARASINDA AVROPA KOMANDA
ÇEMPİONATINDA BİRİNCİ YERİ QAZANMIŞ SEÇMƏ
KOMANDAMIZIN ÜZVLƏRİ VƏ MÜTƏXƏSSİSLƏRİ İLƏ
GÖRÜŞ

*20 noyabr 2013-cü il .......................................................................137*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*20 noyabr 2013-cü il .......................................................................144*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 noyabr 2013-cü il .......................................................................146*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*21 noyabr 2013-cü il .......................................................................147*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*21 noyabr 2013-cü il .......................................................................148*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*21 noyabr 2013-cü il .......................................................................151*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKO İLƏ BİRGƏ
MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*21 noyabr 2013-cü il .......................................................................154*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*21 noyabr 2013-cü il .......................................................................160*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANDRİS BERZİNŞƏ

*22 noyabr 2013-cü il ..........................................................................163*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB JELKO KOMŞİÇƏ

*22 noyabr 2013-cü il ..........................................................................164*

SƏBAİL RAYON İCRA HAKİMİYYƏTİ BİNASININ ƏSASLI
YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ
İLƏ TANIŞLIQ

*22 noyabr 2013-cü il ..........................................................................165*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD VƏLƏD
ƏBDÜLƏZİZƏ

*25 noyabr 2013-cü il ..........................................................................167*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

*25 noyabr 2013-cü il ..........................................................................168*

TİMOR-LESTE DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TAUR MATAN
RUAKA

*25 noyabr 2013-cü il ..........................................................................169*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNƏ
«JURNALİSTLƏRİN DOSTU» MÜKAFATININ TƏQDİM
EDİLMƏSİ MƏRASİMİ

*25 noyabr2013-cü il ............................................................................170*

YEKUN NİTQİ

*25 noyabr2013-cü il ............................................................................182*

KONQRESMENLƏRDƏN İBARƏT ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 noyabr 2013-cü il .......................................................................190*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*25 noyabr 2013-cü il .......................................................................191*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH YAMİN ABDUL QƏYYUMA

*26 noyabr 2013-cü il .......................................................................192*

FRANSANIN XARİCİ TİCARƏT NAZİRİ, İKİTƏRƏFLİ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ NİKOL BRİKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 noyabr 2013-cü il .......................................................................193*

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2013-cü il .......................................................................194*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*28 noyabr 2013-cü il .......................................................................196*

LİTVA RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*28 noyabr 2013-cü il .......................................................................197*

LİTVA RESPUBLİKASININ BAŞ NAZİRİ ALGİRDAS BUTKEVİÇYUS İLƏ GÖRÜŞ

*28 noyabr 2013-cü il .......................................................................198*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ANDRİS BERJİNS İLƏ GÖRÜŞ

*28 noyabr 2013-cü il ........................................................................199*

BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ DEVİD KEMERON İLƏ GÖRÜŞ

*28 noyabr 2013-cü il ........................................................................200*

«ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT, HÖKUMƏT VƏ NÜMAYƏNDƏ HEYƏTİ BAŞÇILARI ÜÇÜN VERİLƏN QEYRİ-RƏSMİ İŞÇİ NAHARDA İŞTİRAK

*28 noyabr 2013-cü il ........................................................................201*

AVROPA İTTİFAQININ III «ŞƏRQ TƏRƏFDAŞLIĞI» SAMMİTİNDƏ İŞTİRAK

*29 noyabr 2013-cü il ........................................................................202*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*29 noyabr 2013-cü il ........................................................................204*

İSPANİYA KRALLIĞININ BAŞ NAZİRİ MARİANO RAHOY BREY İLƏ GÖRÜŞ

*29 noyabr 2013-cü il ........................................................................205*

ESTONİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ANDRUS ANSİP İLƏ GÖRÜŞ

*29 noyabr 2013-cü il ........................................................................206*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇOUMMALİ SAYASONEYƏ

*29 noyabr 2013-cü il ........................................................................207*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ VƏ BAŞ NAZİRİ, DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD AL MƏKTUMA

*29 noyabr 2013-cü il ........................................................................208*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAYİD ƏL-NƏHƏYYANA

*29 noyabr 2013-cü il ........................................................................209*

YUNESKO-nun QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİTƏSİNİN VIII SESSİYASINA

*2 dekabr 2013-cü il..........................................................................210*

TAİLAND KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*2 dekabr 2013-cü il..........................................................................212*

«BAKUTEL–2013» XIX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*2 dekabr 2013-cü il..........................................................................213*

«BAKUTEL–2013» XIX AZƏRBAYCAN BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

*2 dekabr 2013-cü il..........................................................................215*

XALÇA MUZEYİNİN YENİ BİNASINDA SƏRGİLƏRİN TƏRTİBATININ TƏŞKİLİ İLƏ TANIŞLIQ

*2 dekabr 2013-cü il..........................................................................227*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*3 dekabr 2013-cü il*......................................................................................*230*
CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CEYKOB GEDLEYİHLEKİSA ZUMAYA

*6 dekabr 2013-cü il*......................................................................................*231*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ BAŞ İNVESTİSİYA QURUMUNUN SƏDRİ ƏBDÜLLƏTİF ƏHMƏD ƏL-OSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 dekabr 2013-cü il*....................................................................................*232*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2013-cü il*....................................................................................*234*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN VƏFATI GÜNÜ İLƏ ƏLAQƏDAR EHSAN MƏRASİMİ

*12 dekabr 2013-cü il*....................................................................................*236*

AZƏRBAYCAN MÜƏLLİMLƏRİNİN XIV QURULTAYINA

*13 dekabr 2013-cü il*....................................................................................*243*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*13 dekabr 2013-cü il*....................................................................................*245*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA AL XƏLİFƏYƏ

*13 dekabr 2013-cü il* ...................................................................................*246*

İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DİDYE BURKHALTERƏ

*13 dekabr 2013-cü il*....................................................................................*247*

«KİTABİ-DƏDƏ QORQUD» ABİDƏSİNİN VƏ DƏDƏ QORQUD PARKININ AÇILIŞI MƏRASİMİ

*13 dekabr 2013-cü il.............................................................................248*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*15 dekabr 2013-cü il.............................................................................259*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*16 dekabr 2013-cü il ............................................................................260*

MONTENEQRO PREZİDENTİ FİLİP VUYANOVİÇ İLƏ GÖRÜŞ

*16 dekabr 2013-cü il.............................................................................261*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİ İLƏ GÖRÜŞ

*16 dekabr 2013-cü il.............................................................................262*

XORVATİYA RESPUBLİKASININ BAŞ NAZİRİ ZORAN MİLANOVİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2013-cü il.............................................................................263*

«ŞAHDƏNİZ-2» ÜZRƏ YEKUN İNVESTİSİYA QƏRARININ İMZALANMASI MƏRASİMİ

*17 dekabr 2013-cü il.............................................................................264*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ UİLYAM HEYQ İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il.............................................................................282*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ PLAMEN OREŞARSKİ İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*283*

AVROPA İTTİFAQININ ENERGETİKA MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*284*

ALBANİYA RESPUBLİKASININ BAŞ NAZİRİ EDİ RAMA İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*285*

İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ EMMA BONİNO İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*286*

ABŞ-ın ENERJİ NAZİRİNİN MÜŞAVİRİ CONATAN ELKİND İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*287*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*17 dekabr 2013-cü il*......................................................................*288*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*19 dekabr 2013-cü il*......................................................................*289*

ÇİLİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM MİŞEL BAÇELETƏ

*19 dekabr 2013-cü il*......................................................................*290*

QUSARDA «ŞAHDAĞ», «PİK PALAS» HOTELLƏRİNİN AÇILIŞI VƏ 2013-cü İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK

*19 dekabr 2013-cü il..........................................................................291*
QUSARDA «ŞAHDAĞ» QIŞ-YAY TURİZM KOMPLEK-
SİNDƏ YÜKSƏK XİDMƏT ŞƏRAİTİ İLƏ TANIŞLIQ

*20 dekabr 2013-cü il..........................................................................305*

QUBADA «RİXOS QUBA AZERBAİJAN» HOTEL-
KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*20 dekabr 2013-cü il..........................................................................306*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*20 dekabr 2013-cü il..........................................................................311*

BAKI ŞƏHƏRİNİN VƏ ONUN QƏSƏBƏLƏRİNİN SOSİAL-
İQTİSADİ İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMININ
İCRASININ YEKUNLARINA HƏSR OLUNMUŞ
KONFRANSDA İŞTİRAK

*23 dekabr 2013-cü il..........................................................................312*

YEKUN NİTQİ

*23 dekabr 2013-cü il..........................................................................319*

YENİ RAMANA QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ İMKANLARI
MƏHDUD GƏNCLƏRİN PEŞƏ REABİLİTASİYA
MƏRKƏZİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI
MƏRASİMİ

*24 dekabr 2013-cü il..........................................................................335*

DÜNYA AZƏRBAYCANLILARINA

*25 dekabr 2013-cü il..........................................................................345*

DİPLOMATİK FƏALİYYƏTİNİN BAŞA ÇATMASI İLƏ
ƏLAQƏDAR ATƏT-in BAKI OFİSİNİN RƏHBƏRİ KORAY
TARQAY İLƏ GÖRÜŞ

*25 dekabr 2013-cü il..........................................................................348*

«RUS İCMASI – 20 İL YENİ AZƏRBAYCANIN XALQLAR AİLƏSİNDƏ» RESPUBLİKA KONFRANSININ İŞTİRAKÇILARINA

*25 dekabr 2013-cü il*..........................................................................*349*

BİLGƏH–NOVXANI – SUMQAYIT AVTOMOBİL YOLUNDA İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ, ZABRAT–PİRŞAĞI AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2013-cü il*..........................................................................*351*

DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ RAMAZAN ABDULATİPOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 dekabr 2013-cü il*..........................................................................*354*

QEYDLƏR..........................................................................................*356*

*Şəxsi adlar göstəricisi*........................................................................*376*

*Coğrafi adlar göstəricisi* ....................................................................*381*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.